ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2021
№1 (61)

BAKI-2021

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının
Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan
Respublikasının dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
İctimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2021
№1 (61)

BAKU-2021

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The socio-political, scientific-theoretical journal is published six times a year.

UOT 327:140.8

Siyasi elmlər

# YƏMƏNDƏ VƏTƏNDAŞ MÜHARİBƏSİ: İRAN AMİLİNİN TƏSİRİ

**ELDAR ƏMİROV**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*

*E-mail: eldar.ado.85@mail.ru*

**Giriş**

Birləşmiş Millətlər Təşkilatının Humanitar Məsələlər üzrə Ali kommisarının ofisinin 1 dekabr 2020-ci il tarixinə olan hesabatında Yəməndə 2014-cü ildən bəri davam edən vətəndaş müharibəsinin gedişində 233 mindən çox insanın həlak olduğu qeyd olunmuşdur. [7]. Bu rəqəm Yəməndə "Ərəb baharı" dalğasının gətirdiyi siyasi və ideoloji təlatümlər fonunda alovlanan vətəndaş müharibəsini son dövrün ən qanlı münaqişələrindən biri kimi səciyyələndirməyə əsas verir. 2014-cü ilin ortalarında ölkənin şimalında cəmləşmiş İranmeyilli şiə qruplarının Səudiyyə Ərəbistanı tərəfindən himayə edilən mərkəzi hökumətə qarşı siyasi və iqtisadi tələblərlə başlayan etirazlarının qısa zamanda irimiqyaslı vətəndaş müharibəsinə keçməsi təbii ki, təsadüfün məhsulu hesab edilə bilməz. Bu, illərlə Yəməndə formalaşan mürəkkəb ictimai-siyasi mühitin, ağır iqtisadi şəraitin doğurduğu və maraqlı xarici qüvvələr tərəfindən qızışdırılan prosesin məntiqi sonu kimi qəbul edilməlidir. Yaxın və Orta Şərqdə "Ərəb baharı" adlanan inqilabi proseslərin Misirdə, Tunisdə və Liviyada hakimiyyət dəyişikliyinə səbəb olması, getdikcə yeni geosiyasi və ideoloji müstəvinin təşəkkül tapması regionun bir çox dövlətləri tərəfindən ciddi müqavimətlə qarşılandı. Bölgənin bəzi dövlətləri isə bu prosesdən hərbi-siyasi və ideoloji təsirlərini genişləndirəmək üçün öz maraqları çərçivəsində bəhrələnmək üçün aktiv fəaliyyətə başladı. Nəticədə yaranan ziddiyyətlər Yaxın Şərqin bir sıra ölkələrində uzunmüddətli qanlı münaqişələrə rəvac vermiş oldu. İki ölkədə - Suriyada və Yəməndə baş qaldıran vətəndaş müharibələri öz miqyasına, dağıntılarına və insan itkilərinə görə digərlərini kölgədə qoydu.

Müharibənin tərəfləri qismində Yəmənin mərkəzi hökuməti və husi üsyançıları çıxış etsələr də, münaqişənin görünməyən, lakin başlıca maraqlı cəbhələri Səudiyyə Ərəbistanı və İrandır. Yəmənin əlverişli geosiyasi mövqeyi, Ədən körfəzinə və Hind okeanına, yəni dünya dəniz ticarətinin əsas yollarına çıxışının olması bu ölkəni ciddi geosiyasi qarşıdurma məkanlarından birinə çevirmişdir. 1979-cu ilin İslam inqilabından sonra Tehranın Yaxın və Orta Şərqdə "şiə zolağı" yaratmaq siyasətinin icrasına başlmasından sonra Yəmən İran üçün həssas nöqtələrdən birinə çevrilmiş oldu. İlk növbədə ona görə ki, müxtəlif məlumatlara görə Yəməndə şiə icması ümumilikdə ölkə əhalisinin 40% - dən çoxunu təşkil edir və bu da Tehran üçün mümkün hərbi-siyasi aksiyaların təşkili baxımından olduqca ciddi sosial baza deməkdir. [3]. Başqa məlumatlarda isə bu rəqəmin 35% olduğu göstərilir. [4].

Digər tərəfdən Yəmən coğrafi nöqteyi-nəzərdən İranın Yaxın Şərqdəki başlıca geosiyasi və ideoloji rəqibi olan Səudiyyə Ərəbistanının qonşuluğunda yerləşdiyindən bu ölkədə nüfuz sahibinə çevrilmək Tehran üçün ciddi üstünlüklər yaradır. Yəməndə 2014-cü ildən bəri davam edən vətəndaş müharibəsinin gedişatı göstərdi ki, İran yönümlü qruplar vasitəsilə Tehran Səudiyyə Ərəbistanının strateji obyektlərinə, neft infrastrukturuna ciddi zərər vermək iqtidarındadır. Husi yaraqlılarının hücumlarına cavab olaraq Səudiyyə Ərəbistanının başçılıq etdiyi ərəb koalisiyasının endirdiyi zərbələr isə məsələni həll etməməklə yanaşı, beynəlxalq ictimai rəyi də Ər-Riyadın əlehinə çevirmiş olur. Yəməndə vətəndaş müharibəsinin başladığı dövrdən bu yana baş verən dəhşətli humanitar böhran, çoxsaylı insan itkiləri koalisiya ölkələrini avizərbələrin intensivliyini azaltmağa vadar edir. Müvafiq olaraq, husi üsyançıları ilə mübarizənin effektivliyi də aşağı düşmüş olur. Yaranmış çıxılmaz vəziyyət isə müharibənin uzanmasına gətirib

çıxardığı kimi onun həllini də dalana dirəyir.

**Husi hərəkatının qısa tarixçəsi və onun başlıca siyasi-ideoloji qayəsi**

Şiə icması Yəmən ərazisində tarixən yaşamış və ölkə əhalisinin əhəmiyyətli hissəsini təşkil etmişdir. Yəmən şiələri əsasən bu məzhəbin Zeydiyyə qoluna mənsubdurlar. Zeydilər şiəliyin qolları arasında öz mötədilliyi ilə tanınırlar və əksər əqidə məsələlərində onların yanaşması əhli-sünnənin mövqeyinə yaxın hesab edilir. Zeydilər Yəmən ərazisində ilk dövlət qurumunun əsasını 901-ci ildə qoymuşdular. Yəmənin əsasən şimal ərazilərində hakimiyyət quran zeydilər buradakı siyasi-ideoloji və iqtisadi nüfuzlarını XX əsrin ortalarına qədər qoruyub saxlaya bilmişdilər. [5, s. 95-96]. Doğrudur, orta əsrlərdə Yəmən Osmanlı dövləti tərəfindən fəth edilib sultan hakimiyyətinə tabe edilsə də, zeydilərin bu ölkədəki nüfuzuna ciddi xələl gəlmədi. Sünniliyin hənəfi məzhəbinə mənsub olan Osmanlı dövlətinin zeydilərə bu qədər tolerant yanaşması heç şübhəsiz ki, onların mötədilliyindən, ifrat məzhəbçi təfəkkürdən uzaq olmasından qaynaqlanırdı. Birinci Dünya Müharibəsinin nəticələrinə görə Osmanlı dövlətinin süqut etməsi nəticəsində 1918-ci ildə zeydilər Yəmənin şimalında krallığın yaranmasına nail oldular və bu krallıq 1962-ci ilə qədər öz varlığını davam etdirdi. 1962-ci ilin dövlət çevrilişindən sonra zeydilərdən olan kral Məhəmməd əl-Bədr hərbçilər tərəfindən devrilmiş, ölkədə Yəmən Ərəb Respublikasının yaradıldığı elan olunmuşdur. Hakimiyyətdən uzaqlaşdırılan zeydilərlə hərbçilər və yeni rejim tərəfdarları arasında meydana gələn gərginlik zaman-zaman açıq silahlı münaqişələr səviyyəsinə qədər gəlib çıxmışdır. 1990-cı ildə şimali və cənubi Yəmənin birləşməsindən sonra da bu münasibətlərdə hər hansı ciddi dəyişiklik baş vermədi. Yəmənin dünyəvi hakimiyyətinin nəzərində zeydilər daim üsyançı müxalifətçilər olaraq qalmaqda idilər.

1979-cu ildə İranda İslam İnqilabının baş verməsindən və Pəhləvi monarxiyasının devrilməsindən sonra Tehranın Yaxın və Orta Şərq siyasətində radikal dəyişikliklər özünü göstərməyə başladı. İranın yeni rəhbərliyi şiəlik ideyalarının və inqilab prinsiplərinin bütün müsəlman dünyasına ixracını dövlət ideologiyası səviyyəsinə çıxarmış, Yaxın və Orta Şərq ölkələrində yaşayan şiə icmaları ilə münasibətlərin qurulması prioritet vəzifələrdən biri kimi önə çəkilmişdir. Təbii ki, əsrlərdən bəri şiə icmasının yaşadığı və ciddi sosial bazaya malik olduğu Yəmən bu mənada İranın diqqətindən kənarda qala bilməzdi. Tehran inqilabın ilk illərindən etibarən aktiv şəkildə Yəmən şiələrilə əlaqələr qurmağa, onlara hərbi və maddi dəstək verməyə başladı. Bu dəstək Yəmənin şiə icması liderlərinin siyasi fəallığının nəzərəçarpacaq dərəcədə artmasına gətirib çıxardı. Həmin liderlərin sırasında Hüseyn əl-Husi (1959-2004) öz fəallığı, prinsipiallığı və qətiyyətilə digərlərindən ciddi şəkildə fərqlənirdi. O, atası Bədrəddin əl-Husinin qurduğu zeydilərin "Gənclər təşkilatına" üzv olmuş və ötən əsrin 80-ci illərindən başlayaraq siyasi mübarizə meydanına atılmışdı. Bədrəddin əl-Husi öz ideoloji və siyasi baxışları nöqteyi-nəzərindən xomeyniçiliyin ardıcılı idi və o, zeydilərə xas olan ənənəvi mötədilliyi mübarizəyə başlıca maneə hesab edirdi. 1979-cu ilin İslam inqilabının dəyərlərini öz fəaliyyətində rəhbər tutan Bədrəddin Hüsi Xomeyni ideyalarının Yəmən şiələri arasında geniş vüsət almasında, mühafizəkar şiəliyin üstünlük qazanmasında böyük rol oynadı. [1, s.121].

Hüsi hərəkatının yüksəlişi və siyasi səhnəyə qədəm qoyması isə heç şübhəsiz ki, Bədrəddin Hüsinin oğlu Hüseyn əl-Husinin adı ilə sıx bağlıdır. O da atası kimi Xomeyni ideyalarının davamçısı idi və Səudiyyə Ərəbistanının məzhəb zəminində Yəməndə gündən-günə güclənən ideoloji təsirinə etiraz edirdi.

Əvvəlcə Hüseyn əl-Husi mübarizəsini siyasi müstəvidə aparmağa qərar vermiş və 1991-1994-cü illərdə Yəmən parlamentinin deputatı qismində fəaliyyət göstərmişdir. Lakin sonradan Hüseyn əl-Husi öz taktikasını radikal şəkildə dəyişir və "Ənsarullah" ("Allahın tərəfdarları") hərəkatının əsasını qoyur. Yaradıldığı ilk illərdə əsasən təbliğat fəaliyyətilə məşğul olmağa üstünlük verən "Ənsarullah" hərəkatı məktəblərə və universitetlərə nüfuz etməyə, gəncləri öz tərəfinə çəkməyə çalışırdı. 2000-ci ilə qədər Yəmən hakimiyyəti hərəkatın fəaliyyətinə dözümlü yanaşmağa üstünlük verir, zeydiləri siyasətdən kanarda saxlamaq xəttini yeridirdi. Lakin 2001-ci ildə ABŞ-ın Əfqanıstana müdaxiləsi zamanı Yəmən prezidenti Əli Abdulla Salehin Vaşinqtonu dəstəkləməsi "Ənsarullah" hərəkatı ilə mərkəzi hakimiyyət arasındakı münasibətlər birdəfəlik korlanır. Hüseyn əl-Husi hakimiyyəti satqınlıqda və İslam maraqlarına

xəyanətdə ittiham edir, iqtidarın devrilməsinin zəruriliyinə dair fikirlər səsləndirir. [5, s.96]. 2002-ci ildə əl-Husi "Ənsarullahın" qalmaqallı şüarlarını səsləndir: "Allah böyükdür, ABŞ-a və İsrailə ölüm, yəhudilərə lənət və İslama zəfər". [1, s.121].

Bu fikirlərdən sonra mərkəzi hakimiyyət Hüseyn əl-Husilə açıq mübarizəyə başlayır. Cavab olaraq əl-Husinin tərəfdarları silaha sarılaraq mərkəzi hakimiyyətə qarşı qiyam qaldırırlar. İki ilə qədər davam edən qarşıdurma 2004-cü ildə Hüseyn əl-Husinin öldürülməsilə başa çatdı. Onun ölümündən sonra "Ənsarullah" hərəkatı həm də husilər adı altında tanınmağa başladı. Təbii ki, şiələrlə mərkəzi hakimiyyət arasındakı münasibətlər əl-Husinin qətlindən sonra daha da kəskinləşdi. Yəmən hakimiyyətinin "Ənsarullah" hərəkatını birdəfəlik məhv etmək üçün 2004-2010-cu illər ərzində həyata keçirdiyi hərbi əməliyyatlar da arzuolunan nəticəni vermədi. Hərəkat nəinki öz varlığını qoruyub saxladı, həm də tərəfdarlarının sayını əhəmiyyətli dərəcədə artırmağa müvəffəq oldu.

2011-cü ildən etibarən isə "Ərəb baharından" ilhamlanan husilər hakimiyyətə qarşı növbəti etiraz dalğasına başladılar. Hakimiyyətin etirazları silah gücünə yatırmaq cəhdləri bu dəfə də nəticə vermir və 1978-ci ildən ölkəni idarə edən prezident Abdullah Saleh istefa vermək məcburiyyətində qalır. Hakimiyyətə Mənsur Hadi gəlir, lakin o da şiələrlə mərkəzi hökumət arasındakı müharibəni cilovlaya bilmir. Münaqişənin uzanması bir tərəfdən ölkədəki humanitar böhranın dözülməz həddə gəlib çatması ilə nəticələnir, digər tərəfdən isə Səudiyyə Ərəbistanının başçılığı altında ərəb dövlətləri koalisiyasının Yəmənə müdaxilə etməsinə yol açır. Husi üsyançılarının mübarizənin gedişində Yəmənin paytaxtını və bir sıra strateji məntəqələri ələ keçirməsi, hökumət qüvvələrinin uğursuzluğu, həmçinin qiyamçıların mütəmadi olaraq qonşu Səudiyyə Ərəbistanının neft obyektlərini, şəhər və hava limanlarını raket atəşinə tutması kənar müdaxiləni qaçılmaz etmişdi. Davamlı olaraq endirilən aviazərbələr üsyançıların vəziyyətini mürəkkəbləşdirsə də, onların fəsadlarından daha çox dinc əhali əziyyət çəkirdi. 2018-ci ildə tərəflər arasında müvəqqəti atəşkəs imzalansa da, onun da ömrü qısa olur. 2020-cı ildə tərəflər arasında yenidən danışıqlar bərpa olunur və əldə edilən razılığa bu günədək qismən də olsa riayət edilir.

**Husi hərəkatının yüksəlişində İran amilinin rolu**

Husilərin 2004-cü ildən indiyədək inadlı və olduqca uğurlu müqavimətinin səbəbləri bu gün də tədqiqatçıları dərindən maraqlandıran mövzulardan biridir. Aydın məsələdir ki, Yəmənin iqtisadi cəhətdən kasıb regionunda cəmləşmiş, 1962-ci ildən bəri iqtidarda təmsil olunmayan zeydi icmasının öz məhdud resursları hesabına Yəmənin mərkəzi hakimiyyətinə qarşı, eləcə də bir neçə ərəb dövlətinin təmsil olunduğu hərbi koalisiyaya qarşı uzunmüddətli müharibə aparması qeyri-mümkündür. Bu müqavimətin təşkilində və onun hərb elminin qaydalarına uyğun bir şəkildə idarə edilməsində ciddi xarici amilin iştirakı mütləqdir. Xüsusilə də əgər söhbət istehsalı yüksək texnologiyalara əsaslanan silahların əldə edilməsindən və istifadə edilməsindən gedirsə. Həmin amil heç şübhəsiz ki, mövcuddur və onun da adı İrandır. Doğrudur, Tehran rəsmiləri dəfələrlə Yəməndəki Husi üsyançılarına heç bir dəstək vermədiklərini bəyan etsələr də, faktlar tamam başqa həqiqətdən xəbər verir. Məsələn, 2015-ci ilin aprel ayında BMT-nin ekspert qrupunun bu qurumun Təhlükəsizlik Şurası üçün hazırladığı hesabatda konkret nümunələr əsasında İranın 2009-cu ildən göstərilən dövrə qədər Yəməndəki husi döyüşçülərini intensiv şəkildə silahlandırması faktı öz əksini tapmışdır. Hesabatda göstərilir ki, İran husiləri silahlandırmaq məqsədilə əsasən dəniz yolundan və balıqçı gəmilərindən istifadə edir. 2011-ci ildə Yəmən hərbçilərinin saxladıqları İran gəmilərinin birində husilər üçün nəzərdə tutulan 900 - ə qədər raket aşkarlanaraq müsadirə olunmuşdur. [6]. Səudiyyə Ərəbistanı və BƏƏ-də dəfələrlə dünya ictimaiyyətinə İranın Yəməndəki husi üsyançılarını silahladırdığını göstərən sübutlar təqdim etmişdir. Doğrudur, bəzi analitiklər tərəfindən husilərin məqsədli şəkildə ABŞ-ın özü tərəfindən silahlandırıldığı fikri də ara-sıra səsləndirilməkdədir. Nümunə üçün siyasi şərhçi Sit Ferrisin "Necə əlverişlidir – səudiyyəlilər husilərin hücumuna məruz qalıblar?" adlı məqaləsində məsələyə məhz bu cür yanaşır. O, bəyan edir ki, Yəməndəki vətəndaş müharibəsinin qızışmasında və geniş miqyas almasında nə Səudiyyə Ərəbistanı, nə də İran o qədər də maraqlı deyil. Çünki, Yəməndə sabitliyin pozulması və məzhəb zəminində daxili qarşıdurmanın yaranması bu ölkə ilə birbaşa sərhəddi olan Səudiyyə Ərəbistanının maraqlarına qətiyyən cavab vermir.

Çünki, Səudiyyə Ərəbistanının öz ərazisində kifayət qədər şiə əhalisi yaşayır və bu sosial qrup istər-istəməz Yəməndəki husilərlə həmrəydir. Bu mənada məzhəb müharibəsinin dağıdıcı təsirinin Səudiyyə Ərəbistanından da yan keçməyəcəyi təbii qəbul olunmalıdır. Digər tərəfdən, husilərə qarşı aparılan hərbi əməliyyatların başlıca maliyyə yükü Səudiyyə Ərəbistanının üzərinə düşür. Dünya bazarında neft qiymətlərinin ciddi şəkildə aşağı düşdüyü və gəlirlərin əhəmiyyətli dərəcədə azaldığı bir dövrdə isə bu cür əlavə xərclər heç də ər-Riyadın inkişafına xidmət etmir. Onu da nəzərdən qaçırmaq lazım deyil ki, döyüş əməliyyatlarının gedişində coğrafi yaxınlıq səbəbindən husilər çox rahatlıqla Səudiyyə Ərəbistanının neft obyektlərini, mülki və hərbi infrastrukturunu hədəf ala bilir. Endirilən zərbələr isə əlavə insan itkiləri və dağıntılar deməkdir. Sit Ferrisin yanaşmasına görə bu müharibənin İranın maraqlarına cavab vermədiyini sübut edən kifayət qədər ciddi arqument mövcuddur. Ən birinci arqument ondan ibarətdir ki, Yəməndəki husilərə silahlı dəstəyi bəhanə edən Qərb ölkələri, xüsusilə də ABŞ İrana qarşı sanksiyaları şiddətləndirmək və Tehrana qarşı beynəlxalq təcridi genişləndirmək üçün əlavə imkanlar qazanırlar. Dünya ictimaiyyətinin nəzərində İranın aqressiv və terrorçu obrazını yaratmaqla ABŞ Yaxın və Orta Şərq regionunda öz hərbi-siyasi iştirakını artırmaq üçün beynəlxalq rəyi öz xeyrinə dəyişə bilir. Həmçinin, bu yolla ABŞ İranla ərəb dünyası, xüsusilə də Körfəz ölkələri arasında onsuz da mürəkkəb olan münasibətləri bir qədər də gərginləşdirməyə nail olur. Husilərə silah yardımı məsələsindən Vaşinqton İranın daxili siyasətində də yararlanır. Məlum olduğu kimi, neft gəlirlərinin azalması və nüvə proqramı səbəbindən tətbiq edilən sanksiyalar nəticəsində İran iqtisadiyyatı ciddi problemlərlə üzləşib, əhalinin rifah səviyyəsi aşağı düşüb, milli valyuta isə devalvasiyaya uğrayıb. Belə bir vəziyyətdə ölkə ictimaiyyətinə mütəmadi qaydada Yəmənə göndərilən maliyyə və silah yardımı haqqında xəbərlərin ötürülməsi ilk növbədə İran hakimiyyətinin əlehinə işləyir. Yəni, Sit Ferrisin yazısından belə nəticə çıxarmaq mümkündür ki, Yəməndəki vətəndaş müharibəsinin nümunəsində Vaşinqton ənənəvi "parçala və hökm et" formulunu tətbiq edərək Yaxın Şərqin iki böyük dövlətini İranı və Səudiyyə Ərəbistanını asılı vəziyyətdə saxlayır, bununla da özünün bölgədəki mövqelərini bir qədər möhkəmləndirməyə nail olur. [2]. Təbii, hər bir yanaşma kimi S.Ferrisin də mövqeyi yaşamaq hüququna malikdir və onu da etiraf etmək gərəkdir ki, politoloqun fikirlərində müəyyən həqiqət payı mövcuddur. Qərb dövlətləri, xüsusilə də ABŞ və onun müttəfiqləri Yaxın Şərq regionunda aparıcı müsəlman dövlətləri arasında gərgin münasibətlərin uzun müddət qorunub saxlanılmasında həqiqətən də maraqlıdırlar. Səudiyyə Ərəbistanı – İran gərginliyi bu mənada ABŞ üçün Yaxın Şərqdə geniş manevr imkanları və əlavə maliyyə qazancı vəd edir. Çünki, husilərlə mübarizə aparmaq və onların hücumlarından qorunmaq, eləcə də beynəlxalq təzyiqləri səngitmək üçün Səudiyyə Ərəbistanı davamlı olaraq ABŞ-dan yeni silahlar almağa, Vaşinqtonla sıx əməkdaşlıq etməyə məcburdur. İranı Yəməndəki qarşıdurmaya çəkməklə isə ABŞ həm bu ölkənin iqtisadi potensialına zərbə vurur, həm də onun dünyadakı nüfuzuna xələl gətirir.

Ancaq bir məsələni də nəzərdən qaçırmaq olmaz ki, İranın Yaxın və Orta Şərqdə müxtəlif qruplardan istifadə etməklə öz nüfuzunu yaymaq istiqamətindəki ənənəvi siyasəti bu məsələdə ABŞ-ın əl-qolunu hər mənada açmağa xidmət edir. 1979-cu ilin İslam inqilabından indiyədək Tehranın yürütdüyü "inqilabın ixracı" siyasəti ABŞ-a şiə icmalarının yaşadığı və Tehranın potensial sosial bazasının olduğu müsəlman ölkələrinin daxili siyasətinə aktiv şəkildə qarışmağa şərait yaradır. Yəmən də bu mənada istisna təşkil etmir. İran husi qruplarının əli ilə Yəməndə apardığı dağıdıcı fəaliyyət ABŞ-a bu ölkənin daxili işlərinə qarışmasına, Səudiyyə Ərəbistanının prosesə cəlb edilməsinə və nəticədə on minlərlə günahsız insanın qətlinə səbəb olub. İranın Yəməndəki maraqlarının sərhədləri az-çox məlumdur. Tehranı ilk növbədə Yəmən ərazisində ona bağlı olan şiə dövlətinin qurulması maraqlandırır. Bu perspektivin baş tutmayacağı halda isə İran ən azından Yəmən ərazisinin bir hissəsi üzərində nəzarətin husilərin əlində qalması üçün çalışır. Çünki, mərkəzi hakimiyyətin nəzarətindən kənarda qalan üsyançıların və onların ixtiyarındakı ərazilərin olması İrana istənilən zaman Səudiyyə Ərəbistanına təsirli hərbi zərbə endirmək üçün hava-su qədər vacibdir. Həmçinin, İran Yəməndəki zeydilərin zamanla daha mühafizəkar şiələrə çevrilməsi üçün də əlindən gələni edir. Çünki, zeydilər etnik cəhətdən ərəbdilər və gələcəkdə bu onların Səudiyyə

Ərəbistanı ilə etnik zəmində yaxınlaşmasına əsas ola bilər. Həmin əsası dağıtmağın yeganə yolu husilərin məzhəb zəminində İrana daha da yaxınlaşdırılması, onların daha mühafizəkarlaşdırılmasıdır.

## Nəticə

Yəməndə son beş ildə baş verənlər və İranın xarici siyasət kursunun təhlili belə deməyə əsas verir ki, husilərin silahlı mübarizəsinin yaxın zamanda səngiyəcəyinə ümid etmək üçün ciddi səbəblər yoxdur. Doğrudur, 2020-ci ildə Yəməni bürüyən humanitar fəlakət, həmçinin ərəb koalisiyası dövlətlərinin şiddətlənən hava hücumları husiləri atəşkəsə sövq etmiş, kütləvi döyüş əməliyyatları müvəqqəti də olsa dayandırılmışdır. Ancaq onu da nəzərə almaq lazımdır ki, 2014-cü ildən bəri Yəməndə davam edən vətəndaş müharibəsinə hələ də son qoyulmayıb, mərkəzi hakimiyyət indiyədək ölkənin əhəmiyyətli hissəsi üzərində nəzarətini təmin edə bilməyib. Husilər hər an ölkədəki hərbi-siyasi prosesin axarına təsir göstərəcə biləcək qüvvə olaraq qalmaqdadırlar. Vətəndaş müharibəsinə qədər də Asiyanın kasıb ölkələrindən hesab edilən Yəmənin iqtisadi vəziyyəti vətəndaş müharibəsindən sonra daha da ağırlaşmışdır.

İrana tətbiq edilən sanksiyalar səbəbindən bu ölkənin xaricdəki müxtəlif şiə hərəkatlarına göstərdiyi hərbi və maddi yardımın həcmində ciddi azalmalar müşahidə olunsa da, Tehranın öz ənənəvi taktikasından yaxın gələcəkdə imtina edəcəyi inandırıcı görünmür. Yəməndəki hakimiyyət böhranı və iqtisadi tənəzzül husi üsyançılarının İrandan asılılığını bir qədər də dərinləşdirəcək. Ərəb koalisiyası hava zərbələri nəticəsində husilərin Yəməndəki hərbi aktivliyini müəyyən qədər cilovlasa da, quru əməliyyatlarındakı uğursuzluq ciddi nəticələr əldə etməyə imkan vermir. Əgər gələcəkdə ərəb koalisiyası tərəfindən Yəmən ərazisinin husilərdən birdəfəlik təmizlənməsi istiqamətində qəti və ardıcıl tədbirlər görülməsə, husilərin ələ keçirdikləri ərazilərdə Tehrana bağlı yeni bir rejimin meydana çıxması ehtimalı olduqca yüksəkdir. Bu mənada Yəmən hələ uzun müddət İran və Səudiyyə Ərəbistanı arasında qızğın mübarizə məkanı olaraq qalmağa davam edəcəkdir.

**Açar sözlər:** *Yəmən, vətəndaş müharibəsi, Husilər, İran, Səudiyyə Ərəbistanı, zeydilər, mühafizəkar şiəlik.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Tınas M. Yemen İç Savaşında husiler: Vekalet ilişkisinin karmaşık yapısı // Eskişehir Osmanqazi Universitesi Sosyal Bilimler Dergisi, Haziran 2020, №21, s.117-136.*

*2. Ferris S. How Convenient: Saudis attacked by the Houthis? // Journal New Eastern Outlook 02/03/2020 - https://journal-neo.org/2020/03/02/how-convenient-saudis-attacked-by-the-houthis/*

*3. Izady M. Yemen: Ethno-religious composition (Map). Columbia University.2016. URL:http://gulf2000.columbia.edu/images/maps/Yemen_Ethno_Religious_summary_lg.png*

*4. Yemen // The World Factbook: Central Intelligence Agency. [Электронный ресурс] // URL: https://www.cia.gov/library/publications/the-world-factbook/geos/ym.html*

*5. Боков Т.А. Политическая идеология хуситского движения (По материалам лекций Хусейна аль-Хуси) // Ислам в современном мире. 2017, том 13, №4, стр. 95-112.*

*6. И.а. РБК 01.05.2015, https://www.rbc.ru/rbcfreenews/5542ab059a79470585d64d78*

*7. И.а. Regnum 01.12.2020,https://regnum.ru/news/society/3129229.html*

**Амиров Эльдар Гурбан оглы**
**Доктор философии по политическим наукам, доцент**
**(Азербайджанский университет языков)**

## Гражданская война в Йемене: иранский фактор

## РЕЗЮМЕ

В статье влияние иранского фактора на ход гражданской войны в Йемене в контексте истории становления и укрепления хуситского движения шиитской направленности. Автором дан анализ геополитических и идеологических интересов Ирана в Йемене, которые неразрывно связаны с противостоянием Тегерана с Саудовской Аравией за влияние на Ближнем и Среднем Востоке. Особое внимание автором уделено среде и причинам возникновения военизированного шиитского движения хуситов, социальную базу которого составляют преимущественно зейдиты – умеренное шиитское население северных районов Йемена.

В статье освещена также точка зрения некоторых западных политологов, которые видят причину возникновения и усиления гражданской войны в Йемене в американских интересах, которые основаны на древней формуле «разделяй и властвуй». Согласно этой версии главными поставщиками оружия для хуситов являются США, которые заинтересованы путем разжигания конфликта между Саудовской Аравией и Ираном удерживать свои прочные позиции на Ближнем Востоке. Хуситы в этом деле являются эффективным инструментов в руках штатов, посредством которых в любое удобное время можно столкнуть эти два мусульманских государства.

В конце автор приходит к такому мнению, что политический хаос и экономический кризис в Йемене делает невозможным скорейшее урегулирование гражданского противостояния. С другой стороны стратегическая линия Ирана на Ближнем Востоке и интересы Саудовской Аравии в Йемене еще больше усугубляет ситуацию. Совокупность всех этих факторов, позволяет прийти к такому выводу, что хуситское движение еще долго будет оставаться серьезным фактором на политической сцене Йемена.

**Ключевые слова:** *Йемен, гражданская война, хуситы, Иран, Саудовская Аравия, зейдиты, консервативный шиизм.*

**Amirov Eldar Gurban oglu**
**Doctor of Philosophy in Political Science,**
**Associate Professor**
**(Azerbaijan University of Languages)**

**Yemeni Civil War: Iranian Factor**

**SUMMARY**

The article deals with the influence of the Iranian factor on the course of the civil war in Yemen in the context of the history of the formation and strengthening of the Shiite Houthi movement. The author analyzes the geopolitical and ideological interests of Iran in Yemen, which are inextricably linked with the confrontation between Tehran and Saudi Arabia for influence in the Near and Middle East. The author pays special attention to the environment and reasons for the emergence of the paramilitary Shiite movement of the Houthis, the social base of which is predominantly Zaidis - the moderate Shiite population of the northern regions of Yemen. The article also highlights the point of view of some Western political scientists who see the cause of the emergence and intensification of the civil war in Yemen in the American interests, which are based on the ancient formula “divide and rule”. According to this version, the main suppliers of weapons for the Houthis are the United States, which are interested in maintaining their strong positions in the Middle East by fomenting the conflict between Saudi Arabia and Iran. The Houthis in this matter are effective tools in the hands of the states, through which these two Muslim states can be pitted against each other at any convenient time.

In the end, the author comes to the conclusion that the political chaos and economic crisis in Yemen makes it impossible to resolve the civil confrontation as soon as possible. On the other hand, Iran’s strategic line in the Middle East and Saudi Arabia’s interests in Yemen further exacerbate the situation. The combination of all these factors allows us to come to the conclusion that the Houthi movement will remain a serious factor on the political scene of Yemen for a long time to come.

**Key words:** *Yemen, civil war, Houthis, Iran, Saudi Arabia, Zeidis, conservative Shi’ism.*

UOT 327; 930.22
327.5

# QƏRBİ AVROPADA MULTİKULTURALİZM VƏ İSLAMOFOBİYANIN QARŞILIQLI ƏLAQƏSİ

**TƏRLAN ORUCOVA**
*Xəzər Univeristeti,*
*Siyasi elmlər və Fəlsəfə departamentinin müəllimi*

*E-mail: terlann.orujova@gmail.com*

II Dünya müharibəsindən sonra Avropa ölkələri işçi qüvvəsi çatışmazlığını inkişaf etməkdə olan ölkələrdən gələn miqrantlar hesabına həll etməyə çalışırdılar. 1950-ci ilin əvvəllərindən miqrantlar Avropaya can atırdılar. Həmin dövrdə Avropada on minlərlə əmək miqrantı məskunlaşmağa müvəffəq oldu. Nəticədə fərqli mədəniyyətə, dinə, kimliyə sahib miqrantlarla avropalılar bir yerdə yaşamağa məhkum oldular. Birgəyaşayış bir çox problemlərə yol açdı. Yaranmış çoxmədəniyyətli cəmiyyəti idarə etmək üçün uğurlu siyasət modeli lazım idi. Bu model isə multikulturalizm idi. Multikulturalizmə, Brittanica ensiklopediyasında "mədəniyyətlərin, irqlərin və etnik qrupların, xüsusən də azlıq qruplarının fərqliliyinin hakim siyasi mədəniyyət daxilində xüsusi qəbul edən baxış bucağı" kimi tərif verilir [13]. Məlum olduğu kimi, Avropanın önəm verdiyi insan haqları, demokratik dəyərlərə uyğun olan "multikulturalizm" anlayışı müəyyən sərhədlər daxilində bir mədəniyyətin deyil, birdən çox mədəniyyətin mövcudluğunu vurğulayır və bunu tolerantlıq, bərabərlik və qarşılıqlı anlayış üçbucağı ilə dəstəkləyir. Buna görə də multikulturalizm və mədəni cəhətdən "başqa"sının sistem içərisində yer almasının hüquqi bazasına dair mübahisələr qərb demokratiyasının təkamülündə ən mühüm imtahanlardan biri halına gəlmişdir. Miqrantların, xüsusilə də müsəlman ölkələrindən Avropaya pənah gətirən miqrantların burada sayının çoxalması tədricən islamofobiyanın artmasına səbəb olan əsas amillərdən birinə çevrildi. Merriam Vebster lüğətində isə, islamofobiya "İslama və ya müsəlmanlara qarşı irrasional qorxu, nifrət və ya ayrıseçkiliyi" ifadə edir [4].

Müasir dövrdə islamofobiya Avropada geniş yayılmaqdadır. Ayrı-seçkiliyin, homofobiyanın bir forması olan islamofobiyanın Avropada artması onun öz mahiyyətinə görə demokratik inkişaf yolunu təhdid edir. Avropa dövlətlərinin əksəriyyəti cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə həyata keçirdiyi siyasət kimi multikulturalizmi seçməsinə baxmayaraq, son dövrdə İngiltərə, Fransa, Almaniya kimi Avropada söz sahibi olan dövlət rəsmilərinin multikulturalizmin iflasa uğraması ilə bağlı söylədikləri fikirlər narahatlıq doğurur. [15, 18].

Digər tərəfdən, Avropa İttifaqının ikinci ən böyük dini qrupunu təşkil edən müsəlmanların son zamanlar Avropada cəmiyyət həyatının bütün sferasında qərəz, ayrı-seçkilik, təcridedilmə, zorakılıqla üzləşməsi, ümumilikdə islamofobiya təzahürlərinin artmasına, bütün bunların nəticəsi kimi isə müsəlmanların yaşadıqları cəmiyyətə yadlaşması, Avropaya aidlik hisslərinin sarsılmasına gətirib çıxarır. Eyni zamanda, Avropada siyasi səhnədə radikal və millətçi partiya və təşkilatların tərəfdarlarının sayının artması, onların islam və müsəlmanlar əleyhinə şüarlar səsləndirməklə hakimiyyətdə təmsil olunmağa başlaması İslam dininə, müsəlmanlara qarşı Avropada kinin, qərəzi artırır [1].

Avropa ölkələrində multikulturalizmin tarixi və Multikulturalizm Siyasəti İndeksinə əsasən hal-hazırkı vəziyyətini təhlil edəndə Avropa dövlətlərinin qarşılaşdıqları multikultural quruluşa qarşı fərqli siyasətlər izlədiyini müəyyən edirik. Belə ki, Böyük Britaniya Multikulturalizm Siyasəti İndeksinə daxil olan 8 meyardan 5-ni tam (Multikulturalizmin məktəb tədris planında mənimsənilməsi; İctimai mediada etnik

nümayəndəliyin/həssaslığın təmin edilməsi; Geyimə qanunlarla və ya iddialarla sərbəstlik verilməsi; İkili vətəndaşlığa icazə verilməsi; Mədəni fəaliyyətlər üçün etnik qrup təşkilatlarına maddi dəstəyin təmin edilməsi; Əlverişsiz mövqedə olan mühacir qrupları üçün güzəştlərin edilməsi), 1-ni isə qismən (Multikulturalizmin məktəb tədris planında mənimsənilməsi) yerinə yetirməklə etnik, irqi və dini müxtəlifliyi açıq şəkildə tanıyan multikulturalizm formasını ehtiva edir [9]. Fransa rəsmi olaraq multikulturalizm siyasətini tətbiq etməmişdir. Əksinə multikulturalizmin əleyhinə çıxdığı belə deyilə bilər. Ancaq o, yerli əsasda siyasi iştirakı gücləndirərək bu problemi həll etməyə çalışmışdır. Almaniya isə Multikulturalizm Siyasəti İndeksinin 1 meyarını tam (Mədəni fəaliyyətlər üçün etnik qrup təşkilatlarına maddi dəstəyin təmin edilməsi), 3 meyarını isə qismən (Mərkəzi, regional, bələdiyyə səviyyələrində multikulturalizmin konstitusiya, qanunvericilik və parlament tərəfindən qəbulu; Geyimə qanunlarla və ya iddialarla sərbəstlik verilməsi; İki dildə və ya ana dilində təhsilin maliyyələşdirilməsinin təmin edilməsi) yerinə yetirmişdir [10]. Almaniyanın multikulturalizm siyasəti qaçqınlar probleminə ikinci dərəcəli əhəmiyyət verir, elə buna görə xeyli tənqid olunur .

Angela Merkel [20], Devid Kemeron [21] kimi Avropa liderlərinin milli kimliyin dirçəldilməsi, eləcə də inteqrasiya və miqrasiya siyasətinin sərtləşdirilməsinə çağırmasıyla Avropada multikulturalizmin tərk edilməsinə dair güclü göstəricilərin olmadığı qənaətinə gəlirik. Belə ki, Multikulturalizm Siyasəti İndeksinə daxil olan ölkələri təhlil edəndə aydın olur ki, multikultualizm siyasətlərinin yayılmasına dair bir tendensiya var. (Hollandiya, Danimarka, İtaliya kimi bəzi ökələr istisna olmaqla) [11]. Multikulturalizmin uğursuzluğu siyasi dairələrdə qeyd olunsa da, multikulturalizmdən çəkilmə faktiki siyasətlərdə deyil, ancaq ritorikadadır. Multikulturalizmin demək olar ki, tamamilə tərk edilməsinə yönəlik çağırışlara qarşı beynəlxalq terrorizmə qarşı bir sıra tədbirlərin görülməsindən başqa, "multikulturalizm öldü" ritorikalarını müşayiət edən siyasi dəyişikliklər yalnız miqrasiya və vətəndaşlıq verilməsinin məhdudlaşması ilə bağlıdır.

Multikulturalizm və miqrasiyanın qarşılıqlı təsirinin təhlili göstərir ki, miqrantların axını zəif olan ölkələr miqrasiyanın yüksək olduğu ölkələrlə müqayisədə daha tolerant miqrasiya mövqeyinə malikdir.

Miqrant İnterqasiya Siyasəti İndeksininin Britaniya barədə olan nəticələrin təhlilinə əsasən [7], bu qənaətə gəlirik ki, Birləşmiş Krallıq yalnız antidiskriminasiya sahəsində əlverişli şərait yaradıb, digər sahələrdə isə miqrantların inteqrasiyası üçün qismən əlverişli şərait yaradıb və açıq şəkildə müxtəlifliyi ehtiva etsə də, ağ Britaniya əhalisinin əksəriyyəti digər irqi və dini qrupların xalqa məxsus olduğunu qəbul etmir. Etnik, linqivistik və dini fərqlərə əsaslananaraq, onlar yerli Britaniya vətəndaşlarından mədəni cəhətdən fərqli qruplara, xüsusən də müsəlman azlıqlara qarşı daha çox ayrı-seçkilik nümayiş etdirirlər.

Miqrant İnteqrasiya Siyasəti İndeksinə əsasən, Fransada miqrantlar üçün əlverişli şəraitin yaradılmadığı qənaətinə gəlirik. Multikulturalizm Siyasəti İndeksində 8 meyardan yalnız 2-sini yerinə yetirən (İkili vətəndaşlığa icazə verilməsi; Mədəni fəaliyyətlər üçün etnik qrup təşkilatlarına maddi dəstəyin təmin edilməsi) Fransanın Miqrant İnteqrasiya İndeksində də yaxşı nəticə göstərməməsi [5] bizə onu deməyə əsas verir ki, multikulturalizm siyasətinin zəif həyata keçirildiyi təqdirdə miqrantların cəmiyyətə uğurlu inteqrasiyasından söhbət gedə bilməz.

Amma Almaniya nümunəsində belə qənaətə gəlirik ki, Multikulturalizm Siyasəti İndeksində 8 meyardan 1–ni tam olaraq, 3-nü isə qismən yerinə yetirməklə multikulturalizm siyasətini az tətbiq etməsinə baxmayaraq [12], Miqrant İnteqrasiya Siyasəti İndeksində daha yaxşı nəticə əldə edib [6].

Multikulturalizm və miqrasiyanın qarşılıqlı təsirini əyani formada ölçmək üçün Avropa ölkələrinin Multkulturalizm Siyasəti İndeksi ilə Miqrant İnteqrasiya Siyasəti İndeksi nəticələrini müqayisə edərək bu qənaətə gəlirik ki, MİPEX üzrə miqrant siyasətinin ən uğurlu dövlətləri İsveç (orta balı 78/100), Portuqaliya (75/100), Yeni Zelandiya (70/100), Finlandiya (69/100), Norveç (69/100), Kanada (68/100), Belçika (67/100), Avstraliya (66/100) olduğu halda, eləcə də, Multikulturalizm Siyasəti İndeksi üzrə ən uğurlu ölkələr Avstraliya (orta balı - 8/8 bal), Kanada (7.5/8), İsveç (7/8), Yeni Zelandiya (6/8), Finlandiya (6/8), Böyük Britaniya (5.5/8), Belçikadır (5.5/8) [8].Göründüyü kimi, multikulturalizm siyasətinin tətbiq olunduğu

ölkələrdə miqrantlar cəmiyyətə daha asanlıqla inteqrasiya edirlər. Əksinə miqrantların az olduğu və anti-miqrant əhval-ruhiyyənin yüksək olduğu ölkələrdə (Estoniya, Latviya, Litva, Yaponiya, Mərkəzi və Cənub-Şərqi Avropa - MIPEX-dəki orta balları 41/100) miqrantlar daha çox maneələrlə üzləşirlər. Zəngin, çoxmədəniyyətli və demokratik ənənələrə sahib olan ölkələrdə isə miqrantlar üçün bərabər hüquqlar və imkanlar təmin edilir. Nümunə kimi Qərbi Avropa (MİPEX orta balı 60/100) və ənənəvi miqrasiya ölkələrini (Avstraliya, Kanada, Yeni Zelandiya, ABŞ - orta balı 67/100) göstərə bilərik.

İslamofobiyanın mahiyyətinin və yaranma səbəblərinin təhlili göstərir ki, islamofobiya mədəni, tarixi, siyasi, iqtisadi, teoloji, psixoloji zəminə söykənən səbəblərdən qaynaqlanır. Qərb dünyasında islamofobiyanın səbəbləri sırasında həmçinin multikulturalizm və bir yerdə yaşamaq düşüncəsinin zəifləməsi, iqtisadi maraq münaqişələri və müsəlmanların Qərb cəmiyyətlərində vizuallığnın artması kimi amillərdir. Eləcə də İngiltərədə "Tell Mama" [19], Fransada yerləşən "Racism İslamophobia Watch" qeyri-hökumət təşkilatları [14], Avropa Şurasının "İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyası"nın 2018-ci il hesabatı [16], 2017-ci il Avropa İslamofobiya Hesabatı [3] və s. sənədlərdəki konkret faktlar əsasında Avropa ölkələrində islamofobiyanın artması tendensiyası müəyyən olnur.

Avropada müsəlmanların yaşadıqları cəmiyyətin ictimai-siyasi, iqtisadi həyatında iştirakını təhlili göstərir ki, Avropadakı müsəlmanların əksəriyyətinin sosial-iqtisadi vəziyyəti aşağıdır və onlar nəinki ev və iş tapmaqda, həmçinin təhsil sahəsində də ayrı-seçkiliyə məruz qalırlar, əmək bazarına inteqrasiya oluna bilmirlər. Bu isə müsəlman icmalar arasında seqreqsiya və ya gettolaşmanın baş verməsinə gətirib çıxarır.

Avropada müsəlmanların siyasətdə təmsili məsələsinə gəldikdə isə onu deyə bilərik ki, Fransa, Avstriya, İspaniya və İtaliyada müsəlman azlıqların təmsilçiliyi çox aşağı səviyyədədir [17]. İnteqrasiya eyni zamanda həm miqrantın gəldiyi ölkə ilə əlaqələrin saxlanması, həm də qəbul edən cəmiyyətin üzvləri ilə sıx əlaqə qurmaq deməkdirsə və siyasi iştirakçılıq inteqrasiyanın vacib halqasıdırsa, bu nəticələrə əsasən deyə bilərik ki, qeyd etdiyimiz bu dörd ölkədə müsəlmanların cəmiyyətə inteqrasiyası baş vermir. Araşdırmalardan məlum olur ki, miqrasiyanın zamanı sosial qəbul üçün əhəmiyyətlidir. Belə ki, əhali ölkəyə yeni gələnlərdən daha çox bu ölkədə uzun müddətdən bəri yaşayan xarici mənşəli xalqa maliyyə və sosial cəhətdən daha çox dəstək verir. Fransa, Avstriya, İspaniya, İtaliya nümunəsində müsəlmanların təmsili baxımından bu müddəa özünü doğrultmur[17]. Əks halda Avropanın bu 4 ölkəsində müsəlmanların təmsil olunması digər ölkələrlə müqayisədə daha yüksək səviyyədə olardı. Çünki Fransa, Avstriya, İspaniya, İtaliya kimi dövlətlərin müsəlmanlarla tanışlığının müddətinin daha çox olmasına baxmayaraq, müsəlmanların sosial qəbulu ən aşağı səviyyədədir.

Almaniya, İsveçrə, Danimarka və Norveç coğrafi, mədəni və müsəlman azlıqlara sahib olma baxımından (yəni II dünya müharibəsindən sonra işçilər qüvvəsinin cəlb olunması üçün müqavilələr) oxşardır. Bu dörd ölkə Fransa ilə müqayisədə müsəlman azlıqlar daha yaxın zamanda qarşılaşmalarına baxmayaraq, siyasətdə orta səviyyədə müsəlman təmsilçiliyinə malikdir. Hollandiya, Belçika, İsveç, Böyük Britaniya isə müsəlmanların parlamentdə daha yüksək səviyyədə təmsil olunduğu Avropa ölkələridir.

Yuxarıda adı çəkilən Avropa ölkələrində müsəlmanların siyasətdə təmsil olunmalarını bu ölkələrin Multikulturalizm Siyasəti İndeksi [11] ilə qarşılıqlı əlaqəsini təhlil edərək bu nəticəyə gəlirik ki, Multikulturalizm Siyasəti İndeksində yüksək və orta nəticə göstərən ölkələrdə (İsveç, Belçika, Böyük Britaniya, Hollandiya) müsəlmanların siyasətdə təmsili yüksək və ya orta həddədir. Əksinə Multikulturalizm Siyasəti İndeksində aşağı nəticə göstərən ölkələrdə (Norveç, Danimarka, Almaniya, Avstriya, Fransa və s.) isə müsəlmanların siyasətdə təmsil olunmaları yetərsiz və ya ifrat yetərsizdir.

Multikulturalizm siyasətinin zəif tətbiq olunduğu və ya multikulturalizmdən imtina meyllərinin mövcud olduğu ölkələrdə islamafobik tendensiya daha güclü müşahidə olunur. Bundan başqa biz multikulturalizm siyasətlərinin müəyyən dövrlərdə tətbiq edildiyi ölkələrdə son illər islamofobiyanın artmasını (qurban kəsimi, oğlan uşaqlarının sünnəti, müsəlman qadınların hicabları və məscid minarələrin inşası kimi qadağalar) müşahidə edirik ki, bu proses Avropa ölkələrinin bir çoxunun mul-

tikulturalizm siyasətinin iflas etdiyini bildirdikdən sonra daha da şiddətlənir.

Miqrant böhranı və islamofobiya arasındakı münasibətin təhlili göstərir ki, miqrant böhranı nəticəsində Avropada sayı artan müsəlmanların Avropanın mədəniyyətinə və həyatına inteqrasiya edə bilməməsi, cəmiyyətə inteqrasiyaya təsir edən mədəni, etnik və dini keçmişlərindən qaynaqlanan davranış formaları Avropadakı İslam düşmənçiliyi üçün səbəb olaraq göstərilir. İnteqrasiya problemi yaşayan müsəlmanların özlərini cəmiyyətdən təcrid etməsi, avropalıların müsəlmanlara münasibətinin getdikcə daha da sərtləşməsi islamofobiyanın artması ilə nəticələnir. Belə dəyişkən siyasi və təhlükəsizlik mühitində, sağçı siyasətçilər və təşkilatlar miqrant böhranından istifadə edərək avropalıları müsəlman miqrantları, ümumiyyətlə müsəlmanları öz təhlükəsizliyinə ciddi təhdid kimi qəbul etməyə yönəldir [1]. İslamofobiyanı bəzi Avropa hökumətləri və müsəlmanlara qarşı fikirlərini açıq şəkildə ifadə edən sağ yönümlü siyasətçilər daha da şiddətləndirir. İslamofobiya meyllərinin artması Fransa, Avstriya, Hollandiya, Danimarka, Macarıstan kimi Avropa ölkələri ilə yanaşı Skandinaviya ölkələrində də müşahidə olunur. Bu ölkələrin siyasi səhnəsində irəliləyən ultra sağçı partiyaların təbliğat kampaniyalarında islamofob şüarlar özünü daha açıq şəkildə büruzə verir [22].

İslam və ya müsəlman qorxusunun ən əsas səbəblərindən biri önyarqı və KİV-də yaradılan müsəlmanların mənfi obrazıdır. Terror hücumları, medianın da təsiri ilə terrorizm, dini ifadə və miqrasiya kimi mövzularda ictimai müzakirəni daha da qızışdırdı və irqçi, ksenofobik və islamofobik önyarqıları legitimləşdirir.

Avropa liderlərinin multikulturalizmə baxışları da islamofobiyanı qidalandırır. Çünki Avropada müxtəlif irqlərdən və millətlərdən olan bir çox müsəlman var. Bu qrupların cəmiyyətə inteqrasiya olunmadığını irəli sürərək təcrid etmə və birlikdə yaşamaq mədəniyyətinin uğursuz olduğunu iddia etmək islamofobiyanı daha da artırır. Bir sözlə, ksenofobiya, mədəni və ya dini irqçilik qaçılmaz olaraq anti-islamçılığa gətirib çıxarır və bu da islamofobiyanı qidalandırır.

Beləliklə, Avropa İttifaqının ikinci ən böyük dini qrupunu təşkil edən müsəlmanlara qarşı son zamanlar Avropada cəmiyyət həyatının bütün sferalarında – siyasətdə, təhsildə, əmək bazarında, iş yerlərində və s. qərəz, ayrı-seçkilik, təcrid edilmə, zorakılıq halları çoxalmış, ümumilikdə islamofobiya təzahürləri artmışdır. Müsəlmanlara qarşı münasibətin kəskinləşməsinə miqrant böhranı, iqtisadi tənəzzül, rifah sisteminin süquta uğraması qorxusu, terror hadisələrinin artması və bunlardan istifadə edərək radikal və millətçi partiya və təşkilatların öz tərəfdarlarının sayını artırması, onların hakimiyyətdə təmsil olunmağa başlaması kimi amillərin təsir göstərdiyi şübhəsizdir. Biz isə hesab edirik ki, eyni zamanda Avropa ölkələrinin multikulturalizm siyasətindən imtina nitqləri və multikulturalizm siyasətindən imtina ehtimalı islamofobiyanın leqallaşmasına səbəb olur. Əksinə multikulturalizm siyasətininin tətbiqi bu tendensiyaların qarşısını alar. Multikulturalizm siyasətini ehtiva edən kriteriyaların tətbiqi ilə müsəlmanların Avropa cəmiyyətlərinə inteqrasiyası daha uğurlu olar. İslamofobiyanın müşahidə olunduğu Avropada cəmiyyət və KİV müsəlmanların Avropa dəyərləri ilə uyğun olmadığını və cəmiyyətə inteqrasiya etmədiyini irəli sürür, halbuki islamofobiya müsəlmanların cəmiyyətə inteqrasiyasına əngəl olur və onların özlərini cəmiyyətdən təcrid etmələrinə səbəb olur. Miqrant azlıqların cəmiyyətə inteqrasiyasına istiqamətlənən multikulturalizm siyasətindən imtina isə vəziyyətin daha da gərginləşməsinə, müsəlmanların Avropa cəmiyyətinə yadlaşmasına, özlərinə qapanmasına, nəticədə islamafobiyanın artmasına gətirib çıxaracaq. Multikulturalizm siyasətinin tətbiqi, Multikulturalizm Siyasəti İndeksinə daxil olan meyarların həyata keçirilməsi isə islamofobiyanın, müsəlmanlara və İslama qarşı önyarqının azalmasına səbəb olacaq. Beləliklə, Avropada islamfobiyanın artması probleminin həll yolu multikulturalizm siyasətinin tətbiq olunmasından keçir.

**Açar sözlər:** *multikulturalizm siyasəti, multikulturalizmin iflası, miqrasiya siyasəti, islamofobiya*

### ƏDƏBİYYAT SİYAHISI

*1. Cas Mudde, "'Good' Populism Beat 'Bad' in Dutch Election," The Guardian, March 19, 2017, www.theguardian.com/world/2017/mar/19/dutch-election-rutte-wilders-good-populism-bad-.*

*2. EUMC Raporu (2006), "Avropa Birliği' nde*

*Müslümanlar: Ayrımcılık ve İslamofobi", Viyana, 18 aralık 2006 (http: // fra.europa.eu/fra/ materail/ pub/muslim/EUMC-highlights-TR/pdf*

*3. European Islamophobia Report 2017. Enes Bayrakli, Farid Hafez (Eds). https://www.islamophobiaeurope.com/wp content/uploads/2018/04/ EIR_2017.pdf*

*4. Islamophobia/Definition of Islamophobia by Merriam-Webster. https://www.merriam-webster.com/dictionary/Islamophobia.*

*5. Migrant İntegration Policy İndex 2015. Countries. France. http://www.mipex.eu/france*

*6. Migrant İntegration Policy İndex 2015. Countries. Germany. http://www.mipex.eu/germany*

*7. Migrant İntegration Policy İndex 2015. Countries. United Kingdom. http://www.mipex.eu/united-kingdom*

*8. Migrant Integration Policy Index. International Key Findings. http://www.mipex.eu/key-findings*

*9. Multiculturalism Policies in Contemporary Democracies. Immigrant Minorities. Evidence. United Kingdom. https://www.queensu.ca/mcp/ immigrant-minorities/evidence/united-kingdom*

*10. Multiculturalism Policies in Contemporary Democracies. Immigrant Minorities. Evidence. France. https://www.queensu.ca/mcp/immigrant-minorities/evidence/france*

*11. Multiculturalism Policies in Contemporary Democracies. Immigrant Minorities. Results. https://www.queensu.ca/mcp/immigrant-minorities/ results.*

*12. Multiculturalism Policies in Contemporary Democracies. Immigrant Minorities. Evidence. Germany. https://www.queensu.ca/mcp/immigrant-minorities/evidence/germany*

*13. Multiculturalism/Definition, Impact, Challenges, & Facts ... https://www.britannica.com/ topic/multiculturalism*

*14. Organisation Racism Islamophobia Watch. Report on Racism snd Islamophobia in European French-Speaking Countries. 2014,2015, 2016, 2017. http://www.oriw.org/wp-content/uploads/2018/03/Rapport_ORIW.14.17.pdf*

*15. PM's speech at Munich Security Conference. https://www.gov.uk/government/speeches/pms-speech-at-munich-security-conference*

*16. Racism, xenophobia and related intolerance, p. 52 'Antisemitism and Islamophobia on display' https://fra.europa.eu/sites/default/files/fra-annual-report-2014_en.pdf (13*

*17. Şener Aktürk, "Siyasi mühendislik ve Avrupa'da dindar muhafazakar müslümanların dışlanması" SETA, İstanbul 2018, 98 s. https://setav.org/assets/uploads/2018/10/122.Siyasi-Mu%CC%88hendislik-tamrapor.pdf*

*18. Smee, J. (2010) 'The World from Berlin: Merkel's Rhetoric in Integration Debate is 'Inexcusable". Spiegel, 18 October. http://www.spiegel.de/international/germany/the-world-from-berlin-merkel-s-rhetoric-in-integration-debate-is-inexcusable-a-723702.html*

*19. Tell Mama Annual Report 2017. Beyond the Incident: Outcomes for Victims of Anti-Muslim Prejudice, Published 23 July 2018, p 108*

*20. The Guardian (2010). "Angela Merkel: German multiculturalism has utterly failed". https://www.theguardian.com/world/2010/oct/17/angela-merkel-german-multiculturalism-failed*

*21. The İndependent (2011). "Cameron: My war on multiculturalism". 5 February. www.independent.co.uk/news/uk/politics/cameron-my-war-on-multiculturalism-2205074.html*

*22. Widfeldt Anders, "The Growth of the Radical Right in Nordic Countries:Observations from the Past 20 Years"// Migration Policy İnstitute, June 2018*

**Orujova Tarlan Ahmed**
**Khazar University, Department of Political Science and Philosophy**

**COMPARISON OF MULTICULTURALISM AND ISLAMOPHOBIA IN WESTERN EUROPE**

**SUMMARY**

The article is devoted to the relationship between implementing of multiculturalism policy and spread of Islamophobia in Western Europe. In order to measure the interaction between multiculturalism and migration, the results of the European Multiculturalism Policy Index and the Migrant Integration Policy Index are compared, and the relationship between the migrant crisis and Islamophobia is analyzed.

The article argues that "the application of multiculturalism in European countries prevents the growth of Islamophobia, but the rejection of multiculturalism increases Islamophobic tendencies."

**Key words:** *multiculturalism policy, failure of multiculturalism, migration policy, islamophobia*

**Оруджева Тарлан Ахмед**
**Хазарский университет, кафедра политологии и философии**

**СРАВНЕНИЕ МУЛЬТИКУЛЬТУРАЛИЗМА И ИСЛАМОФОБИИ В ЗАПАДНОЙ ЕВРОПЕ**

**РЕЗЮМЕ**

Статья посвящена взаимосвязи между реализацией политики мультикультурализма и распространением исламофобии в Западной Европе. Чтобы измерить взаимодействие между мультикультурализмом и миграцией, сравниваются результаты Индекса европейской политики мультикультурализма и Индекса политики интеграции мигрантов, а также анализируется взаимосвязь между кризисом мигрантов и исламофобией.

В статье утверждается, что «применение мультикультурализма в европейских странах предотвращает рост исламофобии, но отказ от мультикультурализма усиливает исламофобские тенденции».

**Ключевые слова:** *политика мультикультурализма, неудача мультикультурализма, миграционная политика, исламофобия*

UOT: 321:330.342.22; 321(1-773); 94 (560)

# TÜRKİYƏDƏ İDARƏÇİLİK SİSTEMİ DƏYİŞİKLİYİNİN XARİCİ SİYASƏTƏ TƏSİRİ

**ZÜRİYƏ QARAYEVA**
*Azərbaycan Milli Elmlər Akademiyası*

*E-mail: zuriye.qarayeva@hotmail.com*

**Giriş**

Xarici siyasət, ayrı-ayrı dövlətlərin digər dövlətlərlə qarşılıqlı əlaqələrini əhatə edir. Qloballaşmanın ardınca, 21-ci əsrdə dövlətlərin qarşılıqlı inteqrasiyası çərçivəsində bu, xüsusilə vacibdir. Beynəlxalq cəmiyyətin və qloballaşmanın meydana gəlməsi ilə hər bir dövlət üçün xarici siyasətin təsirləri daha qabarıq olur. Buna görə də xarici siyasətin öyrənilməsi getdikcə daha vacib hala gəlir. Xarici siyasət ayrı-ayrı dövlətlər arasında beynəlxalq qarşılıqlı əlaqə üçün zəmin yaratdığına görə beynəlxalq münasibətlərdə bu iş xüsusilə vacibdir. Xarici siyasətin öyrənilməsi hər hansı bir siyasi elm məktəbi ilə məhdudlaşmır, hamı üçün aktual bir mövzudur.

**1. Prezident idarəçiliyi və xarici siyasət**

Demokratik sistemdəki konsensusa sahib olmayan hər hansı bir xarici siyasət uğurla nəticələnə bilməz. Nə olursa olsun, hər hansı bir siyasi sistemdə daxili siyasət xarici siyasət qərarlarına müdaxilə edir. Rəhbər şəxs beynəlxalq və daxili məcburiyyətlərlə eyni vaxtda mübarizə aparmalı və yerli və beynəlxalq səviyyədə uğurlu ritorika icra etməlidir. Daxili vəziyyət və beynəlxalq maraqlar arasında ziddiyyət yaranarsa, dövlət başçısı, ilk növbədə daxili siyasətə üstünlük verəcək. Müvafiq problemlərin həllinin ardınca beynəlxalq səviyyədəki məsələlərin müzakirəsinə başlayacaq.

Xarici siyasət, mürəkkəb daxili və beynəlxalq mühitdə hazırlanır və aparılır. Dövlət başçısının verdiyi qərarlar, qarşılıqlı əlaqələrin nəticəsidir. Dövlət başçısı tərəfindən qərar qəbul edilməsinin təməli ondan ibarətdir ki, hansı idarəçilik sisteminin tətbiq edilməsindən asılı olmayaraq, dövlət başçısının son məqsədi hakimiyyətdə qalmaqdır.[7] O, istənilən məqamda xarici siyasətlə əlaqədar qərarı qəbul etməzdən əvvəl müəyyən dərəcədə daxili gözləntiləri yerinə yetirmək məcburiyyətindədir. Çünki, mütləq hakimiyyətə sahib monarxın belə devrilmə qorxusu var. Bu səbəbdən daxili siyasətdəki tamamlıq onun üçün çox vacibdir.

Daxili siyasətdə demokratikləşmə islahatları, liberal strukturlaşmanın aparılması uğurlu xarici siyasət kursunun aparılmasına təsir göstərir. Məqalə Türkiyə nümunəsində prezident idarəçiliyinin xarici siyasətə təsirindən bəhs etdiyi üçün bu məqamda üstünlüyü idarəçilik formaları içərisində prezident üsul-idarəsinə verəcəyik.

Prezident idarəçilik forması icraedici hakimiyyətin sürətli qərar qəbul edə bildiyi sistemdir. Nəticədə proseslərə anında adekvat addım atmaq asanlaşacaqdır. Parlament idarəçilik formasında qərar qəbulu mexanizmlərində yavaşlıq və bundan qaynaqlanan problemlər ortadan qalxır. Parlament sistemində icraedici hakimiyyət prezident ilə Baş nazir arasında bölüşdürülüb. Müəyyən qərarlarda həm prezidentin, həm Baş nazirin imzası lazım olduğu üçün hər ikisinin ortaq məxrəcə gəlməsi çətin ola bilir. Prezident idarəçiliyində isə səlahiyyətlər prezidentdə olduğu üçün vahid qərar qəbulu mexanizmi sürətlənir. Həmçinin, koalisiya hökumətlərini aradan qaldırır. Parlament idarəçiliyində xaos rejiminin səbəbi koalisiya hökumətləri olduğu üçün, prezident üsul-idarəsi dolayısı ilə qarışıqlığı aradan qaldırır. Məsul şəxs əvvəlcədən bəlli olduğu üçün xarici siyasətdə yol verilən qüsurlara görə kimdən hesab sorulacağı bəllidir. Koalisiya qurulma ehtimalı olmadığı üçün xalq kimə səs verdiyini dəqiq bilir. Partiyalar seçkiqabağı vədlərini yerinə yetirmədiklərinə görə koalisiya ortaqlarını ittiham edə bilmirlər. Seçici növbəti seçkilərdə kimi mükafatlandıracağını, kimi cəzalandıracağını bilir. [2, 37]

**2. Prezident idarəçiliyinə keçiddən sonra Türkiyənin xarici siyasət uğurları**

Türkiyədə 16 Apreldə ümumxalq səsverməsi ilə qəbul edilən prezident idarəçilik sisteminin tətbiqi sadəcə daxili siyasətdə deyil, xarici siyasətdə də yeni dövrün başlanğıcı oldu. AK Partiyanın qızıl dövründə daxili siyasətdə demokratikləşmə uğurlu xarici siyasətin bazasını təşkil etdi. Sıradan bir dövlət olan Türkiyə artıq qısa müddətdə dünyanın vacib siyasi aktoruna və qlobal güc mərkəzinə çevrildi. Türkiyənin təhlükəsizlik qüvvələri AK Partiyanın uğurlu siyasəti nəticəsində DEAŞ və PKK-ya qarşı uğurlu əməliyyatlar həyata keçirərkən terror təhdidini ən aşağı səviyyəyə düşürməyi bacara bildi. 2017-ci ilin mart ayında "Fərat qalxanı" hərəkatı ilə sərhəd xəttini DEAŞ terror təhdidindən təmizləyən Türkiyə "Zeytun budağı" hərəkatı ilə də PKK-nın Suriyadakı qolu olan PYG-yə qarşı önəmli addım atdı. [8]

Afrin bölgəsinə illərdir nəzarət edən YPG terrorçuları beynəlxalq səviyyədə propaqanda həyata keçirərək həm Türkiyə daxilində, həm də ölkədən kənarda müxtəlif dairələri Türkiyənyə qarşı çıxardaraq PKK terror təşkilatı üçün təbliğat dəstəyi əldə edirdi. Suriyadan Türkiyəyə sızdırılan müxtəlif silah sistemi terror ilə mübarizə əməliyyatlarında təhlükəsizlik qüvvələri tərəfindən ələ keçirilmişdir. "Zeytun budağı" əməliyyatının uğurla başa çatması Türkiyə üçün bu bölgədə sərhəd təhlükəsizliyinin təminatı baxımından uğurlu addımdır. Bununla yanaşı, Afrindəki YPG terror təşkilatının məğlub edilməsi PKK-nın Türkiyənin cənub sərhədlərində terror dəhlizi qurma xəyalını puça çıxarmışdır.

Türkiyənin müstəqil xarici siyasəti özünü həm də ABŞ-la münasibətlərdə göstərdi. 2008-ci ildə prezident seçilən Barak Obamanın hakimiyyəti dövründə, Suriyadakı vətəndaş müharibəsindən sonra münasibətlər gərginləşmişdir. AK Partiya Donald Trampın prezident seçilməsinə böyük ümidlər bağlasa da, 2016-cı ildən münasibətlər nisbətən geriləmişdir. Çünki, AK Partiyanın müstəqil siyasət aparması, Türkiyənin regionda söz sahibi olan ölkəyə çevrilməsi Ağ Evi narahat etmiyə bilməzdi. Bununla yanaşı, AK Partiyanın ana xətti olan PKK Terror təşkilatının fəaliyyətinin dayandırılmasına cəhdlər Vaşinqtonun Yaxın Şərq planına maneədir. ABŞ İncirlik hərbi bazasına ehtiyacı azaldan addımlar atmağa, nüvə başlıqlarını başqa yerə daşımağa istiqamətlənmiş tədbirlər görməyə başladı. Bunun nəticəsidir ki, "F35" kimi yüksək texnologiyalı hərbi texnikanı Türkiyəyə verməməyi qərarlaşdırdı. Lakin Ərdoğan hakimiyyəti hava hücumundan müdafiə sistemi olan "S400"ləri Rusiyadan aldı. [6] Körfəz bölgəsində bir qrup ərəb ölkələri arasında narazılıqda Türkiyənin Qətəri dəstəkləməsi [5] də müstəqil siyasətin göstəricilərindəndir. Türkiyə dünyanın iri silah ixracatcılarından asılılığı minimuma endirmək üçün, son 15 ildə öz hərbi-sənaye kompleksini xeyli gücləndirərək, NATO-nun ABŞ-dan sonra ikinci böyük ordusuna çevrilmişdir. Türkiyə indi regionun qüdrətli ölkəsi olaraq, təsir gücünə malik aparıcı dövlətdir. Bu istiqamətdə atılan ən önəmli addımlardan biri 2019-cu ildə Liviya Milli Razılıq Hökuməti ilə dəniz sərhədlərinin delimitasiyası haqqında müqavilənin imzalanması olmuşdur. [3] Türkiyə dövləti Şimali Kiprin hüquqlarını nəyin bahasına olursa-olsun qoruyacağını bütün dünyaya açıq şəkildə göstərmişdir. Türkiyənin Livana biganə qalmaması, Suriyadakı hadisələrə göz yummaması, Şimali İraqın terror təşkilatlarına açılmasına imkan verməməsi, Dağlıq Qarabağ məsələsində qətiyyətlə Azərbaycanın yanında dayanması və işğal edilmiş torpaqların azad edilməsinin Azərbaycanın haqq işi olduğunu dünyaya bəyan etməsi onun müstəqil xarici siyasət yürütdüyünü sübut edən faktorlardandır.

Hakimiyyətinin ilk illərində Kürd məsələsi, Kipr və Erməni məsələləri ilə bağlı icra etdiyi islahatlar AK Partiyanın siyasi legitimliyini gücləndirmişdir. [1, 509-510] Dinamiklik, yenilikçilik, islahatçılıq, liderlik qabiliyyəti, əzmi və inandırıcılığı AK Partiyanın 2002-ci ildə hakimiyyətə gəlməyinə və 19 ildir iqtidarda qala bilməyinə səbəb olmuşdur. Beləcə, 2002-ci ildən etibarən, heçbir seçkidə məğlubiyyətə uğramamışdır.

**Nəticə**

Prezident idarəçilik sisteminin tətbiqi prezidentə daha çox səlahiyyət verməklə sistemli və uzunmüddətli hədəflərin müəyyən edildiyi xarici siyasətin həyata keçirilməsinə şərait yaradır. Prezidentin həm ali başkomandan, həm də xarici siyasətdə əsas fiqura çevrilməsi müvafiq siyasətdə tarazlığın qurulmasına imkan yaradır. Bunların yanı sıra digər idarəçilik formalarında prezidentin səlahiyyətləri ilə müqayisə etdikdə idarəçilik sisteminin dəyişməsi ilə Türkiyədə prezidentin səlahiyyətlərinin güclənməsi, xarici siyasətlə bağlı

daha aktiv qərarlar verə bilməsi, qanun hökmündə qərarnamə qəbul edə bilməsi beynəlxalq siyasətdə uğurların əldə edilməsinə böyük təsir etmişdir. Xüsusən son illərdə Türkiyənin beynəlxalq arenada formalaşan supergüc ölkə imici, dövlətlərin onunla hesablaşma ehtiyacı, güclü əks cəbhələrə baxmayaraq, regionda öz maraqlarını müdafiə edə bilməsi, ölkəmizin 44 günlük haqq savaşında Azərbaycanın yanında dayanması bu dövlətin müstəqil uğurlu xarici siyasət formalaşdırdığının göstəriciləridir. Bütün bunlar isə uğurlu daxili siyasətin davamıdır.

**Açar sözlər:** *Türkiyə, idarəçilik sistemi, prezident idarəçiliyi, xarici siyasət*

## ƏDƏBİYYAT SİYAHISI

1. Aktaş M., Bayram C. Başkanlık Sistemi. Ankara: Liberte, 2015
2. Bayram S. Türkiye'de başkanlık sistemi tartışmaları: Algılar, argümanlar ve tezler. Ankara: İstanbul, 2016
3. "Geçici Hükümet ve Libya'nın Yakın Geleceği", https://www.setav.org/gecici-hukumet-ve-libyanin-yakin-gelecegi/
4. Hussain Z. Z. The effect of domestic politics on foreign policy decision making. Feb. 7 2011, https://www.e-ir.info/2011/02/07/the-effect-of-domestic-politics-on-foreign-policy-decision-making/
5. ''Rus uzman: Türkiye'nin Katar'a desteği, Suudi Arabistan'ın saldırısını engelleyecek'', https://tr.sputniknews.com/analiz/201806291034076309-rus-uzman-turkiye-katar-destek-suudi-arabistan-saldiri-engelleyecek/
6. ''U.S. Ejects Turkey From F-35 Fighter Program'', https://www.wsj.com/articles/u-s-says-turkeys-purchase-of-russian-air-defense-system-undermines-nato-11563390166
7. Ulutaş U., Kemal İ., Kanat K.B. Türk Dış Politikasında Yeni Güncelleme//SETA Perspektif. May 2017. N 172. https://setav.org/assets/uploads/2017/05/172_Perspektif.pdf
8. ''Zaferin adı: Fırat Kalkanı ve Zeytin Dalı Harekatı'' https://www.gzt.com/jurnalist/zaferin-adi-firat-kalkani-ve-zeytin-dali-harekati-3460566

## SUMMARY

The article analyzes the role of domestic policy in foreign policy, the opportunities for successful domestic policy to influence foreign policy. The study examines the impact and consequences of presidential administration not only on domestic political issues, but also on foreign policy in the context of the transition from a parliamentary to a presidential system during the rule of the Justice and Development Party. In this context, domestic policy, foreign policy, forms of governance and Turkey's modern foreign policy successes are examined. This analysis was conducted with the study of the sources related to the subject, the analysis of the results obtained, the analysis and synthesis of the arguments, and also the comparative analysis method.

**Key words:** *Turkey, government system, presidential government system, foreign policy*

## РЕЗЮМЕ

В статье анализируется роль внутренней политики во внешней политике, возможности успешной внутренней политики влиять на внешнюю политику. В исследовании рассматривается влияние и последствия президентской администрации не только на внутриполитические вопросы, но и на внешнюю политику в контексте перехода от парламентской к президентской системе во время правления Партии справедливости и развития. В этом контексте рассматриваются внутренняя политика, внешняя политика, формы управления и современные успехи внешней политики Турции. Этот анализ проводился с изучением источников, связанных с предметом, анализом полученных результатов, анализом и синтезом аргументов, а также методом сравнительного анализа.

**Ключевые слова:** *Турция, формы государственного управления, президентская управления, внешняя политика*

**UOT:32:316.77; 32:070;**
**32.049.5; 32:316.65**

# SOSİAL NƏZARƏT

**XƏTAİ SALMANOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası, doktorant*

*E-mail: salmanovxetai3@gmail.com*

İdarəetmə fəaliyyətinin ən mühüm funksiyalarından biri hesab olunan nəzarət, idarəetmənin qanunauyğun və səmərəli fəaliyyətini təmin edir, qəbul olunmuş standartlardan kənara çıxma hallarının aşkarlanması və aradan qaldırılması kimi prosesləri əhatə edir. Müasir dövrdə istər idarəçilik fəaliyyətini, istərsə də cəmiyyəti nəzarət olmadan təsəvvür etmək mümkün deyil. Son dövrlər idarəçilik fəaliyyətinin şaxələnməsi, bu sahədə köklü islahatların aparılması, cəmiyyətin mürəkkəblik xüsusiyyətinin artması nəzarət sisteminin rolunu və əhəmiyyətini daha da artırır.

Ümumi mənada nəzarət dedikdə, fəaliyyətin qiymətləndirilməsi məqsədilə mövcud nəticələrin müəyyən olunmuş standartlarla müqayisə edilməsi, kənarlaşmaların müəyyən edilərək aradan qaldırılması kimi proseslər başa düşülür. Nəzarət, fəaliyyətin qanunauyğun təşkilinin ən fundamental elementlərindən biridir [6].

Nəzarət prosesi dörd mərhələdə həyata keçirilir:

Birinci mərhələ - bu mərhələdə standartlar və digər qiymətləndirmə meyarları müəyyən edilir. Nəzarət prosesinin bu mərhələsi çox önəmlidir. Çünki nəzarət obyektinin fəaliyyəti bu standartlar əsasında qiymətləndirilir. Nəzarət prosesinin gedişatı zamanı standartlara yenidən baxıla və ya standartlar dəyişdirilə bilər.

İkinci mərhələ- nəzarət obyektinin mövcud faktiki nəticələri ilə qəbul edilmiş standartların müqayisəsi aparılır. Nəticədə idarəetmədə mövcud olan kənarlaşmalar və digər neqativ hallar ortaya çıxır.

Üçüncü mərhələ- mövcud olan qanuna zidd halların və kənarlaşmaların aradan qaldırılması üçün müvafiq tədbirlər görülür.

Dördüncü mərhələ- mövcud kənarlaşmaların və neqativ halların gələcəkdə təkrarlanmaması üçün müvafiq qabaqlayıcı addımlar atılır.

Nəzarət fəaliyyəti müəyyən prinsiplər əsasında təşkil olunur. Bu prinsiplər nəzarətin şəffaflığını və effektivliyini təmin edir. Nəzarət sistemi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

1.Müstəqillik prinsipi
2.Qanunçuluq prinsipi
3.Obyektivlik prinsipi
4.Aşkarlıq prinsipi
5.Məxfilik prinsipi
6.Səmərəlilik prinsipi

- Müstəqillik prinsipi nəzarət fəaliyyətinin əsas prinsipi hesab olunur. Bu prinsipə görə nəzarət fəaliyyəti heç bir asılılıq olmadan, müstəqil formada həyata keçirilməli və müstəqilliyə mane olan amillərin qarşısı alınmalıdır.
- Qanunçuluq prinsipi nəzarət fəaliyyətinin müvafiq qanunvericilik əsasında demokratik tələblərə uyğun həyata keçirilməsini ehtiva edir. Bu prinsipə əsasən nəzarət fəaliyyəti zamanı qanun pozuntularına yol verən şəxslər məsuliyyətə cəlb olunmalıdır.
- Obyektivlik prinsipi nəzarət fəaliyyəti düzgün təşkil edilməli, yanlış informasiyaların, neqativ təsirlərin və nəzarət fəaliyyətinin obyektivliyinə təsir edən amillərin qarşısı alınmalıdır.
- Aşkarlıq prinsipi nəzarət prosesinin nəticələri barədə ictimaiyyətə məlumat verilməlidir. Aşkarlıq prinsipi idarəetmə fəaliyyətinin mövcud vəziyyətinin ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır.

Məxfilik prinsipi nəzarət prosesi zamanı əldə olunmuş informasiyaları icazəsiz və xəbərsiz paylaşmaq, yaymaq, ötürmək, şəxsi məqsədlər üçün istifadə etmək qəti qadağandır.

Səmərəlilik prinsipi resurslardan qənaətlə və məqsədəuyğun istifadə olunmalı və lazımsız itkilərin qarşısı alınmalıdır [9].

Müasir dövrdə idarəetmə sistemində mövcud olan əsas nəzarət formalarından biri sosial nəzarətdir. Sosial nəzarət dedikdə, fərdlərin davranış normalarını müəyyən edən və cəmiyyətdə inti-

zam formalaşdıran proseslərin məcmusu nəzərdə tutulur. Cəmiyyətin inkşafında xüsusi əhəmiyyət daşıyan sosial nəzarət, mürəkkəb, çoxfunksiyalı proses olmaqla, cəmiyyətlə bağlı müxtəlif prosesləri əhatə edir. Sosial nəzarət termini ilk dəfə olaraq elmə fransız sosioloqu Qabriel Tard tərəfindən gətirilmişdir. İlk öncə Qabriel Tard, sosial nəzarət termininə qısa tərif vermişdir. Belə ki, Tard sosial nəzarətə cinayət törətmiş fərdlərin normal həyata qaytarılması aləti kimi tərif vermişdir. Sonralar isə Qabriel Tard, sosial nəzarət terminini, sosiallaşma prosesinin mühüm tərkib hissəsi kimi izah etmişdir.

Elmi ədəbiyyatlarda sosial nəzarət termininə iki istiqamət üzrə tərif verilir:

1. Fərdlərin sosial davranışını nizama salmaq məqsədilə lazımi tədbirlərinin həyata keçirilməsi
2. Fərdlərin cəmiyyətdə qəbul edilmiş davranış normalarına əməl etməsinə nəzarət etmək.

Sosial nəzarət mexanizmi sabit və nizamlı cəmiyyətin formalaşmasında və cəmiyyətin hüquqi baxımdan inkşafında mühüm rol oynayır [1].

Sosial nəzarətin tətbiqi zamanı proseslər üç istiqamət üzrə icra olunur:

- I istiqamətə fərdləri mövcud olduqları cəmiyyətin normalarına uyğun şəkildə hərəkət etməyə məcbur edən proseslər daxildir;
- II istiqamətə fərdlərin sosial inkşafını təmin edən proseslər daxildir;
- III istiqamətə sanksiyaların tətbiqinin zəruri olduğu proseslər daxildir.

Müasir dövrdə sosial nəzarət cəmiyyətdə baş verən prosesləri tənzimləyir, cəmiyyəti nizamsızlıqdan və xaotiklikdən qoruyur. Bu mənada sosial nəzarət iki funksiya daşıyır. Bu funksiyalar aşağıdakılardır:

- mühafizəedici funksiya
- sabitləşdirici funksiya

Mühafizəedici funksiya cəmiyyəti sosial partlayış, xaotiklik və bu kimi digər problemlərdən mühafizə edir.

Sabitləşdirici funksiya sosial baxımdan sabit cəmiyyətin formlaşmasını təmin edir. Sosial nəzarətin hər iki funksiyası bir-biri ilə sıx şəkildə bağlıdır. Ümumi mənada sosial nəzarətin funksiyasalarını belə ifadə etmək olar:

Sosial nəzarətin mühafizə funksiyası insanların hüquq və azadlıqlarını təmin edir və qoruyur. Hüquqların qorunması və mühafizəsi nəticəsində sabit cəmiyyət formalaşır [10].

Müasir dövrdə rolu və əhəmiyyəti durmadan artan sosial nəzarət mexanizmini bir sıra tədqiqatçı-alimlər tədqiq etmişdir. Amerikalı sosioloq Edvard Ross sosial nəzarəti cəmiyyətdə sağlam mühitin formalaşdırılması məqsədilə davranışların qanunauyğun tənzimlənməsi formasında izah etmişdir. Edvard Ross, sosial nəzarətin fərdlərin xüsusiyyəti ilə bağlılıq təşkil etdiyini və sosial nəzarəti uzunmüddətli zamanın inkişaf nəticəsi kimi xarakterizə etmişdir.

Sosial nəzarət sahəsində mövcud olan problemləri tədqiq edən Robert Park sosial nəzarət anlayışına daha geniş tərif vermişdir. Robert Park sosial nəzarətin mahiyyətini cəmiyyətdə mövcud olan sosial qüvvələrlə fərdlər arasında nisbətin təmin olunmasının əsas aləti kimi ifadə etmişdir [2]. Robert Park sosial nəzarətin üç formada həyata keçirildiyini qeyd etmişdir:

1. sosial sanksiyalar;
2. ictimai rəy;
3. sosial institutlar.

Görkəmli sosioloq P. Berger, sosial nəzarətin xüsusiyyətlərindən (tipindən, növündən, formasından) asılı olaraq fərdlərə təsir dərəcəsinin dəyişdiyini ifadə etmişdir. Onun fikrincə, hər bir fərd konsentrik dairələrin mərkəzində mövqe tutur ki, bu dairələrin hər biri sosial nəzarət sistemidir. Berger fikrincə sosial nəzarət sistemi beş dairədən ibarətdir:

I dairə - ən böyük hesab dairə olunur və bu dairəyə siyasi-hüquqi sistem daxildir. Siyasi-hüquqi dairə dövlətin qanunvericilik mexanizmi ilə təmsil olunur və hər bir fərd bu dairənin tələblərinə tabe olmalıdır. I dairəyə fərdlərin daşıdıqları öhdəliklər (vergilərin ödənilməsi, hərbi xidmətə çağırış, mövcud qanunlara tabe olmaq və s.) daxildir.

II dairə - bu dairənin əsas alətləri ictimai əxlaq, adət və ənənələrdir. Mövcud cəmiyyətdə fərdlərə daima müxtəlif nəzarət olunur. Bu nəzarət müxtəlif subyektlər tərəfindən və hər bir subyektin öz səlahiyyətləri çərçivəsində həyata keçirilir.

III dairə - bu dairəyə iş fəaliyyəti zamanı peşə vəzifələrinə və müəyyən olunmuş məhdudiyyətlərə riayət olunması daxildir. Fərdlərə iş fəaliyyəti zamanı müxtəlif vasitələrlə nəzarət olunur. Misal olaraq, lizensiya təşkilatları, müxtəlif birliklər və həmkarlar ittifaqları tərəfindən həyata keçirilən nəzarəti göstərmək olar.

IV dairə - bu dairənin əsas aləti ictimai mühitdir. İctimai mühit dedikdə, fərdləri əhatə edən insanlar

nəzərdə tutulur. Cəmiyyətdə xüsusi rol oynayan ətraf mühit, fərdləri öz tələblərini çərçivəsində hərəkət etməyə sövq edir.

V dairə - Bu dairə fərdlər üzərində ailənin, şəxsi dostların müəyyən formada nəzarət etdiyini ehtiva edir. Fərdlərə ailənin və şəxsi dostların düzgün nəzarəti onun psixoloji inkşafına səbəb olur.

Sosial nəzarətin ilk iki (I və II dairə) dairəsi məcburi xarakter daşıyır. Sosial nəzarətin bütün dairələri fərdin sosiallaşmasında, sosial inkşafında və fəaliyyətinin nizamlı, tarazlı olmasında mühüm rol oynayır [8].

Sosial nəzarət üç element vasitəsilə icra olunur. Bu elementlər aşağıdakılardır:

1. Məcburilik, sosial sanksiyaların tətbiq olunması vasitəsilə.

2. Tərbiyə və sosiallaşma vasitəsilə.

3. Siyasi, maliyyə, hüquqi, mənəvi və məsuliyyətin digər formaları vasitəsilə.

- Məcburilik, sosial sanksiyaların tətbiqi dedikdə, qanun pozuntuları, müəyyən olunmuş norma və standartlardan kənarlaşma halları baş verdikdə, kənarlaşmaların və qanun pozuntularının qarşısını almaq və qanun aliliyinin təmin olunması məqsədilə məcburi tədbirlərin və sosial sanksiyaların tətbiq olunması nəzərdə tutulur.

- Tərbiyə və sosiallaşma dedikdə, fərdlər məqsədyönlü və şüurlu olaraq cəmiyyətdə mövcud olan adət-ənənələri, norma və standartları qəbul edirlər.

- Siyasi, maliyyə, hüquqi, mənəvi və məsuliyyətin digər formaları dedikdə, bütünlükdə qrup normaları- mədəni dəyərlər, adət-ənənələr başa düşülür. Sosial nəzarət mexanizmi mürəkkəb sturktura malik olub, bir çox elementlərin birləşməsindən təşkil olunur. Elmi mənbələrdə sosial nəzarət mexanizminin üç əsas struktur elementi göstərilir:

1. Hakimiyyət;

2. Normalar;

3. Sanksiyalar.

Hakimiyyət - sosial nəzarətin icrasının əsas elementi hesab olunur. Hakimiyyət qanunlar, davranış normaları formalaşdırır və formalaşmış normaların icrasına nəzarəti həyata keçirir. Sosial nəzarət və hakimiyyət terminləri bir-biri ilə bağlıdır. İstənilən bir fərd hakimiyyətin müəyyən funksiyasını həyata keçirə bilər. Misal olaraq, istənilən fərd baş vermiş qanun pozuntuları haqqında öz iradını bildirərsə və müəyyən mənada qanun pozuntularının qarşısının alınmasısına çalışarsa, bu zaman həmin fərd hakimiyyətin kiçik funksiyanı daşımış olur [3]. Hakimiyyətin üç əsas aspekti mövcuddur:

1. Direktiv aspekt- hakimiyyətin qəbul etdiyi qərarların, qanunların, normativ aktların icra olunmasını təmin edir. Bu aspekt hakimiyyət aspektləri içərisində aparıcı aspekt hesab olunur.

2. Funksional aspekt- hakimiyyətin ictimai idarəetmə funksiyasının icrasını nəzərdə tutur.

3. Kommunikativ aspekt- hakimiyyətin anlaşılan və başadüşülən vasitələrlə həyata keçirilməsini nəzərdə tutur.

Normalar - cəmiyyətdə nizamlı davranış qaydalarını formalaşdıran tələblərdir. Normalar nəyi etmək olmaz və nəyin edilməli olduğunu müəyyən edir. Cəmiyyətin idarə olunmasında xüsusi rol oynayan normalar aşağıdakı amillər baxımından əhəmiyyətlidir:

- Sabit cəmiyyət mühitinin formalaşmasını və inkşafını təmin edir

- Cəmiyyəti nizamsızlıqdan qoruyur

- Cəmiyyəti sıx birləşdirir

Sosial nəzarət zamanı istifadə olunan normalar bir sıra özünəməxsus xüsusiyyətlər daşıyır. Bu xüsusiyyətlər aşağıdakılardır:

- normalar elmi əsaslandırılmış, dərk olunmuş ümumi qaydalar toplusudur;

- normalar fərdlərin və sosial qrupların davranışları nəticəsində meydana çıxır;

- normalar fərdlərin davranışını, cəmiyyətdəki sosial əlaqələri və münasibətləri nizamla salır.

Sanksiyalar - qəbul edilmiş sosial normalara fərdlərin riayət etməsini stimullaşdıran tədbirlərin məcmusudur. Bu baxımdan sanksiyalar iki yerə ayrılır: Neqativ və pozitiv.

Neqativ - normaların pozulduğu təqdirdə cəzalandırma tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur. Pozitiv isə normalara əməl olunduqda mükafatlandırmanı nəzərdə tutur [7].

Sanksiyalar və normalar bir-biri ilə qarşılıqlı əlaqədədir. Sanksiyalar sosial normaları müdafiə edir və onlara riayət olunmasını olunmanı təmin edir.

Sosial nəzarətin tətbiqi zamanı istifadə olunan sanksiyalar dərəcəsinə görə təsnifləşdirilir. Dərəcələrinə görə sanksiyaların aşağıdakı formaları var:

- sərt;

- yumşaq;

- birbaşa;
- vasitəli.

Müasir dövrdə sosial nəzarətin iki növündən istifadə olunur:

Formal sosial nəzarət

Qeyri-formal sosial nəzarət

Formal sosial nəzarət iki istiqamət üzrə xarakterizə olunur. Birinci istiqamətə, qanuna zidd fəaliyyət sahələrinin müəyyən edilməsi və həmin sahələrə lazımi sanksiyaların tətbiq edilməsi daxildir. İkinci istiqamətə isə qanunla qadağan olunmamış fəaliyyət sahələrinin stimullaşdırılması daxildir. Formal sosial nəzarətin icrası xüsusi nəzarət təlimi keçmiş və nəzarət funksiyalarının həyata keçirilməsi üçün əmək haqqı alan səlahiyyətli nümayəndələr və agentlər tərəfindən həyata keçirilir [4].

Qeyri-formal sosial nəzarət qarşılıqlı münasibətlərin təzahürü nəticəsində formalaşır. Sosial nəzarətin qeyri-formal növünün əsas funksiyası cəmiyyətdə cərəyan edən qarşılıqlı əlaqələrin normativ qayada tənzimlənməsidir. Qeyri-formal sosial nəzarətin icrası sosial qruplar, sosial təşkilatlar və müəyyən səlahiyyətli nümayəndələr tərəfindən həyata keçirilir.

Formal sosial nəzarət miqyasına görə qeyri-formal sosial nəzarətdən daha geniş xarakter daşıyır. Bu mənada formal sosial nəzarət dövlət idarəçiliyinin bütün fəaliyyət istiqamətlərində əks olunur. Qeyri-formal sosial nəzarət fərdlərin əhatə etdiyi miqyasına görə kiçik qruplar ilə məhdudlaşır. Ona görə də bəzi elmi mənbələrdə qeyri-formal nəzarətə lokal, məhəlli, yerli nəzarət formasında təriflər verilir [5].

Sosial nəzarət cəmiyyətin idarə olunmasında, sosial mexanizmin inkşafında, qarşıya qoyulmuş sosial-iqtisadi hədəflərə müvəffəqiyyətlə nail olmaqda mühüm rol oynayır. Sosial nəzarətin düzgün formalaşdırılması idarəetmə fəaliyyətinin effektivliyini yüksəldir, insanların davranış normalarını nizamlayır və sosial sahələrin inkşafına səbəb olur.

**Açar sözlər:** *Sosial, Konstitusiya, Nəzarət, Sanksiya.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Əfəndiyev M., Şirinov A., Sosiologiyanın nəzəri problemləri. 2001.*

*2. Кравченко А. И., Социология. 2006.*

*3. Qalenkova Z. T. Ümumi sosiologiya. Tərcüməçi fəl.e.d., prof. Rüstəmov İ.B., 2007.*

*4. Quliyev R., Sosiologiya: nəzəriyyə və tədqiqat metodologiyası. 1995.*

*5. Məmmədova A.N., Sosial ekologiya. 2007.*

*6. Məmmədov F., İdarəetmə mədəniyyəti Xarici ölkələrin təcrübəsi. Bakı, 2013.*

*7. Муканов Р.Ж., Формирование доктрины социального контроля над преступностью и ее развитие в Республике Казахстан "Российский юридический журнал". 2010, N 5*

*8.Nağıyev Ə.T., Sosial iqtisadi inkişafin metodoloji aspektləri. Azərnəşr, 2002, s.296*

*9. Şahbazov K.A., "Менесмент". Bakı, 2007*

*10.Vahidov F., Ağayev T., Sosiologiya. 2005.*

## Social Control
## SUMMARY

Social control, which has a special place in control systems, regulates people's behavior and plays an important role in the development of society. One of the main tasks facing any state in modern times is to ensure and maintain order, stability in society. Because the formation of a stable society will give impetus to the social development of the state. For this reason, the formation of effective social control is one of the priorities of the social policy of each state.

**Keywords:** *Social, Constitution, Control, Sanction*

## Социальный контроль
## РЕЗЮМЕ

Социальный контроль, занимающий особое место в системах контроля, регулирует поведение людей и играет важную роль в развитии общества. Одна из главных задач, стоящих перед любым государством в современное время, - обеспечение и поддержание порядка, стабильности в обществе. Потому что формирование стабильного общества даст толчок социальному развитию государства. По этой причине формирование эффективного социального контроля является одним из приоритетов социальной политики каждого государства.

**Ключевые слова:** *Социальное, Конституция, Контроль, Санкция*

UOT 94 (479.24)

Tarix

# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ MİLLİ MƏDƏNİ DƏYƏRLƏRİN QORUNMASI VƏ İNKİŞAFININ ROLU

**NİGAR ABBASZADƏ**
*Sumqayıt Dövlət Universitetinin dissertantı*
*E-mail: sdu.adil@gmail.com*

## GİRİŞ

Son vaxtlar siyasi elmlər sırasında nisbətən cavan olan dövlətşünaslıq haqqında danışılır və çoxlu müzakirələr aparılır. Dövlətşünaslıqda ən mühüm istiqamətlərdən olan milli dövlətçilik və onun qorunub möhkəmləndirilməsi aktual problem olmaqla bərabər, həm də perspektiv istiqamətdir. Milli dövlətçilik və onun qorunub möhkəmləndirilməsi üçün zəngin tarixi keçmişə və ənənələrə malik olan xalqımızın milli mədəni dəyərlərin qorunub saxlanması bu gün həmişə olduğundan daha da aktualdır.

Müstəqilliyin bərpasından sonra keçən 29 il tarix üçün elə böyük müddət olmasa da, bu illərin hər birində uğurlarımız çox olmuşdur. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil Azərbaycanın mədəniyyət siyasəti xalqımızın milli dəyərlərini qorumağa, təbliğ etməyə yönəldilmişdir.

2003-cü ildən başlayaraq bütün sahələrdə olduğu kimi milli-mənəvi dəyərlərimizin qorunması, mədəniyyətimizin xarici ölkələrdə təbliği və tarixi abidələrin bərpası istiqamətində əhəmiyyətli layihələr həyata keçirilməyə başlanıldı. Bu gün görülmüş işlərdən bəhs edərkən dövlətçiliyimiz üçün mədəni milli dəyərlərimizin qorunub saxlanması və daha da inkişaf etdirilməsini xüsusi olaraq qeyd etməliyik. Ümummilli liderin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə mədəniyyət sahəsində də əsaslı islahatlar aparılmış, milli-mənəvi dəyərlərimizin inkişafı diqqət mərkəzində saxlanılmışdır.

2020-ci ilin 27 sentyabrından başanan 44 günlük Vətən müharibəsinin son mərhələsindən sonra Qarabağda erməni vəhşiliyi nəticəsində maddi mədəniyyət abidərinin əksəriyyətinin məhv edilməsi, onların bərpası məsələləri də mövzunun aktuallığını artırır.

Eyni zamnda bu istiqamətdə istər uğurlarımız, istərsə də problemlərimizin təhlili növbəti illər və yeni perspektiv üçün fəaliyyət istiqamətlərini və inkişaf hədəflərini düzgün müəyyən etməkdə bizə kömək edə bilər. Dövlətçiliyimizin inkişaf perspektivlərinin müəyyən edilməsi milli mədəni dəyərlərimizin qabaqcıl dünya sivilizasiyasına inteqrasiyası prosesi də nəzərə alınmaqla, bundan sonra da qorunması və möhkəmləndirilməsi sahəsində zəruri görüləcək işlərin kompleksini işləyib hazırlamağı zəruri edir. Hazırkı məqalədə 2003-cü ildən bəri bu sahədə görülmüş işlərin təhlil edilməsi də qeyd olunan məqsədə xidmət edir.

## ƏSAS HİSSƏ

2003-cü ilin oktyabrın 15-i Azərbaycan dövlətçiliyi tarixində mühüm anla yaddaşlarda əbədi qalacaq. Xalqımız bütün tarixi boyu olduğu kimi yenə də böyük müdriklik göstərib öz taleyini və dövlətimizə başçılıq etmək kimi məsuliyyətli missiyanı namizədliyi irəli sürülmüş siyasətçilərdən ən layiqlisi İ.Əliyevə etibar etdi.

Daim yenilənən beynəlxalq münasibətlərin tez-tez köklü dəyişikliklərə məruz qalması, xarici təsirlərin mövcudluğu şəraitində ulu öndər Heydər Əliyevin siyasi varisi və tarixi dövlət idarəçiliyi məktəbinin ən layiqli davamçısı İlham Əliyev milli dövlətçiliyimizin qorunub möhkəmləndirilməsi yolunda ən məsuliyyətli mərhələnin əvvəli sayılan 2003-cü ildən başlayaraq xalqımıza şərəfli və ləyaqətli xidməti ilə dövlətçiliyin bütün istiqamətlərdə inkişafını təmin etmək üçün misilsiz işlər görmüşdür.

Azərbaycan dövləti 2003-2017-ci illərdə,

cəmiyyət həyatının bütün sahələrində nəhəng uğurlara imza atmış və nüfuzlu beynəlxalq təşkilatların müntəzəm keçirilən sorğularının nəticələrində də təsdiq edildiyi kimi nəinki regionun, həm də postsovet məkanın iki aparıcı və qabaqcıl dövlətlərindən birinə çevrilmişdir. Azərbaycanın dövlətin idarəçiliyi sahəsində, mədəni inkişafda 15 ilə yaxın bir müddətdə əldə etdiyi yüksək göstəricilər postsovet respublikalarının, həm də inkişaf etmiş dünya dövlətlərinin göstəricilərini dəfələrlə qabaqlamışdır.

Tarixən zəngin təbii ehtiyatlara malik olması, əlverişli strateji coğrafi ərazidə yerləşməsi ilə eyni vaxtda milli-etnik və dini dözümlüyün yüksək səviyyəsinə görə müxtəlif sivilizasiyaları və mədəniyyətləri birləşdirən Azərbaycan bu gün başqa dövlətlərin liderlərinin nail ola bilmədikləri önəmli nəticərlə də öyünə bilər.

İ.Əliyevin hakimiyyətinin ilk illərindən başlayaraq görülmüş işlər cəmiyyətimizdə ictimai-siyasi sabitliyi, iqtisadi tərəqqini təmin etməyə yönəlmişdir. Dövlətin keçirdiyi hərtərəfli islahatlar, o cümlədən mədəni quruculuqda, insan və vətəndaş hüquqları və azadlıqların ən yüksək səviyyədə təminatı, vətəndaşların ölkənin idarə olunmasında iştirak formalarının təkmilləşdirilməsi ümummilli inkişafın sürətlənməsində, sonda isə milli dövlətçiliyimizin möhkəmləndirilməsində mühüm rol oynamışdır.

Dövlətimizin, onun ənənələrinin daha da möhkəmləndiyi və inkişaf etdiyi yeni mərhələnin bir sıra mühüm xüsusiyyətləri olmuşdur. İ.Əliyevin dövlətçiliyin daha da inkişaf etdirilməsi yolundakı səmərəli fəaliyyətinin nəticəsi olaraq cəmiyyətdə demokratik dövlət quruculuğu, qanunçuluğa və hüquq qaydalarına əməl olunması ilə eyni vaxtda milli – mədəni dəyərlərin qorunub saxlanılması da xüsusi diqqət mərkəzində saxlanılmışdır.

İ.Əliyevin prezidentliyi dövründə milli mədəni dəyərlərimizin daha da möhkəmləndirilməsi sahəsində əsrlərlə dövlətçilik tarixi olan dünya ölkələrinə örnək olacaq durmadan artan uğurlar qazanılmış və işlər görülmüşdür.

Bu nəticənin qazanılması isə öz vətəndaşlarını yüksək firavan həyat şəraiti ilə təmin edən, cəmiyyətdə ictimai-siyasi sabitliyə nail olan, həm də demokratik dəyərlərin hakim olduğu, dövlətin mövcudluğu şəraitində baş tutmuşdur.

İlham Əliyev demişdir ki, "hər bir ölkənin mənəvi, mədəni həyatı da ölkənin səviyyəsini göstərir. Bu sahəyə daha böyük diqqət göstərilməlidir" (8).

İlham Əliyevin hakimiyyətə gəldiyi ilk illərdən mədəni həyatımızın zənginləşməsi üçün ardıcıl olaraq sərəncamlar imzalamış və onların icrası diqqət mərkəzində saxlanılmışdır. Dövlət başçısı demişdir: "Azərbaycan xalqının çox zəngin mədəniyyəti, tarixi vardır. Biz haqlı olaraq öz mədəniyyətimizlə fəxr edirik. Bu gün Azərbaycan dünyada öz mədəniyyəti, musiqisi, tarixi ilə tanınan bir ölkədir" (7, s.1,4).

Azərbaycan dövlətçiliyinin yeni inkişaf mərhələsində keçmiş tarixi ənənələrin, o cümlədən milli mədəni - mənəvi dəyərlərin qorunub saxlanılması, onların yeni tarixi şəraitə uyğunlaşdırılması sahəsində görülmüş işlər digər sahələrdən heç də geri qalmamışdır.

2003-2017-cic illərdə milli mədəni - mənəvi dəyərlərin qorunub saxlanılması, onların yeni tarixi şəraitə uyğunlaşdırılması sahəsində görülmüş işlərin əsas istiqamətlərindən biri azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsi olmuşdur.

Azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsi sahəsində Ulu Öndər H.Əliyevin xidmətləri böyükdür. 2001-ci ildə dünya azərbaycanlılarının ilk dəfə bir araya gəlməsi və ilk həmrəylik qurultayında toplanması [2] Ulu öndərin "Azərbaycan dövləti harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının vətənidir" [9, s.6] ifadəsinin sübutu oldu.

Ulu öndərin "hər bir azərbaycanlı milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərləri yaşatmalıyıq" [9, s.6] sözlərinin bütün fəaliyyət dövründə rəhbər tutan İ.Əliyevin gördüyü işlər azərbaycançılıq ideologiyasını yeni yüksək mərhələyə yüksəldərək ona yeni ruh, yeni nəfəs verdi. Azərbaycançılıq ideologiyasının belə dinamik tərzdə inkişafı əslində yeni ideoloji dövlətçilik baxışlarının hazırlanması və formalaşmasını şərtləndirdi və dünya azərbaycanlılarının bu ideologiya ətrafında sıx birləşməsinin yeni mərhələlərinin məzmunu müəyyən etdi. 2003-2017-ci illərdə dünya azərbaycanlılarının 3 qurultayının keçirilməsi bu sahədə görülmüş işlərin nəticəsi idi [3, 4, 5].

Dövlətçilik ideologiyası, onun əsas istiqamətləri olan milli mənəvi və tarixi dəyərlərimizin qorunması bu illərdə xüsusi diqqət mərkəzində saxlanılmış və

görülmüş işlər mühüm əhəmiyyət kəsb etmişdir.

Bu dövr xalqın keçmiş tarixinə, dilinə, adət-ənənələrinə, mədəniyyətinə marağın xüsusi olaraq artması ilə əvvəlki illəri geridə qoyurdu. Dövlət başçımızın azərbaycanlıların dünyanın hər yerində milli və vətəndaş hüquqlarının qorunması məsələlərinə xüsusi önəm verməsi, xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin fəaliyyətini gücləndirmək üçün gördüyü işlər sübut etdi ki, dövlətimizin malik olduğu maddi-mənəvi inkişafdan yararlanmaq onların hər birinin hüququdur.

Bütün bu işlərin yekunu isə xaricdə yaşayan azərbaycanlıların imkanlarından istifadə edərək Azərbaycanın olduğu indiki yüksək tərəqqi səviyyəsinin və nailiyyətlərinin, bir sözlə Qarabağ münaqişəsi də daxil olmaqla, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına, onun beynəlxalq nüfuzunun artmasına, bununla da milli dövlətçiliyimizin daha da möhkəmlənməsinə xidmət etməsi idi.

Belə ki dövlətçiliyin taleyi, inkişaf perspektivləri bu gün dünyanın qabaqcıl ölkələrində bərqərar olunmuş demokratik dövləti idarə təsisatlarından çox asılıdır. Bu gün dünyanın beynəlxalq təşkilatların Azərbaycana, milli dövlətçiliyimizə münasibəti yalnız bu təsisatların cəmiyyətimizdəki indiki vəziyyəti, demokratiya prinsiplərinə necə əməl olunmasından asılı olaraq müəyyənləşdirilir.

Bu baxımdan bu günkü Azərbaycan XX əsrin sonlarında olduğundan xeyli fərqlidir. O vaxt bir tərəfdən müharibənin yaratdığı ağır vəziyyətin demokratik təsisatların fəaliyyətini çətinləşdirməsi, digər tərəfdən demokratik idarəçilik təcrübəsinin azlığı və digər sosial-siyasi xarakterli problemlər demokratik cəmiyyət quruculuğu prosesinin normal səviyyədə davam etməsini çətinləşdirirdi. Buna görə də beynəlxalq aləmdə dövlətimizin ünvanına yerli-yersiz iradlar tutulurdu.

Indiki mürəkkəb və qloballaşan dünyada Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və inkişafında mühüm rolu olan vətəndaşların vahid milli ideya - azərbaycançılıq idelogiyası ətrafında birləşdirilməsi üçün Ulu öndər H.Əliyevin əsasını qoyduğu siyasət bu gün İ.Əliyev tərəfindən rəsmi dövlət siyasəti səviyyəsinə yüksəldilərək dünya azərbaycanlılarını səfərbər etməyə kömək göstərmişdir.

İ.Əliyevin ilk dəfə prezident seçilməsi ilə başlayan demokratik quruculuğun yeni inkişaf mərhələsində bu məsələlər diqqət mərkəzində saxlanılmışdır. Bütün bunlar xalqımızın milli maraqlarına uyğun olaraq cəmiyyətdə tələb olunan və vaxtı çatmış sosial məsələlərin həllinə, siyasi plüralizmə geniş yol açılmışdır.

Böyük dövlətlərin tarixi təcrübəsi sübut etmişdir ki, dövlət idarəçilik qaydaları nə qədər möhkəm və sabit olarsa, həmin dövlətlərin daxili siyasi sabitliyi və beynəlxalq münasibətlər sistemində nüfuzu o qədər yüksək olur. Bu, yaşadığımız günlərdə hamılıqla qəbul edilmiş siyasi idarəçilik normalarına çevrilmişdir.

Azərbaycan Respublikası da bu baxımdan 2003-cü ildən bəri ölkə daxilində, cəmiyyətin idarəçiliyinin bütün sahələrində hamılıqla qəbul edilmiş birgə yaşayış normalarına, dövlətin demokratik əsaslarla idarəçiliyinə aparan mürəkkəb siyasi inkişaf yolunda uğurla irəliləyərək xalqımızın və dövlətimizin müstəqillikdən əvvəlki 70 il ərzində totalitar sistemin məhdudlaşdırdığı dövlətçilik ənənələrinin məhz demokratik cəmiyyətin qurulması və inkişafına hazır olduğunu sübut etmişdir.

Dövlət başçısının 2003-2017-ci illərdə dövlətçiliyin daha da möhkəmləndirilməsinə yönəlmiş fəaliyyətində milli mədəni nailiyyətlərimizin qorunması, daha da möhkəmləndirilməsi istiqamətində görülmüş işlərin xüsusi yeri, böyük əhəmiyyəti olmuşdur [10; 11].

Demokratik dəyərlərin, sosial ədalət siyasətin xalqımızın tarixində həmişə öz yeri və dərin izləri olmuşdur. Azərbaycan xalqının zəngin milli mədəni dəyərləri bugünkü demokratik cəmiyyət quruculuğu prosesinin məzmununu daha da zənginləşdirərək, dövlətimizin demokratiya və digər dəyərlərin möhkəmləndirilməsi istiqamətində yüksək sürətlə irəliləyərək dünyada qabaqcıl mövqelərə çatmasını təmin etmişdir.

Milli dövlətçiliyin yeni inkişaf mərhələsinin əsas istiqamətlərindən biri kimi cəmiyyətdə milli mədəni ənənələrimizin dünya mədəniyyəti, beynəlxalq sivilizasiyaya inteqrasiyasının təmin olunması istiqamətində də çox işlər görülmüşdür.

Dövlət başçısının uzaqgörən siyasəti hər sahədə uğurlarımızı təmin etmiş, milli mədəni ənənələrimizi daha da möhkəmləndirmiş, beynəlxalq aləmdə bizə müasir, sivil dövlət kimi yüksək və şərəfli tarixi mövqedə durmağımıza kömək etmişdir.

Bu gün ölkəmiz, mədəniyyət də daxil olmaqla,

bütün sahələrdə yeni islahatlar dövrünə qədəm qoyub. İlham Əliyevin mədəniyyət xadimləri ilə görüşləri mədəniyyətimizin inkişafına, yeni əsərlərin yaradılmasına, yaradıcı insanların ictimai həyatda, sənət aləmində fəallığının artmasına stimul yaratmışdır (6, s.1).

Azərbaycan vətəndaşlarının öz tarixi keçmişi ilə, milli dəyərlərlə, dövlətçilik ənənələri ilə indi həmişə olduğundan daha çox fəxr etməsinin, qürur duymasının əsas səbəbi də bundadır. Dövlətçiliyimizin inkişafının yeni mərhələsinin gedişi və qazanılmış yüksək nailiyyətlərimiz isə qürur duyğularımızı daha da gücləndirir.

İ.Əliyevin hakimiyyəti çox az sayda dövlət başçılarının fəaliyyəti üçün xarakterik olan sosial ədalət və humanist prinsiplərə əsaslanaraq idarə etməsi, insanların və vətəndaşların əsas hüquqları və azadlıqlarını təmin edən fəaliyyəti dövlətimizin adının aparıcı dünya dövlətlərlə yanaşı çəkilməsinə gətirib çıxarmışdır.

Qloballaşan dünyanın mürəkkəb hadisə və prosesləri qarşısında Azərbaycanda milli maraqlara əsaslanan dövlət siyasətinin həyata keçirilməsi ilə eyni vaxtda demokratik fəaliyyət və normal həyat şəraitinin hakim olması dövlətimizə yüksək, layiqli siyasi imic qazandırmışdır. Demokratikləşmə və sosial-iqtisadi tərəqqi proseslərinin bir-birindən ayrılmazlığı və möhkəm vəhdət təşkil etməsi yaşadığımız dünyada çox az sayda dövlətlərə aid edilən nadir hallardan biridir.

Son on yeddi ildəki mədəniyyət salnaməsini vərəqləyəndə, ürəkaçan mənzərə ilə qarşılaşırıq. Mədəniyyət obyektlərinin, ilk növbədə kütləvi nümayiş məkanları olan teatr və muzeylərin yüksək səviyyədə təmir-bərpası, ölkənin müasir inkişafını təcəssüm etdirən yeni mədəniyyət ocaqlarının yaradılması bu sahəyə göstərilən yüksək diqqət və qayğıdan xəbər verir.

Bu illər ərzində Prezident İlham Əliyev tərəfindən mədəniyyət sahəsi ilə bağlı 600-dən çox fərman və sərəncam imzalanıb. Dövlət başçısının qeyd etdiyi kimi, mədəniyyət sahəsində böyük investisiya proqramları reallaşdırılıb, paytaxtda və regionlarda bir sıra mədəniyyət mərkəzləri, teatr binaları, sərgi salonları, rəsm qalereyaları istifadəyə verilib, habelə, mövcud mədəniyyət obyektlərinin müasir standartlara uyğun təmiri, maddi-texniki bazasının gücləndirilməsi, muzey fondlarının komplektləşdirilməsi zənginləşdirilməsi istiqamətində bir sıra irihəcmli layihələr həyata keçirilib.

Prezidentin 2014-cü il 14 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası” (1, s.1) sonrakı dövr üçün ölkənin mədəni həyatının müasir tələblər səviyyəsində qurulmasına əsaslı stimul vermişdir.

## NƏTİCƏ

Bu gün Azərbaycanın mütərəqqi və fərqli sosial inkişaf modeli, cəmiyyət həyatının demokratikləşdirilməsi təcrübəsi və məblli mədəni nailiyyətlərimizin qorunması, daha da möhkəmləndirilməsi sahəsindəki nailiyyətlərdə dövlət başçısının rolu kifayət qədər müstəqillik tarixi olan dövlətlər üçün də örnəkdir.

Bugünkü Azərbaycan cəmiyyət həyatının bütün sahələrində yüksək uğurlara sahib olmuşdur. Əksər inkişaf göstəricilərimiz, o cümlədən mədəni inkişaf sahəsində də, orta dünya və Avropa səviyyəsini də keçir. Lakin bu hələ hər şey demək deyil. İrəlidə bizi yeni hədəflər və uğurlar gözləyir. Buna görə də hər bir sahədə olduğu kimi dövlətçiliyimizin möhkəmləndirilməsi, milli dövlətçilik ənənələrinin qoruyub saxlanması və daha da inkişafı perspektivləri hər birimiz üçün olduqca vacibdir.

Bu gün Azərbaycan incəsənəti ölkəmizi dünyada daha geniş miqyasda tanıtmaqdadır. UNESKO və İSESKO kimi mötəbər beynəlxalq təşkilatlar Azərbaycanı yüksək sivilizasiyalı bir ölkə kimi tanıyır. Bizim bir çox mədəniyyət abidələrimiz UNESKO-nun maddi və mənəvi irs siyahısına salınmışdır. Hər iki beynəlxalq təşkilatın xoşməramlı səfiri, Azərbaycanın Birinci vitse –prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin dünyada tanınmasında rolu çox böyükdür. Xüsusilə görkəmli sənət adamlarının - şairlərimizin, bəstəkarlarımızın, elm xadimlərimizin yubileylərinin UNESKO səviyyəsində keçirilməsi mədəniyyətimizə, incəsənətimizə verilən yüksək qiymətin nümunəsidir.

Ölkəmizdə mədəniyyət sahəsinin ahəngdar inkişafının təmin edilməsi, şübhəsiz, dövlət başçısının bu sahəyə yüksək qayğısının nəticəsi, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin milli-mədəni intibah amalının əbədi yaşayacağının təminatıdır.

**Açar sözlər:** *milli, mədəniyyət, dəyər, dövlət, ərazi, islahat, proqram, inkişaf.*

## ƏDƏBİYYAT SİYAHISI


*1. "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 14 fevral 2014-cü il. // Azərbaycan. - 2014. - 15 fevral. - s.1.*

*2. Dünya Azərbaycanlılarının I Qurultayı: Bakı şəhəri, 9-10 noyabr 2001-ci il / tərt. ed. Ə.M.Həsənov. - Bakı: Azərbaycan nəşriyyatı, - 2002. - 351 s.*

*3. Dünya Azərbaycanlılarının II Qurultayı: Bakı səhəri, 16 mart 2006-cı il / tərt. ed: N.Qurbanov, R.Hüseynov, E.Miraləm. - Bakı: Çaşıoğlu, - 2006. - 192 s.*

*4. Dünya Azərbaycanlılarının III Qurultayı: Bakı şəhəri, 5 iyul 2011-ci il / tərt. ed. L.Həmzəyeva, N.Qurbanov, E.Miraləm. - Bakı: Adventa MMC, - 2011. - 240 s.*

*5. Dünya Azərbaycanlılarının IV Qurultayı: Bakı şəhəri, 3-4 iyun 2016-cı il / - Bakı: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası, - 2016. - 81 s.*

*6. Nərimanoğlu M. Dövlət başçısı milli-mədəni inkişafın prioritetlərini müəyyənləşdirdi. Azərbaycan.- 2019. - 2 mart. - s.1; 6.*

*7. Qarayev Ə. Milli mədəni intibahın parlaq üfüqləri. Azərbaycan. - 2018. - 13 noyabr. - s.1; 4.*

*8. Orucov E. Prezident İlham Əliyev ulu öndərin mədəniyyət siyasətini uğurla davam etdirir. https://xalqqazeti.com/mobile/az/news/37492*

*9. Rafael Cəbrayılov. Heydər Əliyev və azərbaycançılıq ideologiyası // Azərbaycan. - 2011. - 17 may. - s.6.*

*10. Prezident İlham Əliyev və mədəniyyət, 2013-2018: 2 cilddə / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Prezident Kitabxanası",. I c. - Bakı: Nəşriyya Evi - Yayınevi, 2018. - 584 s.*

*11. Prezident İlham Əliyev və mədəniyyət, 2013-2018: 2 cilddə / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Prezident Kitabxanası"., II c. - Bakı: Nəşriyyat Evi - Yayınevi, 2018. - 440 s.*


**Abbaszade N.M.**

## ROLE OF PROTECTION AND DEVELOPMENT OF NATIONAL CULTURAL VALUES IN STRENGTHENING THE AZERBAIJANI STATEHOOD


### SUMMARY

The article says that the work done to preserve the historical traditions of the past, including national cultural and spiritual values, to adapt them to new historical conditions, at a new stage in the development of Azerbaijani statehood did not lag behind other spheres.

Today, the progressive and different model of social development of Azerbaijan, the experience of democratizing public life and the role of the head of state in the achievements in protecting and further strengthening our cultural achievements are an example for countries with a long history of independence.

After the last stage of the 44-day Patriotic War, which began on September 27, 2020, the destruction of most cultural monuments in Karabakh as a result of Armenian atrocities and their restoration also increase the urgency of the problem. Determining the prospects for the development of our statehood, taking into account the process of integrating our national cultural values into the advanced world civilization, requires the development of a set of measures that must be taken to further protect and strengthen it. The analysis of the work done in this area since 2003 serves the same purpose.


**Keywords:** *national, culture, value, state, territory, reform, program, development.*

**Абасзаде Н.М.**

## РОЛЬ ЗАЩИТЫ И РАЗВИТИЯ НАЦИОНАЛЬНЫХ КУЛЬТУР НЫХ ЦЕННОСТЕЙ В УКРЕПЛЕНИИ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОСТИ


### РЕЗЮМЕ

В статье говорится, что проделанная работа по сохранению исторических традиций прошлого, в том числе национальных культурных и духовных ценностей, по адаптации их к новым историческим условиям, на новом этапе развития азербайджанской

государственности не отстала от других сфер.

Сегодня прогрессивная и иная модель общественного развития Азербайджана, опыт демократизации общественной жизни и роль главы государства в достижениях в области защиты и дальнейшего укрепления наших культурных достижений являются примером для стран с долгой историей независимости.

После последнего этапа 44-дневной Отечественной войны, начавшейся 27 сентября 2020 года, разрушение большинства культурных памятников в Карабахе в результате армянских зверств и их восстановление также усиливают актуальность проблемы. Определение перспектив развития нашей государственности с учетом процесса интеграции наших национальных культурных ценностей в передовую мировую цивилизацию требует разработки комплекса мер, которые необходимо предпринять для ее дальнейшей защиты и укрепления. Этой же цели служит и анализ работы, проделанной в этой области с 2003 года.

**Ключевые слова:** *национальная, культура, ценность, государство, территория, реформа, программа, развитие.*

**UOT 94(479.24)**

**SABİR KƏRİMOV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əyani magistrantı*
*E-mail: karimovsabir1997@gmail.com*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBBAYCAN XƏZƏR DƏNİZ NEFTÇİXARMA SƏNAYE SAHƏSİNİN MODERNLƏŞMƏSİ (XX ƏSRİN 70-80-Cİ İLLƏRİ)

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbər seçilməsi ilə Xəzər dəniz neftçıxarma sənayesinin inkişafında yeni mərhələ başlandı. Azərbaycanlı alim, mühəndis və fəhlələrinin böyük əməyi ilə yaradılmış bu sahə Heydər Əliyevin xüsusi diqqətində idi. O, 1971-ci ildə Azərbaycan neftçiləri günü münasibətilə keçirilən müşavirədə dəniz neftçıxarma sənayesinin inkişafı, dənizdə neft hasilatının artırılması üçün respublika neftçiləri qarşısında konkret tapşırıqlar qoydu və onların həlli yollarını göstərdi. Bunlar da dəniz neft sənayesinin inkişafında mühüm rol oynadı. Xəzər dənizi üzrə neft hasilatında maksimum səviyyə 1970-ci ildə (12,9 milyon ton), qaz hasilatında isə 1982-ci ildə (14,3 milyard kubmetr) müşahidə edilmişdir və bunu aşağıdakı cədvəldən də aydın şəkildə görmək olar [6, s. 28].

**1965-1986-ci illərdə Azərbaycanda neft hasilatının dinamikası (min tonla)**

| İllər | Quruda | Dənizdə | İllər | Quruda | Dənizdə |
|---|---|---|---|---|---|
| **1965** | 10585 | 10915 | **1976** | 5632 | 9977 |
| **1966** | 10300 | 11429 | **1977** | 5672 | 9113 |
| **1967** | 9686 | 11919 | **1978** | 5335 | 8820 |
| **1968** | 8966 | 12172 | **1979** | 4900 | 8158 |
| **1969** | 7956 | 12464 | **1980** | 4850 | 8204 |
| **1970** | 7287 | 12900 | **1981** | 4703 | 7923 |
| **1971** | 6768,5 | 12434,4 | **1982** | 4666 | 6998 |
| **1972** | 6597,9 | 11788 | **1983** | 4286 | 7259 |
| **1973** | 6363,5 | 11900,7 | **1984** | 4057 | 7515 |
| **1974** | 6209,7 | 11544,8 | **1985** | 3909 | 8768 |
| **1975** | 5840,5 | 11361,67 | **1986** | 3902 | 8757 |

Buna qədər dənizin dayaz hissələrindəki böyük neft yataqları artıq kəşf olunmuş və istismara verilmişdi. Sonrakı illərdə, ətraf mühitin mühafizə orqanları tərəfindən Xəzər dənizinin şelf zonalarının böyük hissəsində kəşfiyyat-axtarış işlərinin aparılmasına qoyulan məhdudiyyətlərə görə, həm də dənizin 40 metrdən dərin hissələrində iş aparmaq üçün lazımi texniki avadanlıqların olmaması səbəbindən yeni yataqların işlənməsi dayandırıldı. Təbii ki, bu da neft hasilatı səviyyəsinin azalmasına səbəb oldu [17, c. 53].

1969-cu ilə qədər Azərbaycan SSR Nazirlər Soveti, eyni zamanda SSRİ Neft Sənayesi Nazirliyinə tabe olan bir qurum kimi fəaliyyət göstərən Azərbaycan SSR Neft Sənayesi Nazirliyinin fəaliyyəti artıq məqsədəuyğun hesab edilmirdi. Çünki həmin dövrdə, yuxarıdakı cədvəldən də göründüyü kimi, respublika neft sənayesində quruda neft çıxarılması tədricən azalır, dənizdə isə bunun əksinə olaraq neft hasilatında artım müşahidə olunurdu. Buna görə də Azərbaycan SSR Neft Sənayesi Nazirliyinin əvəzinə 1970-ci ildə iki – “Azərneft” və “Xəzərdənizneft” İstehsalat Birlikləri yaradıldı. SSRİ Neft Sənayesi Nazirliyinin 1970-ci il iyul ayının 16-da qəbul etdiyi qərara əsasən “Azərneft” və “Xəzərdənizneft” İstehsalat Birlikləri SSRİ Neft Sənayesi Nazirliyinin tabeçiliyinə verildi. “Azərneft” ölkənin quru sahəsində, “Xəzərdənizneft” isə dənizdə geoloji-kəşfiyyat, neft-qaz yataqlarının qazılması, istismar edilməsi və digər məsələlərlə məşğul olmalı idi [5]. Onu da qeyd etmək lazımdır ki, məhz 1970-ci ildə Xəzər dənizinin SSRİ-yə aid olan hissəsi sahildə yerləşən dörd müttəfiq respublikanın sektorlarına bölündü. “Xəzərdənizneft” İstehsalat Birliyinə axtarış, qazma və digər işləri yalnız Xəzərin Azərbaycan SSR-ə məxsus olan sektorunda deyil, SSRİ-yə

aid olan bütün sektorlarda aparmaq tapşırılmışdı. Sonralar “Xəzərdənizneft” İstehsalat Birliyi “Xəzərdənizneftqazsənaye” Ümumittifaq İstehsalat Birliyinə çevrildidi [4, s. 214; 19, c. 161]. Bu Birliklər həmin dövrdə İttifaqın ayrı-ayrı nazirlikləri tərəfindən idarə olunurdu. Belə ki, “Azərneft” İstehsalat Birliyi SSRİ Neft Sənayesi nazirliyinin, “Xəzərdənizneftqazsənaye” Ümumittifaq İstehsalat Birliyi isə Qaz Sənayesi nazirliyinin tabeliyinə verilmişdi.

1971-ci ildə “Xəzərdənizneft” İstehsalat Birliyi 5 neft-qaz çıxarma idarəsi, 5 zavod, 1 neft emalı tresti, 1 ixtisaslaşdırılmış təmir-tikinti idarəsini və başqa müəssisələri özündə birləşdirirdi. İstehsalat Birliyinin sadalanan müəssisələrində ümumilikdə 26,6 min nəfər işçi çalışırdı [15, s. 75].

Doqquzuncu beşilliyin ilk ilinin plan tapşırıqlarının yerinə yetirilməsi üzrə göstəricilərdən aydın olur ki, “Xəzərdənizneft” İstehsalat Birliyinin neft-çıxarma idarələrindən yalnız biri 7 aylıq planı ödəməyə başlayıb. Bu müddət ərzində Birliyin respublikaya 188 min tondan artıq neft borcu yaranmışdı. Nərimanov və Serebrovski adına neft-çıxarma idarələrində vəziyyət daha ağır idi. Müzakirələrdən sonra çatışmazlıqların aradan qaldırılması məqsədilə tədbirlər görüldü və bu neftçilərinin işində canlanma yaratdı, mədənlərdə təmir işləri ilin sonuna qədər yekunlaşdırıldı. Çətinliklərə baxmayaraq, respublika neftçiləri həmin ilin neft hasilatı üzrə plan tapşırıqlarını dekabr ayının 23-də yerinə yetirdilər.

Respublikada neft hasilatı üzrə plan tapşırıqları 1972-ci ildə 101,7 % yerinə yetirilmiş və plandan əlavə olaraq 98,6 min ton neft çıxarılmışdı. Qaz hasilatı üzrə plan tapşırıqları isə 109% faiz yerinə yetirilmişdi. “Azərneft” İstehsalat Birliyinə aid olan müəssisələrin hamısı neft və qaz hasilatı üzrə plan tapşırıqlarına müvəffəqqiyyətlə əməl etmişdi. Lakin “Xəzərdənizneft” İstehsalat Birliyinin işində bir qədər gerilik qeydə alınmışdı. Belə ki, Birliyə aid olan 5 neft-qaz çıxarma idarəsinin yalnız biri-Artyomneft idarəsi plan tapşırıqlarını tam şəkildə yerinə yetirmişdi. Ümumiyyətlə, Artyomneft neft-qaz çıxarma idarəsi 1975-ci ilə qədər bu sahədə Neft Sənayesi Nazirliyinin qalibi olmuş, plan tapşırıqlarını yüksək göstəricilərlə yerinə yetirmişdi. 1975-ci ildə bu idarə ilk 9 ay ərzində nəzərdə tutulan plan tapşırıqlarına əlavə olaraq 2500 ton neft hasil etmişdi.

Nazirlər Sovetinin 1973-cü ilin fevral ayında keçirilən iclasında Heydər Əliyevin təşəbbüsü ilə “Xəzərdənizneft İstehsalat Birliyinin 1971-1972-ci illərdəki işi haqqında” məsələ müzakirəyə çıxarıldı [12, s. 32]. Bundan başqa, Birliyin fəaliyyəti Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1973-cü ilin fevral plenumunda da tənqid edildi. Plenumda qeyd olunurdu ki, İstehsalat Birliyinin fəaliyyətində olan nöqsanlara görə onun 728 min ton neft borclu qalmışdır. İstehsalat Birliyinin fəaliyyətində mövcud olan nöqsanların aradan qaldırılması məqsədilə tədbirlər müəyyən edildi. 1973-ci il ərzində onun fəaliyyətinə təsir etmək üçün 500-dən artıq geoloji tədbirin yerinə yetirilməsi planlaşdırılmışdı.

Görülən tədbirlər nəticəsində neft hasilatında canlanma müşahidə olunmağa başlanmışdı. 1973-cü ildə “Xəzərdənizneft” İstehsalat Birliyinin işində də dönüş yarandı. İrəliləyişlər İstehsalat Birliyinin SSR-nin 50 illiyi, Sovet İttifaqı KP XXII qurultayı adına, Artyomneft və Nərimanov adına neft-qazçıxarma idarələrinin fəaliyyətində daha çox hiss olunurdu. Həyata keçirilən tədbirlər nəticəsində “Xəzərdənizneft” Birliyinə aid 165 quyuda qısa müddət ərzində bir quyudan 2 və daha artıq layın eyni zamanda ayrılıqda istismar işləri başlandı və bunun sayəsində əlavə 1,4 milyon ton neft çıxarıldı [16, s. 50].

1970-ci illərdə və sonrakı illərdə dənizdə yeni sahələrin açılması istiqamətində bir çox işlər görüldü və onu da qeyd etmək lazımdır ki, bu illərdə dənizdə neft sahələrinin kəşfiyyat-axtarış işləri quru ilə müqayisədə daha perspektivli idi. Bu illərdə dəniz neftçilərinə daha mühüm tapşırıqlar verildi, bu sahədə görülən işlər daha da gücləndirildi. Bu istiqamətdə qarşıya qoyulan mühüm vəzifələrdən biri və başlıcası 5-6 min metr və ondan daha da dərin olan quyuların qazılması işlərinin sürətləndirilməsi idi. 70-ci illərin ikinci yarısından etibarən bu məsələlərə diqqət və tələbkarlıq xeyli gücləndirildi.

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi illərdə Xəzər dəniz neft çıxarma sənayesində infrastrukturun müasirləşdirilməsi istiqamətində son dərəcə əhəmiyyətli və respublikanın gələcəyinə hesablanmış tədbirlər həyata keçirildi.

Azərbaycan Kommunist Partiyasının 1976-cı il yanvar ayının 28-də başlamış XXIX qurultayında respublika neft sənayesinin 1970-ci illərin I yarısın-

dakı nailiyyətlərinə yekun vuruldu, o cümlədən bu sahənin inkişafına maneçilik törədən məsələlər və onların həlli yolları müzakirə edildi. Qurultaydan sonra Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan rəhbərliyi tədbirlər proqramı işləyib hazırladı və Mərkəzə göndərdi. Proqram müzakirə edildikdən sonra 1976-cı il iyun ayının 26-da Sovet İttifaqı KP MK və SSRİ Nazirlər Soveti tərəfindən "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişafına dair Azərbaycan KP MK-nın təkliflərinə baxılmasının nəticələri haqqında" qərar qəbul edildi. Qərar respublika sənayesinin, o cümlədən neft sənayesinin daha da inkişaf etdirilməsi üçün yeni yollar açırdı.

Neft hasilatını nəzərdə tutulan səviyyəyə qaldırmaq məqsədilə 1976-1980-ci illərdə bu sahəyə 2 milyard manatdan artıq vəsait ayrılmışdı ki, bu IX beşillikdə bu sahəyə ayrılmış vəsaitdən 2 dəfə çox idi [13, s. 81]. Neft hasilatını nəzərdə tutulan səviyyəyə çatdırılması, köhnə neft yataqlarında neft və qaz hasilatı səviyyəsinin sabitləşdirilməsi və bu istiqamətdə həyata keçirilən tədbirlərin daha da genişləndirilməsi, dənizdə neft çıxarma işlərinin daha da intensivləşdirilməsi kimi məsələlər nəzərdə tutulmuşdu.

Hələ "Neft daşları" yatağının istismara başlanmasının 25 illiyi münasibətilə 1975-ci il iyun ayının 18-də Lenin adına sarayda keçirilən yığıncaqda respublika neftçiləri qarşısında yeni vəzifələr qoyulmuşdu. Yığıncaq zamanı qeyd olunurdu ki, dənizdə neft və qaz çıxarılmasının daha da intensivləşdirməsi üçün dənizin daha dərin yerlərində quyular qazmaq vacibdir. Tezliklə, 26 Bakı komissarı adına, 28 aprel adına, Kaveroçkin, Şahdili-dəniz və başqa perspektivli strukturlardan istifadə olunmalıdır və dənizin 100 metrdən də artıq olan dərinliklərində quyuların qazılması zəruridir [11].

Xəzər dəniz neftçıxarma sənayesində mövcud olan texniki avadanlıqlarla dəniz dərinliyinin yalnız 40 metrə qədər olan hissələrində işləmək mümkün idi və bu vaxta qədər Xəzərin Azərbaycan SSR-ə məxsus olan hissələrində həmin dərinliklərdə olan neft və qaz yataqlarının, demək olar ki, hamısı kəşf edilmişdi. Neft sənayesinin inkişafı üçün dənizin daha da dərin hissələrində yeni neft və qaz yataqlarının kəşfi zəruri idi. Belə vəziyyətin yaranması Heydər Əliyev başda olmaqla, respublika rəhbərliyini narahat edirdi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə problemin aradan qaldırılması üçün tədbirlər həyata keçirildi və dənizin daha dərin hissələrində işləməyə imkan verən qurğular alındı. Bunun üçün ilk olaraq, "Xəzər" tipli özüqalxan üzən qazıma qurğuları alındı ki, bu qurğular da 70 metrə qədər dəniz dərinliyində axtarış-kəşfiyyat və qazıma əməliyyatlarını aparmaq imkanı verirdi [8]. Bu qurğuların alınması tezliklə öz müsbət nəticəsini verdi, "Bulla-dəniz" və "Bahar" qaz-kondensat yataqları kəşf olundu və istismara verildi.

"Xəzər" tipli qurğulardan sonra həmin dövr üçün müasir olan "Şelf" tipli üzən yarımdalma qazma qurğuları alındı. Həmin qurğular 200 metr dəniz dərinliyində işləmək imkanı verdiyi üçün onların alınmasından sonra Xəzər dənizində aparılan kəşfiyyat-axtarış işlərinin miqyası daha da genişləndirildi [1]. 12 ildə Azərbaycan SSR-ə ilk olaraq dənizin 70 metr, sonra isə 200 metr dərinliyində işləmək imkanı verən 12 xüsusi qurğu gətirildi [10, s. 20]. Bu illərdə Azərbaycan SSR-ə gətirilən "Şelf" tipli yarımdalma qurğular Azərbaycan müstəqillik qazandıqdan sonrakı dövrdə 700 metrə qədər dəniz dərinliklərində qazma işləri aparmaq imkanı verən müasir "İstiqlal" və "Dədə Qorqud" qurğularının yaradılması üçün əsas rolunu oynadı.

Alınan müasir qurğuların səmərəli şəkildə istifadəsi Xəzərin Azərbaycan SSR- ə aid olan sektorunda 80-350 metr dəniz dərinliyində böyük neft ehtiyatına malik olan yataqların kəşf olunması ilə nəticələndi. Belə ki, 1979-cu ildə "Günəşli", 1985-ci ildə "Çıraq", 1987-ci ildə "Azəri", 1989-cu ildə "Kəpəz" və digər yataqlar aşkar olundu [4, s. 214].

Bu illərdə dərinliyi 2500 metr olan quyuların qazılmasında Q-25 və Q-38 qaz lift klapanlarının tətbiq edilməsi texniki-iqtisadi baxımdan böyük səmərə qazandırmışdı. Artıq sonrakı illərdə dərinliyi 3500 metr olan quyuların qazılması zamanı da bu texnologiya tətbiq edilirdi. Bundan başqa neft quyularının təmirində D-54 və D-85 dərinlik mühərriklərinin tətbiq edilməsi ilə qazıma işlərində irəliləyiş yaranmışdı [16, s. 62]. Həyata keçirilən bütün bu tədbirlər nəticəsində 1970-ci illərin sonlarında Xəzər dənizində 160-a qədər neft buruğu qaldırılmışdı.

Dənizdə çətin əməliyyatların həyata keçirilməsinin təşkil edilməsi üçün "Xəzərdənizneft" donanmasının müasir və müxtəlif əməliyyatlar icra edən gəmilərlə təchiz edilməsi vacib məsələ idi. Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik

etdiyi illərdə bu sahədə də mühüm irəliləyişlər əldə olundu, dənizdə müxtəlif əməliyyatları aparmağa imkan verən gəmilər-sərnişin daşıyan, boru çəkən, seysmik gəmilər, ağır yükləri qaldırmaq üçün gəmi-kranlar alındı. Bu illərdə Xəzər dənizində "İsrafil Hüseynov" və "Süleyman Vəzirov" borudüzən, geofiziki kəşfiyyat gəmiləri, 2500 ton ağırlığında yük qaldırmaq imkanı verən "Azərbaycan" qaldırıcı-kran gəmisi və digər vasitələr fəaliyyət göstərməyə başladı. Həmin dövrdə Xəzər dənizində, ümumiyyətlə, 75 fərqli növdə 400-dən artıq gəmi fəaliyyətdə idi [9, s. 119]. "Xəzərdənizneft" donanmasının maddi-texniki bazasının gücləndirilməsində 1970-ci ildə "Türkmənneft" dəniz nəqliyyatı departamentinin "Xəzərdənizneft" donanmasının tərkibinə verilməsi mühüm rol oynadı. Elə həmin ildə 19 gəmi yeni idarəçiliyin balansına verildi.

Neft sənayesinin yeni qurğularla təchiz edilməsi, ümumiyyətlə, bu sahənin modernləşdirilməsi bəhrəsini verməyə başladı. Belə ki, yeni kəşf edilmiş yataqlar sayəsində neft üzrə ehtiyatlar 2 dəfə, qaz üzrə 3 dəfə çoxaldı və hasilatın azalması sürəti əhəmiyyətli dərəcədə endi. İstismarına 1975-ci ildə başlanılmış "Bulla-dəniz", həmçinin "Bahar" qaz-kondensat yataqları hesabına 1981-ci ildə respublikada rekord səviyyədə (15 milyard m3) qaz hasil olundu. Bu illərdə həmin yataqlardan əldə edilən qazın bir hissəsi qonşu respublikalara göndərilirdi ki, bu "Dostluq kəməri" adlandırılan boru xətti vasitəsilə həyata keçirilirdi.

Respublika neft sənayesinin inkişaf etdirilməsi, modernləşdirilməsi sahəsində Heydər Əliyevin gördüyü mühüm işlərdən biri də dənizdə kəşf olunmuş yataqlarda platformaların tikilməsi məqsədilə əvvəlcə Həştərxanda inşa edilməsi planlaşdırılan Dərin Dəniz Özülləri Zavodunun Bakıda tikilməsi üçün icazənin alınmasıdır. Dünyada analoqu olmayan bu nəhəng sənaye obyektinin inşası 1978-ci ildə başlandı və 1985-ci ildə yekunlaşdırıldı. Zavodun inşası üçün İttifaq büdcəsindən 450 milyon ABŞ dolları vəsait ayrılmışdı. Günəşli neft yatağında fəaliyyətdə olan 12 platforma və istismar olunan 160 quyu məhz bu zavod sayəsində meydana gəlmişdi [10, s. 21]. Onu qeyd etmək lazımdır ki, Heydər Əliyevin adını daşıyan Dərin Dəniz Özülləri Zavodu hal-hazırda müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafına xidmət etməkdədir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Prezident Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərliyi dövründə neft sənayesinin inkişafı ilə bağlı fəaliyyətini belə xatırlayırdı: "1969-cu ildə Azərbaycana başçılıq etdiyim zamandan - 70-80-ci illərdə Azərbaycanın neft sənayesinin inkişaf etdirilməsi üçün çox böyük işlər görmüş və böyük xidmətlər göstərmişdim. Əgər o illərdə biz Xəzərin dərinliklərində olan neft və qaz yataqlarından istifadə edilməsi üçün lazımi maddi-texniki baza yaratmasaydıq və bu işləri aparmasaydıq, şübhəsiz ki, indiki nailiyyətləri əldə edə bilməzdik" [14].

Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının işlənməsi dənizin bütün şelfində karbohidrogen yataqlarının öyrənilməsi, axtarışı üçün təkan verdi və Azərbaycan SSR neftçilərinin bu sahədə olan təcrübəsini nəzərə alaraq, dənizin bütün sektorlarında axtarış-kəşfiyyat işləri aparmaq onlara həvalə edildi.

1970-ci ilin avqust ayından başlayaraq, Xəzər dənizinin Türkmənistan sektorunda geoloji-kəşfiyyat işləri, o cümlədən neft və qaz hasilatı "Xəzərdənizneft" İstehsalat Birliyinin öhdəçiliyinə verildi və gələcəkdə Xəzər dənizinin Qazaxıstan və Rusiya sektorlarında da bu işləri təşkil etmək tapşırıldı. Beləliklə, 1970-ci ildən etibarən Azərbaycan neftçiləri sistemli şəkildə Xəzərin bütün akvatoriyasında işləməyə başladılar. Xəzərin Rusiya, Qazaxıstan və Türkmənistan sektorlarında geoloji-kəşfiyyat işləri 1988-ci ilə qədər və qismən 1990-ci ilə qədər davam etmişdir. 1970-1990-cı illər ərzində Azərbaycan mütəxəssisləri tərəfindən geoloji-kəşfiyyat (seysmik kəşfiyyat, maqnit kəşfiyyat) və axtarış-qazıma işləri, Türkmənistan sektorunda isə kəşfiyyat işləri ilə yanaşı neft və qaz hasilatı, istismar qazıma işləri aparıldı. Bundan başqa, İran Milli Neft Şirkətinin sifarişi ilə Xəzər dənizinin İran sektorunda da kiçik miqyaslı axtarış-kəşfiyyat işləri həyata keçirilmişdi.

Xəzərin Türkmənistan sektorunda Azərbaycan və Türkmənistan mütəxəssislərinin birgə apardığı iş zamanı 5 yeni yataq-1972-ci ildə "Lam" qaz-kondensat, 1973-cü ildə Livonovo-şərq qaz, 1976-cı ildə 1 neft-qaz və Barinov adına qaz-kondensat, 1990-cı ildə isə Qubkin adına qaz-kondensat yataqları açılmışdır. Qaz-kondensatlı neft ehtiyatları 23 milyon ton, təbii qaz isə 55,9 milyard $m^3$ həcmində artırılmışdır. Bu dövr ərzində ümumi

63 quyu qazılmış, 17-si neft və 19-u qaz olmaqla, 36 quyudan məhsul əldə olunmuşdur. 1970-ci ildə 1990-cı ilə qədər ümumi 56 quyu istismara verilmiş, təqribən 2,2 milyon ton neft və 3,1 milyard m3 qaz hasil edilmişdir [2, s. 391].

Xəzərin Qazaxıstan sektorunda Azərbaycanlı mütəxəssislər tərəfindən 1973-cü ildən etibarən Orta Xəzər daxilində (işlərin əsas hissəsi), 1981-ci ildən isə Şimali Xəzər daxilində (burada 2-20 metr dərinliklərdə iş aparılıb) kəşfiyyat-axtarış işləri aparılmışdır. Həyata keçirilmiş tədbirlər nəticəsində 44 perspektivli struktur müəyyən edilmiş, 8 struktur isə axtarış-qazma işlərinə hazırlanmışdır.

Xəzər dənizinin Rusiya sektorunun Azərbaycanlı mütəxəssis-geoloqlar tərəfindən sistemli şəkildə öyrənilməsinə 1972-ci ildə başlanmış və 1990-cı ilə qədər davam etmişdir. Bu işlər, əsasən, sektorun Dağıstan hissəsini əhatə edirdi. Burada böyük miqyasda geofiziki kəşfiyyat işləri, əsasən, seysmik kəşfiyyat işləri aparılmışdır. Axtarış-qazma işləri "İnçxe-dəniz" və "İnçxe-dəniz-2" strukturlarında həyata keçirilmişdir. 1972-ci ildə "İnçxe-dəniz" neft yatağı açıldı, lakin sonrakı dövrdə Dağıstan Respublikasının Nazirlər Soveti bu hissələrdə qazma işləri aparılmasını qadağan etdi. 1975-ci ildən başlayan geofiziki kəşfiyyat işləri sektorun, əsasən, Dağıstan hissəsini əhatə etsə də, Kalmık və Həştərxan hissələrində də kiçik miqyaslı işlər görülmüşdür. Görülən işlər nəticəsində 23 perspektivli struktur müəyyən edilmiş, 2 struktur isə axtarış-qazma işlərinə hazırlanmışdır [2, s. 393].

Azərbaycanlı mütəxəssislərin 1970-ci ildən 1988-ci ilə qədər Xəzər dənizinin şimalından cənubuna qədər apardıqları axtarış-kəşfiyyat işləri nəticəsində 350-yə qədər perspektivli struktur müəyyən edilmişdir.

Onu qeyd etmək lazımdır ki, 1970-1980-ci illərdə Xəzərin Azərbaycan sektorunda "Günəşli, "Çıraq", "Azəri" və başqa perspektivli yataqlar aşkar edilsə də, həmin dövrdə quruda yeni tapıntıların sayı çox az idi. Ümumiyyətlə, görülən işlərə baxmayaraq, artıq 60-cı illərin axırlarından etibarən neft hasilatında tədricən enmə müşahidə edilirdi və bunun bir sıra səbəbləri var idi. İlk olaraq, quruda məşhur olan neft yataqları uzun illər intensiv şəkildə istismar edildiyinə görə artıq onlarda mövcud olan ehtiyatlar tükənirdi, lakin maya dəyəri və ehtiyat baxımında həmin yataqlara bərabər yeni yataqlar aşkar olunmamışdı. Digər tərəfdən də köhnə yataqlardan neft hasil etmək, iş aparmaq üçün xərclər getdikcə artırdı. Dənizdə neft hasilatı üçün çəkilən xərclər qurudakı yataqlarla müqayisədə yüksək idi. Bundan başqa, Qazaxıstan SSR, Qərbi Sibir və SSRİ-nin digər ərazilərində yeni neft yataqlarının kəşf olunması Mərkəzin Azərbaycan SSR neft sənayesi sahəsinə, bu sahənin problemlərinə diqqətinin azalmasına səbəb olmuşdur [7, s. 129]. SSRİ üzrə neft hasilatında Azərbaycan SSR-nin xüsusi çəkisi get-gedə azalırdı. Belə ki, bu göstərici 1950-ci il üçün 39,1 faiz idisə, 1960-cı ildə 32,1 faiz, 1970-ci ildə 5,7 faiz, 1980-ci ildə isə 2,4 faizə enmişdi [5].

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi bu illərdə Xəzər dəniz neft çıxarma sənayesinin inkişafında yeni mərhələ oldu. Dəniz neft sənayesinin inkişafı üçün müasir qurğular, müxtəlif təyinatlı gəmilər gətirildi və dənizin daha dərin hissələrində işləmək imkanı əldə edildi. "Oktyabrın 60 illiyi", "Azərbaycan", "Xəzər" üzən buruqlarının köməyi ilə dənizin 60-70 metr qatı altında 6 min metr dərinlikdə quyular qazıldı, dənizin 84 metr dərinliyində neftçıxaran buruqlar yaradıldı. Ümumiyyətlə, bu illərdə neft sənayesində görülmüş işlər, sahənin modernləşdirilməsi Azərbaycan müstəqillik əldə etdikdən sonra neft strategiyasının işlənib hazırlanması üçün təməl rolunu oynadı.

**Açar sözlər:** *neft, dəniz neft sənayesi, geoloji-kəşfiyyat, neft və qaz hasilatı, müasir texnologiya, modernləşmə*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Abdullayev R. Azərbaycan neft sənayesinin modernləşməsində Heydər Əliyevin rolu // Yeni Azərbaycan, 7 may 2011. s. 4*

*2. Azərbaycan nefti dünya siyasətində. Beş cilddə. III cild. Bakı, Azərnəşr, 1998. 387 s.*

*3. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild. Bakı, Elm, 2008. 608 s.*

*4. Bəhramov C.Ə. Azərbaycan nefti. Bakı, Expo-Orq, 2010. 352 s.*

*5. Bəhramov C. Ə. Heydər Əliyev və Azərbaycan neft sənayesi 1969-1991-ci illərdə // İki sahil, 22 avqust 2019-cu il. s. 11*

*6. Hacızadə E.M. Azərbaycanın quruda neftqazçıxarma kompleksində iqtisadi islahatlar və səmərəlilik problemləri. Bakı, Elm, 1998. 144 s.*

*7. Heydər Əliyev. İki cilddə, I cild. Bakı, Turxan,*

*2013. 498 s.*

*8. Heydər Əliyev-müstəqjl Azərbaycan dövlətinin qurucusu, milli neft strategiyasının banisi // Xalq qəzeti, 12 dekabr 2019-cu il*

*9. Həsənov R. Azərbaycan neft sənayesinin inkişaf tarixi // Tarix və onun problemləri jurnalı. Bakı 2014. №3, s. 116-123*

*10. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, Təhsil, 2004. 472 s.*

*11. Neft və qaz çıxarılmasında yeni zirvələri fəth etməli, V.İ. Lenin adına sarayda təntənəli yığıncaq. V.D. Şaşin yoldaşın nitqi // Kommunist qəzeti, 20 yanvar 1971-ci il.*

*12. Nəbiyev B.E. Heydər Əliyev və Azərbaycan SSR-in iqtisadi inkişafı (1969-1982-ci illər). tarix e. n. al. dər. a. üçün təq. ed. dis. Bakı 2007. 183 s.*

*13. Səmədzadə Z., Musayev M. Onuncu beşillikdə Sovet Azərbaycanının iqtisadi və sosial inkişafı. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1981. 178 s.*

*14. «Şahdəniz» yatağında əldə edilmiş nəticələrin Azərbaycan Prezidenti Heydər Əliyevə təqdimat mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi // Azərbaycan qəzeti, 13 iyul 1999-cu il.*

*15. Zeynalov İ.X. Azərbaycanın iqtisadi və sosial inkişafı. Tarix e. d-ru. a. dər. al. üçün təq. ed. dis. Bakı, BDU nəşriyyatı, 1998. 407 s.*

*16. Zeynalov İ.X. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər). Bakı, BDU nəşriyyatı, 1996. 314 s.*

*17. Алиев И.Г. Каспийская нефть Азербайджана. Москва, Известия, 2003. 712 с.*

*18. Бахрамов Д.А. Развитие нефтяной промышленности Азербайджанской ССР в 70-80-е гг. XX века // Вопросы истории. Баку 2017, №3, стр. 155-163*

**Сабир Каримов**
**Гейдар Алиев и развитие каспийской нефтедобываюший промышленности Азербайджана (70-80-е годы XX века)**
**РЕЗЮМЕ**

К концу 60-х годов XX века все основные морские месторождения на азербайджанском секторе Каспия во многих глубинах моря были открыты, поскольку существующие технологии позволяли им работать на глубине до 40 метров. По инициативе Гейдара Алиева было закуплено современное оборудование, позволяющее работать сначала на глубине 70 метров, затем на глубине 200 метров. В результате масштабы разведки на шельфе расширились. Таким образом, под руководством Гейдара Алиева была проведена модернизация морской нефтедобывающей промышленности и проделана важная работа для будущего экономического развития республики.

**Ключевые слова:** *нефть, морская нефтяная промышленность, геологоразведка, добыча нефти и газа, современные технологии, модернизация*

**Sabir Karimov**
**Heydar Aliyev and the development of the Caspian oil industry (the 70-80 s of XX century)**
**SUMMARY**

By the end of the 60s of the XX century, all the main offshore fields in the Azerbaijani sector of the Caspian Sea were discovered in many depths of the sea, since existing technologies allowed them to work at depths of up to 40 meters. On the initiative of Heydar Aliyev, modern equipment was purchased, which allows working first at a depth of 70 meters, then at a depth of 200 meters. As a result, the scale of offshore exploration has expanded. Thus, under the leadership of Heydar Aliyev, the modernization of the offshore oil industry was carried out and important work was done for the future economic development of the republic.

**Keywords:** *oil, offshore oil industry, geological exploration, oil and gas production, modern technology, modernization*

UOT 94(479.24)

# I ŞAH ABBASIN HAKİMİYYƏTİ İLLƏRİNDƏ SƏFƏVİ DÖVLƏTİNİN BÖYÜK MOĞOL İMPERİYASI İLƏ MÜNASİBƏTLƏRİNƏ DAİR

**HİKMƏT ABDULLAYEV**
*Tarix üzrə fəlsəfə doktoru*

*E-mail: mubariz.aqalar@gmail.com*

Səfəvi dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən birini əsası 1526-cı ildə qoyulmuş türk-müsəlman dövləti olan Böyük Moğol imperiyası ilə münasibətlər təşkil edir. Səfəvilər dövləti ilə Moğollar arasında münasibətlər hələ I Şah İsmayılın dövründə – Böyük Moğol dövlətinin yaranmasından əvvəl qoyulmuş, Şah I Təhmasibin, II Şah İsmayılın və Şah Məhəmməd Xudabəndənin dövründə iki dövlət arasında dostluq münasibətləri mövcud olmuşdu. Lakin bu dövrdə diplomatik münasibətlər bir qədər passiv olmuş, Qəndəhar uğrunda mübarizə iki dövlətin daha da bir-biri ilə sıx dostluq münasibətləri qurmasına əngəl törətmişdi (1, s.72). Digər tərəfdən, Səfəvi - Osmanlı müharibələri bu münasibətlərin daha geniş xarakter almasına mane olmuşdu. Belə ki, Şah I Təhmasibin hakimiyyəti illərində əsasən qərbdə osmanlılarla müharibə aparan Səfəvilər, xarici siyasətdə şərqdə yerləşən dövlətlərlə münasibətlərə lazımi diqqət ayıra bilməmişlər.

Səfəvi dövlətinin istər daxili və istərsə də xarici siyasətində gərgin bir dövrün yaşandığı XVI əsrin 80-ci illərinin sonlarında hakimiyyətə gəlmiş I Şah Abbas 1590-cı ildə Osmanlı imperiyası ilə Səfəvi dövləti üçün əlverişsiz İstanbul sülhünü imzaladıqdan sonra bütün diqqətini ordunun yenidən qurulmasına və dövlətin qüdrətinin yenidən bərpa edilməsinə yönəltdi. I Şah Abbas Böyük Moğol imperatoru Əkbərlə ittifaq yaratmağa hələ Xorasanın hakimi olduğu dövrdə - cəhd göstərmişdi. Bu məqsədlə o, 1583-cü ildə Mürşüd Təbrizini Moğol sarayına göndərmişdi. Lakin Əkbər şah (1556-1605) bu elçiliyə etinasız yanaşmışdı.

I Şah Abbas hakimiyyətə gəldikdən sonra Xorasanı Şeybanilərdən geri almaq üçün hərbi əməliyyatlara başlamaq ərəfəsində Şeybanilərə qarşı birgə mübarizə aparmaq məqsədilə Əkbər şahla ittifaq bağlamaq üçün 1591-ci ildə Yadigar Əli Sultanın rəhbərliyi altında Böyük Moğol sarayına elçilər göndərilmişdi (2, s.592). Yadigar xan özü ilə I Şah Abbasın Əkbər şaha ünvanlanmış məktubunu da aparmışdı və bu məktubda iki dövlət arasında dostluğun yaradılması və çətin anlarda qarşılıqlı şəkildə bir-birinə kömək göstəriləmsindən bəhs edilirdi: “Bütün bu səmimi arzulardan sonra Sizin diqqətinizə çatdırırıq ki, hamıya mənim rəhmətlik babamla sizin şərəfli və qüdrətli atanızın dostluğu birliyinin səbəbləri aydındır. Hümayun həzrətləri bizim yanımıza gələndə iki xoşbəxt hökmdar möhkəm ittifaq bağladılar və bu ittifaqın onlardan sonra da davam edəcəyinə, saxlanmasına inam bildiridilər. Bu şöhrətli hökmdarlar taxtda olduqları zaman bu əhdi, ittifaqı çox şərəflə yerinə yetirirdilər. Onlar daim dostluq münasibətlərini möhkəmləndirmək üçün tədbirlər görür, məktub və elçiliklərlə əlaqə saxlayırdılar. O dövrün məşhur hökmdarları belə onların bu dostluğuna həsəd aparırdı. Biz həmişə dostluq münasibətlərini qoruyub saxlayacağıq və əgər Əkbər həzrətləri çətin məsələlərin həllində hər hansı bir məsləhət verərsə, biz onu yerinə yetirməyə çalışacağıq” (1, 119).

Təbii ki, nümayəndə heyətini və belə təmtəraqlı bir məktubu göndərməklə I Şah Abbas Moğol imperatoruna özbəklərə qarşı müharibədə birgə çıxış etməyi təklif edirdi. Məktubda Səfəvi dövləti ilə Böyük Moğol imperiyası arasında hələ XVI əsrin əvvəllərindən yaranmış dostluq münasibətlərinin xatırlanmasından məqsəd də məhz bu idi. Lakin Şeybanilərlə hələ XVI əsrin 60-cı illərindən Səfəvi dövlətinə qarşı birgə çıxış etmək üçün danışıqlar aparılması və Qəndəharın vaxtilə (1558-ci ildə) I Təhmasib tərəfindən tutulması səbəblərindən Əkbər

şah I Şah Abbasın təklifinə rədd cavabı vermişdi (1, s. 74).

Aydındır ki, I Şah Abbasın hakimiyyəti illərində Səfəvi dövləti ilə Böyük Moğol imperiyası arasında münasibətlərin diplomatik istiqamətdə davam etdirilməsinə baxmayaraq, iki dövlət arasında ərazi problemi ilə bağlı gərginlik qalmaqda idi. Bu iki türk dövləti arasında münasibətlərin gərginləşməsinə səbəb olan ərazilər isə strateji əhəmiyyətə malik Dekan və Qəndəhar əraziləri idi. Bir tərəfdən müstəqil siyasət yürüdən Dekan əmirləri ilə Səfəvi dövlətinin isti münasibətləri, digər tərəfdən isə Qəndəharın Səfəvi dövlətinə birləşdirilməsi Böyük Moğol hökmdarlarını narazı salırdı.

Səfəvi dövləti ilə Böyük Moğol imperiyası arasında siyasi-diplomatik münasibətlərin ciddi məqamlarından birini Dekan məsələsi təşkil edirdi. İslamın şiəlik məzhəbini qəbul etmiş Dekan əmirlikləri (Əhmədneqar, Bicapur, Berar, Bidar və Qalakənd) öz müstəqilliklərini qoruyub saxlayırdılar (3, s.92). Daima Böyük Moğol imperiyasına, xüsusilə də Əkbər şahın işğalçılıq siyasətinə qarşı mübarizə aparan bu əmirliklərə hər hansı bir dövlətlə ittifaq yaratmaq lazım idi və belə bir dövlət regionun aparıcı dövləti olan Səfəvi dövləti oldu. Hələ I Şah İsmayılın dövründən başlayaraq Dekan əmirlikləri ilə Səfəvi dövləti arasında elçilər mübadiləsi başlamış, hətta I Şah Abbasın dövründə bu münasibətlər qohumluq əlaqələri ilə möhkəmləndirilmişdi (3, s.93).

Əgər ilk Böyük Moğol hökmdarları Baburun (1526-1530) və Hümayunun (1530-1556) hakimiyyəti illərində moğollar Səfəvi dövləti ilə münasibətləri gərginləşdirməmək üçün Dekan əmirliklərinin tabe edilməsinə bir o qədər də əhəmiyyət vermirdilərsə, Əkbər şahın dövründə, xüsusilə də XVI əsrin 80-ci illərində Dekana qarşı münasibət dəyişdi və buraya moğolların hərbi yürüşləri təşkil edildi və Cənubi Hindistan Böyük Moğol imperiyasının tərkibinə qatıldı. Osmanlı dövləti ilə müharibələr aparan (1578-1590) və siyasi böhran dövrünü yaşayan Səfəvi dövləti özünün müttəfiqləri hesab etdiyi Dekan əmirlərinə kömək edə bilmədi və yaranmış əlverişli şəraitdən istifadə edən Əkbər şah Dekan məsəlsini Böyük Moğol imperiyasının xeyrinə həll etmiş oldu. Dekanın Böyük Moğol imperiyasına birləşdirilməsi ilə Əkbər şah bütün Hindistan ərazisinin moğolların hakimiyyəti altında birləşməsinə nail oldu.

Səfəvi dövləti ilə Böyük Moğol imperiyası arasında mübahisəli məsələlərdən biri də Qəndəhar məsələsi idi. Qəndəhar vilayəti hələ 1558-ci ildə Şah I Təhmasib tərəfindən Səfəvi dövlətinin tərkibinə qatılmışdı və bu da iki dövlət arasında münasibətlərin soyuqlaşmasına səbəb olmuşdu. Bu ərazi I Şah Abbasın hakimiyyəti dövründə də iki dövlət arasında gərginlik ocağı kimi qalırdı. Əvvəllər Sultan Hüseyn Mirzə tərəfindən idarə edilən bu vilayət, onun ölümündən sonra I Şah Abbasın oğlanları arasında iki hissəyə – Qəndəharla Harmisir və Zamindavərə bölünmüş, Qəndəhar Müzəffər Hüseyn Mirzə, Harmisir və Zamindavər isə Rüstəm Mirzə tərəfindən idarə edilməyə başlanmışdı.

XVI əsrin 90-cı illərinin əvvəllərində bir tərəfdən Osmanlı imperiyası ilə, digər tərəfdən isə özbəklərlə müharibə aparan Səfəvi dövlətinin vəziyyətinin ağırlaşmasından istifadə edən Əkbər şah 1590-1595-ci illərdə Qəndəharın ələ keçirilməsi məqsədilə hərbi əməliyyatlar həyata keçirdi. Qəndəharın tutulması istiqamətində Əkbər şahın apardığı hərbi əməliyyatlarda uğur qazanmasına şərait yaradan amillərdən biri də Səfəvi şahzadələri arasında gedən mübarizə idi. Zamindavərin 1593-cü ildə Şeybanilər tərəfindən tutulmasından sonra qardaşı ilə münaqişə vəziyyətində olan Rüstəm Mirzə Böyük Moğol imperiyasına gedərək, Əkbər şahdan sığınacaq alır və Multan vilayətinin hakimi təyin edilir. Zəmindavəri tutduqdan sonra Şeybanilər Qəndəhara da təzyiqi artırırlar və yaranmış əlverişli şəraitdən istifadə edən Əkbər şah Hüseyn Mirzəyə ittifaq qurulmasını təklif edir. Bu iitifaqa görə Əkbər şah Hüseyn Mirzəyə Şeybanilərə qarşı mübarizədə kömək etməli, əvəzində isə Qəndəhar Böyük Moğol imperiyasına birləşdirilməli və Hüseyn Mirzə Hindistanda istədiyi ərazinin hakimi təyin edilməli idi. 1595-ci ildə Hüseyin Mirzə Əkbər şahın təklifini qəbul etdi və Qəndəharı moğolların ixtiyarına verdi (4, s.77).

Qəndəhar uğrunda mübarizənin getdiyi bir şəraitdə 1594-cü ildə Əkbər şah Mirzə Ziyaəddinin rəhbərliyi altında Səfəvi sarayına I Şah Abbasa ünvanlanmış məktubla elçilər göndərdi. Məktubda Əkbər şah Qəndəharın ələ keçirilməsinin iki dövlət arasında münasibətlərin pisləşməsinə səbəb olmayacağına və gələcəkdə də onlar arasında dostluq münasibətlərinin inkişaf edəcəyinə ümid etdiyini bildirirdi (5, 361). Bu, Əkbər şahın Səfəvi sarayına

göndərdiyi ilk tam heyətli elçilik idi. Hətta 1597-ci ildə Qəzvinə gəlib çatan nümayəndə heyətinin şərəfinə I Şah Abbas təntənəli qarşılanma mərasimi təşkil etdirmişdi.

Qəndəharın moğollar tərəfindən ələ keçirilməsindən sonra I Şah Abbas Böyük Moğol imperiyası ilə münasibətləri nizama salmaq üçün dəfələrlə Böyük Moğol imperiyasının paytaxtı Aqra şəhərinə elçilər göndərsə də, Əkbər şah və Cahangir şah (1605-1627) Şeybanilərlə münasibətləri korlamamaq üçün Səfəvilərlə diplomatik münasibətləri genişləndirmək istiqamətində mühüm addımlar atmırdılar. 1598-ci ildə I Şah Abbas Hatəm bəy Ordubadinin tərtib etdiyi məktubla Mənuçöhr bəy Eşikağasıbaşının rəhbərliyi altında yenidən Böyük Moğol imperiyasına elçilər göndərdi. Məktubda Səfəvi şahı Xorasanı geri almaq üçün Şeybanilərə qarşı başlayacağı müharibədə birgə mübarizə aparmaq üçün ittifaq yaradılmasını təklif edirdi (1, s.127). Lakin I Şah Abbasın bu məktubuna da Əkbər şah tərəfindən nəzakətlə rədd cavabı verilmiş, hətta Şeybanilərlə sülh yaradılması təklif edilmişdi. Mənuçöhr bəyi 4 il öz sarayında saxladıqdan sonra Əkbər şah yalnız 1602-ci ildə öz elçisi Məhəmməd Məsum xanla birlikdə onu Səfəvi sarayına göndərmişdi (5, s.448).

1605-ci ildə Böyük Moğol şahı Əkbər şahın ölümündən sonra hakimiyyətə gəlmiş Cahangir şahın dövründə də I Şah Abbas moğollarla münasibətləri nizamlamağa, Qəndəharı yenidən geri qaytarmağa cəhd etmişdi. 1606-cı ildə Səfəvi dövlətinin Fərəh, Sistan, Herat və digər sərhədyanı vilayətlərinin hakimləri Qəndəharın geri qaytarılmasına cəhd göstərsələr də, bu cəhdlər heç bir nəticə verməmişdi. 1609-1611-ci illərdə Yadigar Əli Sultanın rəhbərliyi altında Böyük Moğol imperiyası sarayına nümayəndə heyəti göndərilmişdi (5,s.782). Nümayəndə heyəti ilə göndərilmiş məktublarda I Şah Abbas Cahangir şaha atasının ölümü ilə bağlı başsağlığı vermiş və hakimiyyətə gəlməsi münasibəti ilə onu təbrik etmişdi. Elçini səmimi qarşılayan və ona hədiyyələr verən Cahangir şah bu müraciətin bir qədər gecikməsi səbəbindən incimiş və nümayəndə heyətini yalnız 1613-cü ildə Böyük Moğol elçisi Xan Aləmlə birlikdə geriyə – Səfəvilər dövlətinə yola salmışdı.

I Şah Abbas Qəndəharın geri qaytarılmasına diplomatik yolla nail olmağa çalışırdı və bu məqsədlə də bir-birinin ardınca Böyük Moğol imperiyasına bahalı hədiyyələrlə elçiliklər göndəririrdi. 1616-cı ildə I Şah Abbas Məhəmməd Rza bəyin rəhbərliyi altında Böyük Moğol imperiyasına yeni nümayəndə heyəti göndərdi və bu nümayəndə heyəti Acmirdə olan Cahangir şah tərəfindən yüksək səviyyədə qarşılandı. 6 ay Moğol sarayında qalan Məhəmməd Rza bəy hədiyyələrlə geri qayıtdı. 1620-ci ildə isə Zeynal bəyin rəhbərliyi altında Moğol sarayına yeni nümayəndə heyəti göndərildi. Lakin bu elçiliklərin heç biri I Şah Abbasın əsas istəyini – Qəndəharı geri qaytarmaq arzusunu yerinə yetirə bilmədi.

Bütövlükdə, 1620-1621-ci illərdə I Şah Abbas Böyük Moğol sarayına qiymətli hədiyyələr və məktublarla daha 5 nümayəndə heyəti göndərmiş, hər dəfə də iki ölkə arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi istiqamətində qarşılıqlı anlaşmaların vacibliyini qeyd etməklə yanaşı, Qəndəharın geri qaytarılmasını vurğulamışdı. Lakin I Şah Abbasın bu tələbi Böyük Moğol hökmdarı tərəfindən etinasızlıqla qarşılanmışdı. Məhz buna görə də, I Şah Abbas Qəndəhar vilayətini hərbi yolla geri qaytarmaq qərarına gəlmişdi.

1621-ci ildə I Şah Abbas özünün xüsusi nümayəndəsi vasitəsilə Böyük Moğollardan Qəndəhar və Zəmindavar vilayətlərinin Səfəvilərə verilməsini tələb etdi. Bu istiqamətdə aparılan danışıqlar heç bir nəticə vermədikdə, I Şah Abbas 1622-ci ilin fevralında İsfahandan yola düşərək iki istiqamətdə Qəndəhara və Zəmindavara hücum hərbi yürüş təşkil etdi (5, s.705). Bu zaman cənubda – Dekanda hind feodalları ilə mübarizə aparan və Səfəvi dövləti tərəfdən təhlükəsizliyin təminatına arxayın olan Cahangir şah Qəndəharda çox az qüvvə saxlamışdı və belə bir əlverişli məqamdan I Şah Abbas istifadə etmək qərarına gəldi. Bir müddət mühasirədə saxlanılan Qəndəhar 1622-ci il iyunun 21-də Səfəvilər tərəfindən azad edildi və onun idarəçiliyi Gəncalı xana tapşırıldı (6, s.223). 1622-ci il iyunun 25-də isə Zəmindavar geri qaytarıldı (5, 564-573; 7, s.124).

Qəndəharın azad edilməsindən sonra da Səfəvi dövləti ilə Böyük Moğol imperiyası arasında münasibətlər dinc məcrada davam edirdi. Bunu I Şah Abbasın 1623-1625-ci illərdə Cahangir şaha göndərdiyi məktublar da sübut edir. Bu məktublarda Səfəvi şahı yenə də iki dövlət arasında dostluq münasibətlərinin davam etdirilməsindən və

əlaqələrin kəsilməsinin yolverilməz olduğundan bəhs edilir (1, s.127). Təbii ki, Cahangir şah I Şah Abbasın hərbi uğurlarını və Səfəvi dövlətinin qüdrətini nəzərə almaya bilməzdi. Mövcud vəziyyətdə Qəndəhar uğrunda Səfəvi dövləti ilə hərbi qarşıdurma Böyük Moğol imperatoruna qələbə vəd etmirdi. Osmanlı imperiyası və Şeybanilərlə müharibələrdə I Şah Abbasın əldə etdiyi uğurlar bir daha göstərirdi ki, artıq Səfəvi dövləti öz əvvəlki qüdrətində bərpa edilmişdir və güclü mərkəzləşdirilmiş dövlət kimi öz sözünü deməyə qadirdir. Bundan başqa, Böyük Moğol imperiyasının özündə də mərkəzdənqaçma meyllərinin güclənməsi, xüsusilə də şahzadə Cahanın mütəmadi qiyamları imperiyanın daxilində də bir sıra problemlərin meydana çıxmasına səbəb olmuşdu.

Beləliklə, I Şah Abbasın hakimiyyəti illərində Səfəvi dövləti ilə Böyük Moğol imperiyası arasında siyasi-diplomatik münasibətlər inkişaf etmiş, qarşılıqlı elçilər mübadiləsi həyata keçirilmiş və bir-birinə etimad nümayiş etdirilmişdir. Yalnız Dekan və Qəndəhar məsələləri iki türk dövləti arasında müəyyən dövrlərdə münasibətlərin soyumasına səbəb olmuşdur ki, bu da bir tərəfdən Böyük Moğol imperiyasında mərkəzdənqaçma meyllərinin artması (Dekanda əmirlərin qiyamları) və I Şah Abbasın Səfəvi dövlətinin ərazi bütövlüyünü bərpa etməsi istiqamətində yeritdiyi siyasətlə bağlı idi. Son nəticədə, I Şah Abbas qarşısına qoyduğu məqsədə nail olur və Osmanlı imperiyasına, Şeybanilərə və portuqaliyalılara qarşı apardığı müharibələrin nəticəsində əldə etdiyi uğurlara bunu da əlavə edir – Qəndəharı azad edir.

**Açar sözlər:** *xarici siyasət, diplomatiya, dövlət*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Фарзалиев А.,Мамедова Р.Сефевиды и Великие Моголы в мусульманской дипломатии. Санкт-Петербург: 2004*

2. خانبابا بيانى. ظام ايران در دوره صفوى. تهران: ستاد بزرگ ارتشتاران، ۱۳۵۳

3. *Riazul Islam. Indo Persian relations: A study of the political and diplomatic relations between the Mughul empire and Iran. Tehran: Iranian Culture Foundation, 1970.*

4. *Азимджанова С.А. Государство Бабура в Кабуле и Индии. М.,1977*

5. اسكندر بيگ تركمان ، تاريخ عالم اراى عباسى ، تهران *1314* ، جلد *1-2*

6. جبارى. قندهار و نقش آن در روابط پر فراز و فرود ايران و هندوستان، صفويه هاى شيعه ميان ايران و شيبانيان (مجموعه مقالات). گردهمايى تاريخ ايران زمين، دانشگاه تبريز، تبريز، *1383*

7. *Рахмани А.А. ‘’Тарих-и алам арай-и Аббаси” как источник по истории Азербайджана, Баку, 1960*

### О взаимоотношениях Сефевидов с Великими Моголами в годы правления Шах Аббаса I.
### РЕЗЮМЕ

В настоящей статье исследуется взаимоотношения Сефевидского государства с Великими Моголами в годы управления в конце XVI – начале XVII в. На основе средневековых источников и произведений исследователей автор показывает основных направлений во взаимоотношениях между этими тюрксими государствами. В статье исследуется Кандагарский вопрос и решения этого вопроса со стороны Шах Аббаса I. В статье определяется роль Сефевидского государства в сохранении мира и стабильности между этими государствами.

**Ключевое слово:** *внешняя политика, дипломатия, государство*

### Attitudes about Safavid’s country with Great Mogol empire power in the provinces of I Shah Abbas.
### SUMMARY

In the submitted article it is spoken about attitudes of Safavi empire and Great Mogol empire in the end of XVI century - at the beginning of XVII century. From the works of medieval sources and research works author wanted to show attitudes of these two turkish empires. In article is spoken about Qandahar issue and solution of these problem by Shah Abbas, the role of Safavi country needs to esteblish stability and peace between these two countries.

**Key words:** *foreign policy, diplomacy, state*

UOT 94(479.24)

# TURUKKULARIN AŞŞUR EKSPANSİYASINA QARŞI MÜBARİZƏSİ TARİXİNDƏN

**AYŞƏ NƏRİMANOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əyani magistrantı*

*E-mail: ayse.nerimanova02@gmail.com*

III Ur sülaləsinin süqutu Mesopotamiyada iki əsrdən çox davam edən siyasi dağınıqlıq dövrünün başlanğıcı oldu. E.ə. XIX əsrin sonalarından I Şamşi-Adad tərəfindən bütün Yuxarı Mesopotamiyanı əhatə edən Aşşur dövlətinin əsası qoyuldu. Qərbdən fərqli olaraq Dəclə çayının şərq istiqamətindəki əraziləri zəbt etmək və möhkəmlənmək burada yaşayan yerli əhali tərəfindən ciddi müqavimətə rast gəlir. Nəticədə, I Şamşi-Adadın hərbi ekspansiyasına qarşı mübarizədə iki əsrlik fasilədən sonra qədim Azərbaycan tayfalarının adı mixi yazılı mətnlərdə yenidən xatırlanmağa başlayır.

Mesopotamiyada baş verən siyasi hadisələrdə Azərbaycanın qədim tayfalarının iştirakı barədə məlumatları keçən əsrin 30-50-ci illərində aşkara çıxarılmış Mari (Tell-Həriri) və Şuşuarra (Tell-Şemşara) arxivlərindən alırıq. Dəclənin şərqində yerləşən ərazilər uğrunda aşşurlular və turukkuların qarşıdurması Maridən tapılmış iyirmiyə qədər olan məkubtubda öz əksini tapmışdır. Mari məktublarında hadisələrin Aşşur mövqeyindən şərh olunmasına, xronoloji ardıcıllığın və hərbi əməliyyatlarla bağlı toponimlərin dəqiq məlum olmamasına baxmayaraq, məktblar turukkuların I Şamşi-Adadın Dəclədən şərqdəki əraziləri işğal etməsinə qarşı duran ciddi qüvvə olduqlarını aydın göstərir [9, s. 41]. Quti, lullubi və turukku tayfalarının Aşşurun işğalçılıq siyasətinə qarşı apardığı mübarizə haqqında məlumatlar isə Şuşuarra məktublarında qeyd olunmuşdur. Turukkalılar uzun müddət Mesopotaminin şəhərlərinə və krallıqlarına dəfələrlə basqın edən yarım köçəri yaşayan bir xalq kimi qəbul edilirdi. Ancaq C.Eidem və Y.Lösyeyə görə, Şuşuarra arxivləri tərəfindən verilən dəlillər, Turukkuların nisbətən mürəkkəb bir siyasi quruluşa sahib bir sıra boylardan meydana gəldiyini göstərir. İtabalhum krallığı bu siyasi birləşmələrdən ən əhəmiyyətlisi idi.

Aşşur hökmdarı I Şamşi-Adad hakimiyyətinin ilk illərində bir tərəfdən Eşnunna kralı Naram-Sinin xələfi olan Daduşa ilə birgə Arbela bölgəsindəki Qabranı tutmaq üçün mübarizə aparır, digər tərəfdən isə Şuşuarra şəhərinin tutmaq məqsədi ilə turukkularla qarşı-qarşıya gəlmişdi. I Şamşi-Adadın hərbi ekspansiyasına qədərki dövrdə Zaqros tayfaları, o cümlədən turukkular qərbdə yerləşən qonşuları iə dinc şəraitdə yaşamış və Aşşurun qonşularla ticarət əlaqələrində vasitəçilik etmişlər. Bu işğallar nəticəsində Fərat, Dəclə və Dağətəyi Zaqros boyu keçən ticarət yollarının blokadaya alınması bütün Yaxın Şərqdə karvan ticarətinin strukturunu pozdu [9, s.38]. I Şamşi-Adadın Fəratdan şərqdəki ərazilərə olan dağıdıcı yürüşləri Mesopotamiya ilə Azərbaycan tayfalarının ənənəvi münasibətlərinə ciddi zərbə vurmaqla yanaşı tarixi Azərbaycan torpaqlarının da işğal edilməsi təhlükəsini yaratmışdı.

Turukkular və I Şamşi-Adadın qoşunlarının nə zaman üz-üzə gəldiyi dəqiq məlum olmasa da, bir sıra sənədlərdə bu yürüşlərə qarşı mübarizə aparmış turukku başçılarının adları çəkilir. I Şamşi-Adadın il adlarından biri onun turukku tayfa başçısı "Bin-Adadı ələ keçirdiyi il" adlanır [13, s.68]. Digər bir sənəddə isə Bin-Adadın adı başqa bir turukku tayfa başçısı Vilanum ilə birgə Aşşura qarşı mübarizədə çəkilir. Buradan aydın olur ki, turukkular bir neçə tayfadan ibarət idi. Adı Şuşuarra və Mari arxivlərində çəkilən bir digər turukku başçısı da Lidayadır. Mari arxivindən əldə etdiyimiz məlumatda Lidaya İşme-Daqana qarşı

mübarizə aparan tayfa başçısı kimi xatırlanır. Lakin Şuşuarradan tapılan bir məktubda İşme-Daqan və Lidaya arasında dostluq əlaqələrinin olduğunu görürük. Məktubun mətnində qeyd olunur: “(1-2) Kuvariyə de! (3) Sənin ağan belə deyir: (4)sənin mənə göndərdiyin məktubları aldım. (5) Lidaye (6) yanıma gəldi və (məsələləri) mənimlə bir yerdə (7) müzakirə etdi (hərfən: mənimlə görüşdü). (8-9) O, Nurruqumun işğalına qədər mənim yanımda qalır, (10-11) Nurruuqum tutulan kimi isə (12) qoşunla birlikdə (13) Ahazım ölkəsinə (14) gedəcək (15). Sonra: qoy mühasirə qüllələrini (16-17) (çay aşağı) Zaslimə gətirsinlər, (18-19) çünki onlar qoşunun önündə olmalıdır (qoşunun başında durmalıdır)” [9, s. 39]. Məktubun məzmununda Lidayanın kimliyi barədə məlumat verilməsə də, turukkuların başçısı Lidaya ilə eyni şəxs olması şübhə doğurmur. Həmçinin, Aşşur hömdarı böyük ehtimalla o dövrdə Şimali Mesopotamiyada güclü siyasi qurumlardan olan Nurruquma və Ahazimə qarşı turukku qoşunlarının köməyindən istifadə etmişdir. Bu yardımın əvəzində Aşşurun turukulara nə vəd etdiyi bizə məlum deyildir. Turukkuların Ahazım və Nurruqum üzərindəki iştirakına dair razılığın əvvəlcədən Lidaya ilə İşme-Daqan arasında bəhs etmiş olduğumuz danışıqların nəticəsində mümkün olması ehtimal edilir. Lakin bilinməyən bir səbəbdən Nuruqqum və Ahazimin işğalı arasındakı vaxtda Aşşur və turukku münasibətləri pozulur. Hətta I Şamşi-Adadın Yasmah-Adadada yazdığı məktubunda Ahazimin işğalı zamanı onlara müqavimət göstərən yerli əhali arasında turukkuların da adı çəkilir. Bu ziddiyyətlərin səbəbi Aşşur dövlətinin Dəclədən şərqdəki torpaqlara qarşı işğalçılıq siyasətini daha da genişləndirməsi idi. Bu ziddiyyətlər Aşşur-Turukku münasibətlərinin dostluqdan qarşıdurma mərhələsinə keçməsində əsas faktor idi. I Şamşi-Adadın Yasmah-Adadada yazdığı Maridən tapılan bir məktubda turukkuların Lidayanın başçılığı altında Aşşur əleyhinə olan bir digər bilinməyən düşmənlə birgə mübarizə apardığını, Lakin Lidaya ilə birlikdə olan düşmənin öz şəhəri Burullumu tərk etdiyi haqqında məlumatla rastlaşırıq.

I Şamşi-Adadın dövründə Şuşuarra vilayətinin yerləşdiyi Raniyə düzü Aşşurun nəzarəti altında idi. Əhalisinin bir hissəsinin hurrilər, bir hissəsinin isə lullubilərdən təşkil olunduğu Şuşuarra Aşşurun şərqdə tabe etmiş olduğu ən uca ölkə idi [4, s. 505]. Şuşuarra qutilər və turukkular üçün mühüm əhəmiyyət kəsb edirdi. Bölgənin tez-tez turukku və quti axınlarına məruz qalması buradakı xalqın hər an baş verə biləcək hücum təhlükəsinə qarşı hazırlıqlı olmalarını şərtləndirirdi. Məhz Şuşuarranın Aşşur əsarətindən azad edilməsi turukkuların adı ilə bağlıdır. Turukkular Şuşuarrada da məskunlaşmışdılar. Turukkuların burada olan bir hissəsi Aşşura qarşı mübarizədə Lidayanın başçılıq etdiyi turukkularla birləşir. Əvvəlcədən Burullum adlı şəhərin bütövlükdə utem adlı ölkənin Aşşur qoşunlarına təslim edilməsi düşünülmüş bir addım idi. Aşşurun əsas qüvvələrini Utem ölkəsinə cəlb etməklə, Lidaya turukkular, elcə də qutilər üçün mühüm əhəmiyyət kəs edən Şuşuarra istiqamətində uğurlu hərbi məliyyat keçirmək imkanı qazanmış, nəticədə tezliklə bu ölkə Aşşur hakimiyyətindən azad edilmişdi [9, s. 42]. Şuşuarradakı daxili vəziyyət və getdikcə Aşşur təsirinin azaldığını İşme-Daqanın Yasmah-Adada yazdığı bir məktub təsvir edir. Məktubda qeyd olunan “...(6) bu ölkə həyəcan içindədir (7) və biz onu əldə saxlaya bilmərik... (9-11) turukku Lidaya və onunla birlikdə olan bu ölkədəki (Şuşuarradakı) turukkular (12) (bizə) düşmənçilik etdilər...” [1,s.43] qeydləri Şuşuarrada baş verən çaxnaşma və turukkuların öz qüvvələrini birləşdirdiyini təsdiq edir. Aşşurun hücumlarına qarşı cavab olaraq Turukku başçısı Lidaya e.ə. 1779-cu ildə bəzi turukku şəhərlərini I. Şamşi-Adadın oğlu İşme-Daqana qarşı üsyan hərəkatı ətrafında birləşdirdi. Ancaq Aşşurun turukkuların düşməni olan qutilərlə ittifaqı Lidayanın bu siyasi manevrinin müsbət nəticələr verməsinin qarşısını aldı [2, s.722]. Aşşurlara qarşı siyasi manevrinin uğursuzluğundan sonra Lidaya, bu dəfə adı naməlum olan bir turukku şəhərinin lideri Kuvarinin rəhbərliyi ilə yeni bir üsyan təşkil etməyə çalışdı. Lakin I Şamşi-Adad tərəfindən Kuvarinin görüşə dəvət edilməsi bu münasibətlərin pisləşməsi ilə nəticələndi [10, s. 429]. Bununla yanaşı, Kuvarinin belə bir görüşə dəvət olunması, onun turukkular arasındakı yüksək mövqeyini başa düşməyimiz üçün vacibdir. Həmçinin, bu məlumatlar turukkuların regional siyasətdəki rolunu görmək baxımından da əhəmiyyətlidir. Digər tərəfdən, yaxın ölkələrdə yaşayan əbədi düşmən Kuvari və I Şamşi-Adad indi müttəfiq idilər, daha əvvəl Kuvariyə sadiq olduğunu elan etmiş Lidaya, indi onun qoruyucusu olan I Şamşi-

Adada qarşı üsyan etdi. Mənbələrdə bu qiyamın olduqca böyük olduğu bildirilir ; Minlərlə turukku Dəclənin şərqindəki Arraphadan Ninevyanın yuxarı bölgələrinə və Dəclənin qərbinə qədər olan düzənliklərə hücum etdiyi anlaşılır [10, s. 432]. Üsyan başlayanda İşme-Daqanın atasına kral kimi müraciət etməsi I Şamşi-Adadın sağ olduğunu və Aşşur dövlətinin başında olduğunu göstərir. Lakin üsyan hərəkatı I Şamşi-Adadın rəhbərlik etdiyi Aşşur orduları tərəfindən yatırıldı. Bu üsyan İşme-Daqanın qardaşı Yasma-Adada göndərdiyi Mari arxivinin IV cildində nəşr olunan 25 nömrəli məktubda qeyd olunur. Mari Arxivindəki bu məktub arxivdəki ilk sənədlərdən biridir. I Şamşi-Adadın oğlu İşme-Daqan, o dövrdə Ekallatumdakı Aşşur canişini, sonradan Maridə canişin olan qardaşı Yasmah-Adada, Şuşarra (Şemşara) haqqında məktubuna cavab olaraq yazdığı bu məktubunda qeyd edir ki, Lidayanın fəaliyyətləri səbəbi ilə bölgəyə Aşşur nəzarətinin davam etdirilməsinin mümkün deyildir və bölgənin əhalisini Arrapha və Qabraya köçürmək məcburiyyətində qalmışdır. Sənədlər sonrakı hərbi əməliyyatların Dəclə çayından şərqdəki torpaqlarda geniş cəbhə boyu aparıldığını göstərir [9, s. 43]. Bir qrup trukku təqib olunaraq Dəclə çayını keçməyi bacarır və daha sonra Tiqunanim ölkəsini darmadağın etməyə başlayır.

İşme-Daqanın qardaşı Yasmah-Adada yazdığı üç məktubunda turukkuların Tiqunanim ölkəsinə daxil olması və oranı tutması haqqında məlumat verir. Tiqunanim ölkəsinin tam olaraq lokalizasiyası məlum deyildir. Lakin, məktubda xatırlanan çayın adı məlum olmasa da, H.Klenqel bu ərazinin lokalizasiyası üçün yardımçı ola biləcək bu çayın ya Dəclənin qolları ya da elə Dəclə çayının özü ola biləcəyi qənaətindədir. Aşşur qoşunu Tiqunanim ölkəsinin turukkular tərəfindən tutulmasının qarşısını ala bilmir, hətta onların bu ərazilərdən çıxarılması istiqamətində də hərbi əməliyyat keçirmir. Lakin məktublardan məlum olur ki, aclıqla üzləşən turukkular Tiqunanim ölkəsini tərk etmək məcburiyyətində qalır. I Şamşi-Adadın Yasmah-Adadada yazdığı digər bir məktub isə Amurzakkim ərazisində məskunlaşan turukkuların iki minlik Aşşur qoşununa hücumu və əlavə qüvvələrin köməyi ilə düşmənin 50 nəfər əsgərinin öldürülməsi haqqında məlumatları əhatə edir. Məktubun mətnində qeyd olunur: “(4-5) Turukkuların olduğu Amurzakkim ərazisində (6-10) Dadanum iki min Nuruqalı ilə, yalnız özü üçün, kənarda və tək düşərgə salmışdı. Düşmən bu viran qoyulmuş ərazini qoparmaq üçün (?) [hücum etdi]. Dadanum (11) silaha çağırdı [və] (12) köməyə ələnlərlə birlikdə həmlə etdi (hərfən yaxınlaşdı), (lakin) onlar (yəni turukkular) onu öldürdülər (13) və onunla birlikdə 5 əsgəri də öldürdülər. Bundan sonra (14) onlar (Aşşur qüvvələri) (öldürülmüş) əsgərlərin qisasını aldılar və 50 düşmən öldürdülər” [9, s. 46].

I Şamşe-Adadın oğlu və varisi İşme-Daqanın dövründə Turukkular Aşşura qarşı üstün mövqedə idilər. Turukkuların döyüşçü olması onların qonşularından hər zaman qəfil hücum üçün hazır olmalarını tələb edirdi. Beləki, Aşşur kralı İşme-Daqan və qardaşı Yasmah-Adad arasındakı yazışmalardakı ifadələr onların döyüşçü obrazlarını öyrənməyimiz üçün vacibdir. İşme-Daqandan qardaşı Yasmah-Adada göndərilən Maridən tapılmış 4.52 nömrəli məktubda Amurzakkimdən bir qaçqının gəldiyi və şəhərin turukkular tərəfindən talan edildiyi yazılmışdır. [10, s. 70] Buna cavab olaraq turukku təhlükəsindən necə qorunması barədə qardaşı İşme-Daqana verdiyi məktubda Yasmah-Adad- “Əvvəllər nəzarətimizdə olan, ancaq turukkular tərəfindən qarət edilərək tutulan Amurzakkimi turukkuların ərzaqları ilə birlikdə yandırdım, bu şəkildə həm düşməni, həm də onun texnikasını məhv etmək mümkün oldu.” –deyə, qeyd edir. O, qardaşının da bu üsulu tətbiq etməsini təklif edir.

E.ə. XVIII əsrin 80-60-cı illərində Babilin yüksəlişi Mesopotamiyada siyasi vəziyyətin dəyişməsinə səbəb olur. Babil hökmdarı Hammurapi Aşşurun daxili işlərinə müdaxilə etməyə başlayır. Bu zaman İşme-Daqanın hakimiyyəti ölkənin şərq rayonları ilə məhdudlaşırdı. Qərb və cənubdan təhdidlər getdikcə artmağa başlayır. Belə bir vəziyətdə İşme-Daqan turukkularla sülh bağlayıb qohumluq əlaqəsi qurur. İki siyasi qüvvə arasındakı qohumluq əlaqələri qurmaq yolu ilə inkişaf etdirilməyə çalışdıqları dostluq münasibətlərinin əsasında, Aşşurun turukkuları öz tərəflərinə çəkmək məqsədi daşıyırdı. Beləki, İşme-Daqan turukkuların döyüşçü xüsusiyyətlərindən və hərbi güclərindən faydalanmaq üçün bir səy göstərmişdi [7, s. 777]. İki tərəf arasında bağlanan müqavilənin mətni bizə gəlib çatmasa da bu haqda məlumatları Mari hökmdarı Zimrilimə ünvalanan bir məktubdan alırıq. Məktubun məzmununda

qeyd edilir : "...Ətrafımda olanlardan belə sözər eşitdim: İşme-Daqan turukkularla sülh müqaviləsi bağlayıb. O, Zaziyanın qızını oğlu Mutaşkura alır. İşme-Daqan toy hədiyyəsi kimi Zaziyaya qızıl gümüş göndərib, O isə Eşnunna adamının qoşununu İşme-Daqana yardım üçün səfərbər edib..." [1, s. 46-47]. Bütün bunlara baxmayaraq, iki qüvvə arasındakı münasibətlər yaxşılaşmadı. Beləki, 4000 nəfərlik turukku qoşunu Dəclədən keçərək Ekallatuma doğru getdi. İşme-Daqan turukkulara məğlub olduqda, turukkular Aşşur şəhərlərindən birini ələ keçirdi və bölgə hökmdarının kəsilmiş başını İşme-Daqana göndərdi [2, s. 722]. Bundan sonra İşme-Daqan sülh müqaviləsi təklif etdi və turukku başçısı Zaziyaya 8 talant gümüş göndərdi. Buna baxmayaraq, turukku qoşunları İşme-Daqan üçün əhəmiyyətli bir mövqeyə sahib olan Ekallatumu dağıdaraq Aşşurun bəzi şəhərlərini yandırmağa davam etdi. Bu hadisələrdən qısa müddət sonra, İşme-Daqanın ölümü xəbəri yayıldı [6, s. 146]. Həmin dövrdə turukkuların bu bölgələrdə güclü bir toplum kimi tanındıqlarını Babil hökmdarı Hammurapinin bir məktubunda turukkulardan kömək istəməsi də sübut edir [11, s. 23]. Həmçinin bu əlaqələr turukku başçısı Zaziyanın Hammurapiyə yazdığı bir məktubunda da özünü göstərir. Eşnunna ilə müharibəyə hazırlaşdığı anlaşılan Zaziya, məktubunda bu mübarizədən əvvəl mövcud vəziyyətə nəzərə alacağını və şərtlər uyğun olarsa, Hammurapiyə kömək diləyəcəyini bildirir [8, s. 43]. Bu vəziyyət turukkuların Yaxın Şərq cəmiyyətləri arasındakı siyasi konyunkturada fəal rol oynadığını göstərir [6, s. 122]. Turukku başçısı Zaziya ikili siyasət yeridir. O, həm Babilin yardım çağrışına gözləmə mövqeyi tutsa da müsbət cavab vermiş, həm onun rəqibləri ilə dostluq münasibətlərini qorumuşdu. O, belə siyasət yeritməklə Babilin diqqətini turukkulardan yayındırmaqla yanaşı anti-Babil koalisiyası ilə də əlaqə yarada bilir. Bütün bunlarla yanaşı, Mari məktublarında Mari ilə turukkuların birbaşa əlaqələrinin olduğunu sübut edən bir sıra faktlar da vardır. Hammurapinin Mariyə qarşı işğalçılıq niyyətləri turukkularla Marinin yaxınlaşmasında başlıca səbəb idi. Lakin bu yaxınlaşma Babil dövlətinin gücünə tab gətirə bilmədi. Hammurapinin hakimiyyətinin 35-ci ilində o, Marini darmadağın etdi, 37-ci ilində isə turukkuların da daxil olduğu koalisiyanı yendi [9, s. 49]. Turukkunun bölgə siyasətində təsirli bir mövqedə olması onları hər cür mübarizədə iştirak etməyə məcbur etdi. Dövrün Mari kralı Zimrilim, cənub-qərbi İran bölgəsində hakim olan Elam dövlətinə qarşı apardığı mübarizədə turukkuları Aşşurun da iştirak etdiyi bir koalisiyaya əlavə etmək üçün çox istəkli idi. Eynilə Zimrilim ilə birlikdə Köhnə Babil dövlətinin kralı Hammurapi Elamla mübarizədə, Zaziyaya bir sıra şəhərlərin suverenliyini verərək onu cəlb etməyə çalışdı. Hammurapi e.ə. 1766-1765-ci illərdə Maridəki hökmranlığını uğrunda Elama məğlub oldu. Lakin turukkuların köməyi ilə bir il sonra öz suverenliyini bərpa etdi [6, s. 122].

Ümumən, turukkuların Mesopotamiyanın siyasi məsələlərindəki rolu barədə bizi məlumatlandıran məktublardan bu tayfanın Dəclənin şərqində Aşşur nəzarəti altında olan ərazilərdə olduqca sərbəst hərəkət etməsi və ciddi müqavimətlə üzləşmədiklərini öyrənirik. Sadəcə Maridən tapılan bir məktubda turukkuların Aşşur ordusu tərəfindən mühasirəyə alındığı barədə məlumat vardır. Lakin bu mühsirənin nəticəsi barədə bir məlumat verilmir. Həmçinin bu məktublardan turukkuların e.ə. XIX əsrin sonu XVIII əsrin I yarısında bölgədə mühüm rol oynadığı və Aşşur təhlükəsinə qarşı birləşərək mütəşəkkil hərbi-siyasi qüvvə olduğu aydın olur. Turukkuların yarıməsirlik mübarizəsi Aşşurun hərbi ekspansiyasının qarşısını almaqla yanaşı tarixən Azərbaycan torpaqları sayılan ərazilərin işğal olunması qarşısında sədd çəkdi.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Müntəxəbat (Təsisçilər: R.S. Məlikov, A.N. Əlimirzəyev). Bakı, Turxan, 2014.*

*2. Bryce, Trevor, Handbook of The Peoples and Places of Ancient Western Asia, Routledge, New York, 2009.*

*3. Edwards, I. E. S., The Cambridge Ancient History, History of The Middle East and The Aegean c. 1800-1380 BC., Vol. II, Part I, Cambridge University. Cambridge, 2008.*

*4. Edwards, I. E. S., The Cambridge Ancient History, History of The Middle East and The Aegean c. 1380-1000 BC., Vol. II, Part II, Cambridge University, Cambridge, 2008.*

*5. Günbatti, Cahit, Sumerler, Gutlar, Hattiler, Hurriler, Urartular Kökenleri, Tarihleri, Dilleri ve Kültürleri, Genelkurmay Askeri Tarih ve Stratejik*

*Etüt Başkanlığı Yayınları, Genelkurmay Basımevi, Ankara, 2007.*

*6. Heimpel, Wolfgang, Letters to the King of Mari, Mesopotamian civilizations, Eisenbrauns Winona Lake, Indiana, 2003.*

*7. Hildegard L., Assyria c. 2600-1816 B.C by the Late, CAH, Vol. I, Part II, Cambridge 1971.*

*8. Mieroop, Marc Van De, Hammurabi, İş Bankası Kültür Yayınları, İstanbul, 2014.*

*9. M.Mirzəyev, Qədim Azərbaycan tayfalarının Aşşur ekspansiyasına qarşı mübarizəsi tarixindən// AMEA Xəbərləri Tarix, fəlsəfə və hüquq seriyası, №5-6, 2005.*

*10. Mohammed, Ahmed Kozad, The beginnings of ancient Kurdistan (c. 2500- 1500 BC): a historical and cultural synthesis, Doctoral thesis, Faculty of the Humanities, Leiden, 2012.*

*11. R. Kupper, Northern Mesopotamia and Syria, CAH, Vol. II, PART I, Cambridge 1971.*

*12. Turukkular (Çivi Yazılı Kaynaklar Işığında)// Akademik Tarih ve Düşünce Dergisi IV/XI/Mayıs /2017.*

*13. Р.А.Грибов, Внешнеполитическая деятелность ассирийского царя Шамши-Адада I. // Историография и источниковедение истории стран Азии и Африки, IX. ЛГУ, 1986.*

**Açar sözlər:** *I Şamşi-Adad, Aşşur ekspansiyası, Mari, Şuşuarra, diplomatik münasibətlər.*

**Narimanova A.H.**

**From the history of turrukeans struggle against Assyrian expansion**

**SUMMARY**

After the establishment of the Assyrian state, Shamshi-Adad started attacking the neighboring regions. The attacks on the eastern part of the Tigris provoked resistance from the local population. At this time, the turukkeans began to take an active part in the political events of the region. From the archives of Shemshara and Mari, which shed light on these events, at the end of the 19th century and the first half of the 18th century, it became clear that turukkeans played an important role in the region and was an organized military-political force united against the Assyrian threat. This struggle prevents the military expansion of Assyria. It also prevents the occupation of historical Azerbaijani lands by the Assyrian state. Turukkeans also took part in the important military alliances of the time. This situation shows that the turukkeans played an active role in the political situation in the Middle East.

**Keywords:** *Shamshi-Adad I, Assyrian expansion, Mari, Shushuarra, diplomatic relations.*

**Нариманова А.Г.**

**Из истории борьбы туррукийцев против Ассирийской экспансии**

**РЕЗЮМЕ**

После создания Ассирийского государства Шамши-Адад I начал нападать на соседние регионы. Нападения на восточную часть Тигра вызвали сопротивление местного населения. В это время туруккеи начали принимать активное участие в политических событиях региона. Из архивов Шемшары и Мари, проливающих свет на эти события, в конце XIX - первой половине XVIII века стало ясно, что туруккеи играли важную роль в регионе и были организованной военно-политической организацией силы объединились против ассирийской угрозы. Эта борьба препятствует военной экспансии Ассирии. Это также предотвращает оккупацию исторических Азербайджанских земель Ассирийским государством. Туруккецы также принимали участие в важных военных союзах того времени. Эта ситуация показывает, что туруккецы играли активную роль в политической ситуации на Ближнем Востоке.

**Ключевые слова:** *Шамши-Адад, Ассирийская экспансия, Мари, Шушуарра, дипломатические отношения.*

UOT 94 "04/15"

# SACİLƏR SÜLALƏSİ VƏ BANİSİ ƏBUS-SAC DİVDAD İBN YUSİF

**ARZU MƏMMƏDOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Orta əsrlər tarixi ixtisası üzrə magistrantı*

*E-mail: arzu280996@gmail.com*

## 1. Sacilər sülaləsi

IX əsrin sonları, X əsrdə Azərbaycanı idarə etmiş sülalələrdən biri banisi Əbu Sac Divdad olan türkmənşəli Sacilərdir. İbn Hövqəl Sacilərin Usruşananın Cankakes qəsəbəsindən olması ilə bağlı məlumat vermişdir.Yaqubi isə Saciləri "əl-Uşrusani" ləqəbi ilə təqdim edir. [1, s. 24] İbn Xordadbeh yazır ki, 898-ci ildə Bərdədə Məhəmməd ibn Əbu Sacın zərb etdirdiyi dirhəmin üzərində adı yox, ləqəbi Afşin qeyd olunmuşdu. [2, s. 109] Bu titulun qəbul olunması sülalənin ərəb mənşəli yox, türk mənşəli olmasını və Uşrusanın nüfuzlu ailələrindən olduğunu bir daha isbat edir. Lakin tarixşünaslıqda Sacilər sülaləsinin mənşəyi ilə bağlı yanlış yanaşma mövcuddur ki, bu da onların ərəbləşmiş soğdnəsilli ailədən olması ilə bağlı qeyddir. Vladimir Minorski bu iddiasını Afşin tituluna , eləcə də Divdad adı ilə bağlı olaraq heç bir əsas olmadan qeyd etmişdir. Afşin ləqəbli məşhur və güman ki, Sacoğullarına qohum şəxs Heydər bin Kavus olmuşdur.İslami fəthlər əsnasında Mavəraənnəhrdəki Usruşana bölgəsi ərazisini idarə edən şəxslərə verilən "afşin" sözü kökü bilinməyən bir isim olaraq fars dilindən keçmiş "pişinin" ərəbcələşdirilmiş formasıdır. Onun ailəsinin Usruşanada nə zamandan bəri hökm sürməsi ilə bağlı dəqiq məlumat olmasa da, bu ailəyə aid müəyyənləşdirilmiş ilk şəxs Hara (Qara) Buğranın, 736-cı ildə Türgiş xaqanı Sulu ilə Xorasan valisi olmuş Əsəd bin Abdullah əl-Kasri arasındakı savaşda Sulu xaqanın mövqeyində çıxış etdiyi bildirilmişdir. Hicri təqvimi ilə 178-ci ildə Qara Buğranın oğlu və Afşinin babası Xan Hara ilə Fəzl bin Yəhya əl-Bərməki ilə mübarizə aparmışdır. Afşinin atası Kavus Xəlifə Məmunun iqtidarda olduğu zaman Abbasi hakimiyyətini qəbul etmişdir. Afşinin Abbasilər sülaləsinə nə zamandan etibarən xidmət etdiyi bəlli olmasa da, 821-822-ci ildə Bağdada gəlməsi isə dəqiqdir. Heydər ibn Kavus Afşinin babalarının türkmənşəli ad daşıdığı şübhə oyatmır. VIII əsr Soqd hökmdarları arasında Afşin titulunu Tərxan, Gür(l)ək, Türk(q)ər, Pənckənddə Çur Bilgə Xaqan kimi türk mənşəli hökmdarlar da daşımışlar. [3, s. 38]

Sacilərin türk mənşəli olması ilə bağlı məlumat 1847-ci ildə M. Drefer qeyd etmişdir. P.K.Juze isə Saciləri IX əsrin ikinci yarısında yaranmış türk sülaləsi hesab etmişdir. [4, s. 48] A.Y.Yakubovski Usruşana əhalisinin iranlı olmasına baxmayaraq, Usruşanın Afşin sülaləsinin VII əsrdə artıq türkləşməsi ilə bağlı məlumat vermişdir. [5, s. 225]

Sacilər hələ Xilafətdən əvvəl də Azərbaycanın bir sıra bölgələrində məskunlaşdığı güman edilir. Sasanilərin köçürmə siyasəti haqqda ən mühüm məlumatlar İbn əl-Əsirin "Əl-Kamil fit-tarix" əsərində verilmişdir. Müəllif Sasani şahı I Xosrov Ənuşirəvanın zamanında (531-579) Sac qəbiləsinə mənsub ordu hissələrinin Fərqanə və əl-Bərcandan Azərbaycana köç etməsi və onların Məsqət, Şabran, Bab əl-Əbvab ətrafında məskunlaşması haqqında yazmışdır. Həmçinin əsərdə "İslamın zühurundan sonra Sacilərdən bir çoxu qalalarını və şəhərlərini tərk etdilər. İş o yerə çatdı ki, şəhərlər xarabalığa döndü,onları xəzərlər və rumlar tutdular " məlumatı öz əksini tapmışdır. [6, s. 9-10] M.Əfəndizadə mənbənin orijinalında "siyasicin" kimi qeyd edilmiş ifadəni "Sacilər" kimi tərcümə etmişdir, bu cür adlandırmanı Ə.Nəcəf də təsdiq edərək istifadə etmişdir. [1, s. 25]

Abbasilər idarəçiliyi möhkəmləndirmək üçün eləcə də, əlavə mədaxil əldə etmək məqsədilə vilayətlərə hərbi işlərə mükəmməl bələd olan bacarıqlı şəxsləri vali göndərirdi. Bu xüsusdan, Sacoğullarının Azərbaycan ərazisinə göndərilməsi

təsadüfi olmamışdır. Belə ki, onlar bir sıra mühüm vəzifələri icra etmiş, xəlifənin sərəncamı ilə müxtəlif döyüşlərin iştirakçısı olmuşdur.

**2. Əbu Sac Divdadın fəaliyyətinin ilk dövrü**

Sacilər ailəsinin İslam dövlətində xidmət edən ilk nümayəndəsi Əbus-Sac Divdad ibn Yusif Divdest olmuşdur. Əbus-Sac Divdadın türk sərkərdələrinin hərbi və siyasi vəzifələri ələ keçirdikləri “Samirə dövründə” əmirlik və komandanlıq vəzifələrini yerinə yetirməsi və dövrün məşhur türk sərkərdəsi Afşinin xidmətində olması onun türk mənşəli olması fikrini təsdiq edir.

Güman edilir ki, Xəlifə Məmunun hakimiyyəti zamanı 822-823-cü ildə Əhməd ibn Əbi Xalidin Usruşananı ələ keçirməsi ilə Əbus-Sac Divdad bu əraziləri tərk etmişdir. Əbus-Sac bu əraziləri tərk etməzdən əvvəl burada hansı vəzifəni icra etdiyi məlum deyildir. Xəlifə Məmunun türklərdən ibarət əsgəri birliklər təşkil etdiyi dönəmdə ordu sıralarına daxil olan Əbus-Sac hələ ki nüfuz qazanacaq hərbi fəaliyyət həyata keçirməmişdi. [7, s. 61] Əbus-Sac Divdadın ilk hərbi fəaliyyəti Xürrəmilər üsyanını yatırmaq məqsədilə Xəlifə Mötəsimin tapşırdığı Afşinin əmrində hərbi dəstənin başçısı olması ilə əlaqədardır. Xürrəmilər hərəkatının başçısı Babək öz ailəsi il Bəzz qalasını tərk etdiyi zaman onu təqib edən şəxslərdən biri də Əbus-Sac Divdad olmuşdur. Türkiyə tədqiqatçısı Nəsimi Yazıçı “İlk Türk-İslam Devletleri Tarihi” əsərində IX əsrin məşhur türk sərkərdələri Afşin Heydər ibn Kavusun, Əbu-s-Sac Divdadın və Buğa əl-Kəbir ət-Türkinin xəlifə əl-Mötəsim zamanında Babəkə qarşı əməliyyatlarda, eləcə də onun təqib olunmasında iştirak etdiklərini yazmışdır. [8, s. 50] Beləki, Afşinin əmrində olan ordular iki illik müharibə yekunlaşdıqdan sonra əl-Bəzz şəhərini tutduqlarında, heç bir çıxış yolu qalmayan Babək bir müddət məktublaşdığı Bizans imperatorundan yardım almaq və himayəsinə sığınmaq məqsədilə əl-Bəzzdə döyüşlərin davam elədiyi bir vaxtda qaçmağa müvəffəq oldu. Döyüşlərin yekunlaşdığını və Babəkin qaçdığından xəbər tutan Afşin Əbus-Sacın əmrinə olan 400-500 nəfərdən ibarət qüvvəni təqib məqsədilə göndərdi. Əbus-Sac İrminiyyə ərazisində Babəkə çatsa da, baş vermiş döyüşdə onu ələ keçirə bilmədi. Amma, Babəkin ailəsini və əmirlərdən Müaviyəni əsir alaraq Afşinə göndərdi. Əbus-Sac Babəkin təqibinə davam edərək hicri təqvimi ilə 10 şəvval 222-ci ildə ( 15 sentyabr 837-ci il) Babəkin həbs edilməsinə, daha sonra isə qiymətli əsiri ilə birgə Afşinin Bərzənddəki ordugahına gəldi. Daha sonra isə Buzbaran və Əbus-sac Divdad Babəki əsir tutaraq Afşinin yanına Bərzəndə gətirmişdir. [1, s. 26]

Əbus-Sac Xəlifə Mötəsimin iqtidarda olduğu dönəmdə ikinci dəfə hərbi səfərə çıxmışdır. Bu səfər Məzyər ibn Qarinin üsyanın yatırılması məqsədilə baş vermişdir. Məzyər ibn Qarini xəlifə Məmunun zamanında müsəlmanlığa etiqad etdikdən sonra Təbəristan ərazisinə vali kimi təyin olunmuşdur. Vali təyin edildikdən sonra daha öncədən mübarizə apardığı Bavəndilər üzərində hakimiyyətini qurmağa nail oldu. Bir müddət sonra ərazini bütünlüklə itaəti altına alan Məzyər Xorasan valisinə ödməli olduğu vergini ödəməkdən imtina etdi. Bu addımı ilə əlaqədar xəbərdar olunsa da və xəlifə tərəfindən çağırılsa da heç bir əmrə riayət etmədi. Məzyər haqqında məlumatlardan biri də onun Babəklə əlaqə qurması və ona yardım vəd etməsi ilə bağlıdır.839-cu ildə xəlifə Mötəsim tərəfindən Təbəristandakı üsyanı yatırmaq üçün Xorasan əmiri Abdullah Tahirin başçılığı ilə hərbi qüvvə göndərdi. Üsyan bütün Təbəristan ərazisini əhatə etdiyinə görə Abdullah ibn Tahirin əmrində olan ordular cənub-şərq və şərq istiqamətdə mühasirə xəttini seçdilər. Xəlifə Mötəsim bu zaman paytaxt və digər əyalətlərdən toplanmış qüvvələri Təbəristana göndərdi. Xəlifənin göndərdiyi ordulardan birinə Əbus-Sac rəhbərlik edirdi və o, Təbəristana Dəmavənd və əl-Lariz ərazisinə daxil olması nəzərdə tutulmuşdu. [9, s. 83] Əbus-Sac bu üsyanın tamamilə yatırılmasınadək hərbi əməliyyatlarda fəal iştirak etmişdir. Üsyan yatırılmış və daha sonra Məzyər ibn Qarin edam edilmişdir. Məzyər ibn Qarinin üsyanın yatırılmasında mühüm rolu olması bir daha Əbus-Sacın qabiliyyətli, mahir, döyüşkən ordu başçısı kimi xəlifə Mötəsim tərəfindən dəyərləndirilməsini təsdiqləyir. [10, s. 756]

Xürrəmilər hərəkatı yatırıldıqdan sonra Azərbaycan əmiri təyin olunmuş Afşin Heydər ibn Kavus Samirəyə geri qayıtdığı zaman Azərbaycanın idarəçiliyini vəkili kimi Məngü-Çura tapşırmışdı. Lakin çox keçmədən hicri 224-cü ilin sonlarında Məngü-Çur topladığı qoşunla üsyan bayrağını qaldırdı. Bu zaman Xəlifə Mötəsim tərəfindən üsyanın yatırılması ilə bağlı Afşinə əmr verildi. Afşin üsyançılara qarşı mübarizə aparmaq üçün

Əbus-Sacın başçılığı ilə hərbi qüvvə göndərdi. Lakin Əbus-Sac üsyanı yatırmağa müvəffəq ola bilmədi və bu üsyanı yatırmaq xəzər qrupuna mənsub Buğa əl-Kəbir adlı sərkərdəyə həvalə edildi. [11, s. 36] Belə bir vəziyyətdən isə xəlifə Mötəsimin yanında böyük nüfuza sahib olan, mühüm hərbi nailiyyətlər əldə etmiş qüdrətli türk sərkərdəsi Afşinin rəqibləri məharətlə istifadə etdilər. Bu şəxslər arasında Xorasan valisi Abdullah bin Tahir,vəzir Məhəmməd bin Əbdülməlik əz-Zəyyat və Qazilqüzzat Əhməd bin Əbu Duadın adını qeyd etmək olar. Xüsusilə Abdullah bin Tahirin təhriki ilə Afşinə böhtan atdılar və Əbus-Sacın Afşinin əmrilə Məngü-Çura yardım məqsədilə göndərildiyini iddia etdilər. Həmçinin xəlifənin Afşinin Məngü-Çura yardım etməsi iddiasını öyrəndiyi zaman Afşinə olan münasibəti kəskin dəyişdi və onun 840-cı ildə həbs olunması ilə bağlı əmr verdi. Afşin həbsdə olarkən həbsdən qaçmaq, eləcə də Xəzər xaqanını xəlifə ilə müharibəyə təhrik etmək üçün planlar hazırlayırdı. Məhkəmə hüzurunda da bəraət qazana bilməyən Afşin yenidən həbsə göndərildi və 841-ci ildə həbsdə ikən öldü. [11, s. 41]

Əbus-Sacın Məngü-Çur üsyanındakı uğursuzluğundan sonra uzun müddət mühüm bir vəzifəyə yönləndirilməmişdir. Onun hərbi fəaliyyətdən uzaqlaşdırılmasında Əslən Usruşanalı olması, Afşinlə yaxın münasibətləri-onun mövqeyindən çıxış etməsi də şübhəsiz ki, təsir etmişdir. [12, s. 1-22] Lakin məlumdur ki, bütün bu məlumatlar yalnız şayiə xarakteri daşıyır və Əbus-Sac yalnız Məngü-Çur üsyanının yatırılması məqsədilə hərbi fəaliyyət göstərmişdir.

### 3. Əbu Sac Divdadın fəaliyyətinin Heydər ibn Kavusdan sonrakı dövrü

Bir sıra mənbələrdə Xəlifə Mütəvəkkilin hakimiyyətinin son illərinə doğru Əbus-Sacın yenidən hərbi fəaliyyətə qayıtması barədə məlumatlar öz əksini tapmışdır. Təbəriyə əsasən hicri 242-ci ildə və ona istinad edən İbn əl-Əsirin məlumatlarına əsasən hicri 244-cü ildə Xəlifə tərəfindən Cəfər ibn Dinar Tariq Məkkə valiliyi vəzifəsindən azad edildi və bu vəzifəyə Əbus-Sac təyin olundu. [13, s. 260] Çox güman ki, bu vəzifə Məkkə və İraq arasındakı həcc yolunu bədəvi ərəb qəbilələrinin hücumlarından qorunmaq üçün nəzərdə tutulmuşdur. Yüksək məvacibə malik bu vəzifə yalnız xəlifə sarayına, yaxın şəxslərdən müəyyən edilirdi. Əbus-Sac bu vəzifəni 865-ci ilədək icra etmişdir.

865-ci ildə Samirə şəhərində yaranmış çaxnaşmalar əsnasında Xəlifə Müstəinin Buğa əl-Sağır və Vasif ət-Türki ilə birgə Bağdada qaçması, həmçinin digər nüfuzlu türk komandanlarının Mütəzzi xəlifə elan olunması nəticəsində hər iki tərəf əmirlər və əyalət hakimlərini öz tərəflərinə çəkmək məqsədi ilə hərəkətə keçdilər. [7, s. 114] Bağdadda və Samirədə iki xəlifə və onlar arasında hakimiyyət uğrunda mübarizə gedişatında Əbus-Sac xəlifə Müstəinin tərəfində fəaliyyət göstərmişdir. Məhz bu zamanlarda Bağdaddan göndərilmiş əlavə qüvvələrin hesabına bölgədə baş vermiş toqquşmaların qarşısını almağa müvəffəq olmuşdur. Əldə etdiyi uğurdan sonra 27 aprel 865-ci ildə əmrində olan 700 süvari qüvvə və əsirlə birgə Bağdada getmişdir. Bağdad mühafizi Məhəmməd ibn Abdullah Tahir və xüsusilə xəlifə Müstəin onu rəğbətlə qarşıladı. Bu görüş zamanı Əbus-Saca beş dəst fəxri libas hədiyyə verildi. [2, s. 111]

Əbus-Sac Yəhya bin Hafs və İsmail ibn Fəraşə adlı iki nüfuzlu əmirlə birgə Mədainə göndərildi, bu ərazini Mütəzzin hərbi qüvvələrinin hücumlarından müdafiə etməklə vəzifələndirildi. Əbus-Sac təhlükəsizliyin təmin edilməsi məqsədilə müxtəlif işlər gördü, məsələn, şəhər ətrafında xəndəklər qazdıraraq müdafiəni daha da gücləndirdi. Təbəri və ibn əl-Əsir kimi müəlliflərin məlumatlarına əsasən Məhəmməd ibn Abdullah Əbus-Saca yardımçı əsgəri birliklər göndərirdi. [14, s. 114]

865-ci ilin iyul-avqust aylarında Əbus-Sac və Mütəzzin tərəfində fəaliyyət göstərən türk əmiri Bıyık bəyin komandanlığındakı orduları məğlub edərək düşmənə ciddi zərbə endirdi. Onların arasında ikinci qarşılaşma isə həmin ilin sentyabr-oktyabr aylarında, ramazan ayında Carcaya qəsəbəsi yaxınlığında baş verdi. Bu döyüşdə də Əbus-Sac uğur qazanmağa nail oldu. Xəlifə Mütəzzin orduları bu məğlubiyyətdən sonra anbarı ələ keçirərək, qərb tərəfdən Bağdada hücum etməyə başladılar. Bağdad mühafizi Məhəmməd ibn Abdullah Tahir bu hücumların qarşısını almaqda çətinlik çəkirdi. Eyni zamanda da Əbu Nəsr Məhəmməd ibn Buğa Əl-Kəbirin başçılığı ilə müqavimətsiz Mədain ələ keçirildi.

Xəlifələr arasında hakimiyyət uğrunda mübarizə 25 yanvar 866-cı ildə xəlifə Müstəinin iqtidar-dan əl çəkməsi ilə yekunlaşdı. Xəlifə Mütəzzin

hakimiyyəti ələ keçirməyə müvəffəq olsa da, vaxtilə ona qarşı fəaliyyət göstərmiş şəxslərə qarşı heç bir tədbir görmədi. Məhəmməd ibn Abdullah Tahir baxmayaraq ki, xəlifə Müstəini dəstəkləyirdi, Mütəzzin xəlifə olduqdan sonra da öz vəzifəsini- Bağdad mühafizi icra etməyə davam edirdi. Bir müddət sonra isə O, xəlifəyə ən yaxın şəxslərdən biri oldu. Hakimiyyət uğrunda mübarizə yekunlaşdıqdan sonra Əbus-Sac Məhəmməd ibn Abdullah Tahirin vəkili kimi Kufə və ətrafdakı ərazilərin hakimi təyin olundu.

O, bu vəzifəsini uzun müddət icra etməmişdir. Buğa əl-Sağirin və Vasifin Samirəyə qayıtmasına xəlifə icazə verdikdən sonra bu iki komandanın təkid və israrları sayəsində Əbus-Sac yenidən əvvəlki vəzifəsini- Həcc yolunun mühafizəsinə, yəni Tarıq və Məkkə valisi vəzifəsinə qaytarılmışdır.

İslam dövlətində hakimiyyət uğrunda mübarizə ölkədaxilində sabitliyin pozulmağına və üsyanların baş verməsinə səbəb olmuşdur. Bu qarışıqlıqdan faydalanan İsmayıl ibn Yusif əl-Ələvi Məkkəni işğal etmişdir. İsmayıl ibn Yusif əl-Ələvinin vəfatından sonra oğlu Məhəmməd də atasının bu addımlarını davam etdirmişdir. Məkkənin işğalı Əbus-Sacın bir daha Tariq Məkkə əmirliyinə geri dönməsinə qədər davam etmişdir. Xəlifə Mütəzzin tərəfindən Əbus-Sacın Hicazda baş vermiş üsyanı yatırmağa təyin edilməsini öyrənən Məhəmməd bin Yusif əl-Ələvi onunla mübarizə apara bilməyəcəyini anlayaraq qaçdı.Ələvilərin qısa müddətlik hakimiyyəti zamanı əhali çox ziyan və zərərə məruz qalmışdır.

Hicri 254-cü ilin rəbiüləvvəl ayında Əbus-Sac Kinnəsrin, Hələb, Avasim və Diyar Mudarın valisi kimi təyin olundu. Dövrün tarixçisi Yaqubi bu barədə geniş məlumat versə də dəqiq tarix qeyd etməmişdir. Müəllif yazır ki, Kəlb qəbiləsinin Kinnəsirin valisi Məhəmməd əl-Müvəllidə qarşı qalxıb, onu məğlubiyyətə düçar etdikdən sonra Məhəmməd vəzifəsindən kənarlaşdırıldı. Onun yerinə Əbus-Sac təyin olundu. Bizans və İslam dövləti arasında baş vermiş müharibə gedişatında Bizansa qarşı həbi səfərlərdə Əbus-Sacın iştirakı və fəaliiyyəti ilə bağlı məlimat yoxdur.Yaqubi Mütəmid xəlifə olarkən hər tərəfə ona tabe olması ilə bağlı məktublar yazdığını və bu vaxt Diyar Mudar, Diyar Rəbiə və Kinnəsrin hakimi vəzifəsini icra edən Əbus-Sacın ona tabe olduğunu qeyd edir. [14, s. 116]

İraq ərazisində dözülməz həyat tərzi keçirən Zənci qullar 870-ci ildə Bəsrə ətrafı ərazilərdə üsyan edərək az bir müddət ərzində Abadan, Ubulla və Bəsrəni işğal edərək islam dövləti üçün ciddi maneə törətdilər. On üç il davam etmiş bu üsyanın yatırılmasında iştirak etmiş hərbi qüvvələrin tərkibində Əbus-Sac da komandan kimi fəal iştirak etmişdir.

261-ci ildə Fars əyalətinə Əhvaz əmiri Abdürrəhman ibn Müxlif təyin olundu, Əhvaz əmirliyinin idarəçiliyi isə Əbus-Saca həvalə edildi. Lakin bu onun bu vəzifəni icraası bir ildən az davam etmişdir. Əbus-Sac regionda üsyan edən zənci komandanlardan biri olan Əli ibn Aban ilə mübarizəyə rəhbərlik etmişdir. Tez bir zamanda Əbus-Sac Əhvaza gedərək, hələ buradan getməmiş Abdürrəhman ibn Müxlif ilə birgə Əhvaz yaxınlığında yerləşən əl-Dulab ərazisində zəncilərlərlə döyüşə başladı. Döyüş gedişatında Abdürrəhman ibn Müxlifin öldürülməsindən sonra təkbaşına mübarizəni davam etdirə bilməyəcəyinin fərqinə varan Əbus-Sac Mükrəmə istiqamətinə yönəldi. Zəncilər isə Əhvaza daxil olaraq burada qətl və qarətlər törətdilər. Ordusunun yenidən təşkil olunmasına nail olduqdan sonra isə Əbus-Sac zəncilərə qarşı bir daha hərəkətə keçsə də, yenə məğlubiyyətlə üzləşdi. Ard-arda iki döyüşdə qələbə qazana bilməməsi onun vəzifəsindən uzaqlaşdırılmasına gətirib çıxardı və bu vəzifənin icrası İbrahim bin Sima əl-Türkiyə tapşırıldı.

Vəzifəsindən əzl edildikdən sonra isə Əbus-Sac Fars və ətraf əraziləri ələ keçirir, Bağdada tərəf istiqamətlənmiş Yaqub bin Leys əs-Səffarın yanına getmiş və onun yanında xidmətə başlamışdır. Təbərinin məlumatlarına əsasən Əhvaz hadisələrindən hiddətlənmiş Əbus-Sac xilafətə qarşı çıxış edən Səffarilərin tərəfində mövqe seçməkdə tərəddüd etməmişdir. Lakin, Əbus-Sacın Səffarilərin xidmətində olduğu zaman çərçivəsində hər hansı hərbi əməliyyatda iştirak etməsi ilə bağlı məlumat yoxdur. Buna baxmayaraq, Yaqub bin Leys əs-Səffar və xəlifə qüvvələri arasında baş tutmuş qarşılaşmada, 262-ci ildə 9 rəcəb tarixində Deyr əl-Akül döyüşündə Əbus-Sacın da iştirak etməsi güman edilir. Bu döyüşdə fəal rol oynamasa da, onun Yaqub bin Leys əs-Səffarın tərəfinə keçdiyinə görə xəlifə Mütəmidin naibi Əbu Əhməd əl-Müvəffəq qəzəblənmişdir. Buna görə də, Sacın bütün mallarını müsadirə etmiş və ona aid iqtaları

Məsrur əl-Bəlxiyə vermişdir. [14, s. 117]

Yaqub bin Leys əs-Səffarın ölümündən sonra Əbus-Sac səffarilərin xidmətində fəaliyyət göstərmək istəməmişdir. Şübhəsiz ki, bunda Əbu Əhməd Əl-Müvəffəqin təklifinin də mühüm rolu olmuşdur. Əbus-Sac rəbiüləvvəl 266-cı il tarixində Cəndişaburda vəfat etmişdir. [13, s. 261]

**Açar sözlər:** *Sacilər sülaləsi, Əbus-Sac, Afşin, Samirə, Abbasilər sülaləsi*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Əkbər Nəcəf "Sacilər-Azərbaycanda hökm sürmüş bir türk xanədanlığı", Bakı: 2019, 482 s.*

2. *M.X.Şərifli "IX əsrin ikinci yarısı, XI əsrlərdə Azərbaycan Feodal dövlətləri", Bakı: 2013, 398 s.*

3. *Смирнова О. Очерки из истории Согда. Москва: Наука, 1970, 202 s.*

4. *П.К.Жузе. Мазиадиты-Шейбаниты в Азербайджане*

5. *А.Ю.Якубовский. Древний Пянджикент. Сб. «По следам древних культур». Изд. "Культпросветлит". 1951*

6. *İbn əl-Əsir " Ə-Kamil fi-t-tarix", tərcümə edən M. Əfəndizadə, Bakı: 1959*

7. *Hakkı Dursun Yıldız, "İslamiyet ve türkler", İstanbul universitesi Edebiyyat fakultesi yayınları,No 254, İstanbul : 1976, XXXV 203 s.*

8. *Nesimi Yazıcı "İlk türk islam devletleri tarihi", Ankara: 1992, 455 s.*

9. *Oktay Bozan "Taberistan emiri Mazyar bin Karinin Abbasi idaresine isyanı" e-Şarkiyat İlmi Araştırmalar Dergisi, sayı 9, 2014*

10. *Hakkı Dursun Yıldız, "Sacoğulları", Türkler, Yeni Türkiye Yayınları, Ankara 2002, IV c.*

11. *Ənvər Çingizoğlu, "Abbasilər dövründə türklər" Bakı: 2015, 404 s.*

12. *Hakkı Dursun Yıldız, "Abbasiler döneminde türk kumandanları; el-Afşin Haydar bin Kavus" Tarih Enstitüsu dergisi sayı 4-5, İstanbul: 1974, ,s. 1-22*

13. *Ziya Bünyadov "Azərbaycan VII-IX əsrlərdə" Bakı: 2007, 487 s.*

14. *Hakkı Dursun Yıldız, "Azerbaycanda hüküm sürmüş bir türk hanedanlığı, Sacoğulları" Tarih Dergisi, 2011, c.I*

## SUMMARY

Abus-Sajid took military and management posts in the Islamic State for 40 years . During "Samire reign" he kept neutral towards the wars between Khalifa and the turkemeers. Due to his position being away from the govermental centre gave him the chance not to interfere the governments political conflicts. Abus-Sajid ranked among the famous Turkish emeers like Afshin, Bugha al-Kabir, Ashnas, Bugha as-Saghir, Vasif at-Turki. He was quite respected and honoured by the state itself. After his death his son Mahammad al-Afshin was promoted to Tarig-Makka emeers post which was long led by his father.

**Key words:** *Sajid dynasty, Abus-Saj, Afshin, Samarra, Abbasid dynasty*

## РЕЗЮМЕ

Абус Садж примерно 40 лет принимал участие в сфере управления и в военной сфере Исламского государства. В эпохе Самиры в войнах между халифатом и турецкими эмирами он оставался нейтральным. В связи с должностью он оставался вдалеке от политики государства. Абус Садж был уважаемым и почитаемым среди влиятельных турецких эмиров как Афшин, Буга аль-Кабир, Ашнас, Буга ас-Сагир. Васиф ат турки. После его смерти его сын Мухаммед аль-Афшин долгое время как его отец был эмиром Тариги Мекке.

**Ключевые слова:** *Династия Саджидов, Абус-Садж, Афшин, Самирра, Династия Аббасидов*

**UOT 94**
**94(479.24)**

# TÜRKİYƏ İCTİMAİ FİKRİNDƏ İRANDA TÜRK KİMLİYİ VƏ İRANLI KİMLİYİ MƏSƏLƏSİ

**ASİM CƏNNƏTOV**
*Azərbaycan Milli Elmlər Akademiyası*
*Akademik Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun doktorantı*

*E-mail: aze.asim93@gmail.com*

İran əski və orta çağlarda Türküstan, Çin, Hindistan, Qafqaz və Anadolunu bir-birinə bağlayan mühüm ticarət yolların üzərində yerləşirdi. Böyük İpək yolunun mühüm bir hissəsinin İran yaylasından keçməsi və zəngin yeraltı qaynaqlara sahib olması İranın strateji mövqeyinin artmasına müsbət təsir göstərən önəmli səbəblər olmuşdur. Belə bir coğrafi yerləşmə qonşu ölkələrin də diqqətini çəkirdi. Eyni zamanda ticarətin davamlı inkişafı fərqli ölkələrdən İrana hərbi yürüşlərə və miqrasiya axınına təkan verirdi. Əsrlər boyunca davam etmiş bu proses İranın çoxmillətli bir ölkə olmasında əsaslı rol oynamışdır. İran günümüzdə də çoxmillətli bir ölkədir və ölkənin toplam nüfusu başlıca olaraq irandilli və türkdilli etnik qruplardan təşkil olunmuşdur. Mühüm bir məsələni də qeyd etmək lazımdır ki, İranın toplam nüfusunun demək olar ki, yarısını türklər təşkil edir. Son illərdə tədqiqatçılar da haqlı olaraq İranda türk kimliyindən bəhs edirlər. Bu məsələ Türkiyə ictimai fikrində araşdırmaya cəlb olunmuş mühüm məsələlərdən biridir.

## Giriş

İranda türk kimliyindən bəhs etməzdən öncə İran adının etimologiyasına nəzər yetirmək lazımdır. İran adının coğrafi anlam daşıması haqqında müxtəlif fikirlərin mövcud olması tarixdən bizə aydındır. Bu müxtəliflik isə tarixçi və araşdırmaçılar tərəfindən İran adına verilən izahların birmənalı olmadığını göstərir. Elmi ədəbiyyatda İran adının Sanskrit dilində "Aryan" sözündən törəməsi haqqında fikirlər mövcuddur [10, 26-71]. Aryan və ya ari adını almış bu mədəniyyətin Hindistan, İran və Avropada geniş bir ərazidə yayılması fikrini dəstəkləyən çoxlu sayda alimlər vardır. Proto-İran termini sayılan aryanın Zərdüştlüyün müqəddəs kitabı Avestadan gəlməsi haqqında da fikirlər mövcuddur. Bununla belə, İran adının Sasani dönəmində ortaya çıxması və "Eran" adından törəməsi barədə mülahizələr də geniş yayılmışdır. Türkiyəli tədqiqatçılardan M.Erendor İran adının törədiyi Eran terminine diqqəti çəkir və qeyd edir ki, bu termin İranda yerləşən Nəqşi-Rüstəmdəki Sasani şahı I Ərdəşirin tacqoyma törənini göstərən qabartmanın yanındakı yazılı abidədə tapılmışdır [5, 34]. Sözsüz ki, həmin tarixi dönəmdə İran adı rəsmi olaraq bir dövlətin adını ifadə etmirdi və milli anlam da daşımırdı. Bu məsələ Qərb elmi ədəbiyyatında da öz əksini tapmış və yanaşmaların birində yazılır ki, I Ərdəşirin zamanında eran termini dövlətdən daha çox bu coğrafiyada yaşayan insanları ifadə edirdi [13]. Beləki, III yüzildə yaranmış Sasani dövləti bir müddət böyük bir imperiya olmuş və günümüzdəki İranı və Güney Azərbaycanı, Türküstanın bir hissəsini, Anadolunu, İraqı və ərəblərin yaşadığı bəzi əraziləri özündə birləşdirməyi bacarmışdır. Pəhləvi dilinin Sasanilər dövlətinin rəsmi dili olması tarixdən bizə məlumdur. 1925-ci ildə İranda pəhləvi kökənli Rza xan hakimiyyətə gəldi və dünya ictimaiyyətinə müraciət ünvanlayaraq ölkə adının Persiya deyil, İran adlanmasını xahiş etdi. Təsadüfi deyildir ki, Eran adı Sasanilər zamanı ortaya çıxmış və Eranın rəsmi dillərindən biri də Pəhləvi olmuşdur. Buna görə də pəhləvi kökənli Rza xan İran adını yenidən dirçəltdi. Məhz bundan sonra İran rəsmi olaraq bir fars dövləti kimi tanınmağa başladı.

Maraq doğuran məsələlərdən biri də farsların İran torpaqlarına gəlib yerləşməsi və İranda fars mədəniyyətinin yaranmasıdır. İlk olaraq qeyd etmək lazımdır ki, İranın mərkəzində mövcud olmuş tarix öncəsi dövlətlərdən Elam və Midiya heç də fars kökənli olmamışdır. Bəzən Elam və Midiya sakinlərini fars olaraq göstərməyə çalışırlar, lakin bu faktı heç cürə əsaslandıra bilmirlər. Hind-Avropa

dil ailəsinin böyük bir qolunu təşkil edən farsların bugünki İran torpaqlarına köç etməsi haqqında da tarixçilər arasında birmənalı fikir mövcud deyildir. Bir qisim tarixçilər pars və ya fars adını daşıyan toplumun İrana ilk dəfə e.ə. II minillikdə Şərqi Avropadan, bir qisim tarixçilər isə M.Ö.VIII-IX yüzilliklərdə Hind çayı hövzəsindən köçüb gəldiyini iddia edirlər. İran coğrafiyasında farslardan öncə başqa dövətlərin və xalqların olduğu tarix elmində öz təsdiqini tapmışdır. Ümumiyyətlə, İranda farsların siyasi tarixi Əhəmənilərlə başlamışdır. O zamanlar bu torpaqlarda Midiya öz hökmranlığını qoruyub saxlayırdı. Ancaq, Midiya sakinlərinin etnik kökü haqqında da birmənalı fikir mövcud deyildir. Bəzi araşdrımaçılar Midiya əhalisinin kökünün fars və bəziləri isə türk olması haqqında mülahizələr irəli sürürlər. Lakin, bu mülahizələrin heç biri öz təsdiqini tapmadığından mübahisəli hesab edilir. Farsların bu torpaqlarda ilk səltənəti Əhəməni və Sasani dövlətləri ilə qurulmuşdur. İstər xilafət dönəmində, istərsə də minillik türk hakimiyyəti dönəmində farslar heç vaxt İran torpaqlarında hakimiyyətə sahib ola bilməmişlər. Bununla belə İranda farsların mənəvi üstünlüyü minillik türk hakimiyyəti dönəmində formalaşmışdır. Fars dilinin ən yüksək zirvəyə çatdığı Firdovsinin "Şahnamə" əsəri də məhz türk kökənli Samanilər və Qəznəvilərin İranda hakimiyyətdə olduğu illərdə yazılmışdır. Şiəliyin İranda rəsmi məzhəb elan edilməsi isə sonralar farsların bu coğrafiyada mənəvi üstünlüyünə səbəb olmuşdur [3, 22-23]. Bu üstünlük onlara sarayda və ədəbiyyatda da geniş yer vermişdir.

**İranda türk kimliyinin tarixi kökləri**

İranda türklüyün tarixi və türklərin izləri farslardan daha əski çağlara gedib çıxır. Belə ki, türklərin törəməsi haqqında elmi ədəbiyyatda müxtəlif mülahizələr mövcuddur. Türk adına əski Assur, Urartu, Ərəb, Bizans qaynaqlarında, Tövrat və Avesta dini kitablarında da rast gəlinir. Adları keçən qaynaqlarda türk adı "Turugid", "Tukuy", "Türük", "Turkiya", "Tugarme" şəklində işlənmişdir. Təbii ki, qaynaqlarda fərqli şəkildə işlənmiş bu adların hər biri türkləri nəzərdə tutur. Qərb elmi ədəbiyyatında isə türk adının törəmək felindən yaranması fikri irəli sürülmüşdür. Bu yanaşma Türkiyə ictimai fikrində də tarixçilər tərəfindən dəstəklənir. Tarixdən bizə məlumdur ki, türk adını ilk dəfə göytürklər dövlət adı olaraq qəbul etmişlər. Bununla belə, M.Ö. XIV yüzillikdə Assur və Urartu qayaqlarında türk adı Urmiya gölü ətrafında yaşayan qəbilələri göstərmək üçün ifadə edilirdi [6, 25].

Farsdilli qaynaqlarda da İranda türk kimliyinin mövcud olmasını müşahidə etmək olar. Şərq ədəbiyyatında həcminə görə ən böyük əsər sayılan Firdovsinin Şahnaməsində türklərdən bəhs edilmişdir. Böyük fars şairi Firdovsi Şahnamə əsərini tarixi qaynaqlar əsasında yazmış və Ferudin əfsanəsində bu məsələyə toxunmuşdur. Əfsanədə Turan-İran ziddiyyətlərinin başlaması özünü daha qabarıq göstərir. Əslində bu əsər türklərin əzəldən İranda yaşadığını və illər sonra bu torpaqlara qayıdaraq səltənət uğrunda gedən savaşlardan qalib çıxdığını göstərir. Firdovsinin Şahnaməsindən bizə məlum olur ki, türklərin yaşadığı ölkə Turan və farsların yaşadığı ölkə İran adını almışdır [12, 113]. Qeyd etmək lazımdır ki, İranda farslardan öncə fərqli qövmlər yaşamış və bunlar arasında türklərin qədim əcdadları da mövcuddur. Bütün bunlara baxmayaraq fars şovinistləri əsərdə anti-türk səpkidə yazılmış bəzi məqamlardan istifadə edərək türklərin İrana gəlmə olduğunu düşünürlər. Halbuki İranda türklərin tarixi izləri farslardan daha qədimlərə gedib çıxır. Görkəmli Azərbaycan tarixçisi Ziya Bünyadov türklərin İrana və Azərbaycana sonradan gəlməsi fikrinə qarşı çıxmış və onları İran coğrafiyasının ən qədim və yerli xalqı hesab etmişdir. Bu coğrafiyada türklərin görünməsi farslarla müqayisədə daha əski çağlara gedib çıxır. Türkiyəli alimlərdən Dr. Əli Kafkasyalı belə hesab edir ki, türklər İran coğrafiyasını M.Ö. 5400-cü illərdə özlərinə yurd etmişlər, farslar isə təxminən M.Ö. 900-cü illərdə Şərqdən İran coğrafiyasına gələrək indiki Fars və Kirman əyalətlərində yerləşmişdilər [9, 13]. Bu gün də farslar həmin əyalətlərdə çoxluq təşkil edirlər. Hansı etnosun İran coğrafiyasında ilk olaraq yerləşməsi məsələsində anti-türk şovinistlərin iddiaları tamamilə əsassızdır. Çünki türklər əski çağlarda Güney Azərbaycanda və bütün İran ərazisində yaşamışlar. Təsadüfi deyildir ki, Azərbaycanda ilk mədəniyyət və sivilizasiya indiki Urmiya gölünün şərqində yaranmışdır. Günümüzdə isə türklər demək olar ki, İranın bütün əyalətlərində yaşamaqdadırlar.

Bir-birindən fərqli etnosları təmsil edən İran çoxmillətli bir cəmiyyətdir. Bu coğrafiyada türk, fars

və ərəb kimi üç böyük mədəniyyətin nümayəndələri yaşamaqdadır və bunların hər birinin öz yaşayış tərzi, dili və mədəni dəyərləri vardır. Lakin hər üç mədəniyyəti təmsil edən bu insanların yaşadığı coğrafi şərtlər və ticari əlaqələr onları tarixən birgə yaşamağa alışdırmışdı. Bu səbəbdən də İranda yalnız fars kimliyindən danışmaq doğru deyildir. Ölkənin siyasi tarixi də farsların hakimiyyətinin az davam etdiyini göstərir. Farsların İranda hakimiyyəti Miladdan öncə Əhəmənilərlə və Miladdan sonra Sasanilərlə xarakterizə olunur. III əsrdə yaranmış və böyük bir imperiyaya çevrilmiş Sasani dövləti VII əsrdə Ərəb Xilafəti tərəfindən işğal edildi. Bundan sonra farsların İranda hakimiyyəti 1925-ci ilə qədər dayandı. Xilafətin zəifləməsindən sonra, yəni X əsrin sonlarından başlayaraq İran min il boyu Orta Asiya və ya Türküstan coğrafiyasından gələn türk sülalələri tərəfindən idarə olundu [3, 11]. İslamın gəlişi ilə bu coğrafiyada yaşayan insanlar dini kimlik əsasında birləşirdilər və bu ənənə türklərin İranda hakimiyyəti dönəmində də davam etmişdi.

Bildiyimiz kimi, 1501-ci ildə Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Təbrizdə Şah İsmayıl Xətayi tərəfindən yeni bir səltənət quruldu. İlk olaraq Azərbaycan dövləti kimi təşəkkül tapmış bu səltənət zamanla İran şahlığı adını aldır. Beləki, Nadir şah Əfşarın zamanında Azərbaycan ərazisindəki bəylərbəyiliklər ləğv edilərək “Azərbaycan” adı altında vahid inzibati bölgüdə birləşdirildi. Qacarlar dönəmində isə İran 4 böyük əyalətə bölündü və bunlar arasında Azərbaycan da vardı. Buna görə də müasir İran tarixçiləri Azərbaycanı İranın bir parçası hesab edirlər. Lakin Səfəvilərlə başlayan bu səltənət Azərbaycan (türk) dövlət olaraq qurulmuşdır və Qızılbaş tayfa ittifaqına daxil olan tayfaların hamısını türklər təşkil edirdi [15, 5]. Günümüzdəki İranda Azərbaycan türklərinin səltənət tarixi 1925-ci ilədək davam etmişdir. 1925-ci ildə isə İran taxtına Qacar sülaləsinin zəifləməsindən istifadə edən və imperialist qüvvələr tərəfindən dəstəklənən Rza xan Pəhləvi gəldi. Pəhləvilərin hakimiyyətə gəlməsi ilə İranın federativ strukturu dəyişdirildi və İran rəsmən bir fars dövləti kimi tanındı. Lakin pəhləvilərin yalnız fars mədəniyyətinin üstünlüyünə əsaslanan Pan-İranizm siyasəti İran xalqlarının birliyini pozdu və eyni zamanda türklərlə farslar arasında sağalmaz bir mənəvi uçurum yaratdı.

**Modern iranlı kimliyinə tarixi yanaşmalar**

XIX əsrin sonları-XX əsrin əvvəlləri Şərqdə yeni nəzəriyyələrin ortaya çıxması ilə yadda qalmışdır. İranlı kimliyinin formalaşması da məhz belə bir zamana təsadüf etmişdir. Qeyd etmək lazımdır ki, İranın son yüzillik tarixi çoxmillətli əhali üzərində fərqli kimlik siyasətini həyata keçirmiş iki fərqli siyasi rejimlə müşahidə olunur [14, 181]. Bunlardan birincisi İranda minillik Türk hakimiyyətinin devrilməsindən sonra 1925-ci ildə İran taxtına çıxmış ari kökənli Pəhləvi sülaləsi tərəfindən həyata keçirilmiş və ari irqinin üstünlüyünə əsaslanmış Pan-İranizm və ya Aryanizm siyasəti olmuşdur. İkincisi isə Pəhləvilərin devrilməsi ilə İslam rejimi tərəfindən həyata keçirilən və günümüzədə də davam edən İslam kimliyi siyasətidir. İranlı kimliyi məsələsi Türkiyə ictimai fikrində də araşdırmaya cəlb olunmuşdur. Belə ki, türkiyəli tədqiqatçılardan Arif Kəskin iranlılığa gedən yolda (iranlı kimliyinin formalaşması prosesində) fars millətçiliyinin XIX yüzillikdən başlayaraq günümüzə qədər modern fars millətçiliyi, ənənəvi fars millətçiliyi və iranlılıq kimi üç dalğasını müəyyən etmişdir [11, 21]. XX yüzillikdə istər modern, istərsə də ənənəvi fars millətçiliyi bir-birinə əks cəbhədə dayanırdı. Müştərək İranın bütövlüyü uğrunda mübarizə aparan geniş xalq kütlələri arasında iranlılıq daha çox özünə dəstək qazanmışdı. Həm iranlılığın, həm də modern fars millətçiliyinin ideoloji əsaslarının qurulmasında azərbaycanlılar həlledici rol oynamışdılar. İranlı kimliyi haqqında fikirlərə M.Ə.Rəsulzadənin İranda mühacirətdə olarkən dərc etdirdiyi “İran-e Nou” qəzetində də rast gəlmək mümkündür. Qəzetin başlıca məqsədi İranda yaşayan türk və fars xalqları arasındakı fərqliliklərin aradan qaldırılması və iranlı kimliyinin formalaşdırılması olmuşdur [8]. Buna baxmayaraq modern fars millətçiliyi İranda daha çox dəstək qazandı. Modern fars millətçiliyinin ideoloji əsasları və məqsədləri Kavə, İranşəhr və Ayənde kimi dərgilərdə işıqlandırılmışdır. Berlində işıq üzü görən və İranın müxtəlif kəndlərinə göndərilən “İranşəhr” dərgisində etnikçilik və bölgəçiliyə qarşı ciddi mübarizə aparılması, İranın bütünlüyünün təmin edilməsi məqsədi ilə yerli dillərin və adətlərin məhv edilməsi xüsusi olaraq qeyd olunurdu [1, 154]. Əfşar nəslindən olan Dr. Mahmud Əfşar da “Ayənde” dərgisində açıq şəkildə modern fars millətçiliyini dəstəkləyirdi. Dərgidə vahid iranlı milli kimliyinin gerçəkləşməsinin yalnız fars dili

əsasında mümkünlüyü ifadə edilirdi və bunun üçün yerli dillərin tamamilə aradan qaldırılması təklif edilirdi [2, 5-6]. Maraqlıdır ki, Azərbaycan kökənli ziyalılar fars millətçiliyini bu səviyyəyə qaldırmış və İranda yalnız fars dilinin işlənməsinə çalışırdılar.

Məlum olduğu kimi, İranda minillik türk hakimiyyətinin sonu Qacar sülaləsinin adı ilə bağlı olmuşdur. Lakin qacarlar hakimiyyətlərinin sonuna doğru daxili və xarici siyasətdə uğurlu ola bilmədilər və yaranmış vəziyyətdən istifadə edən mazandaranlı Rza xan, Pəhləvi adını götürərək 1925-ci ildə İran şahı elan edilməsinə nail oldu. Pəhləvi sülaləsi fars millətçiliyi ilə İranın rəsmən farslaşdırılması prosesinə başladı. Bu proses İran xalqlarının birliyini pozmaqla kifayətlənmədi, eyni zamanda yüz illər boyu birgə yaşamış azərbaycanlıları (türkləri), kürdləri, bəlucları, ərəbləri və başqa etnik qrupları təhlükə altına atdı. İranda modern fars millətçiliyinin dəstək qazanması məhz Pəhləvilərin adı ilə bağlı olmuşdur. Modern fars millətçiləri belə hesab edirdilər ki, İran xalqlarının milli birliyi yalnız dil əsasında gerçəkləşə bilər. Rza xan məhz bunu əsas götürərək İranda işlənən başqa dilləri tamamilə qadağan etdi. Farslardan başqa bütün İran xalqları bu irqçilik siyasətindən zərər gördü. Fars millətçiləri təkcə türklərə qarşı düşmənçilik etmirdilər, eləcə də İslamı İran millətinin inkişafı yolunda bir maneə olaraq görürdülər. Qərb dəyərləri modern fars millətçiliyində özünü açıq şəkildə biruzə verirdi. Lakin fars millətçiliyi İran xalqlarını birləşdirməkdən daha çox fars və türk xalqlarını üz-üzə qoyurdu. Belə bir siyasət sonda İslam inqilabı ilə nəticələndi və fars millətçiliyi bundan sonra iranlılığa keçid etdi.

İranda ənənəvi fars millətçiliyinin yaranma tarixi modern fars millətçiliyi ilə müqayisədə daha əskidir. XIX yüzillikdə ortaya çıxmış ənənəvi fars millətçiliyi İranı İslamsız təsvir etmirdi və Qərb imperializminə qarşı əks cəbhədə dayanırdı. Ənənəvi fars millətçiliyinin təməlini atmış ilk şəxs olaraq Şeyx Cəmaləddin Əfqanini göstərə bilərik. Beləki, Türk dünyasında türkçülüyün və İranda islamçılığın nəzəri əsaslarının formalaşmasında təsirli rol oynamış Əfqani irq dedikdə, insanların dil və din birliyini nəzərdə tuturdu [4, 76]. Ənənəvi fars millətçiləri Əfqaninin fikirlərindən bəhrələnərək İranın bütünlüyünün qorunması məqsədilə dil və din birliyini əsas götürürdülər. Yəni, "din və millət birdir" prinsipi ənənəvi fars millətçilərində əsas ideoloji xətti təşkil edir. Bununla belə, ənənəvi fars millətçiləri millətçiliyin şüurlu şəkildə mənimsənilməsinin tərəfdarı olmuşdular. Ənənəvi fars millətçiliyi daha çox tacirlər və mollalar arasında dəstək qazanmışdı. Buna baxmayaraq Rza xan Pəhləvi Qərbin maraqlarına xidmət edərək modern fars millətçiliyinə üstünlük vermişdi. Modern fars millətçiləri isə İslamı İranın bütünlüyü yolunda təhlükə olaraq görürdülər. Buna səbəbdən də Pəhləvi rejiminin sosial-iqtisadi və dini siyasətindən narazı olan insanlar ənənəvi fars millətçilərinin ətrafına toplaşdılar. 1960-cı illərdən başlayaraq ənənəvi fars millətçiliyi İranda yenidən gücləndi. Bu cərəyana görə din mədəniyyət istehsal edir və İrani və ya İslam mədəniyyətini bir-birindən ayırmaq olmaz [11, 34]. Təbii ki, ənənəvi fars millətçilərində şiəlik əsas istiqamət olmuşdur və onların fəaliyyəti sonda İslam inqilabı ilə nəticələndi. İran 1979-cu ildə şahlığın ləğv edilməsi ilə İslam Respublikası elan edildi. Ayətullah Xomeyninin yerli xalqların İran daxilində öz müqəddəratını təyin etməsi haqqında çağırışı da inqilabının qalib gəlməsində həlledici rol oynadı. Bundan sonra Xomeyni fars millətçiliyini tamamilə aradan qaldırdı və ümmətçilik siyasəti əsasında insanları yenidən bir araya gətirməyə çalışdı.

Ötən əsrin 90-cı illərində dünyada baş vermiş yeni hadisələr ideoloji cərəyanlara da öz təsirini göstərmişdi. Belə bir keçid dönəmində İranda "iranlılıq" adını almış yeni bir cərəyanın yarandığını sezmək mümkündür. İran xalqlarının fars dili ətrafında sıx birləşməsi və ortaq tarixi keçmişə sahib olması, Qərb, İslam və İran ünsürlərini birləşdirmə, İranda farslarla yanaşı başqa etniklərin varlığını qəbul etmək İranlılıq cərəyanının əsas ideoloji prinsiplərini təşkil edir. Günümüzdə bu cərəyanın ən tanınmış simaları arasında Seyid Məhəmməd Hatəmi, Sadiq Ziba Kəlam və Həmid Rza Cəlayipur kimi şəxslərin adını qeyd edə bilərik. Belə ki, S.M.Hatəmi İran toplumunun Qərb qarşısında məğlub duruma düşməsini heç bir halda qəbul etmir və bu səbəbdən də tarixi keçmişə bağlılığın önəmini vurğulayırdı [7, 180-181]. İranlılıq cərəyanında sunni-şiə və türk-fars ünsürlərinin birgə yer aldığını sezmək mümkündür. Bu məsələyə H.R.Cəlayipur daha geniş izah vermişdir. O, İranda etnik problemlərin aradan qaldırılması üçün federalizmə ehtiyac olmadığını düşünür və fərqli etniklərin varlığının qəbul edilməsi ilə problemi həll etməyin

mümkünlüyünü ifadə edirdi [11, 40]. Ehtimal etmək olar ki, yaxın gələcəkdə ənənəvi fars millətçiliyi yerini tədricən iranlılığa verəcəkdir. Bu yanaşma İran xalqlarının birliyini təmin etmək və yerli xalqların insani hüquqlarının təmin edilməsi üçün doğru bir yoldur.

### Nəticə

Əlbəttə ki, İranda türklər və farslar günümüzdə birgə yaşamaqdadırlar. İran adının tarixi haqqında mövcud olan bu yanaşmalar İran adının Persiya və ya Farsıstan anlamına gəlmədiyini və iranlı olmağın da fars və ya fars mədəniyyətinin daşıyıcısı olmadığını göstərir. Çünki İranda türklərin və türklüyün tarixi izləri farslardan və fars mədəniyyətindən daha əski çağlara gedib çıxır. Lakin XV yüzillikdən başlayaraq Səfəvi sarayına fars ünsürlərinin cəlb olunması və İranda şiəliyin dərindən kök alması türklər üzərində fars mədəniyyətinin təsirini kəskin olaraq artırdı. 1925-ci ildə minillik türk hakimiyyətinin başa çatması və Pəhləvilərin hakimiyyətə gəlməsi ilə İran dövlətinin rəsmən farslaşması başa çatdı. Hazırda da iranlı kimliyi fars mədəniyyətinin üstünlüyünə əsaslanır. Təbii ki, ölkə əhalisinin yarısını türklərin təşkil etdiyi İranda belə bir kimliklə bütün insanları və etnik qrupları birləşdirmək mümkünsüzdür.

**Açar sözlər:** *İranda türk kimliyi, modern iranlı kimliyi, Güney Azərbaycan, Türkiyə ictimai fikri.*

### ƏDƏBİYYAT SİYAHISI

*1. Abrahamyan Y. Iran Beyn-e Do Enqelab. Tehran, 1378*

*2. Afşar M. Mətlub-e ma vəhdət-e İraniyan. Tehran: Ayənde, 1304*

*3. Ağaoğlu A. İran ve İnkılabı. Ankara: Zerbamat Basımevi, 1941, 120 s.*

*4. Akçura Y. Türkçülük, türkçülüğün tarihi gelişimi. İstanbul: İlgi Kültür Sanat, 2015, 248 s.*

*5. Erendor M. İranda Türk Kimliği. İstanbul: Kamer yayınları, 2018, 464 s.*

*6. Haghdar A.A. İran Türklerinin Kimlik Renösansı. Türkçeye çeviren Macit Araz, Ankara: Sonçağ yayınları, 2017, 284 s.*

*7. Hatəmi M. Bime Moc. Tehran, 1378*

*8. İran-e Nou qəzeti. Ma yek millət həstim. Tehran, 29 Bəhmən 1289*

*9. Kafkasyalı A. İran Coğrafyasında Türkler. İstanbul: Bilgeoğuz, 2011, 232 s.*

*10. Kaviri S. Iranian languages. Political, Social, Scientific, Literary and Artistic, October 2000*

*11. Keskin A. İranda Fars Milletçiliğinin Üç Dalgası: İranlılığa Giden Yol. Güney Azerbaycan Sosyal, Kültürel ve Siyasal Araştırmaları Dosyası, S 5, Ankara 2005, səh. 21-41*

*12. Konuksever S.K. Çine aid İmge ve Motiflerin Şahnameye göre tahlili. Doğu Araştırmaları, Sayı: 16, 2016/2, səh. 101-112*

*13. Mackenzie D.N. Eran, Eransahr. Encyclopedia Iranica, 1998*

*14. Mozaffari A. Forming National Identity in Iran: The Idea of Homeland Derived from Ancient Persian and Islamic Imaginations of Place. London and New York: IB Tauris 2014, səh. 181-183*

*15. Sonay Ü. Yakın dönem İran tarihi: Azerbaycan Milli Hükümeti, 1945-1946. Ankara: Türk Tarih Kurumu yayınları, 2019, 204 s.*

**РЕЗЮМЕ**

**ВОПРОС ИРАНСКОЙ И ТЮРСКОЙ ИДЕНТИЧНОСТИ В ИРАНЕ В ОБЩЕСТВЕННОМ МНЕНИИ ТУРЦИИ**

В древние и средневековые времена Иран располагался на важных торговых путях, соединяющих Туркестан, Китай, Индию, Кавказ и Анатолию. Тот факт, что значительная часть Великого Шелкового пути проходит через Иранское плато и имеет богатые подземные ресурсы, был важным фактором позитивного роста стратегической позиции Ирана. Такое географическое положение привлекло внимание и соседних стран. В то же время устойчивый рост торговли стимулировал военные кампании и миграционные потоки в Иран из разных стран. Этот процесс, длившийся веками, сыграл ключевую роль в превращении Ирана в многонациональную страну. Сегодня Иран по-прежнему является многонациональной страной, и все население страны состоит в основном из ираноязычных и тюркоязычных этнических групп. Важно отметить, что тюрки составляют почти половину всего населения Ирана. В последние годы исследователи справедливо заговорили о тюрской идентичности в Иране. Это один из самых важных вопросов в общественном мнении Турции.

**Ключевые слова:** *Тюркская идентичность в Иране, современная иранская идентичность, Южный Азербайджан, общественное мнение Турции.*

**SUMMARY**

**THE ISSUE OF TURKIC AND IRANIAN IDENTITY IN THE TURKISH PUBLIC OPINION**

Iran was located on important trade routes connecting Turkestan, China, India, the Caucasus and Anatolia in the ancient and medieval times. Passing a significant part of the Great Silk Road through the Iranian plateau and rich underground resources were major reasons for the positive growth of Iran's strategic position. Such a geographical location also attracted the attention of neighboring countries.

At the same time, the steady development of trade stimulated military campaigns and migration flows to Iran from different countries. This process, which has lasted for centuries, has played a key role in making Iran a multinational country. Today, Iran is still a multi-ethnic country, and the country's total population consists mainly of Iranian-speaking and Turkic-speaking ethnic groups. It is necessary to highlight that Turks make up almost half of Iran's total population. In recent years, researchers have rightly talked about the Turkic identity in Iran. This is one of the most important issues in Turkish public opinion.

**Keywords:** *Turkic identity in Iran, modern Iranian identity, Southern Azerbaijan, Turkish public opinion.*

**UOT 94(479.24)**
**930.2**

# QARAQOYUNLU-TEYMURİ MÜNASİBƏTLƏRİ ƏBUBƏKR TEHRANİNİN "KİTABİ-DİYARBƏKRİYYƏ" ƏSƏRİNDƏ

**NURAY ABBASOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əyani magistrantı*

*E-mail: nuray996a@gmail.com*

XIV əsrin ortalarında Elxanilər dövlətinin süqutundan sonra siyasi səhnəyə çıxan qaraqoyunlular yaranmış vəziyyətdən faydalanaraq Bayram Xocanın rəhbərliyi altında Şərqi Anadoluda Ərciş mərkəz olmaqla güclü tayfa ittifaqı yaratdılar. Qaraqoyunlular həmin əsrin sonlarında Azərbaycanın qərb torpaqları olan Xoy və Naxçıvan bölgələrini öz nəzarəti altına alaraq dövrün siyasi hadisələrində yaxından iştirak etmiş və Azərbaycan tarixində dərin iz qoymuşlar. Məhz qaraqoyunlular XV əsrin başlarında Azərbaycanda Teymuri ağalığına son qoyaraq dövlətçilik ənənəsini bərpa etdilər. Bu məqalədə məqsədimiz Əbubəkr Tehranin "Kitabi-Diyarbəkriyyə" əsəri əsasında Qaraqoyunlu-Teymuri münasibətlərinə aydınlıq gətirməkdir.

Əbubəkr Tehraninin verdiyi məlumatdan aydın olur ki, Qaraqoyunlularla Teymurilər arasında münasibətlər hələ XIV əsrin sonlarında məhz Əmir Teymurun Azərbaycana yürüşləri dövründə yaranmışdı. Əmir Teymur Qaraqoyunlu Qara Yusiflə ədavət aparırdı. "Böyük Əmir Teymur ömrünün axırına qədər Əmir Yusifdən narazı idi, onun ölkəsinə hücum etdi, qol-budağını kəsib zəiflətmək istədi, qoşun göndərdi. Lakin qələbə çala bilmədi" [9,50]. Əmir Teymurun Azərbaycana yürüşü zamanı Cəlairi hökmdarı Sultan Əhmədlə Qara Yusif arasında düşmənə qarşı ittifaq yarandı. Əmir Teymur ordusu Azərbaycanı fəth edən zaman (Əlincə qalasından savayı) ona itaətsizlik göstərən başlıca qüvvə məhz qaraqoyunlular oldu. Bu zaman Cəlairi hökmdarı Bağdada çəkildi. Əmir Teymurun Qızıl Orda xanı Toxtamışa qarşı yürüşə başlamasından istifadə edən Qara Yusif doğma yurdunu düşməndən azad etmək üçün mübarizəyə başladı. O, öncə Ərciş qalasını azad etdi, az sonra isə Avnik qalasında Teymuri qüvvələrini məğlub edərək əmir Atlamışı əsir aldı [4,58].

Əbubəkr Tehraninin verdiyi məlumatdan aydın olur ki, Əmir Teymurla Qara Yusif arasında gərgin münasibət bir müddət sonra onun Osmanlı sultanı İldırım Bəyazidlə qarşılıqlı əlaqələrinə də öz təsirini göstərdi. Belə ki, Əmir Teymur Qarabağda qışlaqda olan zaman İldırım Bəyazidin elçisi böyük məhəbbət və hörmətlə onun hüzuruna gəlmişdi. "Həzrət Sahibqran Qara Yusifin ölkəsi olan Azərbaycana hücum edəndə Əmir Yusif qaçıb İldrım Bəyazidin hüzuruna pənah aparmışdı. Həzrət Sahibqran cavabında belə buyurdu ki, İldırım Bəyazid həmişə kafirlərlə müharibə edib. Biz də onunla razılıq və səmimiliyimizi bildiririk. Məsələ burasındadır ki, daim qarışıqlıq salıb qiyam edən, daim islam dünyasında fitnə tonqalını alovlandıran Qara Yusif verilməli, ya da öldürülməlidir, yoxsa düşmənçiliyimiz daha da artar" [9,56]. Bu, bir daha göstərir ki, Əmir Teymurla Qara Yusif arasında münasibətlər o dərəcədə kəskin hal almışdı ki, onun Osmanlı sultanına sığınması belə iki dövlət arasında münasibətləri pisləşdirmiş, Sultanı Bəyazid Əmir Teymurun tələblərini rədd etdiyinə görə münasibətlər müharibə həddinə çatmışdı. Qara Yusif 1402-ci ilin əvvəllərində Osmanlı ərazisini tərk etsə də, Əmir Teymur İldırım Bəyazidə qarşı müharibə qərarından imtina etmədi. Ankara yaxınlığında baş verən döyüşdə İldırım Bəyazid məğlub olub əsir düşdü [9,56-57].

1403-cü ildə Əmir Teymur Qarabağda qışladığı vaxt Sultan Əhməd Cəlair və Əmir Qara Yusif Rumdan Şam yolu ilə Bağdada yürüş etmək niyyəti ilə Hilləyə çatdılar. Hillə və Bağdad darğaları qorxudan oradan çıxaraq, ali saraya yollandılar. Bu xəbəri eşidən Teymur bəy oğlu Əbubəkr Mirzəni böyük bir dəstə əmir və ordu ilə hücum üçün Bağdad və

Hilləyə göndərdi. Sultan Əhməd və Əmir qara Yusif hücum xəbərini eşidib qaçmağa üz qoydular və Şam tərəfə getdilər. Əmir Qara Yusifin qardaşı Yar Əli bəy bu müzəffər ordu tərəfindən qətlə yetirildi [9,58]. Qara Yusif Dəməşqə gələrkən şəhərin naibi Şeyx Mahmudi tərəfindən yaxşı qarşılandı. Az sonra Sultan Əhməd də Dəməşqə sığındı. Bir müddət sonra Əmir Teymurun tələbi ilə Misir sultanı Fərəc Şam naibindən onların həbsə alınmasını tələb etdi. Fevral ayında Qahirədən gələn yeni bir fərmanda Qara Yusifin öldürülməsi tələb edilsə də, Şeyx Mahmudi bu əmri yerinə yetirmədi. Qara Yusif və Sultan Əhməd Dəməşqdə bir il həbsdə qaldılar [4,59].

1405-ci ilin yanvarında Qara Yusif həbsdən azad edilərək Misir sultanı Fərəcə qarşı təşkil olunan yürüşə qatıldı. Qara Yusif və Şeyx Mahmudi ilk döyüşdə qalib gəlsə də, Qahirə yaxınlığında baş verən növbəti döyüşdə məğlub olaraq geri döndülər 1405-ci ilin iyulunda Qara Yusif ətrafındakı silahdaşları ilə doğma yurduna doğru hərəkət etdi [4,60].

Bu zaman Əmir Teymur vəfat etdiyinə görə Azərbaycanda onun varisləri arasında ciddi mübarizə başlamışdı. Azərbaycan ərazisi Teymuri Ömər Mirzə ilə Əbubəkr Mirzə arasında qanlı mübarizə meydanına çevrilmişdi. Bu mübarizə zamanı Təbriz şəhəri əldən-ələ keçir, əhali isə qətl və qarətlərə məruz qalırdı.

Məhz belə bir dövrdə Azərbaycana qayıtmaqda olan Qara Yusif rəqibləri üzərində üstünlük qazanaraq Van gölü sahillərinə yetişdi. 1406-cı ilin yazında Teymur sarayından vətəninə dönən İspaniya elçisi Klavixo Qara Yusifin 10 minlik qüvvə ilə Xoy ətrafını talan etdiyini və Ərzincan şəhərini mühasirəyə aldığını yazır [4,61]. Qeyd etmək lazımdır ki, Qara Yusif Azərbaycana hakim olmaq üçün Əmir Teymurun nəvəsi Əbubəkrin qüvvələrini məğlub edərək teymurilərin Azərbaycandakı ağalığına son qoymalı idi.

Qara Yusiflə Teymuri Əbubəkr arasında ilk döyüş 14 oktyabr 1406-cı ildə Araz çayının sahilində, Naxçıvanın qərbində baş verdi. Döyüş Qara Yusifin qələbəsi ilə nəticələndi. Əbubəkr döyüş meydanından qaçdı, Qara Yusif isə Naxçıvana üz tutdu. Təbriz əhalisi öz nümayəndəsini onun yanına göndərərək şəhərin Əbubəkr tərəfindən qarət edildiyini söyləyərək onu Təbrizə gəlməyə təşviq etdi. Qara Yusif şəhəri mühafizə etmək məqsədi ilə müvəqqəti olaraq oraya darğa göndərdi, özü isə Sultaniyyəyə yürüş etdi. Teymuri Əbubəkr Təbrizi tərk edərək, Rey şəhərinə qaçdı. O, Xorasanı idarə edən qardaşı Şahruxdan yardım istədi və Azərbaycanı ələ keçirmək üçün yenidən cəhd göstərdi. Buna görə də Qara Yusiflə Əbubəkr arasında növbəti döyüş 21 aprel 1408-ci ildə Təbriz yaxınlığında yerləşən Sərdrud adlı yerdə baş verdi. Döyüşdə Teymuri qoşunları darmadağın olundu. Əbubəkr döyüş meydanından qaçdı, atası Miranşah isə öldürüldü. Bu döyüşdən sonra Teymurilərin Azərbaycandakı ağalığına tamamilə son qoyuldu [3,72; 4,62].

1410-cu il avqustun 30-da Təbrizin 2 fərsəxliyində Əsəd qəsəbəsi yaxınlığındakı döyüşdə keçmiş müttəfiqi Sultan Əhməd Cəlairini məğlub edən Qara Yusif mərkəzi Təbriz şəhəri olan Azərbaycan Qaraqoyunlu dövlətinin əsasını qoydu [4,63-64].

Azərbaycanı və Əcəm İraqını Qara Yusifin əlindən almaq və atasının imperiyasını bərpa etmək istəyən Sultan Şahrux Qaraqoyunluların Əcəm İraqına irəliləməsinin qarşısını almaq üçün Xəlil Sultanın başçılığı ilə 1411-ci ildə Azərbaycana qoşun göndərdi. Lakin bu yürüş Fars və İsfahan hakimi İsgəndər Mirzənin ixtilafı üzündən uğursuzluqla nəticələndi. Qara Yusif 1415-ci il aprel ayının sonlarında öz elçisini Herata göndərdi. Elçi Sultan Şahrux tərəfindən qəbul edilərək Qara Yusifin məktubunu ona çatdırdı. Məktubda deyilirdi ki, Şahrux Sultaniyyəni Qaraqoyunlulara verəcəyi təqdirdə Qara Yusif onun hakimiyyətini tanıyacaqdı. Şahrux da bunun qarşılığında Qara Yusifdən onunla düşmən olanlarla düşmən, dost olanlarla dost olmasını, eyni zamanda oğlanlarınından birini Şahruxun hüzuruna göndərməsini tələb etmiş və yalnız bu şərtlər qarşılığında Sultaniyyəyə qədər olan yerləri ona bağışlayacağını bildirmişdi [7,95; 4,134-135]. Qara Yusif yaxşı bilirdi ki, oğlanlarından birini Şahruxun hüzuruna göndərmək onun Teymurilərdən asılı vəziyyətə düşməsinə və müstəqil hərəkət edə bilməməsinə gətirib çıxaracaqdır. Bu səbəbdən Qara Yusif bu təklifi qəbul etmir. Lakin bir müddət sonra Sultaniyyə şəhəri Qaraqoyunlular tərəfindən ələ keçirilir. Həsən bəy Rumlu yazır ki, az sonra Həmədan, Tarom və Qəzvin şəhərləri də Qara Yusifin əlinə keçmişdir [5,93; 4,135].

Qara Yusifin həyatının son günləri də Ağqoyunlular, Teymurilər və Məmlüklərlə mübarizə şəraitində keçdi. Sultan Şahrux Qara Yusifi təhdid

edərək ondan Qəzvin və Sultaniyyə şəhərlərini geri qaytarmasını və onun hakimiyyətini tanımasını istəyirdi. Bunun qarşılığında Azərbaycanı, Ərəb İraqını və Şərqi Anadolu Qara Yusifin hakimiyyəti altında qalacaqdı

Qara Yusif bu təklifi rədd etdiyi üçün Şahrux 200 minlik ordu və döyüş filləri ilə Qaraqoyunlular üzərinə yürüş etdi. Sultan Şahruxun qaraqoyunlularla qarşıdakı döyüşdə qələbə naminə Quranın Fəth surəsini 12 min dəfə hafizlərinə oxutdurması faktı Qara Yusifin təhlükəli, daha ciddi bir rəqib olduğunu təsdiq edir. Təsadüfi deyil ki, Sultan Şahruxun əmirləri və saray adamları "Azərbaycan ordusunun tüğyanı bahadırların həmləsinin sərsəri küləyindən başqa heç nə ilə yatırılmaz" dedilər [5, 92; 4,63-64].

Əbubəkr Tehrani Teymuri Şahruxun Azərbaycana yürüşü ilə bağlı yazır: "Bir tərəfdən xəstəlik, bir tərəfdən də həzrət xaqanın qoşunlarının Təbrizə hücumu onu əldən salmışdı... Lakin bununla belə böyük padşahdan, saysız qoşundan çəkinmədi. Xəbər gətirdilər ki, Şahrux Mirzə Rey vilayətini tutub. Bu xəbərdən kefini pozmadı, fikir etmədi. Əlində olan bütün qoşunla həzrət xaqanın qarşısına çıxdı. Qoşunun ön dəstələrini Ucana yetişdi. Özü isə Təbriz şəhəri ilə Ucan arasında altı fərsəxlikdə xəstəliyinin şiddətindən taqətini itirdi. Məcbur olub Ucanın iki fərsəxliyində dayandı... dəbdəbəli padşahlıq taxtından düşüb tabut taxtına mindi. Onun əzəmətli padşah cüssəsi səhrada düşüb qaldı" [9,64-65].

Beləliklə, 1420-ci il 13 noyabrda Təbrizin cənub-şərqində, Ucandan iki fərsəx şimal-qərbdə yerləşən Səidababad kəndində Qara Yusifin vəfat etməsi nəticəsində Teymuri sultanı Şahruxla gözlənilən döyüş baş vermədi [5,95; 4,137].

Qara Yusifin ölümündən sonra əsgərlərinin çoxu Kərkükdə olan İsgəndər Mirzənin (1421-1438) yanına getdi. Qaraqoyunlu dövlətini İsgəndər Mirza idarə etməyə başladı. İsgəndər Mirzə Azərbaycana birinci dəfə yürüş edən Şahruxla döyüşə başladı. Əbubəkr Tehrani Şahruxla İsgəndər Mirza arasında döyüşü ətraflı təsvir edərək yazır: "Əmir Qara Yusifin ölümündən sonra Xaqan Şahrux Mirzə... Reydən çıxıb Təbrizə tərəf yollandı. Şahzadələr Baysunqur Mirzə və Cuki Mirzə, dövlət əmirləri və sərkərdələri onun bayrağının kölgəsində davasız və döyüşsüz... Təbrizə axışdılar. İsfahan bəy bunu görüb dərhal İsgəndər Mirzənin yanına getdi. Həzrət Xaqan (Sultan Şahrux – N.A.) İbrahim Cakunu hücumla onun ardınca göndərdi. O, Muş obasında İsfahan bəyə çatdı. O da qoşunu, malı qoyub qaçdı, Amidin yuxarılarında İsgəndər bəyə qoşuldu. İsfahan bəylə İsgəndər Mirzə bir-birinə çatmamış Osman bəy Mehrfərə gəldi. Öz əziz oğlunu beş yüz atlı ilə həzrət xaqanın hüzuruna göndərdi. Əli bəy yolda Sultan İbrahim Cakuya çatdı və onunla birlikdə Qara Kərdunkər sahilində əlahəzrətin düşərgəsinə yetişdilər. Bu yurdda Şahrux Mirzə qayıtmaq fikrinə düşdü. Əli bəy ona bildirdi ki, İsgəndər bəylə İsfahan bəy birləşiblər və Qaraqoyunlu əmirləri İsgəndər Mirzənin ətrafında toplanıb bu istiqamətdə gələcəklər" [9,67-68]. Teymuri sultanı öz nökərlərindən bir dəstəni kəşfiyyata göndərdi və məlumatın dəqiqliyinə əmin oldu və Qaraqoyunluları dəf etməyə getdi. Şahrux Mirza orduya silahlanmaq əmri verdi və Ələşkerd çayından keçərək Balıqlı göldə öz mövqeyini möhkəmlətdi. Bu yurdda Osman bəy də onun düşərgəsinə çatdı. Daha sonra Sultan Şahrux Ələşkerddən keçərək Aladağın ətəklərindən ötüb Ağadəvəyə çatdı" [9,68].

Teymuri sultanı Şahruxla Qaraqoyunlu İsgəndər arasında baş verən Ələşkerd döyüşü Əbubəkr Tehranin əsərində ətraflı əks olunmuşdur. Döyüşdən qabaq İsgəndər Mirzənin sağ cinahı Şahruxun sol cinahına hücum etdi və döyüş başladı. Ərzurum və Ağrı arasındakı Ələşkerd adlı yerdə İsgəndərlə Şahruxun ordusu arasında üç gün davam edən( 30 iyul – 1 avqust 1421-ci il) döyüşdə Qaraqoyunlular məğlub oldu. Döyüşdən sonra Sultan Şahrux Azərbaycanın idarəsini Uzun Həsənin atası Əli bəyə həvalə etdi. Bundan sonra o, Xorasana hərəkət etdi. Əli bəy bir neçə gün Təbrizdə qaldı. Lakin Təbriz əhalisi Qaraqoyunlulara rəğbət bəsləyirdi. Qara Yusifin oğlu İsfahan bəy atasını və qardaşının yerində hakim olmaq arzusunda idi və buna görə də Təbrizə qoşun çəkdi. Əli bəy vəziyyətin ağır olduğunu görərək Diyarbəkrə gəldi [bax: 9,68-70; 4,138-140]. İsgəndər Mirzə İsfahan bəyin Azərbaycanda şöhrətinin getdikcə artdığını görərək Təbrizə üz tutdu və Təbrizi, Əlincəq qalasını İsfahan bəydən alaraq onu Azərbaycandan çıxarmaq istədi. İsfahan bəy qaçaraq Ərzuruma getdi.

Yenidən dövləti gücləndirməyə çalışan İsgəndər Mirzə Sultaniyyə, Qəzvin və Zəncanı özünə tabe etdi. Şahrux ikinci dəfə Azərbaycana yürüş etdi. İsgəndər qardaşları Cahanşah və Əbu Səid

ilə birlikdə ordusunu Urmiya gölünün qərbində Salmasda toplanmiş və Şahruxu gözləyirdi. İsgəndər Mirzə ilə Şahrux arasında Salmas yaxınlığında iki gün davam edən döyüş baş verdi (17-18 sentyabr 1429-cu il). Qaraqoyunlular məğlub oldular və Şahrux Qara Yusifin ən kiçik oğlu Əbu Səidi Azərbaycana hakim təyin etdi [6,436; 4,142-143]. Qara Yusifin oğlanları arasında birliyin olmaması Teymuri hökmdarına Qaraqoyunlu ordusu üzərində qələbə qazanmağa imkan yaratdı.

Salmas döyüşündən sonra Qarabağa Şahruxun yanına gələrək ona bağlılığını bildirən Qaraqoyunlu Əbu Səidin Azərbaycan hakimliyi bir neçə ay davam edə bildi. Həsən bəy Rumlu yazır ki, 1432-ci ildə İsgəndər Mirzə ilə Əbu Səid arasında baş verən döyüş nəticəsində Əbu Səid ələ keçirilərək öldürüldü [5,134].

İsgəndərin Van gölü ətrafının idarəsinə təyin etdiyi oğlu Yarəli əhali üzərinə ağır vergilər qoyduğuna görə onu atasına şikayət etdilər. İsgəndər oğlunu yanına çağırsa da, o, atasından çəkindiyinə görə Şirvanşah Xəlilullahın yanına sığındı. İsgəndərin israrlı tələblərinə baxmayaraq, Şirvanşah Yarəlini Sultan Şahruxun sarayına yola saldı [1,15].

Bu hadisədən sonra Qaraqoyunluların Şirvan üzərinə hücumu labüd idi. İsgəndərin Şirvanşahlar üzərinə yürüşünü Kitabi-Diyarbəkriyyə müəllifi belə yazır: “1433-cü ilin əvvəllərində İsgəndər bəy böyük qoşunla Şirvana hücum etdi. Əmir Xəlilullah müqavimət göstərməkdə aciz qalıb qaçdı. Şirvanın böyük hissəsi onun ixtiyarından çıxdı. Türkmanların hücumuna məruz qalıb, qarət və zülmə düçar oldu. Bir ildən artıq müddətdə Şirvandan əmin-amanlıq uzaq düşdü. Bu fəlakətdən qurtuluş yolu tapmayacağını görüb zəmanənin ən görkəmli sultanlarından Şahrux Mirzə və Osman bəydən kömək istədi” [9,78].

Dövrün qaynağının təsdiq etdiyi kimi, Azərbaycanda baş verən hadisələr Qaraqoyunlu-Teymuri münasibətlərinə mühüm təsir göstərərək onu daha da gərginləşdirdi. Şirvanşah Xəlilullahın yardım üçün müraciət etməsi və Qaraqoyunlu şahzadələri arasındakı münasibət Teymuri hökmdarını Azərbaycana üçüncü yürüşə çıxmağa vadar etdi [9,78; 4,145].

Əbubəkr Tehraninin verdiyi məlumata görə, 1435-ci ilin qışını Reydə keçirən Sultan Şahrux bütün döyüşçülərini topladıqdan sonra Azərbaycana irəlilədi. O, Sultaniyyə yolu ilə Təbrizə daxil oldu və bütün Azərbaycan şəhərlərini ələ keçirdi. İsgəndər Mirza bu xəbəri eşidəndə qorxuya düşdü və o, Şirvanı qoyub Ərzurum yolu ilə Ruma tərəf hərəkət etdi. Ərzurum bu vaxt Osman bəyin ixtiyarında idi. Şahrux Mirzə İsgəndərin qaçması xəbərini alan kimi Şahzadə Cuki Mirzəni altmış min atlı ilə onun ardınca hücuma göndərdi [9,78-79].

1436-cı ildə Sultan Şahrux Azərbaycanın idarəsini Cahanşaha verdi və Xorasana qayıtdı. İsgəndər Cahanşahın hökmdarlıq taxtına əyləşməsi ilə barışmaq istəmirdi. Buna görə də sığındığı Osmanlılara ərazisini tərk edərək Təbrizə gəldi. Qardaşı Cahanşah da Qızılağac qışlağında Ərdəbilə gəldi. O, Sərab yolu ilə Cagirlunun görkəmli əmirlərindən Bayəzid Bəstami və onun tərəfdarları, həmçinin Şirvan əmirlərdən bəziləri ilə birləşib qardaşını məğlub etmək və Təbrizi tutmaq üçün irəlilədi. Qardaşlar arasında Həftçeşmədə baş verən döyüşdə İsgəndərin əyanlarından Piri bəy Qaramanlı və digər əmirləri Cahanşahın tərəfinə keçdiyi üçün məğlub oldu və Əlincə qalasına sığındı [9,90-91]. Lakin orada oğlu Şah Qubad tərəfindən öldürüldü.

Beləliklə, Sultan Şahrux böyük ümid bəslədiyi üçüncü Azərbaycan səfərindən də heç nə əldə edə bilmədi, Şərqi Anadolu, Azərbaycan, İraqi-Ərəb və İraqi-Əcəm bölgələrində Qaraqoyunlu dövləti öz varlığını qoruyub saxladı [4,147].

1447-ci Şahruxun ölümündən sonra Teymuri şahzadələri arasında səltənət uğrunda baş verən mübarizədən istifadə edən Cahanşah öncə Sultaniyyə və Qəzvini, sonra isə Fars və İraqi-Əcəm bölgələrini tamamilə ələ keçirdi [11,183; 4,147-148]. 1457-ci ildə Teymuri sultanı Baburun ölümündən istifadə edən Cahanşah şərqə doğru yürüşləri daha da fəallaşdıraraq Mazandaranı ələ keçirdi və Xorasana doğru irəlilədi. Teymuri İbrahim Mirzə məğlub edildi. Qaraqoyunlu hökmdarı Herata daxil olaraq Bağı-Zağanda dayandı [4,148]. Şəhərə gəlməzdən qabaq hələ Küsüyəyə çatmamış padşah əmr etmişdi ki, car çəkilsin: “Heç kəs yerli əhaliyə qarşı lazımsız əməllərə yol verməsin, atlar əkinlərə buraxılmasın... Padşahın bu ədalətinin sədası hər yana yayıldı, bir vaxt öz yurdunu qoyub qaçanlar geri qayıtmağa başladı, camaat arasında nizam-intizam yarandı, bütün Xorasan əhalisi öz işi ilə məşğul oldu” [9,188].

Bu hadisədən üç ay sonra Sultan Əbu Səid Mirzə Səmərqənddən hərəkət edərək, Bəlxə gəldi. Cahanşah Mirzə şəhərdən altı fərsəx şimalda

Cəğcəran çayının sahilində yerləşən Ləkləkxana adlı yerdə yaylaqda idi. Mövlana Nəcməddin Ömər adlı bir nəfər Sultan Əbu Səidin elçisi kimi Cahanşahın yanına gəldi və sülh təklif etdi. Cahanşah Mirzə tərəfdən isə Seyid Nizaməddin Aşur Əbu Səidin yanına getdi və sülh danışıqlarına razı olduğunu bildirdi [9,189]. Əbubəkr Tehrani yazır ki, bu zaman Pirbudaq Sultan Əbu Səid üzərinə yürüşə getmək üçün atasından icazə istəyərək qərargahdan ayrılsa da, bir fərsəx getməmiş Cahanşah Əbülfəth bəy Cagirlini onun ardınca göndərərək onu bu hərəkətindən çəkindirdi. Cahanşah ona belə bir sifariş göndərmişdi: “Onunla (Əbu Səidlə) döyüşmək bizə münasib deyil, çünki Həsən Əli qiyam edib Azərbaycanı öz əlinə keçirib. Ona görə bizim Xorasanda qalmağımız məsləhət deyil. Xəzinəni və məmləkəti onun (Həsən Əlinin) əlində qoyub Sultan Əbu Səidlə vuruşmaq ağla və düşüncəyə uyğun deyil. Əgər Əbu Səidlə döyüşsək qələbə ya bizimlə olacaq, ya da onunla. Biz ona qalib gələcəyimiz təqdirdə Xorasanı əldə saxlaya bilməyəcəyik, çünki, düşməni arxada qoyub İraq və Azərbaycana getməli olacağıq. Əgər o qalib gəlsə biabırçılıqdan, ləyaqətsizlikdən, cəhalət və qürur odu ilə öz evini yandırmaqdan başqa bir şey əldə edə bilməyəcəyik. Bu da ağlın göstərişinə ziddir. Yaxşısı budur ki, onunla sülh bağlayıb, Azərbaycana yollanaq” [9,189; 4,148].

Bundan sonra Pirbudaq Mirza geri qayıtdı və hər iki tərəf sülh danışıqlarına başladı. Cahanşahın vəziyyətinin yaxşı olmadığını görən Əbu Səid sülhün ancaq Cahanşah bu ölkəni tərk edəcəyi təqdirdə imzalanacağını bildirdi. Qaraqoyunlu elçisi Qazi Abdullahın əldə etdiyi və Əbubəkr Tehraninin yazdığı sülhün şərtlərini görə Abu-Rövşən sərhəd, Əlaüddövlə Mirzəyə məxsus Astrabadı ayıran nöqtə oldu, digər Xorasan və Qohestan torpaqları Əbu Səidə verildi. Qaraqoyunlular vaxtı ilə Teymurilərə aid olan İraqi-Əcəm, Fars və Kirmanı əldə saxlamağa nail oldular [9,189; 2, 88; 4,149]. Beləliklə, 1458-ci ilin iyulunda Cahanşah Xorasanın baş şəhəri Heratı ələ keçirsə də, burada möhkəmlənə bilmədi.

XV əsrin 60-cı illərində Qaraqoyunlularla Teymurilər arasında münasibətlərdə yaxınlaşma hiss edilirdi. Əbu Səid və Cahanşah arasında dostluq münasibətlərinin olmasını baş verən siyasi hadisələrlə bağlı onların bir-birinə elçilər göndərməsi də sübut edir. 1464-cü ildə Cahanşahın göndərdiyi 40 nəfərlik elçi heyətini Sultan Əbu Səid Mərv yaxınlığında qəbul etdi və onların Herata dönmələrinə icazə verdi. Qaraqoyunlu hökmdarı regiondakı hadisələrlə bağlı Teymuri hökmdarına məlumat verməklə yanaşı hər iki hökmdar bir-birinə hədiyyələr və məktublar da göndərmişdir. Qaraqoyunlu hökmdarı elçilər vasitəsi ilə oğlu Pirbudağın üsyanını yatırdığını və Bağdadın fəthi ilə bağlı məlumatları Əbu Səidə çatdırdığı kimi, Teymuri sultanı da qazandığı qələbələrlə bağlı Cahanşaha məlumat yollamışdı. Əbu Səid Hüseyn Bayqaranın uğursuz Herat səfəri ilə bağlı ətraflı məlumatı da Cahanşaha bildirmişdir [4,150].

1467-ci ildə Cahanşahın ölümündən sonra Qaraqoyunlu-Teymuri əlaqələri davam etmişdi. Teymuri sultanı Əbu Səid Qaraqoyunlu Həsənəli Mirzəni müdafiə adı altında Azərbaycan uğrunda Ağqoyunlu Uzun Həsənə qarşı mübarizəyə başlasa da, məğlub olaraq başlıca niyyətini həyata keçirməyə müvəffəq olmadı. Qaraqoyunlu Həsənəli ilə Teymuri sultanı Əbu Səid arasında Ağqoyunlu Uzun Həsənə qarşı mübarizə aparmaq istəyi Qaraqoyunlularla Teymurilər arasında siyasi əlaqələri daha da möhkəmləndirdi. Lakin Uzun Həsənin öncə Əbu Səid və sonra da Həsənəlini məğlub edərək öldürməsi Qaraqoyunlu-Teymuri münasibətlərinə ağır zərbə vurdu. Bununla yanaşı, Ağqoyunlu hökmdarı Uzun Həsənin Azərbaycandakı hakimiyyətini qəbul etməyən Baharlı tayfa əmirləri Teymurilərin himayəsinə sığındı [4,150].

**Açar sözlər:** *Əbubəkr Tehrani, Cahanşah, Şahrux Mirzə, Qaraqoyunlu, Teymurilər.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Aka İ. Şahruhun Karakoyunlular üzerine seferleri. //Tarih İncelemeleri Dergisi, c. IV, sayı 1. Ankara: 1989, s.1-20*

*2. Aka İ. Timur ve devleti. TTK Basımevi, Ankara: 1991, 172 s.*

*3. Azərbaycan tarixi. Yeddi cilddə, c.3. Bakı: Elm, 2007, 563 s.*

*4. Nəcəfli T. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, Bakı: Çaşıoğlu, 2012, 604 s.*

*5. Rumlu Həsən bəy. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Fars dilindən tərcümə və şərhlər: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, prof. Oqtay Əfəndiyev, tarix üzrə fəlsəfə doktoru, dosent Namiq Musalı. Kastamonu: Uzanlar, 2017, 661 s.*

*6. Sümer F. Karakoyunlular Doğu Anadolu, Azerbaycan, İran ve İrakta hüküm süren Türkmen hanedanı. //TDV İslam Ansiklopedisi, c. XXIV, İstanbul: 2001.*

*7. Sümer F. Karakoyunlular (Başlangıçtan Cihanşaha kadar) c. I, TTK Basımevi, Ankara: 1967, 179 s.*

*8. Şükürova R. Əbubəkr Tehrani və onun "Kitabi-Diyarbəkriyyə" əsəri. Bayrak Yayınları, İstanbul: 2006, 108 s.*

*9. Tehrani Ə. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilər Rəhilə Şükürovanındır. Bakı: Elm, 1998,*

*10. Tihrani E. Kitab-i Diyarbekriyye. Çev. Prof.dr. Mürsel Öztürk. Kültür Bakanlığı, Ankara: 2001,430 s.*

*11. Uzunçarşılı İ. H. Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri. TTK Basımevi, Ankara: 1969, 297 s.*

**Nuray Abbasova**

**The relationship of Kara-Koyunlu with the Timurids in the work of Abu Bekr Tehrani "Kitabi Diyarbekiriyye"**

**SUMMARY**

The relations of the Kara-Koyunlu state with the Timurids were not stable. Kara Yusuf, having won a battle over them at the beginning of the 15th century, put an end to the Timurid rule in Azerbaijan. However, relations with the Timurid state remained tense during the reign of Sultan Shahrukh. Despite the fact that Sultan Shahrukh raided Azerbaijan three times, he could not put an end to the existence of the Kara-Koyunlu state. After the Jahanshah government came to power in 1438, relations with the Timurids improved. Important information on this matter was given by Abu Bekr Tehrani in his book "Kitabi-Diyarbekiriyye", who served in the palace of both Sultan Shahrukh and Jahanshah.

**Keywords:** *Abu Bekr Tehrani, Jahanshah, Shah Rukh Mirza, Kara-Koyunlu, Timurids.*

**Нурай Аббасова**

**Взаимоотношения Кара-Коюнлу с Тимуридами в произведении Абу Бекра Техрани "Китаби Диярбекирийе"**

**РЕЗЮМЕ**

Отношения государства Кара-коюнлу с Тимуридами не были стабиль-ными. Кара Юсуф, одержав победу в начале XV века в битве над ними, положил конец правлению Тимуридов в Азербайджане. Однако отношения с государством Тимуридов оставались напряженными и во время правления султана Шахруха. Несмотря на то ,что султан Шахрух трижды совершал набеги на Азербайджан, он не смог положить конец существованию государству Кара коюнлу. После прихода к власти в 1438 году правительства Джаханшахов отношения с Тимуридами улучшились. Важные сведения по этому поводу дал Абу Бекр Техрани в своей книге "Китаби-Диярбекирийе", служивший во дворце как султана Шахруха, так и Джаханшаха.

**Ключевые слова:** *Абу Бакра Техрани, Джаханшах, Шахрух Мирза, Гарагоюнлу, Тимуриды.*

UOT 94(479.24)

# İRƏVAN XANLIĞININ TARİXİ COĞRAFİYASI

**SEVİNC QULUZADƏ**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: sevinc.gulmaliyeva93@mail.ru*

XVIII əsrin II yarısı Azərbaycan tarixinə "Xanlıqlar dövrü" kimi daxil olmuşdur. Keçmiş Səfəvi bəylərbəyiliyi Çuxursədin yerində bu dövrdə İrəvan xanlığı yaranmışdır. Lakin İrəvan xanlığı Çuxursəd bəylərbəyiliyinin bütün ərazisini əhatə etmirdi. Çuxursəd bəylərbəyiliyinin ərazisinin bir hissəsi Naxçıvan və Maku xanlıqlarının sərhədlərinə daxil oldu. Çuxursəd bəylərbəyiliyinin adının bir türk toponimi olması inkaredilməz faktdır. Belə ki, mənbələr də sübut edir ki, sədli tayfa birliyi Qaraqoyunlu ittifaqına daxil idi. Sədli tayfası öz adını XIV əsrdə tayfa başçısı olan Əmir Səədin adından götürmüşdür. Əmir Səədin hakimiyyəti altında birləşmiş Azərbaycan-türk tayfaları XIV əsrin sonlarından başlayaraq Sədli adlandı. Elə bu dövrdən də Şimal-Qərbi Azərbaycanın Arazyanı Sürməli vadisindəki ərazisi (indiki Ermənistan Respublikasının Yerashadzor kəndi və onun ətrafı) Çuxursəd adlanmağa başladı [1,17].Çuxursəd bəylərbəyiliyini Səfəvi şahının təyin etdiyi ustaclı və rumlu tayfalarının nmayəndələri idarə edirdi.

Çuxursəd toponimi rəsmi sənədlərdə ilk dəfə 1428-ci ildə Üçkilsə (Valarşabad) kəndinə sahibliklə bağlı ərəbdilli sənəddə xatırlanır [7,140]. Arpaçayın Arazla qovuşduğu yerdən Naxçıvan və Arazın sağ sahilində yerləşməklə Ağrıdağa qədər əraziləri əhatə edən Sürməli Sədli tayfasının qədim yurdu idi. XV əsrdə Arazboyu torpaqları əhatə edən və Ağrıdağla Alagöz dağları arasındakı vadi də Sədli oymağına daxil idi. Teymuri tarixçisi Hafiz Ebru Sultan Şahruxun Azərbaycana yürüşlərindən bəhs edərkən Naxçıvan və Sürməli bölgəsinin Səədli oymağının qədim yurdu olduğunu qeyd etmişdir. Bu vadi böyük bir çuxura bənzədiyinə görə ona el arasında "Çuxur" da deyirdilər. İrəvan vilayətinin düzənlik bölgəsində yaşayan azərbaycanlılar çox sonralar - XVIII - XIX əsrlərdə də bu vadini Səhəd Çuxuru adlandırmaqda davam edirdilər . [1,18].

XVI əsr boyu davam edən Səfəvi-Osmanlı müharibələri Çuxursəd bəylərbəyiliyinə də təsirsiz ötüşməmiş, iki dövlət arasında müharibə meydanına çevrilmişdir. 1590-cı ildə imzalanmış İstanbul sülh müqaviləsinə görə Çuxursəd Osmanlı dövlətinin tərkibinə daxil edilmişdir. Bundan sonra Osmanlılar bəylərbəyiliyin inzibati quruluşunda dəyişiklik etmişlər. Belə ki, yeni inzibati bölgü Osmanlıların "Müfəssəl dəftər"ində öz əksini tapmışdır. Çuxursəd bəylərbəyiliyinin ərazisi iki livaya — İrəvan və Naxçıvan livalarına bölünmüşdü. İrəvan livasına 10 nahiyə daxil idi: İrəvan, Qərbi, Gərni, Vedi, Aralıq, Talın, Ərmus, Abnik, Abaran, Şərabxana. Naxçıvan livası isə 16 nahiyədən (Ağcaqala, Məvaziyi-Xatun, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad) və 1 qəzadan — Naxçıvan qəzasından (sancağından) ibarət idi [5,8-9]

1728-ci il tarixli İrəvan əyalətinin müfəssəl dəftərindən aydın olur ki, osmanlılar Naxçıvan bölgəsi üçün ayrıca bir müfəssəl dəftər tərtib etmiş, Zar, Zəbil və Şərur nahiyyələrini Naxçıvan sancağının tərkibindən çıxararaq İrəvan əyalətinə birləşdirmişdilər. Bundan əlavə Maku, İğdır, Sürməli adlı nahiyələrin İrəvan əyalətinə birləşdirilməsi ilə bərabər, bu əyalətin ərazisində Göyçə, Məzrə, Xınzırak, Qırxbulaq, Dərəçiçək və əhalisi 100% türk olan Sədərək adlı nahiyələr və Şürəngəl livası yaradılmış, XVI əsrin sonunda mövcud olmuş Talin, Ərmavi, Abnik, Şərabxana nahiyələri, Naxçıvan ərazisində isə Bazarçayı və Ağcaqala nahiyələri ləğv olunmuş, buraların kəndləri isə yeni yaradılmış nahiyələrə verilmişdir". Hesablamalara görə əyalət əhalisinin 43784 nəfəri (61.2 %) türk – müsəlman idi. İrəvan şəhərində bu rəqəm 3369 nəfər (63.5%) təşkil edirdi [5, 18].

1747-ci ildə Nadir şahın qətlindən sonra Azərbaycanda iyirmi xanlıq meydana gəldi. On-

lardan hər birinin Azərbaycan tarixində öz yeri və rolu vardır. Belə xanlıqlardan biri olan İrəvan xanlığının meydana gəlməsi bir tərəfdən Nadir şahın qətlindən sonra yaranan vəziyyətlə bağlı idisə, digər tərəfdən Qərbi Azərbaycanın nəzərdən keçirilən tarixi inkişafının nəticəsi idi. Qərbi Azərbaycan torpaqları tarixən bu və ya digər dövlətlərin tərkibinə daxil olmuşdu, lakin burada ayrıca dövlət yaranmamışdı. İlk belə dövlət İrəvan xanlığı oldu.

İrəvan xanlığı XVIII əsrin ortalarında Azərbaycan ərazisində uzun sürən İran hakimiyyətindən sonra müstəqil dövlət qurumu qazanan 20-yə yaxın xanlıqlardan biri idi. Tarixçi Həsi Abdullayevin sözləri ilə desək, "Azərbaycan xanlıqlarının yaranması prosesi onu əvvəlki dövrdən ayıran feodal münasıbətləri inkişafının labüd dövrü idi". Həqiqətən də sabiq Çuxursəd ərazisində müstəqil İrəvan xanlığının yaranması ilə bu bölgədə yaşayan xalqların tarixində yeni səhifələr açıldı. [4,54].

İrəvan xanlığı Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsi və Araz çayından cənub – qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın şimal – qərbində yerləşən bu xanlıq paytaxt İrəvan şəhəri olmaqla inzibati cəhətdən naiblərin idarə etdiyi 15 mahala bölünürdü (Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd, Saatlı, Talin, Seyidli- Axsaxlı, Sərdarabad, Karpi, Abaran, Dərəçiçək, Göyçə). [4,13]. Xanlıq əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi. İrəvan şəhəri əhalisinin yalnız dörddə biri ermənilər idi. Xanlığın ərazisində erməni dini mərkəzi "Üçmüəzzin" ("Eçmiədzin"), "Üçkilsə" yerləşirdi, kilsənin başçısı katolikos İrəvan xanı tərəfindən təyin olunurdu. İrəvana yiyələnməyə çalışan qonşu Kartli-Kaxeti çarları erməni katolikosunun köməyindən istifadə etmək məqsədilə onunla gizli əlaqə saxlayırdılar. Qeyd edək ki, erməni katalikosluğunun mərkəzi əvvəllər İrəvan ərzisində deyil, Kilikiyada yerləşirdi. 1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahanşahın razılığı ilə ermənilərin dini mərkəzi Kilikiyadan Üçkilsə yaxınlığına köçürülmüşdür. Bununla Cənubi Qafqazda qriqorianlığı yayan erməni missionerləri üçün əlverişli şərait yarandı. Qaraqoyunlu hökmdarları erməni katolikoslarını himayə etdilər və onlara sərbəstlik verdilər. Bu vaxtdan Azərbaycanın Çuxursəd diyarında yerləşən Üçkilsə bütün ermənilərin dini mərkəzinə çevrildi. Qaraqoyunlulardan sonra Ağqoyunlulara sığınan Üçkilsə katolikoslarının mövqeyi daha da möhkəmləndi. Beləliklə, Azərbaycan ərazisində Çuxursəd diyarında Azərbaycan Qaraqoyunlu, Ağqoyunlu hökmdarlarının icazəsi ilə erməni kilsələri tikildi. [1,18-19].Yalnız bundan sonra ermənilər İrəvan və ətraflarına köç etmək hüququ qazanmışlar, lakin tarixin XX əsrə qədərki heç bir dönəmində bölgədə dominantlıq qazana bilmədilər.

XVIII əsrin ikinci yarısında Azərbaycanda mövcud olan başqa xanlıqlar kimi, İrəvan xanlığının da siyasi tarixi ardı-arası kəsilməyən feodal vuruşmaları, qanlı saray çevrilişləri və yadelli işğalçılara qarşı mübarizə ilə bağlıdır. Bu isə minlərlə əhalinin məhv olunmasına, şəhər və kəndlərin dağıdılmasına, istehsal qüvvələrinin zəifləməsinə və istehsalın aşağı düşməsinə gətirib çıxarırdı. Lakin bununla belə, mütəxəssislərin fikrincə, XVIII əsrin ikinci yarısında Azərbaycanda dövrün birinci yarısına nisbətən müəyyən təsərrüfat canlanması nəzərə çarpırdı. Azərbaycanın başqa xanlıqlarında olduğu kimi, İrəvan xanlığında da bu nisbi canlanma müşahidə olunurdu. İrəvan xanlığının iqtisadiyyatında əsas yeri torpaq üzərində mülkiyyət təşkil edirdi. Ölkənin iqtisadiyyatının başlıca sahəsini heyvandarlıq və əkinçilik təşkil edirdi. [4,55-56].

Bu gün İrəvan xanlığının yerləşdiyi ərazi Ermənistan adlandırılır. Azərbaycan dilində "Ermənistan" sözü 1921-ci ildə Sovet Rusiyasının İrəvan quberniyası ərazisində təşkil etdiyi dövlətin (və ölkənin) adıdır. Ondan əvvəl "Ermənistan" adı məlum deyil. 1588 və 1728 – ci illərə aid türkcə arxiv sənədlərində İrəvan şəhərinin adı ilə bu ölkə müvafiq olaraq "Rəvan əyaləti" və "İrəvan əyaləti adlanır" [3,19]. Deyilənlərdən görünür ki, indiki Ermənistan ərazisi ermənilərin yox, e. ə. VIII – VII əsrlərdən başlayaraq türk mənşəli tayfaların yaşadığı ölkə olmuş və sonralar, XIX əsrin əvvəllərinə qədər burada türklər aparıcı rol oynamışlar. Mənbələrdə elə bir tarixi məlumat yoxdur ki, Ermənistan ərazisində azərbaycanlılar erməniləri kəndlərindən qovub yerlərini tutsunlar. Lakin adları türkcə olan yaşayış məntəqələrində hələ orta əsrlərdə ermənilərin yaşaması halları istənilən qədərdir. Kimin gəlmə, kimin yerli olduğunu müəyyən etmək üçün bu faktın özü kifayətdir" [3,93].

İrəvan xanlığı 1747-1797 –ci illərdə müstəqil dövlət olmuş, 1797 – 1828-ci illərdə burada İranın hakimiyyəti bərpa olunmuşdu. Dövlətin başçısı

xan idi; xandan sonra vəzir (yaxud baş mirzə), müxtəlif vəzifə daşıyan bəylər (divan bəyləri, sərkərdələr, əmirlər və s.) gəlirdi. Qoşuna xan özü başçılıq edirdi. Əhalisi, əsasən azərbaycanlılardan, qismən erməni və kürdlərdən ibarət idi; əkinçilik, bağçılıq, tərəvəzçilik və maldarlıqla məşğul olurdular. [4,13]. İrəvan şəhərində daimi yaşayan əhalinin tamamilə Azərbaycan türklərindən ibarət olmasını ilk mənbələr də təsdiq edir. Məsələn, XVII əsr fransız səyyahı Şarden İrəvanda olankən (1673) Səfiqulu xan Çuxursəd bəylərbəyi və İrəvan hakimi idi. Şarden onun incəsənəti və elmi sevdiyini, hamının ona hörmət etdiyini göstərir. Səyyahın məlumatma görə, "...İrəvan qalası təxminən səkkiz yüz evdən ibarətdir. Orada ancaq təmizqanlı qızılbaşlar (yəni Azərbaycan türkləri) yaşayırlar" . Bununla yanaşı, digər avropalı səyyah — 1700-cü ilin yazında İrəvanda olmuş alman səyyahı Kaspari Şillinger də təsdiq edir ki, İrəvan şəhərində sayca və siyasi cəhətdən Azərbaycan türkləri tam üstünlük təşkil edirdi. O yazır: "İrəvan şəhərinin daxilində (yəni şəhərin qala divarları içərisində) yalnız iranlılar (Azərbaycan türkləri), şəhərin nisbətən iri qəsəbəsində (görünür, Üçkilsədə) və müxtəlif yerlərdə kilsəyə xidmət üçün erməni tacir və sənətkarları yaşayır. Onlar iranlılara (Azərbaycan türklərinə) vergi verirlər". "Qədim İrəvan" kitabında İrəvan əhalisindən bəhs edən Y.Şahəziz 1673-cü ildə İrəvanda olan fransız səyyahı Şardenin İrəvan qalasında yaşayan əhali haqda məlumatını bir daha təsdiq edir və daha maraqlı bir məqama toxunur. O yazır ki, ermənilərin orada (İrəvan şəhərində) yalnız dükanları var idi, onlar orada gündüzlər alver edir, axşamlar isə dükanlarını bağlayıb evlərinə gedirdilər. [1,45]

İrəvan xanlığında dövlət (divan), xalisə (xana və ailə üzvlərinə məxsus), mülk, vəqf və camaat torpaq mülkiyyəti formaları mövcud idi. Kəndlilər onlarca vergi verir və müxtəlif mükəlləfiyyətlər daşıyırdılar. [4,13]

Azərbaycan dövləti olan İrəvan xanlığını Azərbaycanın dövlət idarəçiliyi tarixində mühüm rol oynamış məşhur Qacarlar adlanan türk sülaləsindən olan xanlar idarə etmişlər. Xanlığın bütün idarəçilik sistemi, ictimai, siyasi, mədəni və təsərrüfat həyatı, burada yaşayan əhalinin məişət mədəniyyəti Azərbaycanın minillər boyunca davam etmiş ümumi tarixi inkişaf sisteminin ayrılmaz tərkib hissəsi idi. İrəvan xanlığı öz inkişaf xüsusiyyətlərinə görə həmin dövrdə mövcud olmuş digər Azərbaycan xanlıqlarından heç nə ilə fərqlənmirdi. İrəvan xanlığının ərazisində, tarix boyu, Azərbaycan xalqına məxsus çoxsaylı yaşayış məskənləri — kəndlər, şəhərlər salınmış, minlərlə tarixi abidələr qalalar, məscidlər, minarələr ucaldılmış, karvansaralar, hamamlar inşa olunmuşdu. Bölgədəki bütün yer adları — toponimlər Azərbaycan xalqına məxsus idi. Bu inkarolunmaz həqiqəti hətta erməni mənbələri də təsdiq edir. Xanlığın ərazisində saysız-hesabsız qədim oğuz-türk qəbiristanlıqları və bu qəbiristanlıqlarda Azərbaycan xalqına məxsus külli miqdarda qoç heykəlləri, qəbirüstü abidələr vardı. Bütün bunlar Azərbaycan xalqının maddi mədəniyyət möhürləri idi... [1,7]

İrəvan xanlığı çar Rusiyasının işğalçılıq planlarında xüsusi əhəmiyyətə malik idi. XIX əsrin əvvəllərindən etibarən Cənubi Qafqaz Rusiya və Qacarlar dövləti arasında hərbi əməliyyatlar meydanına çevrildi. 1804-1813 və 1826-1828-ci illəri əhatə edən ikimərhələli müharibə İrəvan xanlığının da həyatında faciəvi sonluğa yol açdı. Çar Rusiyası hələ ilk müharibə dövründə İrəvan üzərinə hücuma keçmiş, lakin Üçkilsə və Qəmərli yaxınlığında məğlubiyyətə uğrayaraq, geri çəkilməyə məcbur olmuşdur. 1826-1828-ci illərin hərbi kompaniyasında İrəvan xanlığına diqqət daha da artırılmış,çar I Niolay Qafqaz qoşunları komandanı general Yermolova İrəvan xanlığını işğal etməklə bağlı xüsusi tapşırıq vermişdir. İrəvan qalasını "İrəvan sərdarı" Hüseynqulu xan Qacar və qardaşı Həsən xan müdafiə edirdi. Uzunmüddətli mübarizəyə baxmayaraq, çar qoşunları 1827-ci il oktyabrın 1-də İrəvan xanlığını işğal etdilər. 1828-ci il 10 fevralda II Rus-Qacar müharibəsini sonlandıran Türkmənçay müqaviləsi imzalandı.

Müqavilənin üçüncü maddəsində İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya ilhaqı təsdiqlənirdi. Çar hökuməti bu tarixi Azərbaycan torpaqlarının ilhaqından sonra I Nikolayın 1828-ci il 21 mart tarixli fərmanı ilə onların əsasında —Erməni vilayət yaradıldı. Çavçavadze həmin vilayətə rəis təyin edildi. Beləliklə, tarixi Azərbaycan torpaqlarında "Erməni vilayəti" yaradılmış, gürcü isə ona rəis təyin edilmişdir. Erməni vilayəti adlandırılan qurum 1840-cı ildə ləğv edilmişdir. 1849- cu ildə keçmiş İrəvan və Naxçıvan torpaqları əsasında İrəvan quberniyası təşkil olunmuşdu. [6,64]

Türkmənçay müqaviləsinin XV maddəsi birbaşa

köçürmə məsələləri ilə bağlı idi. Bu maddəyə görə, Cənubi Azərbaycandan əhalinin Şimali Azərbaycana sərbəst hərəkət etməsi üçün əlverişli şərait yaradılmalı idi. "Əhali" adı altında bilavasitə ermənilər nəzərdə tutulurdu. Sonradan İrəvan, Naxçıvan kimi şəhərlərdə köçürmə komitələrinin yaradılması da bu məqsədə xidmət etməli idi. Köçürülənlərə bir sıra imtiyazlar da verilir, onlar üç il müddətinə bütün vergi və mükəlləfiyyətlərdən azad edilir və onlara cənubda qalan daşınmaz əmlakını satmaq üçün bir neçə il möhlət verilirdi. Əlbəttə, bu əlverişli şərtlər altında ermənilər sərbəst şəkildə şimala hərəkət etməyə başladılar. Qriboyedov yazırdı ki, müqavilə onlara bunun üçün tam hüquq verirdi. Ermənilərin Şimali Azərbaycana, xüsusən Qarabağ, İrəvan və Naxçıvana köçürülməsi geniş vüsət aldı. [6,66] Bundan sonra bölgənin demoqrafik vəziyyətində dəyişiklik yarandı.

Rusiya müstəmləkəçiləri İrana və Türkiyəyə qalib gəldikdən sonra, Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, Cənubi Qafqazda Qacarlar İranı və Osmanlı imperiyasına qarşı gələcək işğalçılıq planlarını həyata keçirmək üçün xristian — istinadgah məntəqəsi yaratmaq məqsədilə həmin dövlətlərin ərazisində yaşayan erməniləri kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, əsasən İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazisinə və indiki Gürcüstan Respublikasının məhz azərbaycanlılar yaşayan bölgələrinə köçürdü. İrəvan və Naxçıvan xanlıqlarını işğal etmiş general Paskeviç İrandan köçürülən ermənilərin hansı Azərbaycan torpaqlarına istiqamətləndirilməsi barədə konkret gösləriş də vermişdi: köçürülən ermənilən İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirmək lazımdır ki həmin ərazilərdə xristian əhalinin sayı mümkün qədər artırılsın. Beləliklə, 1828-ci il fevralın 26-dan iyunun 11-dək, yəni üç ay yarım ərzində İrandan Şimali Azərbaycana - İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə 8249 erməni ailəsi, başqa sözlə, ən azı 40 min nəfər erməni köçürüldü. Bundan bir az sonra Şimali Azərbaycan torpaqlarına Osmanlı dövləti ərazisindən daha 90 min nəfərdən artıq erməni köçürülüb gətirildi. Ermənilərin İrandan və Türkiyədən Şimali Azərbaycan torpaqlarına köçürülüb gətirilməsi inkarolunmaz tarixi faktdır. Bunu çoxsaylı arxiv materialları, xüsusilə ermənilərin köçürülməsi prosesini tənzimləyən rəsmi dövlət sənədləri, təlimatlar çox aydın sübut edir.

Maraqlı və təkzibolunmaz tarixi faktlardan biri də budur ki, tanınmış rus rəssamı V.İ.Maşkov 1828-ci ildə ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinə ayrıca rəsm əsəri həsr etmişdi. Ermənilərin kütləvi surətdə köçürülüb gətirilməsinə baxmayaraq, çar hakimiyyət orqanları İrəvan xanlığı ərazisində demoqrafik vəziyyəti birdən-birə dəyişdirə bilmədi. İrəvan xanlığının işğalını həyata keçirmiş rus generalı Paskeviç, hətta ermənilərin köçürülüb gəlirilməsindən sonra belə, İrəvan bölgəsi əhalisinin dörddə üç hissəsinin Azərbaycan türkləri olduğunu etiraf edirdi. Yeri gəlmişkən. işğalçı general bu faktla hesablaşmağa məcbur olmuş, cüzi azlıq təşkil edən gəlmə ermənilərə daha yaxşı şərait yaratmaq üçün canfəşanlıq edən, regionda böyük əksəriyyət təşkil edən yerli Azərbaycan türklərinin haqqını kobudcasına tapdalayan İrəvan Müvəqqəti İdarəsinin üzvü, erməni arxiyepiskopu Nersesi vəzifəsindən kənar edib Bessarbiyaya sürgün etdirmiş, buna şərait yaradan İrəvan Müvəqqəti İdarəsinin rəisi general Krasovskini isə vəzifəsindən kənar edib Rusiyaya qaytarmışdı. Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdr. "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz (yəni ruslar) köçürüb gətirmişik". [1,10-11]

Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini və müstəqillik şüurunu məhv etmək üçün 1840-cı ildə daha bir addım atıldı: "Erməni vilayəti" ləğv edildi və onun ərazisində bir neçə qəza yaradıldı: İrəvan, Yeni Bayazid, Gümrü, Sürməli və s. 1849-cu ildə isə həmin Azərbaycan torpaqlarmda yeni inzibati-ərazi vahidi - İrəvan quberniyası yaradıldı. İrəvan quberniyasının yaradılması, əslində, Qərbi Azərbaycan ərazisində ermənilər üçün dövlət yaradılması yolunda növbəti addım idi. Bundan sonra ermənilərin İran və Türkiyədən İrəvan quberniyası ərazisinə, həmçinin digər Azərbaycan torpaqlarına köçürülməsi prosesi daha da sürətləndirildi. Ermənilərin köçürülməsindən sonra Cənubi Qafqaz qanlı qırğınlar dövrünə qədəm qoydu. [1,12] Rusiya müstəmləkəçiləri tərəfindən silahlandırılan və hərtərəfli müdafiə olunan erməni quldur dəstələri Azərbaycan xalqına qarşı, ümumiyyətlə Cənubi Qafqazm türk-müsəlman

əhalisinə qarşı soyqırımlarına başladılar. Böyük dövlətlər özlərinin Cənubi Qafqazla bağlı geosiyasi planlarını həyata keçirmək üçün ermənilərdən bir alət kimi istifadə etdilər və bunun müqabilində onlara tarixi Azərbaycan torpaqlarında — keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində dövlət yaratmaqdan ötrü hər cür köməklik göstərdilər.

**Açar sözlər:** *Çuxursəd, İrəvan, xanlıq, köçürmə, sərhədlər, müqavilə, Türkmənçay, etnik, coğrafi, tarix.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. AMEA. İrəvan xanlığı (Y.Mahmudovun redaktəsi ilə).Bakı, 2010*

*2. Azərbaycan tarixi. Yeddi cilddə. III cild. Bakı, 2007*

*3. B.Ə.Budaqova, Q.Ə.Qeybullayev: Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1988*

*4. F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, 2007*

*5. İrəvan əyalətinin icmal dəftəri (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad. Z.Bünyadov, t.e.n.H.Məmmədov) . Bakı, 199*

*6. K. Şükürov. Türkmənçay 1828 (Tarixi xronika). Bakı, 2006*

*7. Мамедов С.А. Азербайджан по источникам XV - первой половины XVIII вв. Баку, 1993.*

## SUMMARY

The Iravan khanate had a special place in the history of Azerbaijan. There was a principality called Chukursad during the Safavid period in the area which is called Western Azerbaijan now and later the khanates of Iravan, Nakhchivan and Maku were formed in the territory of this principality. The Iravan khanate was geographically formed around the Goycha lake. The majority of the khanate’s population was Azerbaijanis. This is proved by the documents of the period. This issue has been taken into account in this article. The history of the Iravan khanate has been studied on geographical, ethnic and demographic spheres.

**Key words:** *Chukursad, İravan, khanate, transfer, boundaries, contract, Türkmenchay, etnic, geographic, history.*

## РЕЗЮМЕ

В истории Азербайджана Иреванское ханство занимало своеобразное место.Сейчас на так называемой территории западного Азербайджана ещё со времён Сефевидов существует регион Чухурсад,позже за счёт регионов появились Иреван,Нахичеван и Маку.Иреванское ханство образовалось вокруг озера Гейча.

Большинство населения ханства занимают азербайджанцы. В этом периоде это было упомянуто в документальных материалах как доказательство. Особенно этот вопрос был затронут в этой статье. Иреванское ханство образовалось за счёт историко-географического, этнического, демографического аспектов.

**Ключевые слова:** *Чухурсад, Ереван, ханство, переселение, границы, договор, Туркменчай, этническое, географическое, история.*

UOT: 336

# İqtisadiyyat

# KORPORATİV İDARƏETMƏNİN BEYNƏLXALQ TƏCRÜBƏSİ

**ARZU ASLANOVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin magistrantı*

*E-mail: aslanovaarzuu@gmail.com*

Banklarda düzgün korporativ idarəetmənin tətbiqi bank sektoruna nəzarətin və şəffaflığın ən vacib şərtidir. Korporativ idarəetmənin vacibliyi bütün dünyada korporativ idarəetmənin standartlarına əməl edilməsini vacib hala gətirmişdir. Korporativ idarəetmənin inkişafı qlobal hadisədir. İqtisadi vəziyyətindən, korporativ quruluşundan, mövcud mülkiyyət qruplarından və s.dən asılı olaraq hər bir ölkənin özünəməxsus korporativ idarəetmə nəzəriyyələri mövcuddur. Azərbaycanda iqtisadiyyatın keçid dövrünün ilk mərhələsində korporativ idarəetmə sahəsində müəyyən dərəcədə inkişafa nail olunsa da, bütün bunlar qaneedici deyil. Yaxşı korporativ idarəetmə sağlam strateji planlaşdırma və daha yaxşı risk idarəçiliyini təmin edir. İdarəetmə üçün ən yaxşı təcrübələri mənimsəyən şirkətlər davamlı olaraq uzunmüddətli davamlılığa doğru irəliləyirlər. Düzgün idarəetmə mübahisələrin qarşısını alır və şirkətlər üçün geniş qanuni müdafiə təmin edir.

Hal-hazırda pandemiya dövrü davam etməkdədir. Covid 19-un təsirləri dünya iqtisadiyyatına güclü zərbələr endirməkdə davam edir. Müəssisələrdə bu böhranın təsirlərini minimallaşdırmaq üçün güclü korporativ idarəetməyə ehtiyac yaranmaqdadır. Müəssisələrdə bunun üçün böhran idarəetmə planı hazırlanmaqdadır.

Bu gün müəssisələrin gündəliyini təşkil edən konsepsiyalar arasında davamlılıq konsepsiyası ön sıradadır. Bu gün bütün qurumların qarşısında duran vacib məsələlərdən biri də investorlar və digər maraqlı tərəfləri əldə etdikləri nailiyyətlərin davamlı olmasına inandırmaqdır.

Elə bu zərurət mənfəət hədəflərindən asılı olmayaraq müəssisələri inistitusional bir quruluşa və davamlı biznes nəticələrinə nail olmağa yönləndirir. Davamlılığa nail olan müəssisələrdə müşahidə olunan ən mühüm xüsusiyyətlərdən biri də odur ki, onlar şəxsi dəyərlər və nailiyyətlər çərçivəsində deyil, korporativ dəyərlər çərçivəsində təşkil edilmiş müasir və kollektiv idarəetmə platformasına malikdirlər. Burada bu vəziyyət proseslərə və onların nəticələrinə davamlı baxışları təmin edir.

İyirminci əsrin əvvəllərində kapitalizm iqtisadi sistemlərin müxtəlifliyini ortaya çıxartdı. Konsolidasiya, şirkətlərin böyüməsi və ailə müəssisələrinin nəhəng şirkətlərə çevrilməsi ilə yanaşı idarəetmə modelləri də inkişaf etməyə başladı. Ölkələrin və bölgələrin tarixi, iqtisadi və sosial inkişafı şirkətlərin idarə olunmasında müəyyən fərqliliklər yaratmışdır.

Şirkətin korporativ idarəetmə sistemi bir neçə amildən asılıdır:

1) Şirkətin korporativ idarəetməsində iştirak edən bütün tərəflərin hüquq və vəzifələrini müəyyən edən qanunvericilik;

2) Ölkədə korporativ idarəetmənin faktiki inkişaf səviyyəsi;

3) Şirkət nizamnaməsi.

Nizamnamənin korporativ idarəetmə ilə bağlı müddəaları müxtəlif şirkətlərdə bir-birindən fərqlənsə də De-yure və de-fakto amillərin təsiri vasitəsilə, konkret ölkəyə xas olan korporativ idarəetmənin modelini müəyyənləşdirmək olar.

Hər bir ölkədə korporativ idarəetmə quruluşunun digər ölkələrdən fərqləndirən müəyyən xüsusiyyətləri və ya elementləri vardır. Hal-hazırda tədqiqatçılar inkişaf etmiş ölkələrdə ortaya çıxan üç korporativ idarəetmə modelini fərqləndirirlər: İngilis-Amerikan, Yapon və Kontinental-Avropa (Alman).

**İngilis-Amerikan** modelində idarəetmənin əsas iştirakçıları menecerlər, səhm sahibləri, direktorlar şurası, birjalar, qeyri kommersiya təşkilatları,konsaltinq şirkətləri və dövlət müəssisələridir. Əsas iştirakçılar isə menecerlər,

direktor şurası və səhmdarlardır ("korporativ idarəetmə üçbucağı" adlandırılır).

Azad bazar iqtisadiyyatı çərçivəsində hazırlanmış İngiltərə-Amerika modeli çərçivəsində şirkətlərdə mülkiyyət və nəzarətin ayrılması konsepsiyası əksini tapır. Bu mühüm hüquqi aspektdir. Belə ki, investorlar öz kapitallarını şirkətə yatıraraq bir biznesə sahib olurlar, lakin şirkətin fəaliyyətinə görə heç bir hüquqi məsuliyyət daşımırlar. İnvestorlar müəyyən bir ödəniş müqabilində (agent komissiyası) şirkət rəhbərliyini menecerlərə həvalə edirlər.

**Yaponiya korporativ idarəetmə modeli**

Yaponiya korporativ idarəetmə modeli holdinq konsepsiyasına əsaslanır. Bu konsepsiyaya əsasən iri korporativ konglomerat əsas bankın ətrafında toplanır. Bank, qrupdakı şirkətləri xarici təsirlərdən qoruyan maliyyələşdirmə sistemi ilə təmin edir. Keiretsu, iş birliyi modelidir və mənfi təsirlərdən qorumaq üçün müdafiə taktikası tətbiq etmək, iştirak edən tərəflərin fürsətçi səviyyəsini azaltmaq və uzunmüddətli iş əlaqələrini qorumaqla xarakterizə olunur.

Səhmdarların əksəriyyəti iqtisadi səmərəliliyi stimullaşdırmaq, şirkətin tərəfdaşları və işçilərinin maraqlarına nail olmaq üçün şirkətin idarə olunmasında fəal iştirak edirlər.

Yapon modelinin əsas iştirakçıları bunlardır: Mərkəzi bank, asılı şirkətlər, rəhbərlik və dövlət. Bu birləşmə qüvvələri balanslaşdırmaq məqsədinə deyil, uzunmüddətli əlaqələr qurmağa xidmət edir. Şirkətlə əlaqəsi olmayan şəxslərin səs vermək hüququ yoxdur və ya bu ciddi şəkildə məhdudlaşdırılır. Beləliklə, Yapon modelindəki direktorlar şurasının praktik olaraq müstəqil üzvləri yoxdur. Yapon modelinin bu xüsusiyyəti bir sıra qalmaqallara səbəb oldu və Qərb investorları tərəfindən belə bir korporativ idarəetmə tənzimləməsinə olan inamı sarsıtdı.

**Kontinental Avropa modeli**

Kontinental Avropa modeli, səhmdarların şirkətin idarə olunmasında iştirak etdiyi və şirkətə nəzarət etdiyi yüksək kapital konsentrasiyası ilə xarakterizə olunur.

İdarəetmədə səhmdarlardan əlavə həmkarlar ittifaqları, ortaqlar və s. məsuliyyət daşıyır. Bu model Qərbi və Şimali Avropada yayılmışdır və Orta və Şərqi Avropada da istifadə edilir.

Alman modeli ilə digər modellər arasında bir sıra vacib fərqlər var. Bu modeldə banklar şirkətlərin idarə edilməsində mühüm rol oynayır. Bank, Yapon modelindəki kimi yalnız böhran dövründə deyil, daimi olaraq direktorlar şurasında yer almalıdır.

Alman modeli, idarə heyətinin iki hissəyə bölünməsini nəzərdə tutur: idarəetmə heyəti və nəzarət şurası. İdarə heyəti tamamilə şirkətin inzibati işçilərindən, nəzarət şurası isə işçilərin və səhmdarların nümayəndələrindən ibarətdir.

Alman korporasiyalarının əksəriyyəti ənənəvi olaraq səhmlərin buraxılması ilə bank maliyyələşdirilməsinə üstünlük verirlər. Bunun nəticəsində alman fond bazarı Almaniya iqtisadiyyatı ilə müqayisədə kiçikdir, özəl investorların sayı aşağıdır. Böyük alman şirkətlərinin səhmlərinin əksəriyyəti xarici investorlara malikdir. 2014-cü ildə paylanma aşağıdakı kimi olmuşdur:



Alman modelinin əsas iştirakçılar səhmdar, kreditor, emitent və şirkət qismində fəaliyyət göstərən banklardır.

Aşağıdakı cədvəldə isə ABŞ, Avropa birliyi və Rusiya üçün korporativ idarəetmənin xarakteristikaları verilmişdir.

| **Xarakteristika** | **Ölkə** | | |
|---|---|---|---|
| | **ABŞ** | **Avropa Birliyi** | **Rusiya** |
| İdarəetmə münasibətlərinin subyektləri | Səhmdarlar, menecerlər | Səhmdarlar, menecerlər, işçilər, maliyyə və dövlət strukturları | Dövlət qurumları, səhmdarlar |
| Kapitalın strukturu | Səhmlər bir çox özəl investor arasında paylanır | Səhmlər bankların və dövlətin əlində cəmlənir | İdarəetmə dövlətin əlindədir |
| İnvestisiya cəlbetmə metodu | Yüksək likvidli birja | Bank kapitalı, dövlət investisiyası | Dövlət investisiyaları, səhm emissiyası |
| Məqsədlər | İnvestorların maraqlarını təmin etmək | İctimaiyyətin marağına cavab vermək | İctimai maraqlara cavab vermək, texnologiyanı inkişaf etdirmək |
| Sinerji göstəriciləri | Fond bazarında kapitallaşma artımı | Cəmiyyətin artan rifahı | Cəmiyyətin rifahının yüksəldilməsi, elmi mühitin yaxşılaşdırılması |

**Korporativ idarəetmə (Kİ) təcrübəsinin təhlili və səmərəliliyinin qiymətləndirilməsi**

rəhbərliyin qarşısında duran ən vacib vəzifələrdən biridir. Eyni zamanda, bu məsələyə yanaşmalar hələ də inkişaf etdirilməyib. Korporativ idarəetmənin qiymətləndirilməsi, onun təşkili praktikasını təhlil etmək və korporativ proseslərin inkişaf səviyyəsini müəyyənləşdirmək ehtiyacından irəli gəlir. Korporativ idarəetmənin qiymətləndirilməsi metodları 2 əsas qrupa bölünür. Korporativ idarəetmənin qiymətləndirilməsi metodları aşağıdakı cədvəldə göstərilmişdir.




Birinci qrupun qiymətləndirmə metodları iqtisadi meyarların istifadəsinə əsaslanır. Bu zaman korporasiyanın maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrini və onun iqtisadi potensialını qiymətləndirməyə üstünlük verilir.

İkinci qrup metodlar əsasən reytinqlər və korporativ idarəetmə monitorinq sistemləri ilə istifadə olunur. İdarəetmə qiymətləndirmə meyarlarının istifadəsinə əsaslanır.

Korporativ idarəetmənin qiymətləndirilməsi metodologiyasındakı mövcud fərqlərə baxmayaraq, istifadə olunan bütün metodlar bir sıra əsas prinsiplərə əsaslanmalıdır:

- Qərəzsizlik
- Şəffaflıq
- Hesabatlıq
- Məsuliyyət

Bu gün korporativ idarəetmənin səviyyəsi ilə korporasiyanın maliyyə göstəriciləri arasında əlaqənin mövcudluğu müəyyən qədər bəllidir. Bununla əlaqədar olaraq, korporativ idarəetmənin səviyyəsinin qiymətləndirilməsinin kəmiyyət metodları maliyyə təhlili metodlarına və şirkətin bazar dəyərinin qiymətləndirilməsinə əsaslanır (şəkil 2).

Maliyyə təhlilinin analizi korporativ qurumların




fəaliyyətinin müxtəlif aspektlərini ən yaxşı şəkildə xarakterizə edən maliyyə göstəricilərinin müəyyən siyahısından istifadə edilməsinə əsaslanır. Onların istifadəsi hər zaman şirkətin maliyyə dayanıqlığı ilə bağlı nəticə çıxarmağa imkan verən müəyyən nəticəli inteqral göstəricilərin hesablanması

zərurətini nəzərdə tutur. Korporasiyanın maliyyə vəziyyətinin təhlili bir çox üsullara əsaslanır. Onların arasında ən çox populyarlıq qazanan modellər aşağıdakılardır:

• şirkətin maliyyə sabitliyinin təhlili (Taffler modeli);

• müflisləşmə ehtimalının qiymətləndirilməsi (Altman modeli).

Praktikada korporasiyanın maliyyə vəziyyətini qiymətləndirmək məqsədi ilə tez-tez müqayisə üsullarına müraciət edirlər. Müqayisə bazası üçün eyni sənayenin və ya rəqiblərin mütləq standartları (tənzimləyici dəyərlər) və ya "orta" müəssisəsinin göstəriciləri qəbul edilə bilər. Korporasiyanın bazar dəyərinin təhlili ilə bilavasitə bağlı olan ikinci qrupun metodlarından istifadənin zəruriliyi korporativ idarəetmənin inkişaf etmiş praktikasının korporativ qurumların bazar dəyərinə təsir göstərdiyi uzunmüddətli perspektivdə müsbət təsirlə şərtlənir. Korporasiyaların bazar dəyərinin təhlili iki əsas üsuldan ibarətdir. Onlardan birincisi gəlirin kapitallaşdırılmasının (gəlirlərin vahid dəyərə gətirilməsi), ikincisi isə səhmlərin məzənnə dəyərini müqayisə etməklə səhmdar kapitalının bazar dəyərinin qiymətləndirilməsi ilə bağlıdır. İstənilən halda, bu qrupun bütün metodları korporativ strukturların fəaliyyətinin iqtisadi səmərələrinin qiymətləndirilməsinə əsaslanır. Əksər hallarda onlar məhdud xarakter daşıyır, çünki menecerlərin işinin keyfiyyətini, tərəflərin maraq balansına əməl etməkdən daha çox qiymətləndirməyə imkan verir (onlar mülkiyyətçilərin marağını nəzərə almırlar). Onların əsas çatışmazlığı bundan ibarətdir. Keyfiyyət qiymətləndirmə metodları daha çox maraq doğurur.

### Korporativ idarəetmənin qiymətləndirilməsi üçün keyfiyyət metodları

Korporativ idarəetmənin qiymətləndirilməsi üçün keyfiyyət metodları əsasən statistikalar və korporativ idarəetmənin monitorinq sistemləri tərəfindən təqdim olunur.

Bir qayda olaraq, ixtisaslaşmış statistika agentlikləri korporativ idarəetmə reytinqlərinin formalaşdırılması və dərc olunması ilə məşğul olurlar. Onlar həm də bu statistikaların tərtibi üçün bir metodologiya hazırlayırlar.

Praktikada istifadə olunan korporativ idarəetmə reytinqləri 3 qrupa bölünür.

1. Renkinq
2. Statistika
3. Kompleks tədqiqat

Renkinq dedikdə, hər hansı xüsusiyyətinə görə seçilən korporasiyaların siyahısı başa düşülür.

Reytinqlərin qurulmasının əsasında isə korporativ idarəetmənin keyfiyyətinin kompleks qiymətləndirilməsi durur.

Korporativ idarəetmənin kompleks tədqiqatları onun keyfiyyətinin ayrı-ayrı komponentləri üzrə reytinqlərin formalaşmasını nəzərdə tutur (məsələn, Direktorlar Şurasının fəaliyyətinin effektivliyi).

Bu və ya digər şəkildə, korporativ idarəetmənin qiymətləndirilməsi üçün bütün keyfiyyətli metodlar idarəetmə xarakterli qiymətləndirmə meyarlarının istifadəsinə əsaslanır. Korporativ idarəetmə standartları ən yaxşı bazar praktikası ilə müəyyən edilir və OECD-nin əsas prinsiplərində və Korporativ idarəetmə kodlarında əks olunur.

Bu qrup metodların əsas çatışmazlığı yüksək əmək intensivliyidir. Buna baxmayaraq, bu vəziyyətdə qiymətləndirmənin keyfiyyəti daha yüksəkdir.

### NƏTİCƏ

Yekun olaraq, demək olar ki, qloballaşmaya doğru mövcud tendensiya zamanı səhmdarların, əməkdaşların, biznes partnyorların maraqlarını nəzərə almadan korporasiyanın idarəetmə sisteminin rolunun artırılmasını nəzərdən keçirmək olmaz.

Baxılan modellər şirkətlərin müəyyən regionlarda idarəetmə üsullarının ümumiləşdirilməsidir. Hər bir modelin ölkənin tarixi, iqtisadi, sosial inkişafından asılı olan xüsusiyyətləri vardır. Bu modellərdən istifadə edərkən digər ölkələrdə korporativ idarəetmə sisteminin qurulması üçün ölkənin, onun iqtisadiyyatının, qanunvericiliyin, tarixin, biznesin real vəziyyətinin xüsusiyyətlərini nəzərə almaq lazımdır.

**Açar sözlər:** *iqtisadiyyat, maliyyə, korporativ idarəetmə, bank, korporativ idarəetmə modelləri.*

### ƏDƏBİYYAT SİYAHISI

*1. 12th Annual Survey of the Largest US Public Companies. - Shearman&Sterling LLP. http://www.shearman.com/en/newsinsights/news/2014/10/survey-of-corporate-governance-of-us-companies.*

*2. EWMI/PFS Program. / Lectures on Corporate Governance. - Three Models of Corporate*

*Governance.http://www.emergingmarketsesg.net/esg/wp-content/uploads/2011/01/Three-Models-of-Corporate-Governance-January-2009.pdf*

*3. Mülayim Z.G., Kooperativçilik, Yetkin Yayınları. Ankara: 2006, 503 s.*

*4. Baysinger, B. and Butler, H. (1985). Corporate governance and the board of directors: Performance effects of changes in board composition. Journal of Law, Economics and Organisation, 1, 101- 124.*

*5. Вишневская, Н. С. Лучшая практика корпоративного управления на государственных предприятиях : европейский подход / Н. С. Вишневская // Акционерное общество : вопросы корпоративного управления. –2009. – № 12. – С. 15-17*

*6. https://www.economy.gov.az/article/idareetme-modelleri/21382*

*7. https://www.papertyari.com/general-awareness/management/corporate-governance-models/*

## РЕЗЮМЕ

В заключение отметим, что в условиях нынешней тенденции к глобализации практически невозможно рассматривать вопрос о повышении роли системы корпоративного управления без учета интересов акционеров, сотрудников и деловых партнеров.

Рассматриваемые модели представляют собой обобщение методов управления компаниями в определенных регионах. Каждая модель имеет характеристики, которые зависят от исторического, экономического и социального развития страны. При использовании этих моделей для построения системы корпоративного управления в других странах необходимо учитывать особенности страны, ее экономику, законодательство, историю, реальное состояние бизнеса.

**Ключевые слова:** *экономика, финансы, корпоративное управление, банковское дело, модели корпоративного управления.*

## SUMMARY

In conclusion, in the current trend towards globalization, it is almost impossible to consider increasing the role of the corporate governance system without taking into account the interests of shareholders, employees and business partners.

The models in question are a generalization of the management methods of companies in certain regions. Each model has characteristics that depend on the historical, economic and social development of the country. When using these models, in order to build a corporate governance system in other countries, it is necessary to take into account the characteristics of the country, its economy, legislation, history, the real state of business.

**Keywords:** *economics, finance, corporate governance, banking, corporate governance models.*

UOT 336

# AZƏRBAYCANIN BANK SİSTEMİNDƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**AYTAC SƏFİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, Magistr*

*E-mail: aytac_sefiyeva@mail.ru*

**Giriş**

Azərbaycan Respublikası müasir bazar münasibətlərinə əsaslanan müstəqil milli iqtisadiyyatın yaradılması və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyası üçün əsaslı və çoxşaxəli islahatlar aparır. İslahatların əsas istiqamətlərindən biri ölkədə iqtisadi inkişaf üçün zəruri olan bank və maliyyə sektorunun müasir tələblərə uyğun təşkili və inkişafı ilə əlaqədardır. Bu baxımdan, son on ildə ölkədə qeyri-neft sektorunun inkişafı, bölgələr arasındakı balanssızlığın azaldılması və iqtisadi şaxələndirilmənin artması iqtisadi siyasətin əsas hədəflərində bu islahatların miqyasının genişləndirilməsinə yönəldilmişdir. Bu hədəflərin həyata keçirilməsi ölkədə maliyyə və bank sektorunun inkişafı, investisiyaların həcmi və strukturunun yaxşılaşdırılması ilə sıx bağlıdır.

Azərbaycanda investisiya fəallığı səviyyəsi iqtisadiyyatın strukturunun optimallaşdırılmasında, iqtisadi artımı müəyyənləşdirən istehsalın texniki və iqtisadi səviyyəsinin yüksəldilməsində əsas amillərdən biridir. Son on ildə ölkədə investisiya fəallığının artması əsasən bir sıra obyektiv amillərlə əlaqəli olan neft hasilatı ilə əlaqələndirilir. Beləliklə, məhdud daxili maliyyə mənbələri ölkəyə investisiya qoyuluşu üçün çox cəlbedici sahələrə xarici investisiyaların cəlb edilməsini məqsədəuyğun etmişdir. Lakin bu sahədəki vəziyyət tədricən dəyişir. Bu sahələrə xarici investisiyaların cəlb edilməsi və nəticədə neft strategiyasının uğurla həyata keçirilməsi ölkədəki istehlakı və investisiyaları və ümumilikdə iqtisadi aktivliyi artırmaq üçün lazım olan gəlirlərin alınmasına gətirib çıxarır. Azərbaycanda investisiya fəallığının artırılması və bu fonda bank sektorunun fəaliyyətinin genişləndirilməsi qəbul edilmiş proqram və konsepsiyaların həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanda bankçılığın inkişafı beynəlxalq bank standartları və tələblərindən təcrid olunaraq, beynəlxalq maliyyə təşkilatları ilə qarşılıqlı əlaqələr olmadan, bu sahədə mövcud dünya təcrübəsindən yaradıcı istifadə edilmədən həyata keçirilə bilməz. Bu da daxili sistemin xarici banklarla qarşılıqlı əlaqəsini təmin etmək üçün lazımdır, çünki qloballaşma prosesləri öz sərhədləri daxilində dünya birliyinə açıq olan liberal bazar iqtisadiyyatı quran bütün ölkələri öz orbitlərinə cəlb edir (Садыгов, 2013).

Azərbaycanda maliyyə sektorunda islahatlar uzun müddətdir davam edirdi, amma bu gün bank sisteminin inkişafında keyfiyyət nəticələri açıq şəkildə nəzərə çarpır. Azərbaycanın bank sisteminin maliyyə etibarlılığının artırılması lehinə əlavə bir arqument olaraq, əhalinin yerli banklara olan inamının artmasını nəzərdən keçirmək olar ki, bu da özəl depozitlər həcminin müsbət dinamikası ilə aydın şəkildə sübut olunur. İqtisadiyyata borc verilməsində də yeni meyllərə rast gəlmək olar. Son illərdə banklar əsasən kiçik layihələrə və yalnız sürətli geri ödəmə və aşağı riskli sahələrə investisiya qoymağı üstün tuturlar. Son bir ildə qısamüddətli kreditlərin artım tempi uzunmüddətli investisiyaların artması fonunda yavaşlamışdır.

**Bank sisteminin investisiya fəaliyyətinin mahiyyəti və xüsusiyyətləri**

İnvestisiya və kapital qoyuluşu anlayışları arasında bir fərq olduğu aydındır. Ancaq aralarında bir əlaqə də var. Əsas kapital qoyuluşları istehsal və qeyri-istehsal sahələrində əsas fondların geniş miqyasda bərpası və yeni əsas fondların yaradılması, istehsalın genişləndirilməsi, yenidən qurulması və texniki təchizatı üçün ayrılan vəsaitin həcmidir.

Müasir bankçılığın tətbiqi investisiyaların həyata keçirilməsini nəzərdə tutur. İnvestisiya bir sıra

xüsusiyyətləri ilə səciyyələnən mürəkkəb mübahisəli iqtisadi kateqoriyadır. İnvestisiyanın növləri və formaları müxtəlifdir və iqtisadiyyatın vəziyyətinin xüsusiyyətləri və sənaye münasibətlərinin inkişaf səviyyəsi nəzərə alınmaqla dəyişdirilə bilər.

İnvestisiyalar (investisiya mənbələri) - pul gəlirləri, məqsədli bank fondları, səhmlər, digər qiymətli kağızlar, texnologiyalar, maşın və avadanlıqlar, lisenziyalar (ticarət nişanları daxil olmaqla), kreditlər, digər əmlak və mülkiyyət hüquqları, sahibkarlıq fəaliyyəti və digər fəaliyyətlərin məcmusu hesab olunur. Və bu növlərə yatırılan intellektual qaynaqları və müsbət iqtisadi və sosial nəticələrə nail olmaq məqsədlərini başa düşürük.

İndiki dövrümüzdəki investisiyalar, ən çox qazanan maliyyə alətlərindən biridir, baxmayaraq ki, qoyulmuş vəsaitin alınmaması riski var. Banklar da öz növbəsində investisiya fəaliyyəti ilə məşğuldurlar. Kommersiya banklarının fəaliyyətindəki ən vacib funksiyalardan biri, qiymətli kağızlarla əməliyyatlarla əlaqəli investisiya fəaliyyətləridir. Qiymətli kağızların investor bank üçün cəlbediciliyi əsasən bazar dəyəri və qiymətli kağızların bu dəyəri artırma qabiliyyəti ilə müəyyən edilir. Orta və uzun müddətli qiymətli kağızların bazar dəyərinin artması investorları və kapitalını fond bazarına cəlb edir, maliyyə bazarının böyüməsinə kömək edir. Kredit təşkilatı üçün hansı qiymətli kağızların cəlbedici və qazanclı olduğunu müəyyən etmək üçün hər növ üzrə təhlil etmək lazımdır (Никифоров, 2020).

Pul, məqsədli bank əmanətləri, səhmlər və digər qiymətli kağızlar, texnologiya, maşınlar, avadanlıqlar, lisenziya, eyni zamanda ticarət markası olan məhsullar, kreditlər, hər hansı digər əmlak və ya gəlir əldə etmək üçün mülkiyyət hüququ müsbət sosial inkişafı təmin etmək üçün sahibkarlıq və digər fəaliyyət obyektlərinə qoyulmuş əqli dəyərlər investisiya hesab olunur.

Böyümək üçün istənilən şirkətin kapitala ehtiyacı var. Qısa müddətli, kiçik layihələr üçün bank şirkətlə bir kredit müqaviləsi bağlayır və maliyyə mənbələri ayırır, böyük layihələr üçün bank şirkət tərəfindən buraxılmış qiymətli kağızları investorlara satır və bununla da toplayır. Beləliklə, bankların investisiya fəaliyyəti iki əsas funksiyanın icrası ilə əlaqələndirilir:

• səhmlərin və istiqrazların öz kapitalını formalaşdırmaq üçün buraxıldığı qiymətli kağızların ilkin bazarda yerləşdirilməsi, bu da banklara müəssisələrə lazım olan maliyyə mənbələrini təqdim etməyə imkan verir;

• həyata keçirilməsində investisiya banklarının broker və ya diler kimi fəaliyyət göstərdikləri, qiymətli kağızların alqı-satqısı ilə bağlı əməliyyatlar aparan təkrar bazarda qiymətli kağızların satışı (Токуев, 2011).

Bankın investisiya fəaliyyətinin mahiyyəti onun qiymətli kağızların satıcısı ilə alıcısı arasında vasitəçi rolunu oynamasıdır. Müştərilər həm investor, həm də emitent ola bilər. Adına baxmayaraq, birincisi həmişə investisiya qoymur, ya alıcı, ya da satıcı ola bilər. Bu səbəbdən bank ya investorlar (alıcı və satıcı), ya da investor ilə emitent arasında vasitəçi rolunu oynayır. Beləliklə, bank həm alqı-satqı tərəfində işləyə bilər, həm də müştərilərinə məsləhətçi kimi çıxış edə bilər. Ənənəvi olaraq, investisiya bankçılığına məsləhət xidmətləri və anderrayterinq daxildir. Amma bu gün banklar bütünlüklə qarşılanmağa yönəlmiş təkliflərin daha geniş bir portfelini inkişaf etdirməyə diqqət yetirirlər.

Ticarət bankları əhalidən və işgüzar təşkilatlardan vəsait cəlb edərək mənfəət, likvidliyin qorunması, risklərin azaldılması və aktivlərin şaxələndirilməsi əsasında mənbələr ayırmalıdırlar. Bu tələblər, kommersiya banklarının, o cümlədən qiymətli kağızlara qoyulan investisiyalarla qarşılanır. Bank qiymətli kağızlarına qoyulan investisiyaların effektiv idarə olunması, əsas şərtlərin müəyyənləşdirilməsini və müasir şəraitdə investisiya prosesinin inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsini tələb edir. Dünya iqtisadiyyatında son 20-30 ildə maliyyə investisiyaları, əsasən qiymətli kağızlara investisiya qoyuluşu ən geniş yayılmışdır. Qlobal maliyyə bazarının yüksək hərəkətliliyi, dəyişkənliyi bir ticarət günü ərzində qiymətli kağızlarla əməliyyatlardan spekulyativ gəlir əldə etməyə imkan verir, vəsait yatırma müddətini minimuma endirir (Мазикова Е.В., Инвестиции банков в ценные бумаги: сущностный аспект и тенденции развития в современных условиях 2015: s.188).

**İqtisadiyyatın real sektorunda Azərbaycan bank sisteminin investisiya fəaliyyətinin müasir vəziyyəti**

Milli iqtisadiyyatı stimullaşdırmaq və inkişaf etdirmək üçün investisiya axınlarının artmasını

təmin etmək lazımdır və bu da öz növbəsində dövlət tərəfindən effektiv investisiya siyasətinin hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutur. Dövlət investisiya siyasəti, müsbət investisiya imicinin, əlverişli investisiya mühitinin və ölkənin ümumi iqtisadi artımının təmin edilməsinə yönəlmiş iqtisadi siyasətin bir hissəsidir. İnvestisiya cəlbediciliyi, rəqabət qabiliyyətinin səviyyəsi, iqtisadi sabitlik və təhlükəsizlik, ölkə əhalisinin sosial və iqtisadi həyat səviyyəsi onun effektiv həyata keçirilməsindən asılıdır. Azərbaycanın dövlət investisiya siyasətinin yeni istiqamətlərinin formalaşdırılmasına ehtiyac burada iqtisadi artıma yönəlmiş iqtisadi və sosial islahatların həyata keçirilməsi, investisiya mühitində uyğun mexanizmlərin yaradılması, davamlı inkişaf strategiyasının konseptual əsaslarının həyata keçirilməsi üçün şərait yaradılması və inteqrasiya proseslərinin təmin olunması ilə əlaqədardır. Bu vəzifələrin həlli Azərbaycanda dövlət idarəetmə mexanizmlərinin müasir inkişafı kontekstində xüsusi aktuallıq kəsb edir (Алиев, 2018).

Hər hansı bir iqtisadi sistemin davamlı inkişafı üçün vacib şərt, cəlb edilmiş resurslardan və yığılmış iqtisadi potensialdan səmərəli istifadə yolu ilə əldə olunan yüksək investisiya fəaliyyətidir. Azərbaycan iqtisadiyyatının hazırkı inkişaf mərhələsində, ölkənin qlobal iqtisadi məkana inteqrasiya dərəcəsi nəzərə alınmaqla, kapital axınlarında qlobal tendensiyalar və onların tənzimlənməsi kontekstində nəzərə alınan dövlət investisiya siyasəti məsələlərinə diqqət edilir. Bazar şəraitində investisiya fəaliyyətinin tənzimlənməsi üzrə dünya təcrübəsinə tarixi ekskursiya göstərir ki, bu sahədə dövlət siyasəti makroiqtisadi sabitlik dövründə investorlara dolayı təsir metodlarına, böhran dövründə isə dövlət idarəetmə mexanizmlərinin tətbiqi metodlarına üstünlük verir. Dövlət investisiya siyasəti konsepsiyasının hazırkı inkişaf mərhələsi institusional əsasların sistematik şəkildə möhkəmləndirilməsini və inkişaf etdirilməsini, iqtisadiyyata kapital axınını stimullaşdıran investisiya fəaliyyətləri üçün sabit və şəffaf qaydalar müəyyənləşdirərək investisiyaların cəlb edilməsinin yeni forma və metodlarının axtarılmasını və sahibkarlıq təşəbbüsünün inkişafını təmin edir

Dövlətin investisiya siyasəti, ölkə iqtisadiyyatına və onun ayrı-ayrı sahələrinə investisiyaların tələb olunan səviyyəsini və quruluşunu təmin etmək, təkrar istehsalın bütün əsas əhalinin, sahibkarların və dövlətin investisiya fəaliyyətini artırmaq üçün qarşılıqlı əlaqəli məqsəd və tədbirlərin məcmusudur. İqtisadi artımın sürətləndirilməsinə, yeni iş yerlərinin açılmasına, yeni texnika və texnologiyanın tətbiqi ilə maddi istehsal və xidmət sahələrində struktur dəyişikliklərinin həyata keçirilməsinə yönəldilmişdir. Bir sözlə dövlət investisiya siyasəti milli iqtisadiyyatın formalaşması və inkişafı üçün möhkəm təməl rolunu oynayır. Bu mərhələdə Azərbaycan Respublikasında investisiya fəaliyyətinin stimullaşdırılması üzrə dövlət siyasəti fəal şəkildə həyata keçirilir.

Bank sistemi Azərbaycanın maliyyə sisteminin vacib elementidir. Bu gün banklar aktivləri və kapitalı, regional əhatə dairəsi baxımından digər maliyyə vasitəçilərindən dəfələrlə üstündür. Hal-hazırda ölkədə bazar prinsiplərinə əsaslanan inkişaf etmiş iki pilləli bank sistemi mövcuddur (birinci səviyyədə Azərbaycan Respublikasının Mərkəzi Bankı, ikinci səviyyədə kommersiya bankları və bank olmayan kredit təşkilatları).

Bazar iqtisadiyyatına keçidlə əlaqədar Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra iqtisadiyyatın bütün sahələrində olduğu kimi bank sistemində də liberal islahatlar başladı. İslahatların ilk mərhələsində dövlət banklarının yenidən qurulması və canlandırılması üçün tədbirlər görüldü və özəl bank sisteminin institusional formalaşması təmin edildi. Bu mərhələdə aşağı kapital tələbləri quruldu, sistemə giriş üçün son dərəcə liberal şərtlər və bank fəaliyyətini tənzimləmək üçün yumşaq tənzimləmə vasitələri tətbiq edildi. Bu proseslər nəticəsində bank sistemi institusional olaraq genişlənməyə və özəl bankların sayı artmağa başladı. 1996-cı ildən bəri minimum kapital tələbinin tədricən artması kiçik bankların birləşməsinə və bağlanmasına səbəb oldu.

Bank islahatlarının növbəti mərhələsində 2000-ci ildən bəri özəl bankların intensiv reabilitasiyası bank sisteminin sabitliyinin möhkəmləndirilməsi və maliyyə vasitəçiliyi funksiyasının təkmilləşdirilməsi üçün vacib şərtlər yaratdı (https://banco.az/az/news/azerbaycanin-bank-sistemi ).

Mərkəzi Bank tərəfindən özəl banklar üçün minimum kapital tələblərinin ardıcıl artırılması və konsolidasiya prosesinin asanlaşdırılması özəl bank sisteminin kapital bazasını gücləndirdi və bank sisteminin böyüməsini təmin etdi.

2002-ci ildə bank sisteminin yenidən qurulmasının vacib bir mərhələsi başladı. Uğurlu neft strategiyasının məntiqi nəticəsi olaraq ölkəyə böyük neft gəlirlərinin daxil olması və bankların maliyyə mənbələrini strateji hədəflərə effektiv şəkildə yönəltmək istəyi nəzərə alınaraq 2002-2005-ci illər üçün yeni inkişaf strategiyası hazırlanmışdır.

Strategiyanın əsas məqsədi neft gəlirlərini qeyri-neft sektoruna səmərəli və təhlükəsiz şəkildə çevirmək, əhali və bölgələr üçün bank xidmətlərinə çıxış imkanlarını genişləndirmək və yoxsulluğun azaldılması, bank sisteminin sabitliyi, etibarlılığının artırılması, bank bazarında azad və sağlam rəqabət üçün maliyyə vasitəçiliyinin inkişafıdır. Qarşıya qoyulmuş strateji hədəflərə çatmaq üçün bank işi ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, bank sisteminin etibarlılığı və sabitliyinin artırılması, bank xidmətlərinə çıxışın genişləndirilməsi, şəffaflığın artırılması və bazar intizamının gücləndirilməsi kimi konkret tapşırıqlar qoyulmuş və həyata keçirilmişdir.

Son illərdə Azərbaycan bankları, risklərə məruz qalmalarını azaltmaqla da əhəmiyyətli irəliləyişlər əldə etdilər. Buna baxmayaraq, hazırda iqtisadiyyatın payının təxminən 22% (kredit qoyuluşlarının ÜDM-ə nisbəti) olduğunu nəzərə alaraq, Azərbaycan iqtisadiyyatı bankların daha fəal iştirakına ehtiyac duyur. Bank sistemi bir çox formalaşma problemini aşaraq keyfiyyət islahatı mərhələsinə qədəm qoydu. Əsas təlimatlar kapitallaşma, rəqabət və təsirsiz bank sayının azalmasıdır. İqtisadi problemlər bank sektoruna inteqrasiya olunur və inflyasiya nəzarəti Mərkəzi Bankın yenidən maliyyələşdirmə nisbətində dəfələrlə artım göstərir. İqtisadiyyat milli valyutanın nominalına uyğunlaşmışdır.

**Cədvəl 1. 2018-30.06.2020 tarixinə qədər Azərbaycanda maliyyə bazarlarının iştirkaçıları**

| | 2019 | 2019 | 30.06.2020 |
|---|---|---|---|
| **Bankların sayı** | 30 | 30 | 26 |
| **Dövlət bankları** | 2 | 2 | 2 |
| **Özəl banklar** | 28 | 28 | 24 |
| **Bankların filiallarının sayı** | 508 | 509 | 440 |
| **Bankların şöbələrinin sayı** | 130 | 133 | 117 |
| **ATM-lərin sayı** | 2502 | 2647 | 2569 |
| **İşçilərin sayı** | 17415 | 19460 | 18400 |

**Mənbə:** *https://www.cbar.az/page-190/capital-market Azərbaycan Respublikası Mərkəzi Bankın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Azərbaycanda bank kreditləri və əsas kapital qoyuluşları 2020-ci ilin yanvar-mart dövründə illik 3,8% azalaraq 130,9 milyon manata düşmüşdür. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci ildə 2019-cu ilə nisbətdə bank kreditlərinin ümumi kapital qoyuluşlarında payı 5% -dən 4,5% -ə enmişdir (Cədvəl 1).

**Cədvəl 2. İqtisadiyyata kredit qoyuluşu (2014-2019), mln.manat**

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **İqtisadiyyata kredit qoyuluşları** | 18542,6 | 21730,4 | 16444,6 | 11757,8 | 13020,3 | 15297,2 |
| **Qısa müddətli** | 3931,3 | 5297,3 | 3478,0 | 2101,3 | 2695,1 | 2918,4 |
| **Yekuna görə %-lə** | 21,2 | 24,4 | 21,1 | 17,9 | 20,7 | 19,1 |
| **Uzun müddətli** | 14611,3 | 16433,1 | 12966,6 | 9656,5 | 10325,2 | 12378,8 |
| **Yekuna görə %-lə** | 78,8 | 75,6 | 78,9 | 82,1 | 79,3 | 80,3 |

**Mənbə:** *https://www.stat.gov.az/source/finance/ Azərbaycan Respublikası dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

İllər üzrə statistikaya nəzər yetirsək 2019-cu ildə kredit qoyuluşu əvvəlki ilə nisbətdə artmışdır. 2020-ci ildə isə kredit qoyuluşunda bütün dünyada yayılmış COVİD-19 pandemiyası ilə əlaqədar olaraq azalma müşahidə edilmişdir. Cədvəl 2-nin göstəricilərini aşağıdakı qrafiklə göstərmək daha uyğun olar.

Unutmaq olmaz ki, 2020-ci ilin yanvar-mart aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2 milyon 929,4 milyon manat vəsait ayrılmışdır ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,5% çoxdur (https://fins.az/az/bank/234462/azerbaycanda-bank-kreditleri-ile-sermaye-qoyulusu-azalib/).

**Cədvəl 3. İqtisadiyyata yönəldilən investisiyalar (2014-2019), mln.manat**

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Bütün mənbələr üzrə investisiya qoyuluşları | 21890,6 | 20057,4 | 22706,4 | 24462,5 | 25877 | 24986,6 |
| Xarici investisiyalar | 9175,6 | 10998,9 | 16216,1 | 15697,2 | 14002,1 | 12119,5 |
| Daxili investisiyalar | 12715 | 9058,5 | 6490,3 | 8765,2 | 11874,9 | 12867,1 |

**Mənbə:** *https://www.stat.gov.az/source/finance/ Azərbaycan Respublikası dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Əsas kapital müəssisələri və təşkilatların vəsaitləri 1 959,9 milyon manat, büdcə vəsaiti 519 mln. manat, büdcədənkənar dövlət fondları 52,1 mln. manat, əhalinin şəxsi fondları 188,9 mln. manat, digər fondlar 78,6 mln. manat təşkil etmişdir. 2020-ci ildə investisiya qoyuluşunda da azalma müşahidə olunmuşdur.

Nəticə və təkliflər

Maliyyə xidmətləri strukturunda yeniliklərin ortaya çıxmasına baxmayaraq, kredit riskləri bank problemlərinin əsas səbəbi olaraq qalmaqda davam edir. Mövcud risk səviyyəsini azaltmaq üçün dövlət optimal risk idarəetmə sistemi yaratmalı və bununla da özəl sektorun inkişafı üçün əlverişli bir iş mühiti yaratmalıdır. Ölkədə özəl sektorun investisiya problemləri ilə effektiv şəkildə məşğul ola biləcək çox sayda ixtisaslaşmış mikro kredit maliyyə təsisatının yaradılmasına ehtiyac var. Belə təcrübəyə baxmayaraq, onu genişləndirmək və təsirli bir sistem qurmaq vacibdir.

Sahibkarlıq fəaliyyətini daha səmərəli təşkil etmək üçün kredit kooperativlərinin yaradılması daha geniş yayılmalı və kiçik və orta sahibkarlıq subyektlərinin investisiya problemlərinin həlli mexanizmi tam inkişaf etdirilməlidir. Bu baxımdan, kredit faizlərinin azaldılması üçün fürsətlərin tapılması, investisiyaların istifadəsi üçün müxtəlif vergi güzəştlərinin həyata keçirilməsi və sürətləndirilmiş kredit resurslarının paylanması və idarə edilməsini xeyli asanlaşdıracaq tədbirlərin həyata keçirilməsinin vacib məsələlər kimi qəbul edilməsinə inanırıq. Ölkədəki faiz dərəcələrinin yüksək olması həm daxili, həm də xarici amillərlə əlaqədardır. Bankları faiz dərəcələrini aşağı salmaq üçün Mərkəzi Bank əvvəlcə onlara verilən mərkəzi kreditlərin miqdarını artırmalı və ən əsası bütün banklar bu fondlardan faydalanmalıdır. Bu baxımdan xaricdən ucuz maliyyə mənbələri cəlb etmək də vacibdir.

Bank sektorunun liberallaşdırılması da xüsusi bir öhdəlikdir, digər xarici bankların bu sektora girməsi üçün şərait yaradılmalı, bu sahədə süni maneələr aradan qaldırılmalı, bank sektoru rəqabətcil və faiz dərəcələri endirilməlidir. Mərkəzi Bankın mərkəzi kredit mənbələrinə giriş genişləndirilməli və kommersiya banklarına Mərkəzi Bankın mərkəzləşdirilmiş borc mənbələrindən daha çox istifadə edilməsinə icazə verilməlidir. Azərbaycanda bank sektorunun hazırkı vəziyyətini və inkişafını xarakterizə edən ümumiləşdirilmiş göstəricilər toplusu inkişaf etməkdə olan ölkələrə nisbətən olduqca aşağıdır. Ölkənin bank sisteminin ən böyük çatışmazlıqlarından biri bank sektorundakı kapitallaşma səviyyəsinin və bank aktivlərinin aşağı səviyyədə olmasıdır.

**Açar sözlər:** *Bank sistemi, İnvestisiya fəaliyyəti, Qloballaşma, Maliyyə sabitliyi, Mərkəzi Bank*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Мазикова Е.В., Инвестиции банков в ценные бумаги: сущностный аспект и тенденции развития в современных условиях. / Е.В. Мазикова, Н.Н. Юманова. // Экономические и социальные перемены: факты, тенденции, прогноз, 2015, № 6 (42). стр.185-202.*

*2. Алиев Д.Я. (2018). Инвестиционная политика государства на современном этапе: Кейс Азербайджана практика та досвід № 19/ с. 46-50.*

*3. Никифоров И., (2020). Анализ инвестиционной деятельности банков на рынке ценных бумаг, Kazan Innovative University named after V.G.Timiryasov. с.6.*

*4. Садыгов Э.М., (2013). Основные направления развития банковской системы Азербайджана ВІСНИК ЕКОНОМІЧНОЇ НАУКИ УКРАЇНИ, с. 213-230.*

*5. Токуев М.М., (2011). Правовые основы*

*осуществления инвестиционной деятельности коммерческих банков // Бизнес в законе.– № 6. – С. 110-113.*

*6. https://banco.az/az/news/azerbaycanin-bank-sistemi.*

*7. https://www.cbar.az/page-190/capital-market.*

*8. https://www.stat.gov.az/source/finance/.*

*9. https://fins.az/az/bank/234462/azerbaycanda-bank-kreditleri-ile-sermaye-qoyulusu-azalib/.*

**РЕЗЮМЕ**

**Повышение инвестиционной активности в банковской системе Азербайджана**

Без банков невозможно представить национальную экономику и ее развитие. В наше время роль банков в этой сфере возросла. В статье показано, что инвестиционная политика очень актуальна в деятельности банков. В предыдущие годы банковская система продолжала демонстрировать положительную динамику финансового посредничества. С 2019 года из-за пандемии COVID-19 инвестиционная активность в банках ослабла. Эта статья также посвящена вопросам повышения инвестиционной активности, что показывает, что тема очень актуальна.

**Ключевые слова:** *Банковская система, Инвестиционная деятельность, Глобализация, Финансовая стабильность, Центральный банк.*

**SUMMARY**

**Improving Investment Activity in the Banking System of Azerbaijan**

It is impossible to imagine the national economy and its development without banks. In our time, the role of banks in this area has increased. The article shows that investment policy is very relevant in the activities of banks. In previous years, the banking system continued to have a positive dynamics in terms of financial intermediation. From 2019, due to the COVID-19 pandemic, investment activity in banks has also weakened. This article is also devoted to the issues of improving investment activity, which shows that the topic is very relevant.

**Key words:** *Banking system,Investment activity,Glo balization,Financial stability,Central Bank.*

UOT 3.07; 331.07

# AZƏRBAYCAN RESPUBLIKASINDA MÜASİR İDARƏETMƏ METODLARININ TƏTBİQİ İLƏ DÖVLƏT QULLUQÇULARININ PEŞƏKARLIĞININ İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

**TÖRƏ ƏLİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi 2-ci kurs magistr*

*E-mail: tora.aliyeva97@bk.ru*

## Giriş

Azərbaycan Respublikası 18 Oktyabr 1991-ci il tarixində öz müstəqilliyini bərpa etdikdən sonra dövlət idarəetməsində, dövlət kadr siyasətində, ölkə iqtisadiyyatında əsaslı islahatlar aparılıb. Beynəlxalq təcrübədə dövlət qulluğu sahəsində həyata keçirilən əsas islahatların mərkəzi xəttini insan resurslarının idarəedilməsi siyasəti tutur. Azərbaycan Respublikası postsovet ölkəsi olduğu üçün dövlət idarəetməsində inzibati idarəetmə izləri yaxın illərə kimi qalmaqda idi.

Azərbaycan Respublikası hüquqi və demokratik dövlətdir. Demokratik dövlət idarəetməsi ictimai inama, xalq hakimiyyətinə əsaslanan idarəçilik formasıdır. Buna görə də xalqın və vətəndaşın mövqeyi, fikri dövlət menecerlərinin də peşəkar fəaliyyətində daim önəmlidir. Dövlət orqanlarına dövlət qulluqçuları seçilərkən və qulluq mövqeyində yüksələrkən , onlara qoyulan peşəkar tələblər müəyyənləşdirilərkən bu prioritet istiqamət kimi qəbul edilməlidir. Dövlət idarəetməsində kadr siyasətini tərtib edərkən və həyata keçirərkən nəzərə alınmalı digər nüanslar ölkənin sosial-siyasi vəziyyəti, demoqrafik göstəriciləri, tarixi inkişaf yolu, makroiqtisadi göstəricilər, onun coğrafi-siyasi mövqeyi , əmək bazarındakı kəmiyyət-keyfiyyət dəyişiklikləri, qabaqcıl təcrübələr və müasir yanaşmalardır.

**Əsas hissə.** Müasir dövrdə bir çox inkişaf etmiş ölkələrdə tətbiq edilən dövlətin kadr siyasətinə müasir yanaşmanın istifadəsinin zəruriliyini ilk dəfə Böyük Britaniya və Avstraliyadan olan alimlər irəli sürmüşdür . Günümüzdə həm özəl sektorda fəaliyyət göstərən müəssisələrdə, həm dövlət sektoru qurumlarında avtoritar idarəetmə rejimi və onun metodları deyil, demokratik idarəetmə tətbiq edilir. Buna görə də ierarxik və birtərəfli güc tətbiqetməni kənarlaşdırmaq lazımdır.

Dövlət qulluğunda xüsusi önəm daşıyan məcmu keyfiyyətin artırılması metodu ilk dəfə Thatcher dövründə İngiltərədə daha sonra isə digər ölkələrdə tətbiq edilməyə başlandı. [ 6 ] Böyük Britaniya, Kanada, Yeni Zelandiya kimi ölkələrdə dövlət qulluğu insan resursları siyasətində bu metoda əsaslanan proqramlar tətbiq edilir.

Dövlət qulluqçusunun peşəkarlığı onun davamlı inkişaf etməsindən və əmək fəaliyyəti üçün yeni tələblərə uyğunlaşmasından asılıdır. Yeniliklərlə parelel qaydada varisçilik prinsipi də daim gündəmdə qalır. Dövlət orqanı menecerləri həm spesifik ixtisas peşə bilikləri, həm də geniş idarəetmə qabiliyyətlərində tətbiq edilən yenilikləri mənimsəməklə yanaşı, uzun illərdir tətbiq edilən və özünü doğrultmuş bilikləri, təcrübəni qoruyub saxlamalıdır. Azərbaycan Respublikası “Dövlət qulluğu haqqında” qanununa əsasən, dövlət qulluqçusunun əlavə təhsil alması üçün

- Onun daha yüksək vəzifəyə təyin edilməsi,
- dövlət qulluğunun ehtiyat kadrlarının siyahısına daxil edilməsi,
- dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi,
- şəxsi təşəbbüsü əsasları var.

Dövlət qulluqçusunun əlavə təhsili ixtisasartırma və yenidənhazırlanma qurumlarında, təhsil müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə xüsusi razılıq verilmiş digər müəssisələrdə qanunvericiliklə müəyyən olunmuş istiqamətlərdə həyata keçirilir. Dövlət qulluqçusu əlavə təhsil almaq üçün xarici ölkələrə ezam edilə bilər. [2]

Dövlət qulluqçularının davamlı inkişafını və təkmilləşməsini təmin etmək üçün xüsusi təlim

müəssisəsi şəbəkəsi yaradıla bilər. Bu prosesi pandemiya dövründə və sonrakı ərəfədə uzaqdan məsəfali formada tətbiq etmək mümkündür. Dövlət qulluqçularını bu təlimlərdə təlimlərdə iştiraka cəlb etmək üçün əsas motiv isə vəzifə yüksəlişi və fərdi karyera planlaşdırılmasıdır. Yəni, keçirilən təlimlər və əlavə təhsilalma proqramları müəyyən nəticəyə əsaslanır.

Məsələn, ABŞ təcrübəsində hər bir dövlət qulluqçusunun fərdi karyera hədəf planları vardır. Nəzərə alsaq ki, qeyd olunan təlim mərkəzlərinin fəaliyyəti müəyyən vaxt və maliyyə resursları hesabınadır, bu zaman xərclənən vəsaitəyə uyğun olaraq fayda təmin edilməlidir. Buna görə də bu təlimləri məhz konkret çatışmazlıqlar yönündə təkmilləşdirmək ola bilər. Bir sıra qabaqcıl təcrübələrdə təlimlərə cəlb edilən şəxslər üçün seçimlər aparılır. Dövlət qulluqçuları arasında təlimə tələbatı dövlət orqanı müəyyənləşdirir.

Müasir inzibati idarəetməni və dövlət xidmətlərini kompütersiz, texniki vasitələrdən olmadan təsəvvür etmək qeyri-mümkündür. Dövlət orqanlarının əməkdaşların texniki bilikləri daim yenilənməlidir, buna görə də kompüter və digər proqram-texniki vəsitələrdən istifadə etməkdə çətinlik çəkən işçilər üçün bu tipli kursların təşkili vacibdir. Təlimlər lokal olaraq təşkilatdaxili, xüsusi mərkəzlərdə, həm də xarici ölkələrdə stajkeçmə formasında olur. Xarici ölkələrdə stajkeçmə, qabaqcıl təcrübəni praktiki olaraq öyrənmə işçilər üçün daha motivasiya edicidir. Bunun üçün xüsusi müsabiqələr elan oluna bilər və bu müsabiqələrin qaliblərini dövlət hesabına təlimlərə göndərmək olar.

Təlimlərdə aşılandırılacaq bacarıq və vərdişləri aşağıdakı 2 qrupda göstərə bilərik:

• ümumi bacarıqlar: Bütün dövlət qulluqçularını, dövlət orqanı əməkdaşlarını , staj və sınaq dövründəki qulluqçuları ümumi qanunvericilik,etika, hesabatlılıq, İKT qabiliyyətləri kursuna cəlb etmək ;

• Fərdi və peşəkar inkişaf : Məsələn, mühasibat və maliyyə sektoru işçilərini maliyyə sahəsində yeni qəbul olunmuş qaydalarla tanış etmək və mövcud biliklərin təzələnməsi üçün kurslara cəlb etmək;

Təlimlərin əsas məqsədi olan dövlət qulluqçularının peşəkarlığının artırılması ilə yanaşı onların mənəvi-psixoloji səviyyəsinin də yüksəldilməsi əhəhmiyyətlidir. Dövlət qulluqçularının bu təlimlərdə aktiv iştirakı , təlimdən əvvəl və sonrakı fəaliyyətində kəmiyyət-keyfiyyət göstəriciləri qiymətləndirilməlidir. Belə olduğu təqdirdə dövlət qulluqçuların iş keyfiyyəti artır və dolayısı yolla dövlət qurumunun fəaliyyəti yüksəlir.

Almaniya Federativ Respublikasında dövlət qulluqçuları üçün təşkil edilən əlavə təhsil proqramlarında yüksək maddi stimul və bonus sistemləri tətbiq edilir.Türkiyə Cümhuriyyəti dövlət insan resursları təcrübəsində dövlət qulluqçularının inkişafı üçün keçirilən təlimlərin məqsədi isə dövlət qulluqçularının qulluqda irəliləyişidir. Belə olduğu halda boş vakansiyalara da təyinat baş tutur. Rəhbər şəxslər üçün xüsusi təlimlərin həyata keçirilməsi adekvat addım olar.

Dövlət orqanlarının nəzdində fəaliyyət göstərən tədris mərkəzlərinin fəaliyyətinin dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə tədbirlər planı hazırlanmalı, dövlət orqanlarının tədris mərkəzlərinin təcrübəsi öyrənilməli və onların gələcək fəaliyyəti ilə bağlı təkliflər hazırlanmalı, tədris mərkəzlərinin fəaliyyətinin əlaqələndirilməsi üçün koordinasiya qurumu yaradılmalıdır. [3]

Dövlət qulluqçularının hazırlanması və peşəkarlığının artırılması üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası fəaliyyət göstəririr. Akademiyada dövlət qulluqçularının inkişafı üçün əlavə təhsil proqramları 2 il və ya 3 il müddətinə həyata keçirilir.

Dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyinin artırılması məqsədi ilə 2016-cı ildən Akademiyada Mərkəzi Avropa İttifaqı və BMTİP birgə əməkdaşlığı çərçivəsində "Azərbaycan Respublikasında Dövlət Qulluğu Təliminə Dəstək" layihəsinin həyata keçirilməsinə başlanmışdır. Layihəsinin əsas məqsədi dövlət qulluqçularının təliminin və peşəkar inkişaf funksiyalarının idarəedilməsi və əlaqələndirilməsini gücləndirməkdir. [15 ]

Respublikamızda dövlət qulluqçularının elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq hüququ vardır. Peşəkarlığı əmələ gətirən əsas məqam nəzəri və praktiki biliklərin vəhdətidir. Buna görə də dövlət qulluqçularını elmi fəaliyyətə stimullaşdırmaq faydalıdır. Qabaqcıl təcrübələrdən olan Kanadada dövlət qulluğu təsnifatında elmi fəaliyyəti olan şəxslər prioritetlik təşkil edir.

Azərbaycan Respublikasında günümüzdə orqandaxili və orqanlararası funksional islahatlara , səlahiyyət diversifikasiyanın azaldılmasına ehtiyac

var. Dünyanın inkişaf etmiş ölkələrində qurumdaxili səlahiyyət reformları həyata keçirilərkən sertifikasiya təcrübəsindən istifadə edilir. Azərbaycan Respublikasında qurumların funksiyaları və vəzifələrində bəzi hallarda təkrarlanma olur. Buna misal olaraq, yerli icra hakimiyyəti orqanları ilə yerli özünü idarəetmə orqanlarının səlahiyyət bölgüsündə boşluqların olmasını göstərmək olar. Bu problem həmin orqanlardakı qulluqçuların peşəkarlığına təsir edən əsas amillərdən biridir.

Son illər müsbət hal kimi Azərbaycan Respublikasında orqanların vahid formaya gətirilməsi və ya əlaqələndirilməsi nümunəsini görürük. 22 Oktyabr 2019-cu il tarixində Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müvafiq dövlət xidmətləri statusunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil edildi.

Azərbaycan Respublikasında digər bir nümunə isə "ASAN Xidmət" nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tabe olan bu mərkəzlərdə dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsi təmin edilir. Bu cür bölgünün aparılması ilə korrupsiyanın və bürokratik monopoliyanın qarşısı alınır. Göstərilən dövlət xidmətləri arasında üfüqi münasibətlər qurulması və sahələrarası koordinasiya proqramlarının tətbiqi məqbul olar. ASAN xidmət mərkəzlərinin əməkdaşlarının xüsusi ünsiyyət bacarıqları qazanması vətəndaşların diqqətini cəlb edir. Bu peşəkar xüsusiyyətin mənimsənilməsi üçün davranışın təkmilləşdirilməsi, biliklərin artırılmasına yönəlmiş 2 istiqamətli təlimlər keçilir. Bu təlimlərin keçirilməsi müasir dövlət qulluqçusundan gözlənilən davranış barədə təsəvvür yaratmışdır.

Təməli ASAN Xidmətdə qoyulan "könüllülük mexanizmləri" də həm qurumlar üçün peşəkar kadr hazırlığının başlanğıcıdır, həm də gənclər üçün iş mühitinə, dövlət xidməti sektoruna uyğunlaşma şansıdır.

Ölkəmizdə makroqitisadi problemlərdən olan gənclər arasında işsizlik problemi son illərdə azalmaqdadır. Müqayisə üçün qeyd edək ki, 2012-ci ildə 5.2 faiz 15-29 yaşlı insanlar işsiz idi, 2019-cu ildə 4.8 faiz təşkil etmişdir. [40] Gənc mütəxəssisləri əmək bazarında dövlət qulluğunda xidmət etməyə təşviq etmək və onların potensialından düzgün istifadə etmək labüddür. Qeyd etmək lazımdır ki, ölkədə olan 29368 dövlət qulluqçusundan 5089 nəfəri 30 yaşa qədər olan şəxslərdir. [ 36 ] 2005-ci illə müqayisədə 30 yaşadək və 30-34 yaşda olan dövlət qulluqçularının sayı müvafiq olaraq 32,5 faiz və 67,9 faiz artmışdır. [37]

Dövlət qurumlarında əməkdaşların psixoloji vəziyyətinə və peşəkarlığına təsir edən əsas ünsürlərdən biri korporativ mühitdir. Dövlət orqanı rəhbərliyi bu münasibətləri tənzimləmədə əhəmiyyətli rol oynayır. Dövlət qurumlarında münasibətlərin əsasını əməkdaşlıq, ümumi prinsip uğrunda işləmək və sağlam rəqabət təşkil etməyi qurumun məhsuldarlığı üçün faydalıdır.

Bəzən dövlət qulluqçularında belə bir fikir formalaşır ki, dövlət orqanı dövlət büdcəsi hesabına fəaliyyət göstərir və bu səbəbdən orqanın müflis olma ehtimalı yoxdur, beləliklə, hər hansı bir gəlirlilik əmsalı olmasa da o, öz işini itirməyəcək . Lakin bu səhv və zərərli düşüncədir. Dövlət qurumlarında fərdi qaydada və şöbələrarası rabitə daim güclü olmalı və sektorlararası koordinasiya qurumun səlahiyyətlərini tamamlamalıdır. Müasir idarəetmədə qurumdaxili sağlam konfliktlərin olması faydalıdır. Dövlət qurumunda konfliktlərin idarəedilməsi və tənzimlənməsi üçün xüsusi metodlardan istifadə edilir.

Dövlət qulluqçularının peşəkar fəaliyyətini müəyyənləşdirən xüsusiyyətlər arasında şəffaflıq və hesabatlılıq önəmli yer tutur. Dövlət qulluqçularının fəaliyyətinin hesabatlılığı həm də dövlətin və qurumun hesabatlılığı deməkdir. Azərbaycanda inzibati amirlik idarəetmə rejimində vətəndaşlar qarşısında birbaşa hesabatlılıq mexanizmi olmayıb. Lakin Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra demokratik idarəetmə sistemi olduğu üçün hesabatlılıq da həm üfüqi , həm də şaquli formada təzahür edir.

Dövlət qulluqçusunun etik dəyərlərə münasibəti onun peşəkarlığının digər bir ünsürüdür. Azərbaycan Respublikasında "Dövlət qulluqçularının etik davranışı haqqında" qanunu ilə dövlət qulluqçularının peşəkar xidməti davranışı təyin edilir. Dövlət qulluqçuları inzabati qərarlar verməzdən öncə öz qərarının nəticəsini

proqnozlaşdırmalı və şəxsən məsuliyyət daşımalıdır. Etik qaydalar və hesabatlılıq olmadan heç bir inzibati uğur qazanıla bilməz. Dövlət qulluqçuları hər bir halda etik davranış qaydalarına riayət etməlidirlər. Dövlət idarəetməsində bəzi hallarda etik dillemmalar yaşanır ki, bu hallarda öz davranışını hüquqi, etik cəhətdən dəyərləndirməyi bacarmalıdır.

Müasir dövrdə idarəetmənin əsasını düzgün, adekvat və obyektiv məlumat təşkil edir. Dövlət qulluqçusu lazımi hallarda bu məlumat mübadiləsini etməli və xidməti məlumatları vaxtında və düzgün istifadə etməlidir. Çağdaş dövlət qulluqçusunun bilik səviyyəsini göstərən xüsusiyyətlərdən biri isə elektron məlumat bazalarının istifadəsi, hibertəhlükəsizlik haqqında bilikləridir. Müasir idarəetmənin və eləcə də dövlət idarəetməsinin təməlini təşkil edən elektron hökümət modelində də bacarıqların olması zəruridir.

Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 2011-ci il 23 may tarixli fərmanının qəbul edilməsi, həmçinin ölkə Prezidenti tərəfindən müvafiq qurumların yaradılması xüsusi əhəmiyyət kəsb edir. [16 ]. Bu kimi platformalarda biznes qurumları, vətəndaşlarla və qeyri-hökümət təşkilatları ilə ünsiyyət qurma, ictimai əlaqələrin standartlaşdırılması labüddür.

Dövlət qulluqçularının vəziyyətə uyğunlaşma qabiliyyəti peşə fəaliyyətinə təsir edir. Keçən əsrin ortalarında müasir idarəetmədə əsas iki yanaşmadan biri olan "vəziyyət yanaşma"sının da təməl prinsipi budur. Digər bir müasir idarəetmə yanaşması isə stress yanaşmasıdır ki, burada planlaşdırma, disiplin və təhlil üzə ön plana çıxır. Vəziyyətə uyğunlaşma- adaptasiya modelinə görə 3 işçi növünü fərqləndirək:

• Yeni və təcrübəsiz işçinin adaptasiyası

• Təcrübəli , lakin kollektivdə və ya qurumda yeni olan işçi

• Müasir-innovativ texnologiyalardan istifadə üçün yaşlı insanların uyğunlaşması [15]

Dövlət idarəetməsində sıx tətbiq edilən meritokratiya modelinə əsaslanaraq qeyd edək ki, dövlət qulluğunda qəbulda və vəzifədə irəliləyişdə nepotizm halının qarşısı kəskin alınmalıdır. Bu cür hallar zamanı həm "yararlanan" şəxs fərdi inkişafında maraqlı olmur, həm də bu halı müşahidə edən digər işçilərin motivasiyası azalır. Bu da kompleks halda dövlət qurumunun peşəkarlıq dərəcəsini aşağı salır və vətəndaşların orqana olan inamı azalır. Dövlət qulluqçuları arasında hər hansı bir zəmində ayrı-seçkilik salına bilməz. Bu baxımdan Azərbaycan Respublikasında problemlər azdır. Belə ki, gender-dini-irqi-etnik ayrı-seçkiliyin salınması halı yoxdur.

Dövlət qulluqçularının strukturunda yaş proporsiyası strategiyası tətbiq edilə bilər. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2019-cu il yanvarın 1-nə olan məlumatında qeyd olunur ki, dövlət qulluqçularının yaş qrupları üzrə bölgüsü aşağıdakı kimi xarakterizə olunur: 30 yaşa qədər olanlar 17,2 faiz, 30-34 yaşda 15,9 faiz, 35-44 yaşda 23,6 faiz, 45-54 yaşda 21,0 faiz, 55-62 yaşda 18,1 faiz, 63-64 yaşda 2,9 faiz, 65 və yuxarı yaşda 1,3 faiz . [34] Qeyd etmək lazımdır ki, ümumilikdə Əmək qabiliyyətli yaşda olan iqtisadi fəal əhalinin tərkibində isə 68.1 faiz qadın məşğulluğu, 72.1 faiz kişilərin məşğulluğu var. [ 35]

Bu isə nəinki dövlət sektorunda həm də ümumilikdə Azərbaycan gender ayrı-seçkiliyinin olmadığını göstərir. 2019-cu il göstəricilərinə əsasən, Respublikada 8520 nəfər qadın dövlət qulluqçusu var. Ötən 15 il ərzində ölkədə dövlət qulluqçularının sayı 14,1 faiz artaraq 2020-ci il yanvarın 1-nə 29,4 min nəfər olmuşdur ki, onların da 29,0 faizini qadınlar təşkil etmişdir. [37]

Avropa ölkələrində dövlət sektorundakı inkişafın əsas səbəblərindən biri tətbiq edilən "Keyfiyyət İdarəetmə Qurumu"nun yaratdığı Mükəmməllik modelidir. Bu model 2 qrup və təməl 9 kriteriyadan ibarətdir. Bu kriteriyaların arasında ölkəmiz üçün də tətbiqi faydalı olacaq olanlar aşağıdakılardır:

• resursların idarə edilməsi,

• liderlik xüsusiyyətləri,

• dövlət qulluqçularının məmnuniyyəti və vətəndaş məmnuniyyətinin vəhdəti

Dövlət qurumlarının fəaliyyəti və təkmilləşməsi haqqında dövlət qulluqçuları öz fikirlərini və təkliflərini rahat bildirə bilməsi üçün müxtəlif sorğulardan, xüsusi görüşlərdən istifadə etmək məqsədəuyğun olar. Bununla təkcə ayrı-ayrı fərdlərin iş fəaliyyəti deyil, eyni zamanda qurumun və dövlət qulluğunun da iş fəaliyyəti təkmilləşəcək. Yəni, dövlət qulluqçusu özünü həm mikro , həm də makro mənada əhəmiyyətli hiss edəcək və bu onun motivasiyası üçün xeyirlidir.

Dövlət qulluqçularının iş keyfiyyətinin artması və dövlət qulluğu karyerası inkişafı birbaşa özündən və dövlət qurumundan asılıdır. Hər bir işçi kadr kimi hansı səlahiyyətləri sevdiyini, hansı iş sahəsində daha bacarıqlı olduğunu, quruma hansı faydanı verdiyini qərarlaşdırmalıdır. Dövlət qurumları işçilərin inkişafına daim dəstək olmalıdır. Dövlət qurumlarının tərkibində psixoloji təhlil mərkəzlərinin olması bu baxımdan faydalı olardı. Bu işgüzar- psixoloji təhlil mərkəzlərinin vəzifə funksiyalarını aşağıdakı qaydada göstərə bilərik:

• İşçilərin peşəkar hədəflərini müəyyənləşdirmək və qurumun hədəfləri ilə uyğunlaşdırmaq;

• Şöbə və sektorlar qarşısında hədəflərin olması;

• Ümumi prinsiplər uğrunda işləməyin təmin edilməsi;

• İşçilərin peşəkar inkişafına mane olan halları aradan qaldırmaq;

• İşçilərin sosial dəyərlərini təhlil etmək;

• İşçilərin xüsusi bacarıq və istedadlarını müəyyənləşdirmək;

• Motivləşdirici proqramları həyata keçirmək;

• Kollektivin, ayrı-ayrı şöbə və sektorların , dövlət qulluqçularının iş performansını dəyərləndirmək;

• Sınaq məqsədli səlahiyyət dəyişiklikləri həyata keçirmək və çətin tapşırıqlar vermək;

• Vətəndaşların fikrinin daimi təhlili;

• Dövlət qulluqçularının qurum və vəzifə haqqında daimi təhlilləri və s.

Dövlət qulluğu kadr siyasətinə müasir yanaşma üçün insan resursları mərkəzləri yaradıla bilər. Azərbaycan Respublikasında 9 avqust 2018 tarixindən DOST mərkəzlərinin xüsusi bir kateqoriyası kimi dövlət qulluğu insan resursları və əmək fəaliyyəti ilə bağlı xidmətləri göstərən mərkəzlər faydalı olardı.

Dövlət idarəçiliyində kompetensiya modelinin tətbiqi aktual məsələlərdəndir. Amerikan mütəxəssislər daha çox "şəxsi" yanaşmanın tərəfdarları olduğundan kompetensiya anlayışının həcmini ya şəxsi keyfiyyətlərlə, ya da bilik, bacarıq və qabiliyyət ilə məhdudlaşdırıb KSAO adlandırırlar:

– Bilik (knowledge),

– Bacarıq (skills),

– Qabiliyyət (abilities),

– Digər xarakteristikalar (others)." [15]

Çox vaxt edilən səhvlərdən biri bu xüsusiyyətləri səhv salmaq və ya hər hansı birini ümumiyyətlə nəzərə almamaqdır. Lakin idarəetmədə işçinin tam inkişafı hər birinə eyni dərəcədə yanaşma tətbiq edilməlidir. Nisbi və ya mütləq formada zəiflik təşkil edən bəndin fərdə uyğun xüsusi inkişaf proqramı olmalı və qiymətləndirmələr arası təhlil aparılmalıdır. Bunun əsas məqsədlərindən biri sadaladığımız 4 nüansın vaxt intervalı ərzində dəyişiklik göstərib-göstərməməsidir.

Azərbaycan Respublikasında Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin məqsədi onun təqvim ili ərzində vəzifəsinin öhdəsindən gəlməsini, tutduğu vəzifəyə dair tələbləri yerinə yetirməsini qiymətləndirməkdən və dövlət qulluqçusunun gələcək inkişafını müəyyən etməkdən ibarətdir. [4]

Xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticəsi əsasında dövlət orqanının rəhbəri tərəfindən dövlət qulluqçusu rəhbər vəzifələrin tutulması üçün ehtiyat kadrlar siyahısına daxil edilə bilər, barəsində həvəsləndirmə tədbiri görülə bilər. Əgər qeyri-qənaətbəxş olarsa onun aşağı inzibati vəzifəyə keçirilməsi məsələsinə baxılır. Əslində burada bir çox modelin – müsahibə, nəticə əsaslı, məqsədlərin qoyuluşu əsasında idarəetmə metodu istifadə olunur.

Böyük Britaniyada da qiymətləndirmə zamanı hədəflər, qərar vermə, ünsiyyət kimi meyarlar əsas götürülür. Danimarkada işçi-rəhbər münasibətləri, vəziyyətə uyğunlaşma kimi bacarıqlar da qiymətləndirmədən keçir. Fransada texniki bacarıqların xüsusi əhəmiyyəti, Sloveniya yaradıcılıq, təşəbbüskarlıq kimi meyarlar var. Bundan əlavə gündəlik, rüblük yoxlamaların aparılması da illik nəticəyə müsbət təsir edə bilər. Ölkəmizdə dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirməsinin bilavasitə rəhbərin yoxlaması bürokratik əngəldir. Bir çox ölkədə bu cür kənar audit sistemlərindən istifadə edilir.

Dövlət qulluqçularının peşəkarlığının artırılması üçün motivasiya tədbirləri lazımdır və mükafatlandırılma maddi-mənəvi qruplaşdırılır. Dövlət qulluqçularının motivasiyasına təsir edən maddi amillərdən biri əmək haqqıdır. Azərbaycan Respublikası "Dövlət qulluğu" haqqında qanuna əsasən, dövlət qulluqçularına verilən dövlət məvacibinin məbləği səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, tələb olunan peşəkarlıq səviyyəsindən, vəzifədə qulluq stajından asılıdır. [2]

Pilot layihə kimi hər hansı bir dövlət qurumunda differensial əmək haqqı sistemi yaradıla bilər.

Azərbaycan Respublikasında 2019-cu ildə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı 1022,2 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 28,3 faiz, 2005-ci illə müqayisədə isə 5,6 dəfə çoxdur [37].

**Nəticə və təkliflər.** Dövlət qulluqçularının peşəkarlığı na stabil bir məfhum kimi baxmaq olmaz. Əmək bazarında və idarəetmədə ildən-ildən intensiv dəyişikliklərin olması peşə sahiblərinə də təsir edir. Dövlət qulluqçularının peşəkarlığına kompleks yanaşma tətbiq edilməlidir. Bu mürəkkəb bir mexanizm olsa da nəticəsi sosial rifaha təsir edəcək.

Kadr hazırlığı və dövlət meneceri hazırlığını həyata keçirən dövlət orqanlarında "yenidən hazırlıq" ixtisası yaradılsa və köhnə işçilər bu təhsilə cəlb edilsə effektiv olar. Həyata keçirilən bütün bu tədbirlərdə məqsəd təkcə zəiflikləri və çatışmazlıqları müəyyənləşdirmək deyil, eyni zamanda yaxşı fəaliyyəti müəyyənləşdirmək də olmalıdır. Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi üçün müstəqil audit təcrübəsinin olması və mükafatlandırmanın qeyri-maddi stimul üzərindən aparılması lazımdır.

**Açar sözlər:** *dövlət strukturlarında menecment, insan resursları, dövlət qulluqçuları, peşəkar kadr, dövlət qulluğu.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 12 noyabr 1995;*

*2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 21 iyul 2000-ci il № 926-IQ ;*

*3. "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya", Bakı , 23 noyabr 2018;*

*4. "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi" Qaydaları, Azərbaycan Respublikasinin Prezidenti Yaninda Dövlət Qulluğu Məsələləri Üzrə Komissiya Qərar № 021-Q Bakı şəhəri 10 fevral 2014-cü il ;*

*5. Ali Uslu , Fatih Coşkun Ertaş , Rüştü Yayar, "Performansa Dayali Etkinlik Analizi: Devlet Üniversiteleri Örneği" , International Journal of Social Inquiry Cilt / Volume 11 Sayı / Issue 1 2018 ss./pp. 255-276 ;*

*6. Asım Balcı, "Kamu Yönetiminde Çağdaş Yaklaşimlar Ve Kamu Hizmet Sunumuna Etkileri", 14 sah ;*

*7. Baxşəliyev Pərviz, (2019), Azərbaycan Respublikasında dövlət idarəetməsində kadr hazırlığının təkmilləşdirilməsi yolları, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 99 səh ;*

*8. Bahadır Şahin, "Kamu personel sisteminde işe girme ve yükselmede çağdaş liyakat kavramlari" , Ç.Ü. Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt 25, Sayı 1, 2016, Sayfa 231-242 ;*

*9. Eldar Aslanov, (2007), Azerbaycan'da Kamu Yönetimi Reformu, T.C. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara, 362 S;*

*10. Eran Vigoda-Gadot , Sagie Meiri, "New Public Management Values And Personorganization Fit: A Socio-Psychological Approach And Empirical Examination Among Public Sector Personnel", Public Administration Vol. 86, No. 1, 2008 s. 111–131;*

*11. Əyyub Kərimov, (17 iyun 2010), " Dövlət qulluqçusu etik davranışı və peşəkar fəaliyyəti ilə çalışdığı orqanlara inamı artırır və onun nüfuzunu möhkəmləndirir", Xalq qəzeti., S. 4;*

*12. F.Adil Namiq, "Most effective management style for modern workplace", International Journal of Engineering and Management Sciences (IJEMS) Vol. 3. (2018). No. 3, p . 402-411 ;*

*13. Harvard Business Review (2017), Manager's Handbook: The 17 Skills Leaders Need to Stand Out, Levent Göktem, İstanbul, Optimum Basım San. Ve Tic.Ltd.Şti, 384 sah;*

*14. Handan Temizel, "Kamu Yönetimi Reformlari Ve Reformlarin Temel Özellikleri", SÜ İİBF Sosyal ve Ekonomik Araştırmalar Dergisi, 115-146 ;*

*15. İsmayılov Ç., Abdullayev Ə., Qurbanova G., Hüseynova X., Zeynalova E., Nağıyev F., Seyidzadə M., Həsənov A. (2018) Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafi Fondu .252 səh ;*

*16. İsmayılov S.A. (2013), Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri , Bakı. "Oğuz Eli". 216 səh ;*

*17. Mustafa Lütfi Şen, (2012), Kamu Görevlileri Etik Rehberi, Ankara, 148 s;*

*18. Rehimli R., (2011), Azerbaycan devlet personel yönetimi, Ankara, "Kültür Ajans Yayınlar", 256 səh ;*

*19. Recep Rehimli, Elnur Aliyev, "Çağdaş Yaklaşımlar Çerçevesinde Kamuda İnsan*

*Kaynakları Yönetiminin Örgütlenmesi", Uluslararası Yönetim Akademisi Dergisi, Yıl: 2019, Cilt: 2, Sayı: 1, ss.134-141;*

*20. Ronald Y. Azadov E., (2005) , "Dövlət idarəetməsində islahatlar : nailiyyətlər,problemlər, perspektivlər" Dövlət qulluğu sahəsində islahatların həyata keçirilməsi üzrə TACİS layihəsi, 326 səh ;*

*21. Rzayev Ə.H. (2011), Dövlət qulluğunun hüquqi əsasları, Bakı. "Elm", 480 səh;*

*22. Salih Batal, "Türkiye'de Yönetim Kültürünün Dönüşümü Ve Yeni Kamu Yönetimi Anlayişinin Temel Dinamikleri" Hukuk ve iktisat araştirmalari dergisi Cilt 4, No 1, 2012, S.223-234 ;*

*23. Səfərov R.A. Dövlət qulluğu. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2014. - 228 s;*

*24. SIGMA Yönetim ve Yönetimin İğileştirilmesi İçin Destek AB tarafından finanse edilen, OECD ve Avrupa Birliği ortak girişimi, kamu hizmetinde performans ve profesyonelliği ileriye Taşımak , SIGMA BELGE NO. 21 , Yayın Hizmetleri BaÇkanlığı, OECD, 2 rue André-Pascal, 75775 Paris Cedex 16, Fransa, 1997 , 38 sah ;*

*25. T. C. Kalkinma Bakanliği Kalkinma Plani On Birinci (2019-2023) Kamuda İnsan Kaynaklari Çalişma Grubu Raporu , Yayin No: Kb: 3044 - Öik: 825 , Ankara 2018 ;*

*26. United Nations Department of Economic and Social Affairs Division for Public Administration and Development Management, "Human Resources for Effective Public Administration in a Globalized World" , New York, 2005;*

*27. Vasfiye Çelik, (2013), Avrupa birliği'ne uyum çerçevesinde performans yönetiminin türk kamu yönetiminde uygulanabilirliği, T.C. Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara , 301 sah ;*

*28. Vedat Yilmaz ,Abdullah Turan, "Kamuda Performans Yönetiminin Önemi", Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi XLVI, 2019/1, sah. 313-342;*

*29. Maria José Sousa, Management in Modern Organizations, Management in Modern Organizations, Organizational Culture and Behavior: Concepts, Methodologies, Tools, and Applications, January 2017*

*30. Mustafa Önen, Salim Kurnaz, "Kamu Yönetimi Reformlarinda Yeni Perspektifler Ve Arayişlar", Assam Uluslararası Hakemli Dergi (Assam - Uhad) Assam International Refereed Journal Cilt 4, Sayı 8, Yıl 2017, S 51-69*

*31. http://www.opentextbooks.org.hk/system/files/export/32/32088/pdf/Human_Resource_Management_32088.pdf*

*32. https://socionet.ru/publication.xml?h=spz:cyberleninka:15970:15654122*

*33. http://gov.cap.ru/home/49/kadry/turchinov.htm*

*34. https://www.stat.gov.az/news/index.php?id=4234*

*35. https://www.stat.gov.az/source/gender/*

*36. https://www.stat.gov.az/source/labour/*

*37. https://www.stat.gov.az/news/index.php?id=4623*

*38. http://az.strategiya.az/news.php?id=119407*

*39. https://asan.gov.az/az/confidential*

*40. https://www.stat.gov.az/source/demoqraphy/ay/*

**SUMMARY**

The Republic of Azerbaijan has restored its independence for about 30 years. One of the main areas of reform to strengthen independence was personnel policy in public administration. The article examines the basics of the formation of healthy competition between staff in government agencies and opportunities for professional development of civil servants. The main criteria for improving the quality of work of civil servants in the Republic of Azerbaijan have been identified. Considering the development of the consept that public administration is based on public trust, then every civil servant, regardless of his position, must understand his individual responsibility. The professional development of civil servants must be sustainable. At the same time, each government agency must ensure the quality of its staff. This will also benefit the state. Because a civil servant is a political and legal defender of the state. The integration of classical management methods with new management methods must be ensured in public administration. It is necessary to use the best international experience in this field. This is inevitable given the evolving governance mechanisms. Given the development of the concept of e-government in recent years, one of the elements of professionalism of a civil servant is these skills. At the same time, the historical development path of Azerbaijan, its geopolitical position and local features must be analyzed. The Republic of Azerbaijan should be developed as an example of the application of modern approaches in

the private sector as well as in the public sector.

Civil servants should be involved in retraining, and then the selected civil servants should be appointed on the basis of new criteria. Business quality requirements for civil servants must be constantly updated. Theoretically tested knowledge in civil service recruitment should be practiced by civil servants. For this, the state and individual institutions must have strategic plans and programs. Stimulus mechanisms should be put in place in the civil service. The personal development and updating of knowledge of civil servants must be ensured. Significant bureaucratic obstacles and nepotism in the civil service must be prevented. Corporate and individual goals should be set, and the potential assessment of civil servants should be conducted. Functional changes should be made in the hierarchical distribution of power. The professionalism of civil servants should be reflected in the salary system.

**Key words:** *management in public structures, human resources, civil servants, professional staff, civil service.*

**РЕЗЮМЕ**

Азербайджанская Республика восстановила свою независимость около 30 лет. Одним из основных направлений реформы по укреплению независимости была кадровая политика в государственном управлении. В статье исследуются основы формирования здоровой конкуренции между сотрудниками государственных органов и возможности повышения квалификации государственных служащих. Определены основные критерии повышения качества работы государственных служащих в Азербайджанской Республике. Учитывая, что государственное управление основано на доверии общества, каждый государственный служащий, независимо от занимаемой должности, должен осознавать свою индивидуальную ответственность. Профессиональное развитие государственных служащих должно быть устойчивым. В то же время каждое государственное учреждение должно обеспечивать качество своих сотрудников. Это тоже пойдет на пользу государству. Поскольку государственный служащий является политическим и правовым защитником государства. В государственном управлении необходимо обеспечить интеграцию классических методов управления с новыми методами управления. В этой сфере необходимо использовать лучший мировой опыт. Это неизбежно с учетом развития механизмов управления. Учитывая развитие концепции электронного правительства в последние годы, одним из элементов профессионализма государственного служащего являются эти навыки. В то же время необходимо проанализировать исторический путь развития Азербайджана, его геополитическое положение и местные особенности. Азербайджанская Республика должна развиваться как пример применения современных подходов как в частном, так и в государственном секторе.

**Ключевые слова:** *управление в государственных структурах, человеческие ресурсы, госслужащие, профессиональные кадры, госслужб.*

UOT 352.075

# ELEKTRON BƏLƏDİYYƏNİN DÜNYA ÖLKƏLƏRİNDƏ TƏTBİQİ

**AYTAC BABAYEVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin Magistrantı*
*E-mail: babayevaaytac@yahoo.com*

**Giriş**

Elektron idarəçilik kompüter texnologiyasına əsaslanan iqtisadi fəaliyyət olmaqla yanaşı, insanlar, müəssisələr, məlumatlar və proseslər arasındakı milyardlarla gündəlik internet bağlantısının nəticəsidir. E-bələdiyyə vətəndaşlarla təşkilatlar və hakimiyyət orqanlarının qarşılıqlı əlaqəsi kimi başa düşülür. Dövrümüzün tələblərinə uyğun olaraq artıq bütövlükdə hökümət sistemi elektronlaşmışdır. Elektron hökümət dövlət idarəçiliyinin səmərəliliyinin artırılması və cəmiyyətin bütün üzvlərinin sosial rabitə xərclərinin azaldılması məqsədinə xidmət edən, bütün idarəetmə proseslərinin avtomatlaşdırılmasına əsaslanan dövlət idarəetmə sistemidir. Burada bələdiyyəyə aid məlumatlar, sənədlər, qeydiyyat, sorğu və ödəniş əməliyyatlarını asanlıqla həyata keçirə bilərik. E-bələdiyyələrin mövcud vəziyyətinin araşdırılması bu sahədə olan problem və çatışmazlıqları aşkar edərək vətəndaşlara geniş imkanlar yaratmağa kömək edəcəkdir. Azərbaycanda və dünyada elektron sistemin yerli özünü idarəetmədə tətbiqi mövzusuna nəzər salsaq fərqli ölkələrdə fərqli yanaşmalar və Azərbaycan ilə əlaqəli fərqli beynəlxalq sıralamalar diqqətimizi çəkər. Bəzi sıramalarda Azərbaycan bu mövzuda sürətlə inkişaf edən ölkələr qrupunda yer almış və bəzi sıralamalarda irəliləmək üçün kifayət qədər bal ala bilməmişdir. Effektivliyi artırmaq, xərcləri ixtisar etmək, şəffaflığın səviyyəsini yüksəltmək, habelə vətəndaşlara və biznesə göstərilən xidmətlərin keyfiyyətini və sürətini təmin etmək yerli özünüidarəetmə orqanları qarşısaında bir vəzifə olaraq dayanır. Məsələn, bələdiyyə işinin təkmilləşdirilməsi Cənub-Şərqi Avropa dövlətlərində İnformasiya cəmiyyətinin inkişafının əsas hədəflərindən sayılır və bu sahədə xüsusi layihə (E-MuniS) həyata keçirilir (http://www.emunis-ist.org). E-MuniS proqramının son məqsədi informasiya texnologiyaları sahəsində əldə edilən nailiyyətlərin bələdiyyənin fəaliyyətində səmərəli tətbiqinə nail olmaqdan ibarətdir. Proqram çərçivəsində məqsəd Avropa Birliyi bələdiyyələrinin elektron-özünüidarəetmə sahəsində təcrübəsini Cənub-Şərqi Avropa dövlətlərinə yaymaqdan ibarətdir. Hətta bu məqsədlə AB və Cənub-Şərqi Avropa dövlətlərində bələdiyyə və informasiya texnologiyaları şirkətlərinin birgə konsorsiumu yaradılıb. Belə təcrübənin Azərbaycanda öyrənilməsi və yerli xüsusiyyətlər nəzərə alınaraq tətbiqi yerli özünüidarəetmənini elektronlaşması baxımından mühüm əhəmiyyət kəsb edərdi. Bunun üçün ilk növbədə AB-də yaranmış təcrübə və informasiya texnologiyaları sahəsində infrastrukturun vəziyyəti öyrənilməli, eyni zamanda Azərbaycanda bələdiyyələrin elektronlaşmasına olan tələb qiymətləndirilməlidir. Bundan sonra E-MuniS proqramında olduğu kimi informasiya texnologiyalarının tətbiqi ilə ebələdiyyənin arxa ofisi və vətəndaşlara xidmət edən ön ofisi (e-servis) pilot qaydada yaradıla bilər.

**Elektron Bələdiyyə Sistemi Bir Neçə Dünya Ölkələri Nümunəsində**

Bu məqalədə hər qitədən bir vəya bir neçə ölkənin yerli özünüidarəetmədə tətbiq etdiyi elektron sistemdən yola çıxaraq dünya təcrübələrinə toxunulacaq.

**ABŞ** - 2001-ci ildə ABŞ-da aparılan bir araşdırmada, yerli idarəetmə orqanlarına mane olanlar - informasiya texnologiyaları sahəsində kadr çatışmazlığı, məhdud maliyyə mənbələri, qeyri-kafi infrastruktur, etibarsız iş prosesləri və qaydaları olduğu aşkar edilmişdir.

Wolter tərəfindən 2009-cu ildə aparılan bir araşdırmada yerli özünüidarəetmənin inkişafına müsbət və əhəmiyyətli təsir göstərən amillərin aşağıdakılar olduğu irəli sürülmüşdür:

Elektron yerli idarəetmə məsələləri ilə məşğul olan top menecerlərin mövcudluğu;

Elektron bələdiyyədə işləyən ştat işçilərinin sayı;

Təhsil, sərvət, bələdiyyələrin ölkənin və əhalinin qərbində yerləşib-yerləşməməsi kimi sakinlər arasında sosial-iqtisadi səviyyə;

2001-ci ildə Senata təqdim edilmiş və 15 noyabr 2002-ci ildə Prezident George W. Bush tərəfindən imzalanmış "Elektron Hökumət Qanunu" informasiya və kommunikasiya texnologiyalarından daha effektiv istifadə yolu ilə federal hökumətin effektivlik dərəcəsini əhəmiyyətli bir şəkildə artıraraq hükumətin vətəndaşlarla münasibətlərinə daha çox qarşılıqlı təsir göstərməyi hədəfləyir. Bu qanun daxilində Ağ Evin İdarə və Büdcə Ofisində bir elektron hökumət ofisinin yaradılması nəzərdə tutulur.

Federal səviyyədən əlavə bir çox onlayn xidmətlər əyalətlər bazasında təqdim olunur. Misal üçün; California əyalət portalı, trafik vergisi, lisenziyanın yenilənməsi kimi bir çox xidmətin təklif olunduğu fərdiləşdirilə bilən bir portaldır. İndiana əyaləti isə abunə haqqı müqabilində ictimai məlumatların əldə edilməsmni təmin edir. Minnesota əyalətində informasiya texnologiyaları vasitəsi ilə "daha təsirli və hesabatlı" bir dövlət idarəçiliyinin qurulması üçün "Mükəmməllik Təşəbbüsünün Sustaining" adlı bir layihə başladıldı. İllinoys əyalətindəki elektron hökumət tətbiqetmələrinin digər əyalətlərlə məlumat mübadiləsini asanlaşdırdığı və seçilmiş və təyin olunmuş bürokratlarla vətəndaşların ünsiyyətini artırdığı müəyyən edildi.

Elektron hökumət tətbiqetmələrini uğurlu edən digər bir cəhət də Elektron imza qanunu olaraq bilinən Qlobal və Milli Ticarətdə Elektron İmza Qanunudur.

**İNGİLTƏRƏ** - İngiltərədəki hökumət siyasəti də yerli idarəetmələri gücləndirməyi hədəfləyir. Bu siyasət lokalizasiya və qloballaşma dinamikasının təsiri ilə yerli hakimiyyəti mərkəzdən köçürmək və yerli potensialını artırmaq məqsədi daşıyırdı. 1990-cı illərdə əksər yerli hökumət veb saytları tanıtım və məlumatlandırma məqsədi ilə yaradılmışdır. Bunlardan bir neçəsinə vətəndaşlarla qarşılıqlı əlaqə qurmaq və vətəndaşları idarəetmədə iştiraka təşviq etmək kimi münasibətlər daxildir. Hökumətlərin bələdiyyə ilə bağlı əsas iddiası, bütün bələdiyyələrin veb saytlarının olması və bütün vətəndaşların öz veb saytları vasitəsi ilə yerli dövlət xidmətlərindən istifadə edə bilmələridir.

**TÜRKİYƏ** - elektron bələdiyyə məclisinin Türkiyədəki yerli idarəetmə vahidlərinin tətbiqi baxımından bir çox fərqli cəhədlərini deyə bilərik.

Bələdiyyələr razılaşdırılmamış və müəyyən standartlar olmadan öz veb saytlarını yaradırlar.

Bələdiyyələrin bəzi xidmətləri keyfiyyət və ölçüsünə görə başlıca xidmət olaraq təqdim etdiyini, bəzilərinin isə edə bilməyəcəyi görünür.

Bəzi bələdiyyələr nəqliyyat, su və rayonlaşdırma kimi sahələrdə öz xidmətlərini həm veb saytlar, həm də mobil tətbiqetmələr vasitəsi ilə təqdim edə bilirlər.

2005 E-inkişaf Fəaliyyət Planında Daxili İşlər Nazirliyinin Yerli İdarəetmə Baş İdarəsinin məsuliyyəti altında yerli idarələr tərəfindən göstəriləcək elektron xidmət standartlarının müəyyənləşdirilməsi tələb olunurdu.

- Fəaliyyət planında, yerli idarələr tərəfindən iş dünyasına və vətəndaşlara göstəriləcək elektron dövlət xidmətlərində qarşılıqlı əlaqədə işləmək, özləri ilə mərkəzi hökumət arasında elektron məlumat rabitəsinin təmin edilməsində lazımlı prosedur və prinsiplərin müəyyənləşdirilməsinə çalışmaq idi.(Şahin, 2016, s. 242).

YerelNet Layihəsi, Türkiyə Dövlət Planlaşdırma Təşkilatı İnstitutu və Yaxın Şərq Dövlət İdarəçiliyi (TODAIE) - Yerli İdarəetmə Araşdırma və Təlim Mərkəzi əməkdaşlıqla həyata keçirildi. LocalNET, yerli özünüidarəetmə ilə maraqlanan bütün vətəndaşlar üçün kənd miqyasından metropolitenə qədər bütün səviyyələrdə ətraflı statistik məlumatlar təqdim etdi və həm yerli idarəetmə orqanlarını tədqiqat layihələri ilə dəstəklədi, həm də nəşr fəaliyyətinə dair akademik ədəbiyyata töhfə verdi.

- YerelNet Türkiyə, Yerli İdarəetmə Portalı olaraq fəaliyyət göstərdi.

TODAİE-nin hüquqi şəxsiyyəti 2018-ci il tarixli 703 saylı Fərman Qanunu ilə xitam verildiyi üçün əlaqədar layihə sona çatdı və müvafiq veb sayt istifadədən çıxarıldı.

**SOMALİ** - İlk Afrika ölkəsi Qanadan sonra Somali də vətəndaşlarına veb çıxışı təmin etdi. Somalinin üç rabitə şirkətinin - Barakat, Astel və Nationlink-in ortaq investisiyası olan Somali İnternet Şirkəti, Somalinin ilk İnternet provayderi oldu. Bununla birlikdə, İnternetə yerli telefon bağlantısı vasitəsi ilə daxil olunmasına baxmayaraq, paytaxt

Mogadişoda cəmi 25.000 sabit telefon abunəçisi var və internet xidməti 2000 abunəçini idarə edə bilir. İnternetə giriş xərcləri (ayda 20 dollar, saatda 6 dollar) də olduqca yüksəkdir (Rose, 2000).

Ölkənin bu qeyri-kafi infrastrukturu elektron hökumətin inkişafına mane olur.

**AVSTRALİYA** - dövlət xidmətlərinin inkişafına üstünlük verən və illərdir digər ölkələr tərəfindən nümunə götürülmüş bir ölkədir. Federal Hökümət 2001-ci ildə bütün xidmətləri onlayn rejimdə təqdim etmək məqsədinə çatmaq üçün hərtərəfli elektron hökumət siyasətləri yaratdı. İnternet istifadəsinin nisbətən aşağı qiyməti və effektiv marketinq siyasəti nəticəsində elektron dövlət xidmətləri ictimai sahədə sürətlə artır. Ölkə vergi, məşğulluq və müəssisələrə xidmət göstərilməsinin ən yaxşı nümunələrindən biridir. Bundan əlavə, əksər əyalət və ərazi hökumətləri bir çox onlayn rejimdə də mövcuddur. Victoria əyaləti, 1998-ci ilin noyabrında elektron satınalma metodunu tətbiq edərək xidmətlər təklif etməyə başladığından bəri 1,3 milyard Avstraliya dollarına qənaət etdi. Elektron hökumət vizyonu Rabitə, İnformasiya Texnologiyaları və İncəsənət Nazirliyi tərəfindən 2002-ci ilin noyabr ayında başladıldı. Bu vizyon, informasiya texnologiyalarından faydalanaraq ictimai xidmət təminatında və ictimaiyyətin məlumatlarına girişdə hərtərəfli və inteqrasiya edilmiş bir quruluş yaratmağı hədəfləyir.

Avstraliyadakı veb saytlar interaktiv olsa da, daha şəffafdır.

**Cədvəl 1: Ölkələrin Elektron Hökümət Vizyonları və Effektiv Hökümət-E-Hökümət əlaqələri**

| Ölkə | E-dövlət Vizyonu | Dövlət E-dövlət Münasibəti |
|---|---|---|
| ABŞ | 2003-cü ilə qədər ictimaiyyətin təşkilatlara elektron girişi | Elektron hökumət ilə hesabatlılıq və artan qənaət |
| SİNQAPUR | Onlayn xidmətlər sayəsində həyatı asanlaşdırma | Müştəri yönümlü bir elektron hökumət ilə təsirli, şəffaf və təhlükəsiz bir hökumətin yaradılması |
| FİNLANDİYA | 2005-ci ildə 1 milyon kütləyə əlçatanlıq | Elektron hökumət investisiyaları ilə dünyanın "ən şəffaf" dövləti oldu |
| AVSTRALİYA | 2001-ci ildə bütün xidmətləri onlayn rejimdə təmin etmək | Elektron tender üsulu ilə 1,3 milyard Avstraliya dollarına qənaət edildi |

## Nəticə

Elektron hökumətin formalaşmasında dövlət mexanizmini nəzərə alan və müştərisi olan vətəndaşların fikir və təkliflərini nəzərə alan və vətəndaşlarına fərqli giriş variantları təqdim edən və internetdən istifadəni təşviq edən araşdırmalar apararaq vətəndaşlarının dövlət idarəçiliyinə olan inamlarını artırmaq üçün müsbət təcrübələr başlatan dövlətlər daha uğurludurlar. Elektron dövlət anlayışını vahid bir perspektivlə e-idarəetmə çərçivəsində düşünmək böyük fayda gətirir. Pilot layihələrlə E-idarəetmə anlayışını həyata keçirən, pilot layihələrlə yerli xalqın iştirakını ön plana çəkən və xalqının fikirlərinə uyğun hərəkət edərək ortaq bir idarəetmə konsepsiyası ətrafında çox tərəfdaş bir aralığında real bir strategiya və vizion yaradan dövlətlər, informatika dünyasında lider rolunu oynayır. Elektron hökumət modeli, dövlətə dövlət xidmətlərinin göstərilməsində çəkəcəyi əlavə xərclərdən qurtaran, vətəndaşlara daha keyfiyyətli, daha sürətli, iqtisadi və daha yaxşı xidmət göstərəcəyi düşünülən və daha az xərclə daha çox iş görməyə imkan verən bir dövlət modelini müəyyənləşdirir. Nəticə etibarilə, elektron dövlətin bir cəmiyyətdə dövlətin səmərəliliyi səviyyəsində funksional rol alaraq ictimai fəaliyyətin artmasına müsbət təsir göstərə bilməsi, ölkənin səlahiyyətliləri tərəfindən informasiya və kommunikasiya texnologiyalarına verilən əhəmiyyət və onların cəmiyyətdə istifadə dərəcəsi ilə sıx bağlıdır. Elektron dövlətləşmə yalnız dövlətin sosial tələblərə cavab vermə fəaliyyətini sürətləndirməyəcək, cəmiyyəti və dövlət idarəçiliyini sağlam fəaliyyətə doğru irəlilədəcək və sosial-iqtisadi baxımdan daha güclü və daha xoşbəxt bir cəmiyyət olmağı təmin edəcəkdir.

**Açar sözlər:** *E-hökümət, Elektron bələdiyyə, e-bələdiyyə üzrə dünya təcrübəsi.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Armstrong's handbook. (2015). "Human Resources Management Practice".London: 378 p.*

*2. Barber, D. (2006). Portal Building- The implementation of an Enterprise Portal: 289 p.*

*3. Marl K.L (2014) "Local self-government". Azerbaijan, 20 p.*

*4. File:///C:/Users/User/Downloads/gosudarstvennye-programmy-kak-novyy-instrument-gosu-*

*darstvennogo-upravleniya-k-voprosu-ob-otsenke-effektivnosti.pdf*

*5. Avrupa Komisyonu, "Public Sector Information: A Key Resource for Europe, Green Paper on Public Sector Information in the Information Society (COM(1998)585)" Achievement of first e-Government Action in Government to Citizens (G2C), www.egov.gov.sg/Awardsand/Achievements/ActievementsinG2C, 16.11.2004.*

*6. Australian Government, Department of Foreign Affairs and Trade, Government Online, www.dfat.gov/au/facts/govonline.html, ET: 04.12.2004 AB'nin gündeminde e-devlet önemini koruyor, www.turk.internet.com, 19.02.2003.*

*7. VANHANEN, Matti, "Together Towards the Best Finnish in Formation Society in the World", www.teitoyteiskuntaohjelma.fi (ajankohtaista/Articles/en_GB/prime_ministrs/ ET: 15.11.2004.*

*8. Widespread interest in the information society- Prime Minister's Best Practices Award attracts plenty of entries, www.tietoyhteikuntaohjelma/ ajankohtaista/news/en_GB/senaattori/ Erişim Tarihi: 14.09.2004.*

**Бабаева Айтадж**
**Магистр Азербайджанского Государственного Экономического Университета**

## ПРИМЕНЕНИЕ ЭЛЕКТРОННОГО МУНИЦИПАЛИТЕТА В СТРАНАХ МИРА

### РЕЗЮМЕ

Страны, которые принимают во внимание государственный механизм при формировании электронного правительства и принимают во внимание мнения и предложения своих клиентов и проводят положительные исследования для повышения доверия своих граждан к государственному управлению путем проведения исследований, которые предлагают различные варианты доступа и поощряют граждане пользуются Интернетом более успешно. Очень полезно рассматривать концепцию электронного правительства в контексте электронного правительства с единственной точки зрения. Государства, которые реализуют концепцию электронного управления через пилотные проекты, уделяют первоочередное внимание участию местного населения в пилотных проектах и создают реалистичную стратегию и видение с участием многих партнеров вокруг общей концепции управления, действуя в соответствии с мнениями люди играют ведущую роль в мире информатики. Модель электронного правительства определяет модель правительства, которая устраняет дополнительные затраты на предоставление государственных услуг государству, считается, что она обеспечивает гражданам более качественные, быстрые, экономичные и более качественные услуги и позволяет выполнять больше работы с меньшими затратами. В результате способность электронного правительства играть функциональную роль в эффективности государства в обществе и оказывать положительное влияние на рост общественной активности тесно связана с тем значением, которое страна придает информационным и коммуникационным технологиям. органы власти. Электронное правительство не только ускорит реакцию государства на социальные нужды, подтолкнет общество и государственное управление к более здоровой деятельности и обеспечит более сильное и счастливое общество с социально-экономической точки зрения.

**Ключевые слова:** *электронное правительство, электронное муниципалитет, мировой опыт электронного муниципалитета.*

**Babayeva Aytac**
**Master of Azerbaijan State University of Economics**

Başqa bir İslam alimi Subki isə İmam Bağavi haqqında belə qeyd edir: "Bağavi "sünnəni dirildən", "dinin rükni" kimi bir çox ləqəblərlə ləqəblənmişdir. Dində, təfsirdə, fiqhdə, hədisdə ali dərəcəsi vardır" (5, 75).

Məşhur alim İbni Xalkan isə: "Elm sahəsində bir dəniz idi. Allah kəlamının təfsirinə dair kitab yazmış və Peyğəmbər (s) hədislərindən müşkülləri açıqlamışdır" (6, 136). İbni Kəsir "Bidayə vən-nihayə" kitabında yazır: "Zəmanəsinin böyük alimi, dindar, Allahdan qorxan, zahid, abid və saleh bir insan olub" (7, 238). Məşhur təfsir alimi Siyuti isə İmam Bağavi haqqında özünün "Tabəqatul-huffaz" əsərində deyir: "Saf niyyətli olduğu üçün Allah əsərlərini bərəkətli etmişdir. Rəbbani, zahid, aza qane olan alimlərdən idi" (8, 739).

Haqqında verilən məlumatlardan da göründüyü kimi İmam Bağavi çox sayda əsərlər yazan alimlərdən olmuşdur. Onun təfsir mövzusunda

“Məalimüt-tənzil”, hədis şərhində “Şərhüs-sünnə”, hədislər barəsində “Əl-Məsabih”, “Əl-Cəm beynəs-səhiheyn” fiqhdə “Ət-Təhzib” adlı əsərləri vardır. İbn Qadi Şuhbənin də dediyi kimi “Ət-Təhzib” əsərini şeyxi əl-Qadi Hüseynin “Ət-Təliqa” əsərindən ixtisarla qələmə almışdır. Bununla bağlı İbn Qadi Şuhbə yazır: “O, güclü bir kitabdır, tam təhrir olunub, çox hissəsində dəlilləri zikr etmir” (9, 329).

Bundan başqa Şeyxi əl-Qadi Hüseynin fətvalarını topladığı “Məcmuə minəl-fətəva” əsəri vardır. Tacuddin əs-Subkinin dediyinə əsasən onun öz fətvalarını toplayan bir əsəri də vardır. Əsərləri məşhurlaşmış və alimlər tərəfindən qəbul edilmişdir. Əz-Zəhəbi deyir: “Qəsdinin gözəlliyi və niyyətinin səmimiliyinə görə əsərlərinə bərəkət verilmiş və tam bir məqbulluq görmüşdür, alimlər o əsərləri əldə etməkdə bir-biriləri ilə yarışıblar”. Onun həmçinin içində qırx hədis topladığı bir əsəri də vardır. Şeyx Muhəmməd bin Cafər əl-Kəttəni onun həm də “Əl-Ənvar fi şəmailin-nəbiyyil-muxtar” adlı daha bir əsərini də zikr edir. Onun “Məsabih əs-sunnə” əsərini məşhur azərbaycanlı alim Şeyx Vəliyyullah Əbu Abdilləh Məhəmməd bin Abdullah əl-Xətib ət-Təbrizi ələ almış və ora hədislər əlavə etmiş, bablara ayırmış, səhabələrin adlarını qeyd etmiş, hədislərə çox yerdə hökm vermiş və hədislərin hansı əsərlərdə keçdiyini zikr etmişdir, beləliklə də tam bir əsər halına salmışdır və bu əsər “Mişkətül-məsabih” adı ilə məşhurdur (9).

Yuxarıda da qeyd olunanları nəzərə alaraq söyləyə bilərik ki, İmam Bağavi özündən sonra hədis, fiqh, təfsir və tarix mövzularında çox sayda əsər qoymuşdur. Onun günümüzdə məlum olan əsərləri isə bunlardır:

**1. “Məalimut-tənzil”.** Təfsir elminə aid bir əsərdir. Bu əsər sələfi salehinin ( Peyğəmbərimiz -sallallahu aleyhi və alihi və səlləmin dövründəkilərdən sonrakı iki nəsil yəni, sahabələr, sahabələri görənlər (tabiinlər) və sahabələri görənləri (tabiinləri) görənlər (ətbə tabiinlər) –G.İ) təfsir mövzusundakı fikirlərindən ibarətdir. Məhəmməd (s) peyğəmbər tərəfindən söylənmiş ayə açıqlamaları ilə İslamdakı hökümlərdən ibarətdir. Təfsirdə istinadı olmayan əsassız rəvayətlərə və israiliyyatla (Xristiyan və yəhudi dinlərindən islami mətnlərə sızmış məlumatlara və eyni zamanda kənar mədəniyyət və təfəkkür tərzinin nəticəsində ortalığa çıxmış “hədislər” mənasındadır –G.İ) bağlı bəzi məsələlərə toxunulmamışdır. Bu əsərlə bağlı məşhur İslam alimi İbn Teymiyyəyə sual verilərək hansı təfsir əsərinin Quran və sünnətə daha müvafiq olduğu soruşulmuş, Zəməxşəri, Qurtubi, və ya Bağavi? İbn teymiyyə cavabında: “Bidət və zəif hədislərdən ən salim olanı Bağavidir” - demişdir. Bu təfsir başqa təfsir əsərlərinə nümunə olaraq çap olunmuşdur.

Müəllif müqəddimədə əsərin yazılma səbəbini və orta həcmdə bir təfsir yazmağ məqsədini açıqlamışdır. Burada ayrıca təfsir, siyər, əxbar (hədis termininin sinonimidir–G.İ) və qiraətlə bağlı rəvayətlərin kimlərdən, hansı istinadlarla alındığı yazılmış, Quran oxumağın və öyrətməyin fəzilətləri, təfsir, təvil, və yeddi (Yeddi hərfdən qaynaqlanan ixtilaflar əsasən mənaca eyni olan kəlmələrin fərqli sözlərlə (sinonimləri ilə) əvəzlənməsi nəticəsində ortaya çıxırdı. Məsələn, “fəsav ilə zikrillah” ayəsini bəziləri “fəmdu ilə zikrillah”, “in kənət illə sayhətən vahidətən” ayəsini isə “in kənət illə zəqyatən vahidətən” şəklində oxunmasıdır –G.İ) hərf kimi mövzular haqqında məlumat verilmişdir.“Məalimut-tənzil”də açıq, asan bir üslubdan istifadə edilmişdir. Təfsirə keçməmişdən öncə surənin adı ayələrinin sayı, məkki və ya mədəni olduğu harada və hansı hadisə ilə bağlı nazil olduğu göstərilmişdir. Ayələr üzərində əvvəlcə lüğət baxımından açıqlamalar verilmiş, sonra ayənin digər ayə və hədislərlə təfsirinə keçilmiş, səhabə və tabein görüşlərindən yararlanılmış, qiraət vəchlərinin izahına geniş şəkildə yer verilmiş, sərf və nəhv (morfologiya, sintaksis –G.İ) təhlilləri aparılmışdır. Səhabə təfsirini nüzul səbəbini və nəsx kimi ( Nəsx sözünün hərfi mənası bir şeyi başqa bir şeylə dəyişdirmək, onun yerinə başqasını qoymaq deməkdir. Bir ayənin öz bənzəri, yaxud ondan daha yaxşısı ilə dəyişdirilməsidir –G.İ) sadəcə əshabın bilə bilərəyi mövzularda mərfu (Ərəbcə “rəfəa” felinin məchul növündən əmələ gəlmiş feli sifətdir və “yüksəldilmiş” mənasını ifadə edir.İstilahi mənada isə - Peyğəmbərə (s) istinad edilən kəlmə, ya hərəkət, ya təsdiq etmə, ya da sifət “mərfu” hədis adlanır. –G.İ) hədis digər mövzularda ictihad olaraq dəyərləndirən Bağavinin bəzən onların fikirlərinə muxalif olması da müşahidə olunur. İmma Bağavi “Məalimüt-tənzil” əsərində israiliyyata da yer vermiş, bunları yer-yer tənqid süzgəcindən keçirmiş və bəzilərini rədd etmişdir.İmam Bağavinin “Məalimüt-tənzil” əsəri yazıldığı zamandan bəri çox rəğbət görmüş, sonralar bir çox əsərə qaynaq olmuşdur. Bu mövzuda birinci sıranı Əli ibn Məhəmməd əl-Xazinnin “Lübabüt-təvil-fi məanit-

tənzil” əsəri almışdır (10).

**2. “Şərhüs-sünnə”**. İmam Bağavi mirasından bizə qədər gəlib çatan “sünnə” kitablarındandır. Tərtib, təftiş, sənəd, hökm və əhatə yönündən güclü bir əsərdir. Müəllifi (r.a) sünnəti-şərifin (şərəfli hədisin – G.İ) qoruyucularından, təqva sahibi, zöhd əhli ravilərin hədislərinə üstünlük vermişdir. Daha sonra bizə bunun əhatəli və geniş şərhləridə çatmışdır. Anlaşılmayan kəlmələrin təfsiri, hökmləri, bəyanı problemlərin həlli və bunlardan başqa sünnəti anlamaq, hədis, rəvayət və dirayət mövzularında daha çox faydalıdır. Adıçəkilən bu əsər muhəqqiq ustad Şuyub Arnavudi tərəfindən gözəl bir təxric ilə çap edilmişdir.

Əsərini qələmə alan İmam Bağavi özünə çatan istinadlarla əldə etdiyi və ya daha öncəki əsərlərdən topladığı hədisləri kitab və bab əsasına görə təsnif edərək bu əsəri meydana gətirmişdir. Erkən dövr hədis əsərlərindən hesab edilən “Şərhüs-sünnə”nin özünəməxsus xüsusiyyəti hədis mətnlərində başa düşülməsi çətin yerləri izah etməsi, başa düşülməyən kəlimələrin açıqlanması, hədislərdən çıxarılan hökmlərə işarə etməsi, açıqlamaların əsasən qısa və geniş əhatəli olmasıdır. Fiqh məsələlərinə görə təsnif edilən əsər 42 kitab, 1461 bab və 4321 hədis (Züheyr əş-Şəviş və Şüeyb əl Arnavudi tədqiqindəki nömrələndirməyə görə 4422 hədis) bir başqa nəzərə görə 37 kitab 1447 bab 4318 hədis ehtiva etməkdədir. Bu saya hədislərin şərhi əsnasında qeyd edilən və xüsusilədə sənədsiz olan hədislər daxil deyil (11).

**3.”Məsabih əs-sünnə”**. İmam Bağavinin ən əhəmiyyətli əsərlərindən biri heç şübhəsiz etibarlı hədis qaynaqlarından sənədləri çıxararaq seçdiyi hədislərdən ibarət “Məsabih əs-sünnədir”. Bu əsərin elm dünyasında çox böyük əhəmiyyəti vardır ki, tanınmış Avropa şərqşünası Brockelmann, Bağavinin İslam dünyasındakı şöhrətini “Məsabih əs-sünnə” adlı əsərinə borclu olduğunu ifadə etməktədir (12, 48).

Bağavi, müxtəlif qaynaqlardan toplamış olduğu hədisləri bir araya gətirməklə yazmış olduğu bu əsərin bənzərlərini hədis tarixində ibnul Əsir əl-Cəzərinin (h.606 /m.1209) “Camiul-üsul”, Nəvəvinin (h.676/m.1277) “Riyazüs-salihin” adlı əsərlərində də görürük. Katib Çələbi (1067 / 1677) “Yığma mahiyyətində yazılan əsərlərin ən gözəli Bağavinin “Məsabih” adlı əsəridir. Çünki onun tərtibi çox gözəldir. Hədislər yerli yerində yığılmışdır.Bir başqası hər hansı bir babın yerini dəyişdirməyə çalışsa Bağavidən daha uyğun bir yerə qoymazdı deyərək əsəri tərifləyir” (13, 1701-1702).

Bağavi “Məsabih əs-sünnə” əsərinə yazmış olduğu müqəddiməsində əsərini Allaha itaət edənlərə kömək etmək üçün yazdığını bildirməklə, hədislərin sənədlərini (lüğətdə dirək, dayaq və s. mənaları ifadə edir. İstilahi mənada isə - hədisin mətninə gətirib çıxaran ravilərin silsiləsinə “sənəd” deyilir –G.İ.) uzatmaqdan qoruduğu və hədis imamlarının rəvayətlərinə istinad etdiyi üçün hədislərin ilk ravilərini belə yazmadığını bildirir. Əsərində zəif hədislərə işarə etdiyini və əsərinə movdu(uydurma), münkər ( etibarsız ravinin etibarlı raviyə müxalif olaraq rəvayət etdiyi hədis “münkər” adlanır –G.İ.) hədisləri yazmadığını bildirir. “Məsabih əs-sünnənin” başda Süleymaniyyə kitabxanası olmaq üzrə dünyanın bir çox yerlərində yazılı nüsxələrinin olduğu aydındır. Bununla belə əsər bir neçə dəfə çap olunmuşdur. “Məsabih əs-sünnə” 1877-ci ildə İstanbulda, 1900 və 1935-ci illərdə isə Qahirədə çap edilmişdir (14, 235).

**4. “Təhzib”**. Bu əsər tanınmış İslam alimi İmam Şafeinin fiqhə dair fikirlərinə əsaslanaraq qələmə alınmışdır. Məlum dəlillərlə zəngin fiqh əsərlərindəndir. Şafei məzhəbinin davamçıları əsasən bu kitaba etimad edirlər, ondan faydalanırlar və nəql edərlər. Buna imam Nəvəvini misal göstərmək olar. Onun “Ravdatut-talibin” adlı kitabındakı nəqllərin çoxu buradandır.

**5. “Məcmuətül-fətəva”**. İmam Bağavinin bu əsəri Əli əl-Mərvəzinin fətvalarından ibarət fiqh kitabıdır. Əli əl-Mərvəzidən soruşulan fiqhi məsələlərə verdiyi cavablardan təşkil olunmuşdur. İmam Bağavi də bu hökmlərə tabe olmuşdur. Bağavi əsərini İmam Şafeinin ən öndər tələbələrindən olmuş, və sonralar Şafei məzhəbinin böyük fəqihlərindən birinə çevrilmiş, Əbu İbrahim İsmayıl ibn Yəhyə ibn İsmayıl əl-Müzəni əl-Misrinin ( 264/878) əl-Müxtəsər adlı kitabının tərtibi üzrə toplamışdır.

**6. “Əl-Ənvar fi şəmailil-muxtar”**. Bağavinin digər məhşur əsərlərindən olan “Əl-Ənvar fi şəmailil-muxtar” tam sənədləri ilə Rəsulullahın təvazö, gözəl əxlaq, səxavət, səbr, əmanət, vəfa və şücaət kimi ali səciyyələri haqqında oxucunu yoracaq qədər uzun, məqsədə xələl gətirəcək dərəcədə qısa olmayan qələmə aldığı nəfis bir əsəridir. Bu məhşur əsərə Hacı Xəlifə özünün “Kəşfuz-zünun” əsərində geniş yer vermişdi. İslam alimi, hədisşünas Muhəmməd ibn Cəfər ibn İdris əl-Kəttani özünün

"Ər-Risələtül-müstətrifə" adlı əsərində bu haqda yazır: "Mühəddislərin yolu üzrə tərtib edilmiş bir kitabdır"(15, 28).

**7. əl-Cəm beynəs-səhiheyn**. "əl-Cəm beynəs-səhiheyn" İmam Buxari və Müslümün öz səhih adlı əsərlərində topladıqları hədisləri bir araya gətirərək yazılan məşhur əsərdir. Bu mövzuda eyni adlı çox əsərlər yazılmışdır. Beləliklə günümüzə qədər gəlib çatmış ən məhşurları Mühəmməd bin Fətuh əbi Nəsr əl-Humeydinin,(488 h.), ibni Xarrat, Əbdülhəq bin əbdür-Rəhman İşlibi (582) və Yəhya bin Əbdül-Əziz kimi tanınmış müəlliflərin əsərlərini qeyd etmək olar. Lakin günümüzə gəlib çatmayan eyni adlı əsərlərində sayı çoxdur. Onlardan ən məhşurları Cuzqani ( 388 h.) , Əbu Məsud əd-Diməşqi (401 h.) Bərqani( 425 h.) və İmam Əl-Bağavi kimi tanınmış islam alimlərinin eyni adlı əsərlərini qeyd etmək olar. Tanınmış islam alimi Hacı Xəlifə də özünün "Kəşfuz-Zunun" əsərində İmam Bağavinin bu əsərinə işarə etmişdir (16, 9).

İslam dünyasına əsərləri ilə böyük xidmət etmiş Bağavinin yaradıcılığı çox zəngindir, lakin biz yuxarıda adlarını qeyd etdiyimiz əsərləri ilə kifayətlənirik.

**Açar sözlər:** *Bağavi, hədis, təfsir.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Şəmsuddin Muhəmməd bin Əhməd bin Osman əz-Zəhəbi "Əs-siyər liz-Zəhəbi" Müəssisətu ər-risalə, 1417\1996, c.XXIX*

*2. Əbu Abdullah Şihabəddin Yakut bin Abdullah Yakut əl-Həməvi "Mucəmul-buldan", Darul-Fikr, Beyrut, c.I*

*3. Şəmsuddin Muhəmməd bin Əhməd bin Osman əz-Zəhəbi. "Siyərül-almun-nubəla liz-Zəhəbi" Beyrut, 1996, c. XXIX*

*4. Muhəmməd bin Ali bin Əhməd, Şəmsuddin əd-Davudi əl-Maliki, "Tabəqat əl-mufəssirin". c. II.*

*5. Tacuddin Abdul-Vahab bin Təqiyiddin əs-Subki. "Tabəqat əş-şafiiyyə". h. 1413, c. X*

*6. Əl-Qadi bin Xalkan "Vafayat əl-ayan" Beyrut, c. VIII*

*7. İmadəddin bin İsmail bin Kəsir Qurayşi əd-Diməşqi "əl-Bidəyə və-nihayə" Daru aləmi əl-kutub, 1424\2003, c. XX*

*8. Abdurrahman bin əbu Bəkr, Cəlaləddin əs-Suyuti "Tabəqat əl-huffaz" Daru əl-kutubu əl-elmiyyə- Beyrut, c. I*

*9. http://www.favaid.com/index.php/sexsiyyetler/islam-alimleri/396-ebu-muhammad-al-huseyn-al-baqavi*

*10. http://filozof.net/Turkce/edebiyat/dunya-edebiyati/15163-mealimut-tenzil-tefsiri-yazari-ozel-likleri-hakkinda-bilgi.html?showall=&start=1*

*11. İslam ensiklopediyası, 2010, Cild: 38.*

*12. Sancaklı, Bağavi və Şərhu əs-sünnədəki şərh metodu*

*13. Katip Çələbi "Kəşfuz-zunun", İstanbul, 1971, c. I*

*14. Carl Brockelman "Tarixu əl-ədəbi əl-arabi" c. VI,*

*15. Muhəmməd ibn Cəfər ibn İdris əl-Huseyni əl-Kəttani "Ər-Risələtül- müstətrifə", Darul-bəşairil-isləmiyyə, 1414\1993, c.I*

*16. Muhamməd əl-Hüseyn ibn Məsud əl-Bəğavi, "Məalimut-tənzil" Darul-Marifə, Beyrut, 1407\1987 c.I*

## SUMMARY

In this article have been given opinions of the other scholars about the works, personality and the status on the science of the great İslamic sciencetifict İmam Bagavi who had an important influence on the development of the hadith science. And also have been investigated the style and the methods of the scientist's works.

**Key worlds:** *Bagavi, hadith, commentary.*

## РЕЗЮМЕ

В данной статье исследовано творчество Багави, вошедшего в историю науки о хадисах своими научными произведениями, его личность и научное творчество. А также здесь говорится о мнении других ученых. Кроме того было сделано исследование о стиле и методике научных произведений ученого.

**Ключевые слова:** *Багави, хадис, комментарий.*

UOT 316

# MƏŞĞULLUQ SOSİAL TƏHLÜKƏSİZLİYİN MÜHÜM AMİLİ KİMİ

**TUTU EYVAZOVA**
*Bakı Dövlət Universiteti, doktorant*

*E-mail: esmer-eli.4@mail.ru*

Hüquqi dövlətdə sosial siyasətin tətbiq olunduğu sahələrdən biri də və başlıca prioritet sahə məşğulluğun səmərəli və düzgün təmini sahəsidir.Tarixi dövrlərə nəzər salanda görürük ki, məşğulluğun təmini sosial təhlükəsizliyin həyata keçirilməsində vacib nüanslardandır. Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunda göstərilmişdir: Bu Qanun məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də vətəndaşların əmək sahəsində və işsizlərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edir. Məşğulluq- Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan ərazisində yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin (bundan sonra- vətəndaşların) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq onlara qazanc (gəlir) gətirən gətirən hər hansı fəaliyyətidir [8].

Məşğulluq dövlətin iqtisadi vəziyyətindən, ölkədə mövcud sülh şəraitindən, ölkə əhalisinin sıxlığından, relyefinin müxtəlifliyindən, ərazisinin iqlim şəraitindən, beynəlxalq qurumlarla əməkdaşlığından və s. məsələlərdən asılıdır. Əlbəttə, bu məsələləri daxili və xarici siyasətin düzgün istiqamətdə irəliləməsi sayəsində həll etmək mümkündür. Onu da qeyd edək ki, insanın öz həyat şəraitini yaxşılaşdırması üçün işlə təmin olunması, yəni məşğulluğu vacibdir. Əmək şəraiti və məşğulluq sosial sahənin əsas qolunu təşkil etməklə bilavasitə sosial siyasətin reallaşdığı müstəvidir.

Hər bir dövlət vətəndaşının səmərəli və sərbəst seçilmiş məşgulluğunun təmin edilməsinə köməklik göstərir. Bu baxımdan Azərbaycan Respublikasının məşğulluq haqqında qanunun 6-cı maddəsində göstərilimişdir ki, məşğulluq sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

1. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, ailə vəziyyətindən, ictimai-sosial mənşəyindən, yaşayış yerindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara əmək və məşğulluğu sərbəst seçmək hüququnun həyata keçirilməsində bərabər imkanların təmin edilməsi;
2. Vətəndaşların qanun çərçivəsində həyata keçirilən əmək və sahibkarlıq təşəbbüsünün müdafiə edilməsi, sahibkarlığın inkişaf etdirilməsi məqsədi ilə onlara köməklik göstərilməsi;
3. Əmək fəaliyyətinin və məşğulluq növünün seçilməsində vətəndaşların öz iradəsini sərbəst ifadə etməsinə şərait yaradılması;
4. İşsizlərin sosial müdafiəsinin təmin edilməsi, işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsinə köməklik göstərən xüsusi tədbirlərin görülməsi;
5. Məşğulluq sahəsində fəaliyyətin iqtisadi və sosial siyasətin digər istiqamətləri ilə əlaqələndirilməsi;
6. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün əlavə iş yerləri yaradan işəgötürənlərin həvəsləndirilməsi;
7. Məşğulluğun təmin edilməsinə yönəldilmiş tədbirlərin hazırlanmasında və həyata keçirilməsində, onların yerinə yetirilməsinə nəzarətdə Azərbaycan Respublikasının dövlət orqanlarının, həmkarlar ittifaqlarının, işəgötürənlər birliklərinin fəaliyyətinin əlaqələndirilməsi;
8. Azərbaycan Respublikası vətəndaşlarının ölkə hüdudlarından kənarda, habelə vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyəti ilə məşğul olmasına şərait yaradılması;

9. Beynəlxalq əmək normalarına riayət olunması [8].

Əhalinin məşğulluğu bilavasitə əmək bazarında ( iş qüvvəsinə olan tələb və təklifin məcmusu ) vakansiyalara kvotaları da daxil etməklə işi və qazancı olmayan, işə başlamağa hazır olub, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxslərin işlə təmin olunması prosesidir. Kvota - müvafiq icra hakimiyyəti orqanları tərəfindən işəgötürənlərə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxsləri işlə təmin etmək üçün müəyyən edilmiş iş yerlərinin (işçilərin) minimum sayıdır. İşlə təmin olunmuş şəxs artıq məşğul şəxs adlanır. Məşğul şəxslər qrupuna muzdla işləyən, o cümlədən əmək müqaviləsi (kontraktı) ilə tam və ya tam olmayan iş vaxtı ərzində haqq müqabilində iş görən, habelə haqqı ödənilən başqa işi (xidməti) olanlar; sahibkarlar, fərdi əmək fəaliyyəti ilə məşğul olanlar, mülkiyyətində torpaq payı olanlar; haqqı ödənilən vəzifəyə seçilən, təyin və ya təsdiq edilənlər əmək qabiliyyətinin müvəqqəti itirilməsi, məzuniyyət, əlavə təhsil, tətil, istehsalatın dayanması və ya başqa səbəblər ilə əlaqədar iş yerində müvəqqəti olmayanlar aiddir.

Əmək fəaliyyətinə cəlb olunma formasına görə iqtisadiyyatla məşğul olanları üç qrupa bölə bilərik:

1.muzdla işləyənlə; 2.işəgötürənlər;3.özləri məşğul olanlar. Bu qrupa öz hesabına işləyənlər, muzdlu işçi qüvvəsindən daimi əsaslarla istifadə etməyən istehsal kooperativlərinin üzvləri daxildir.

Məşğulluq statusunun beynəlxalq təsfinatına görə əhalinin məşğul hissəsinin altı qrupu fərqləndirilir:

1.Muzdla işləyənlər; 2.İşəgötürənlər; 3.Öz hesabına işləyənlər; 4.İstehsal kooperativlərinin üzvləri; 5.Ailənin yardım göstərilən üzvləri; 6.Statusuna görə təsnif olunmayanlar.

Bu təhlilə əsaslanaraq deyə bilirik ki, məşğulluğun müxtəlif təsnifatları mövcuddur. Göründüyü kimi, məşğul şəxlərin qruplara ayrılmasında və təsnifatında vahid bir prinsip yoxdur. Bu da əhalinin məşğul qruplarının elmi baxımdan dəqiqləşdirilməməsindən irəli gələn məsələdir. Tədqiqat sahəsinə belə yanaşma məşğul olanların başqa təsnif formalarının da irəli sürülməsinə imkanlar açır. Eyni zamanda, qeyd etmək lazımdır ki, belə təsnifatların hər birində əsas göstərici məşğul olanların tam dairəsinin əhatə edilməsi olmalıdır.

Əhalinin məşğulluq probleminin həllində əsasən üç prinsip rəhbər tutulur.

Başlıca və birinci prinsip ölkə qanunvetriciliyinə əsalanmaqla və ya konstitusuya ilə vətəndaşlara verilən hüquqdur. İkinci prinsip isə dövlətin Konstitusiya ilə verilən bu hüququndan istifadə üçün vətəndaşa zəruri şəraitin yaradılmasıdır. Bu isə dövlətin digər qanunverici aktı ilə təsbit olunur. Üçüncü prinsip isə məşğulluq probleminin həllinə kompleks şəkildə yanaşmadan ibarətdir. Belə ki, mövcud situasiyada dövlət məşğulluğun mərkəzləşmiş üsulunu tətbiq etmir. Məşğulluğun təmin edilməsi sistemi tədricən həyata keçirilir. Bu sitemdə əsas rolu qanunlar, məşğulluğun stimullaşdırıcı proqramları oynayır.

Məşğulluq dərəcəsi müxtəlif meyarlarla ölçülə bilər. Zaman meyarı baxımından tam zamanlı məşğulluq , natamam zamanlı məşğulluq anlayışlarını qəbul edə bilərik. Tam zamanlı məşğulluqda işçi əmək fəaliyyəti ilə məşğul olmaq üçün nəzərdə tutulan bütün iş vaxtı ərzində əmək fəaliyyətinə cəlb olunur. Natamam zamanlı məşğulluqda isə əmək fəaliyyəti üçün nəzərdə tutulan iş vaxtının bir qismində vətəndaş işə cəlb olunur.

Elmi ədəbiyyatlarda tam və səmərəli məşğulluq məsələlərinə xüsusi önəm verilir. Tam məşğulluqiqtisadi baxımdan məqsədəuyğun iş yerləri (insana özünün şəxsi maraqlarını gerçəkləşdirməyə, yüksək əmək məhsuldarlığına nail olmağa, onun ailəsinin normal dolanışığını təmin etməyə imkan verən iş yeri) və bu yerlərdə işləmək üçün təklif olunan peşə-ixtisas hazırlığına malik işçi qüvvəsi arasında tarazlıq yaranmasıdır. Lakin reallıqlara əsaslanaraq deyə bilərik ki, məşğulluğun bu formasının inkişaf etmiş ölkələrdə belə təmin edilməsi mümkün deyildir. Səmərəli məşğulluq-peşəkar əməklə məşğulluq səviyyəsi, əmək qabiliyyətli əhalinin ictimai təsərrufatda məşğulluq səviyyəsi, cəmiyyətin əmək ehtiyatlarının ictimai faydalı sahələr üzrə paylanma nisbəti, işləyənlərin iqtisadi sahələr və sektorlar üzrə rasional paylanması kimi göstəricilərlə səciyyələnir.

Elmi ədəbiyyatlarda məşğulluğun müxtəlif formaları arasında ikiqat məşğulluq anlayışına da rast gəlinir. İkiqat məşğulluq isə əmək fəaliyyəti ilə məşğul olanların təkrar əmək fəaliyyətinə cəlb olunmasıdır. Burada başlıca məqsəd məşğul şəxsin daha çox gəlir əldə etmək marağıdır. Hadi Rəcəbli özünün “Azərbaycan Respublikasının sosial müdafiə sistemi” kitabında göstərir ki, “Müasir məşğulluq mərkəzlərinin əmək bazarını tənzimləmə təcrübəsi

göstərir ki, əməyin keyfiyyətcə dəyişməsi tələbi daha sürətlə artır. Əgər 1950-ci ildə ABŞ-da ixtisaslı işçilərin sayı 50 faiz olmuşdursa, 1960-cı ildə bu 53 faiz , 1970-ci ildə isə 56 faizə çatmışdır. Hazırda isə bu göstərici son dərəcə yüksəkdir" [2.s 133].

Qərb ölkələrinin əksəriyyərində təhsilə qoyulan vəsait faydalı və rentabellidir. Belə ki, təlim-tərbiyə prosesi ilə yanaşı məşğulluq və əmək bazarının tənzimlənməsi məqsədilə iqtisadi və sosial siyasət müştərək həyata keçirilir.Yəni əmək bazarında yeni yaradılan iş yerlərinə hansı sayda və hansı ixtisasda işçi qüvvəsinə ehtiyac olması öyrənilir. Sonra bu istiqamətdə təhsilə üstünlük verilir. UNESCO-nun qərarına əsasən hər bir ölkədə yeniyetmə və gənclərə heç bir haqq ödənilmədən həm orta, həm də peşə tekniki təhsil verilməsi, müəyyən işdə çalışanlara haqq ödənilməklə öz ixtisası üzrə təkminləşmə və ya başqa ixtisas üzrə təhsil alma imkanları yaratmalıdır.

Məşğulluq sayəsində əldə olunan gəlir ailə büdcəsinin əsasını təşkil edir və ailənin sosial rifahının təmin olunmasına xərclənilir. Müasir bazar iqtisadiyyatında dövlət əmək haqqlarına birbaşa təsir edə bilmir. Çünki əmək bazarında əmək haqqı əmək bazarındakı tələb və təklifə nəzərən təklif olunur. Hökumətin rolu bazar iqtisadiyyatının inkişafı üçün münbit şəraitin yaradılması ilə məhdudlaşdırılır.

Hazırda dövlət siyasətinin başlıca istiqamətlərindən biri də ölkə əhalisinin məşğulluğunun sosial səmərililiyinin təmin edilməsinə yönələn dövlət məşğulluq siyasətinin formalaşdırılması və əmək ehtiyatlarından səmərəli istifadə edilməsidir. Göründüyü kimi, məşğulluq sosial problemdir. Bu problemin həlli ilə məşğul olmaq isə dövlət siyasətinin proritet məsələlərindən biridir. Azərbaycanda məşğulluq haqqında dövlət siyasətinin öyrənilməsi " işsizlik " və " işsizlər" anlayışının açıqlamasını tələb edir. "Məşğulluq haqqında " Azərbaycan Respublikasının qanununda göstərilir ki, işsiz vətəndaş işi və qazancı olmayan, işə başlamağa hazır olub, dövlət məşğulluq xidməti orqanlarında işaxtaran kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxsdir. Qanunvericiliyə əsasən ilk dəfə iş axtaranlar əmək fəaliiyyətinə ilk dəfə başlamaq istəyən və əvvəllər işləməyən əmək qabiliyyətli şəxslərdir.

Yaranma səbəblərinə görə işsizliyi friksion, struktur və dövri işsizlik olmaqla üç qrupa bölürlər. Friksion işsizlik-işçinin bir müəssisədən digərinə keçid prosesində müvəqqəti işsiz qalması hadisəsidir. Struktur işsizlik-müəyyən təsərrufat sahəsində müəyyən əməyə kifayət qədər tələbin olmamasıdır. Bu işsizlik forması istehlak tələbinin və konkret əməyin müəyyən növlərinə tələbatın strukturunda baş verın dəyişmələrdən doğur. Struktur işsizliyə yaxın işsizlik növü texnoloji işsizlik adlandırılır. Dövri işsizlik-əməyə olan tələbatın kifayət qədər olmamasıdır. Bu məhsul istehsalının müəyyən mərhələlərlə bağlı olmasından, habelə aşağı düşməsindən irəli gəlir.

İşsizlərin maraqları fərqli şəkildədir. Belə ki, hər bir işsiz fərqli sosial-demoqrafiq qrupun nümayəndəsi olur. Statistika göstərir ki, öz iradəsindın asılı olmayaraq, ixtisasına qismən də olsa, uyğun olan istənilən işə və hətta iş tapamaq üçün ixtisas dəyişməyə razı olan işsizlərin də sayı az deyildir. Eyni zamanda sosial müavinət və ya sosial yardımdan yararlanmaq marağında olanlar da kifayət qədərdir. Belə insanlar qanuni şəkildə heç bir dövlət və ya qeyri-dövlət təşkilatında çalışmır, rəsmən işsiz kimi qeydiyyatda olurlar. Əslində isə onların gəlirləri gizli saxlanılır. Sosial yardımın təyini məsələsi isə rəsmi məlumatlara əsaslanır.

Dövlət mövcud qanunvericiliyə əsaslanaraq və sosial tərəfdaşlıq prinsipləri nəzərə alınmaqla əmək bazarının iştirakçıları və onun subyektləri arasında balansın yaradılmasında funksiyasını icra edir. Sosial tərəfdaşlıq xidmət və istehsal sahəsində fərdi əmək müqavilələrinin və kollektiv müqavilələrin bağlanılması ilə gerçəkləşdirilir.

Sosial hüquqlar katiqoriyasına daxil olan digər sosial hüquqlar (istirahət hüququ, əməyin layiqli ödənilməsi hüququ, təhsil hüququ) kimi əmək münasibətləri və əmək fəaliyyətinin hüquqi tənzimlənməsi məsələləri sosial siyasət kontekstində nəzərdən keçirilə bilər. Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində əmək hüququ şərh olunur və həmin maddədə deyilir: "Əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs zorla işlədilə bilməz. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı

vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir. [1. s 14]

Dövrümüzdə işsizliyin azaldılması, məşğulluğun təmin olunması, işsizlərin sosial müdafiəsinin gücləndirilməsi və aztəminatlı və sosial müdafiəyə daha çox ehtiyacı olan insanlara ünvanlanmış iş yerlərinin yaradılması dövlətin sosial siyasətinin başlıca istiqamətlərindəndir. Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsi I bəndində nəzərdə tutur ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir [1.s 7]. Konstitusiyanın 35-ci maddəsinin VIII hissəsinə görə, dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlardan istifadə edir [1.s14]. Burada bir məqamı da qeyd edək ki, ictimai faydalı əmək və məşğulluq yalnız fərdi və ictimai rifahın, maddi cəhətdən təmin olunmağın əsası deyil, o, həm də şəxsiyyətin kamilləşməsidir, insanı hüquqpozma-lardan və pis vərdişlərdən qoruyan sosial hadisədir, insanın mənəvi ehtiyacıdır.

Sözügedən sahə ilə bilavasitə bağlı olan "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu 2001-ci iyulun 2-də qəbul olunmuşdur, məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilatı əsaslarını, eləcə də vətəndaşların əmək sahəsində, və işsizlərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edir. Qanun 5 fəsildən və 30 maddədən ibarətdir.

Məşğulluqla bağlı dövlət siyasəti əsasən aşağıdakıları nəzərdə tutur:

- İşlə təminatda vasitəçiliyi. İşsiz və işaxtaran vətəndaşlara məşğulluq xidməti orqanının vasitəçiliyi ilə münasib işin seçilməsinə və işədüzəlməyə kömək göstərilməsini;
- İşçilərə ixtisası dəyişmə ilə bağlı köməyi;
- İşi müvəqqəti itirməklə bağlı müavinət almağı;
- İşdən çıxarmanı məhdudlaşdırmağı və işdən çıxarma üzərində nəzarəti və s.;
- Vətəndaşların qanun çərçivəsində həyata keçirilən əmək və sahibkarlıq təşəbbüsünün müdafiə edilməsi və sahibkarlığın inkişaf etdirilməsi məqsədi ilə onlara kömək göstərilməsini;
- İşə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsinə kömək göstərən xüsusi tədbirlərin görülməsini;
- İşsizlərin sosial müdafiəsinin təmin edilməsini;
- Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvotanın müəyyən edilməsini;
- Beynəlxalq əmək normalarına riayət olunmasını.[8]

Beləliklə, cəmiyyətin iqtisadi yüksəlişi bura həm də daxildir məşğul əhali sayının yüksəldilməsi və iqtisadi durumun qənaətbəxş olması sosial siyasətin düzgün məcardan inkişafı və səmərli tətbiqidir.

## NƏTİCƏ

Sosial siyasət həm də insanlar arasında mədəni münasibətlərin inkişafına və bu münasibətlərin lokal səviyyədə reallaşmasına kömək edir. Bu isə öz növbəsind insanın optimal inkişafı və onun yaradıcı xüsusiyyətlərinin inkişafına əzmin yaradır. Struktur dəyişikliklər isə məşğulluğun getdikcə artmasını, sənayeləşməni, urbanizasiyanı, sənaye və iqtisadi cəhətdən geri qalmış regionların inkişafını, kənd təsərrüfatının yeni texnika və üslublarla müasirləşdirilməsini v s. nəzərdə tutur. Respublikada sosial-iqtisadi sferadakı tərəqqi həyat səviyyəsinin yüksəldilməsi ilə nəticələnir. Həyat səviyyəsinin yüksək olması isə tələbatların daha artıqlaması ilə ödənilmsi mənasını ifadə edir. Deməli sosial siyasət vacibliyi məqbul olan sahədə dəyişiklik etmklə yanaşı, həm də mövcud yeni imkanlardan yararlanmaqdır. Məşğulluq isə sosial siyasətdə vacib istiqamət olaraq qalmaqdadır. Nəhayət bel nəticəyə gəlirik ki, sosial siyasətin uğurlu həyata keçirilməsi bir nüansda əhalinin məşğulluğunun təmini ilə bağlıdır.

**Açar sözlər:** *əmək bazarı, müvəqqəti məşğulluq, özünü məşğulluq, ilk dəfə iş axtaran, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhali, kvota və s.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasının Konsitusiyası. Rəsmi nəşr. Azərbaycan dilində. Bakı: Qanun, 2009, 67s*

*2. Rəcəbli H.M Azərbaycan Respublikasının so-sial müdafiə sistemi. Ali məktəblər üşün dərs vəsaiti.*

*Bakı :"MBM", 2012, 408s.*

*3. http://www.president.az/articles/22373 1 saylı "ASAN kommunal" Mərkəzinin açılışında İlham Əliyevin nitqi 28 dekabr 2016*

*4. http://www.qafqazinfo.az/qafqaz-7/herbi islahatlar baximindan Azerbaycanin mehdudiyyetleri var*

*5. https://az.wikipedia.org/wiki/Milli_Onkologiya*

*6. Дзлиев М.И., Романович А.Л., Урсул А.Д. Проблемы безопасности: теоретико-методологический аспекты. М.:МГУК: Изд. Дом «Друг», 2001.191с*

*7. http://www.azerbaijan-news.az "Sosial müdafiə sisteminin modernləşdirilməsi" 8 may 2015 –ci il, Səlim Müslümov Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri, iqtisad elmləri doktoru, professor 08 May 2015*

*8. Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunu Bakı şəhəri,2 iyul 2001-ci il №170-IIQ*

**Туту Ейвазова**

**Занятость как важный фактор социальной защищенности**

**РЕЗЮМЕ**

Отчет посвящен проблеме занятости, которая является одной из социальных проблем современности. Существуют проблемы в процессе обеспечения занятости не только в Азербайджане, но и во всем мире. Сегодня все развитые страны пытаются решить эту проблему. Это приоритет успешной политики государства. В статье подчеркивается особое внимание, уделяемое азербайджанским государством этой сфере.

**Ключевые слова:** *рынок труда, временная занятость, само занятость, впервые ищущие работу, трудоспособное население трудоспособного возраста, квоты и др.*

**Tutu Eyvazova**

**Employment as an important factor of social security**

**SUMMARY**

The report is devoted to the problem of employment, which is one of the social problems of today. There are problems in the process of providing employment not only in Azerbaijan but in the whole world. Today, all developed countries are trying to solve this problem. This is a priority of the successful policy of the state. The article emphasizes the special attention paid by the Azerbaijani state to this area.

**Keywords:** *labor market, temporary employment, self-employment, first-time job seekers, able-bodied population of working age, quotas*

UOT 316

# CƏZA ÇƏKMƏKDƏN AZAD OLUNMUŞ ŞƏXSLƏRİN SOSİAL ADAPTASİYASINDA İCMA İŞTİRAKÇILIĞININ ROLU

**AYŞƏM BALAYEVA**
*Bakı Dövlət Universitetinin “Sosial problemlər” ixtisası üzrə doktorantı*

*E-mail: ayshembalayeva@gmail.com*

**Giriş**

İcma - eyni ərazidə yaşayan, eyni ehtiyatları paylaşan, bir-birilərindən və yaşadıqları ərazidən sosial və psixoloji baxımdan asılı olan insanlar birliyidir. Ərazi, problem və resursların ortaq olması, ümumi məqsəd, birlik, kollektivçilik, xidmətlərdən bərabər istifadə icmanın əsas əlamətləridir. İcma daxilində həyat keyfiyyətinin yüksəldilməsi əsasən icmanın daxili resurslarından istifadə olunmaqla həyata keçirilir.

İcma iştirakçılığı proqramlarının effektiv olması həm də hüquqi sənədlərin tələblərinin nəzərə alınması ilə bağlıdır. Yerli qurumlar sakinləri icma məsələləri ilə bağlı qərar qəbulu (yol və su çəkilişi, bələdiyyə seçkiləri, torpaq sahələrindən istifadə və s.) prosesinə də cəlb edirlər. Lakin icma dəyərlərinə uyğun gəlməyən məsələlərin həllində sakinlər əsasən maraqlı olmurlar. Belə ki, icma sakini keçmiş məhkumluğu olan şəxslə münasibəti, onu işlə təmin etməyi dəyərlərinə uyğun hesab etməyə və ya onu təhlükəli hesab edə bilər. Halbuki, bu cür stereotiplər təkrar məhkumluğa gətirib çıxaran amildir. Bu cür halların qarşısını almaq üçün icma sakinləri maarifləndirilə bilər.

**Nəzəri baxış.** İcma əsaslı müdaxilə əsrlərdir istifadə edilən başlıca metodlardandır. Bu yanaşma ilk dəfə 1887-ci ildə Amerika Birləşmiş Ştatlarında (Nyu Yorkda) formalaşmağa başladı və 1965-ci ildə qəbul edilmiş “Federal Məhkumun Reabilitasiyası” qanununa və Prezidentin Ədliyyə Komissiyasının formalaşmasına töhfə verdi. 1967-ci il ABŞ-ın dövlət hesabatında bəyan edildi ki, cinayətlərdə cinayətkarla yanaşı cəmiyyətin də təsiri var. Cinayət törətmiş şəxslərin cəmiyyətə adaptasiyasının birtərəfli proses olmaması fikri bir çox ərazilərdə qəbul edildi. Bildirildi ki, cəza çəkməkdən azad olunan şəxslərin cəmiyyətə adaptasiyası prosesində cəmiyyət üzvlərinin aktiv iştirakçılığı olduqca zəruridir [4, p.302 ].

Kriminoloji davranışları nəzərdən keçirən mütəxəssislər bildirirlər ki, cinayətlərin qarşısının alınması istiqamətində tədbirlər lazımi səviyyədə olmadıqda (xüsusilə cəza çəkməkdən azad olunanların adaptasiyası ilə bağlı) cəmiyyətin sabitliyi pozulur. Cəza çəkməkdən azad olunanların uğurlu reabilitasiya və reinteqrasiyası bütün maraqlı tərəflərin prosesdə iştirakına imkan yaradıldığı təqdirdə mümkün ola bilər. Bu səbəbdən cəmiyyət üzvləri reabilitasiya prosesinin təşkili və gücləndirilməsində iştirak etməlidir [1, p.293–344.].

Dost və ailə mühiti pozitiv və ya deviant davranışları formalaşdıran əsas amillərdəndir. Lab və Sampson qeyd edirlər ki, ailə üzvləri ilə əlaqə insanların cinayətlərdən uzaqlaşmasında müsbət rol oynaya bilər. Bir çox mütəxəssis ailə və dostlar mühitindən gələn dəstəyin cinayətlərin təkrar törədilməməsi baxımından müsbət təsirə malik olduğu fikrini irəli sürürlər. Əgər dostlar mühiti cəmiyyətdə qoyulan qayda və qanunlara uyğun hərəkət edirsə, fərd davranışını əsasən buna müvafiq olaraq nizamlayacaqdır. Hətta, fərd könüllü dəyişikliyə maraqlı olmasa da həmin insanların təhriki ilə dəyişə bilər. Lakin həmin dövrdə fərd cəmiyyət və ailə üzvləri tərəfindən qəbul edilmirsə, asanlıqla narkotik istifadə edən və digər deviant davranışları olan insanların təsirinə düşəcəkdir [2, p. 57–82].

Təbii ki, cəmiyyətin dəstəyi ilə yanaşı cəza çəkməkdən azad olunan şəxslərin də adaptasiyaya maraqlı olması zəruri amildir. Məhkumluq yaşamış

insanların bir qismi buna nail olsa da bəziləri obyektiv və ya subyektiv səbəblərdən uğursuz nəticə əldə edir. Bu şəxslər (xüsusilə qadınlar) ailə üzvləri və dostları tərəfindən qəbul edilməyəcəklərini, məşğulluq və mənzil imkanlarından məhrum olacaqlarını düşünürlər. Bu isə onlarda müsbət dəyişikliyə inamsızlıq yaradır [7].

Ümumiyyətlə, məşğulluq vəziyyəti fərdin davranışını stimullaşdırmaq baxımından mühüm rol oynayır. Nəticədə tənha və işsiz olanların cinayətə meyillilik ehtimalı daha yüksək olur [8].

İşsizlik göstəricilərinin keçmiş məhkumlar arasında yüksək olması isə müxtəlif amillərlə izah edilir. Qeyd edək ki, məhkum olunmuş şəxslərin bir çoxunda təhsil səviyyəsinin aşağı olması, iş təcrübəsinin olmaması, sağlamlıq problemi, motivasiya yetərsizliyi müşahidə olunduğu üçün bunu sadəcə ayrı-seçkiliklə əlaqələndirmək olmur. Bəzi araşdırmalar isə göstərdi ki, fərdin məhkumluq tarixçəsi onun əmək bazarında ayrı-seçkiliklə qarşılaşmasına gətirib çıxarır [5].

Cəza çəkməkdən azad olunan insanların bu cür problemlər yaşaması əsasən icma iştirakçılığının zəif inkişafı ilə bağlı olur. Beləliklə, cəza çəkməkdən azad olunan insanların sosial adaptasiyasının uğurlu olması üçün həm icma üzvləri, həm də məhkumluq yaşamış şəxslər prosesdə aktiv iştirak etməlidirlər. İcmanın düzgün müəyyən edilməsi (icmanın strukturu, iqtisadi imkanları, üzvlərin demoqrafik xüsusiyyətləri, icmada dəyər və normaların mövcudluğu və təsir imkanları, neqativ hallar və s.) icma iştirakçılığının müsbət effekt verməsində mühüm rol oynayır [3, p. 1-19].

Həyata keçirilən adaptasiya proqramları bir qrup məhkum üçün effektiv olmaya bilər. Belə ki, bəzi məhkumlar (terrorist, pedofil, qətl törədənlər və s.) var ki, onların cəmiyyətə hansı formada adaptasiya olunması istiqamətində konkret yanaşma mövcud deyil. Reabilitasiya peşəkar səviyyədə aparılsa da extremistlərin cəmiyyətə adaptasiyası obyektiv və subyektiv səbəblərdən asılı olaraq əsasən mümkün olmur. Qeyd edək ki, estremist məhkumların cəmiyyətə adaptasiyası zamanı risk faktorunun müəyyən edilməsi olduqca vacibdir. Bu səbəbdən ekstremist davranışlara gətirib çıxaran amillər müəyyən edilməli, eləcə də şəxsin məhkumluq tarixçəsi, sosial-psixoloji vəziyyəti, ailə vəziyyəti, əvvəllər yaşadığı zorakılıq halları və s. vacib məqamlar nəzərdən keçirilməlidir. Daha sonra keçmiş məhkum icma üzvləri tərəfindən qəbul edilərsə (icma üzvlərinin təhlükəsizliyi nəzərə alınaraq) uğurlu adaptasiyaya nail olmaq imkanı yarana bilər [6, p.1-13].

Beləliklə, məhkumların cəmiyyətə adaptasiyası sadəcə müəyyən şərtlər daxilində mümkün ola bilər. Bu proses məhkumun fərdi sosial, psixoloji xüsusiyyətləri, məhkumluq vəziyyəti, eləcə də icma üzvlərinin aktiv iştirakından birbaşa asılıdır.

### İcma iştirakçılığının cəzaçəkmə müəssisələrindən azad olunanların cəmiyyətə adaptasiyasında rolunun müəyyən edilməsinə yönələn tədqiqat nəticələrinin təhlili

**Metodolodiya.** Sorğu Bakı, Abşeron və digər 7 iqtisadi rayonu əhatə etməklə 279 nəfər arasında keçirilmişdir. Mövcud pandemiya şəraitində sorğu onlayn formada keçirilmişdir. Sorğuda təsadüfi üsulla seçilmiş 279 respondent iştirak edib. Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyası çərçivəsində anket sorğusundan istifadə edilib. Karantin rejiminin məhdudiyyətlərini və sorğuda iştirak edən tərəflərin sağlamlığını nəzərə alaraq, onlayn sorğu üsulu tətbiq olunub. Bütün sorğularda anonimlik ciddi şəkildə təmin edilib. Respondentlərin cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunub.

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə birbaşa bazada toplanan məlumatlar SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib.

Seçmənin ölçüsü əsasında statistik xəta əmsalı 5.8%, əminlik dərəcəsi 95.0%-dir.

**İcmanın təsviri.** Respondentlərin yaşadıqları əraziləri təsvir etməsi həmin icmalarda sosial, iqtisadi, mədəni mühitin, eləcə də qanun pozuntularına şərait yaradan amillərin müəyyən edilməsinə imkan yaradır. Beləliklə, sorğuda iştirak edən respondentlərin böyük əksəriyyətini (61.4%) şəhər sakinləri təşkil edir. Respondentlərin yaşadıqları icmalarda qadın və kişilərin nisbəti (68.2%) bir-birinə olduqca yaxınlıq təşkil edir. Eyni nəticələr respondentlərin cins, yaş, təhsil, məşğuliyyət, ailə vəziyyəti, iqtisadi rayon kimi demoqrafik göstəricilərinin hər biri üzrə də müşahidə olunur. Lakin 11.9% respondentin yaşadığı ərazidə qadınlar və 19.9%-in yaşadığı yerdə isə kişilərin sayı üstünlük təşkil edir. Sorğuda iştirak edənlərin 55.6%-nin yaşadıqları icmalarda orta yaşlılar, 30.2%-in

yaşadığı icmalarda isə gənclərin üstünlüyü müşahidə olunur. Həmçinin, icmalarda insan sıxlığı da orta və çox olaraq qiymətləndirilir. Belə ki, respondentlərin 44.6%-i yaşadığı icmada müəyyən qədər insanın, 43.8%-i çox insanın yaşadığını qeyd edir.

Sorğuda iştirak edənlərin demoqrafik göstəricilərinə diqqət etdikdə qadınlar (72.9%), gənclər (53.3%) və ali təhsilli (79.5%) insanlara daha çox rast gəlinir.

**İcma iştirakçılığı.** Tədqiqat nəticəsində müəyyən olundu ki, qadın respondentlərin maraq dairələri kişi respondentlərə nisbətdə daha genişdir. Xüsusilə də kişi respondentlər fərdi ehtiyacları ilə bağlı məsələlərə maraq göstərdikləri halda qadınlar ailə və ətrafdakı insanların qayğıları ilə məşğul olmağı da maraq dairələrinə aid edirlər. Ümumilikdə isə cins, yaş, təhsil səviyyəsi və s. asılı olmayaraq kitab oxumağa daha çox maraq olduğu müəyyən olundu.

İcma işlərində iştirak edə bilməyən 30.8% respondent bunu müxtəlif amillərlə əlaqələndirir. Onların 8.6%-i ailə qayğıları, 7.5%-i məlumatı olmadığı, 7.5%-i marağı olmadığı üçün bu qrup fəaliyyətlərdə iştirak edə bilmədiyini bildirib. Sosial münasibətlərə daxil olmaq isə fərdin sosial, mənəvi inkişafına imkanı yaradır.

Respondentlərin icma daxilində işsizlik, daha sonra isə yol probleminin (bütün demoqrafik göstəricilərə müvafiq olaraq) həllinə ehtiyac duyduqları ifadə olunur. Ümumilikdə, respondentlərin 47.3%-i işsizlik, 28.7%-i yol probleminin həllinə ehtiyac olduğunu bildirirlər. Problemin həll edilməməsini respondentlər müvafiq qurumların maraqlı olmaması və nəzarətin zəif olması ilə əlaqələndirirlər. Respondentlərin 49.1%-i “problemin həllində müvafiq qurumlar maraqlı olmadığı üçün”, 57.9%-i “nəzarətin zəif olması səbəbindən” cavabını seçiblər. Respondentlərin 58.4%-i problemin həllinin olmamasının özləri və ailələri üçün təhlükə yaradacağını, 21.1%-i yaşadığı ərazinin nüfuzunun aşağı düşəcəyini, 25.3%-i isə övladları ilə bağlı narahatlıqlarını ifadə edirlər. Nəticələr onu göstərir ki, bir çox icmalarda hüquq pozuntularına səbəb ola biləcək sosial problemlər müşahidə olunur. İcmalarda problemə dəstək verəcək fərdi amillərə (psixoloji, mədəni) rast gəlindiyi təqdirdə isə hüquq pozuntularının müşahidəsi labüd ola bilər.

İcmada cinayət işi olduqda həmin insanın icmadan uzaqlaşdırılmasını qeyd edənlər 30.9%, icmaya hüquq-mühafizə orqanlarının nəzarətinin artırılmasını qeyd edənlər isə 64.0% təşkil edir. Bununla bərabər, respondentlərin əksər hissəsi (“icmada cinayət” mövzusu ilə bağlı suallara cavab verdikdə) cəzaçəkmiş insanların cəmiyyətə reinteqrasiyasını dəstəklədiklərini qeyd edirlər. Bu isə baxışlarda ziddiyyət olduğunu göstərir. Cəzaçəkmiş insanların düzgün reabilitasiya və reinteqrasiyasının olmaması isə təkrar cinayətlərə və sosial təcridə gətirib çıxara bilər.

Sorğuya cəlb olunan respondentlər yaşadıqları icmadakı əsas gəlir mənbələri sırasında müəyyən müəssisə və təşkilatda fəaliyyət göstərmək (60.1%), pensiya və təqaüd (50.7%) və fərdi biznes (42.0%) üstünlük təşkil. Bununla bərabər, respondentlərin 23.6%-i “çox insan işsiz olduğundan necə yaşadıqlarını bilmirəm” cavabını qeyd edib. Bu cür vəziyyət isə həmin sakinlərin gəlir mənbələri və fəaliyyətləri ilə bağlı sual yaradır.

**İcmada cinayət.** Respondentlərin böyük əksəriyyəti özünü icmada ya əsasən (64.1%), ya da çox (32.2%) təhlükəsiz hesab etdiklərini qeyd edirlər. Bununla bərabər, 3.6% respondent yaşadığı icmada özünü əsasən təhlükədə hiss edir. İcma daxilində özünü təhlükəsiz hiss edən respondentlər bunu bir çox amillərlə izah edir. Ümumilikdə isə ailənin yanında olaraq dəstək olması, icmadaxili və digər ərazilərdə saatdan asılı olmayaraq sərbəst hərəkətin mümkün olması, resurs və xidmətlərin əlçatanlığı, kamera və mühafizə sistemlərinin mövcudluğu, təhlükə yaradacaq insanların olmaması, qanunla hüquqların qorunması kimi halların olması daha çox qeyd olundu. Bəziləri isə təhlükəsizliyini başqalarına zərər verməməsi ilə əlaqələndirir.

Özünü təhlükədə hiss etdiyini bildirən 3.6% respondent isə təhlükəni fərdi (və ya ailə üzvləri) və mühitlə əlaqələndirirlər. Fərdi amillərlə izah edənlər daha çox yaşadıqları neqativ təcrübə ilə bunu əsaslandırırlar. Mühit amili ilə izah edənlər isə ətrafda narkotik istifadəsi, oğurluq və digər təhlükə yaradacaq insanların çox olması ilə izah edirlər.

Yaşadığı ərazidə heç vaxt qanun pozuntusu baş vermədiyini ifadə edən respondentlər 33.8% təşkil edir. Qanun pozuntusu olduğunu ifadə edənlərin əksəriyyəti isə bunun uzun müddət əvvəl baş verdiyini qeyd edirlər.

Bunu həm də onunla izah etmək olar ki, qanun pozuntuları əsasən kişilər tərəfindən törədildiyi

üçün icmanın kişi sakinləri bununla bağlı daha çox məlumat əldə edir. Eyni nəticə yaş və təhsil amili üzrə də müşahidə olunur. Beləliklə, sosial aktivliyi daha zəif olan insanlar daha gec məlumat əldə edirlər.

Qanun pozuntularının böyük ərazilərdə baş verməsi daha çox müşahidə olunur. Qanun pozuntusunun bir il əvvəl baş verdiyini qeyd edən respondentlərin 76.9%-i bunun Bakı şəhərində olduğunu bildirirlər. Ümumiyyətlə isə baş vermə tarixindən asılı olmayaraq Bakı şəhəri daha çox qanun pozuntusunun olduğu ərazi olaraq qeyd olunur. Abşeron və Aran iqtisadi rayonları qanun pozuntularının daha çox rast gəlindiyi digər ərazilərdir.

Sorğuda iştirak edənlərin 66.2%-i yaşadığı ərazidə (tarixdən asılı olmayaraq) qanun pozuntularının baş verdiyini qeyd etsə də sadəcə 3.6% respondent özünü təhlükədə hesab edir. Bu isə bir neçə amillə izah oluna bilər:

- sorğuda iştirak edənlərin bir qisminin təhlükəsizlik anlayışını sadəcə həyati təhlükə ilə əlaqələndirməsi;
- baş verən qanun pozuntusunun üzərindən uzun müddət keçərək unudulması;
- icmadakı qanun pozuntusunun başqaları üçün təhlükə yaratmasına baxmayaraq ona neqativ təsir etməyəcəyini düşünməsi.

Halbuki icma daxilində vergidən yayınma halı ilə bağlı baş verən qanun pozuntusunun da birbaşa dövlət, dolayısı ilə vətəndaşlar üçün neqativ təsirləri olur. Eyni zamanda icma daxilində hadisənin (məs. oğurluq) baş verməsi fərd üçün neqativ iqtisadi təsirə malik olmasa da psixoloji təsirlər ola bilər. Bu baxımdan icma daxilində baş verən istənilən qanun pozuntusu bütün sakinlər üçün sosial, iqtisadi, psixoloji və s. formada təhlükə yaratdığını qeyd etmək olar.

Qanun pozuntusunun baş verdiyini deyən respondentlər (66.2%) onun növü, qanun pozuntusu edənlərin yaşı, cinsi, yaşadıqları ərazi ilə bağlı bənzər fikirlər ifadə etdi. Belə ki, icmada müşahidə olunan qanun pozuntuları sırasında oğurluq (46.9%), zorakılıq (20.1%) halları, narkotik istifadəsi /alveri (16.8%) və adam öldürülməsi (8.4%) halları daha çox qeyd edilir (şəkil 1). Sorğu nəticələri göstərdi ki, baş verən qanun pozuntularının növləri ilə bağlı qadınların məlumatlılıq səviyyəsi daha yüksəkdir. Lakin narkotik istifadəsi (alveri) ilə bağlı qanun pozuntuları barəsində kişilər qadınlarla müqayisədə daha çox (müvafiq olaraq kişi respondentlərin 26.9%-i, qadın respondetlərin 12.7%-i) məlumatlıdır. Oğurluqla bağlı qanun pozuntuları daha çox qeyd edilir. Qanun pozuntularının bütün növləri barəsində subay insanlar evli olanlarla müqayisədə daha çox məlumatlıdırlar. Əksər qanun pozuntuları Bakı şəhəri üzrə daha çox müşahidə olunsa da oğurluqla bağlı Gəncə-Qazax iqtisadi rayonunda yaşayan respondentlər (61.1%), adam öldürülməsi ilə bağlı Dağlıq Şirvanda yaşayan respondentlər (16.7%), qaçaqmalçılıq və insan alveri ilə bağlı Quba-Xaçmaz iqtisadi rayonunda yaşayan respondentlər (25.0%), narkotik alveri ilə bağlı Lənkəran (50.0%) və Dağlıq Şirvanda yaşayan respondentlər (50.0%-i), döyülmə və zorakılıq halları ilə bağlı Abşeron (40.9%-i) və Şəki-Zaqatalada yaşayan (42.9%-i) respondentlərin böyük qismi cavab verir. Nəticələrdən də aydın olur ki, mühit faktoru qanun pozuntularının baş verməsində mühüm rol oynayır. Məsələn, Quba-Xaçmaz iqtisadi rayonunun sərhəd ərazi olması qaçaqmalçılıq və insan alveri kimi cinayətlərin baş verməsi üçün tranzit məntəqə (bəzən isə mənşə və təyinat) rolunu oynayır.




**Şək. 1. Respondentlərin icmada baş verən qanun pozuntularının növü barəsində məlumatlılığı**

Qanun pozuntusu törədənlərin böyük əksəriyyətini kişilər (96.8%) təşkil edir. Qanun pozuntusunun baş verdiyini qeyd edən qadın respondentlərin 96.6%-i, kişi respondentlərin isə 97.8%-i baş verən qanun pozuntularının kişilər tərəfindən törədildiyini qeyd edir.

Gənc və orta yaşlılar arasında cinayət halları daha

çox müşahidə olunur. Belə ki, icmada qanun pozuntusu olduğunu qeyd edənlər 26-33 yaş arası 36.7%, 34-41 yaş arası 25.3%, 18-25 yaş arası insanların cinayət törətdiyini deyən respondentlər isə 17.3% təşkil edir. Bununla bərabər uşaqlar tərəfindən qanun pozuntularına yol verildiyi də müəyyən olunur. Qanun pozuntularının 14 yaşına qədər uşaqlar tərəfindən törədildiyini qeyd edənlər 1.3%, 14-17 yaş arası uşaqlar tərəfindən törədildiyini qeyd edənlər 2.7% təşkil edib.

Qanun pozuntusu edənlərin yaşadığı ərazini qeyd edən respondentlərin 28.3%-i onların yaşadığı icmadan, 39%-i yaşadıqları icmaya yaxın ərazidən olduğunu bildirib. Respondentlərin 32.7%-i qanun pozuntusu edənin tamam fərqli ərazidən olduğunu qeyd edir.

Respondentlər qanun pozuntusu edən şəxslərin məsuliyyətə cəlb olunduğunu (41.2%) və ya bu haqda məlumatları olmadığını (46.5%) daha çox qeyd edirlər. Lakin qanun pozuntusu törədənlər arasında məsuliyyətə cəlb olunmayanların da olduğunu bildirənlərə (12.4%) rast gəlinir. Qanun pozuntusu edənlərin məsuliyyətə cəlb edilməsi ilə bağlı kişi respondentlər daha çox məlumatlıdırlar. Belə ki, onların 55.1%-i “bəli” cavabını qeyd etdiyi halda, qadınların 51.7%-i bu barədə məlumatı olmadıqlarını qeyd edirlər.

Respondentlərin 95.9%-i cinayət törətmiş insanların cəmiyyətə qazandırılmasının vacibliyini (şəkil 2) qeyd etsə də 56.7% “heç bir yaxınlıq qurmaram lakin münasibət qurana hörmətlə yanaşaram”, 24.4% “təhlükə yarada biləcəyi üçün münasibət yaratmaram, münasibət qurana da müsbət yanaşmaram” cavabını verib. Bu cür ziddiyyətin müşahidə olunması müəyyən səbəblərdən ortaya çıxa bilər. Belə ki, insanlar daha çox cəzaçəkmiş şəxslərin onlar üçün təhlükə və başqa problemlər yaradacağından ehtiyat edərək uzaq olmağa çalışırlar. Cəzaçəkmiş insanlarla eyni qurumda çalışmağa müsbət yanaşanlar 10.4%, eyni ərazidə yaşamağı müsbət qarşılayanlar isə 5.6% təşkil edir. Respondentlərdən yalnız 8 nəfər cəzaçəkmiş insanlarla olduqca yaxın münasibət qurmağın tərəfdarıdırlar. Yəni “dostluq münasibəti quraram” deyənlər 2.6%, “ailə üzvlərimlə əlaqə qurmasına müsbət yanaşaram” sadəcə 0.4% və ya başqa sözlə bir nəfər olub. Bu münasibətin azlıq təşkil etməsi isə cəzaçəkmiş insanların cəmiyyətə adaptasiyasına mane olan amildir. Nisbətən gənc respondentlər yaşlılarla müqayisədə cəzaçəkmiş insanlarla münasibətə nisbətən tolerant yanaşır. Belə ki, ailə üzvləri ilə münasibətə, eləcə də özünün dostluq münasibəti qurmasına müsbət yanaşanların əksəriyyəti subay, gənc və ali təhsilli (əsasən tələbələr) respondentlərdir. Bu cür münasibətin formalaşması onu göstərir ki, cəzaçəkmiş insanların cəmiyyətə reinteqrasiyası ilə bağlı münasibət müsbət istiqamətdə dəyişməkdədir.




**Şək. 2. Məhkum olunmuş insanların cəmiyyətə adaptasiyasına məhkumların münasibəti**

Cəzaçəkmiş insanların cəmiyyətə qazandırılmasının lazım olduğunu qeyd edən respondentlər bunu ayrı-ayrı amillərlə əlaqələndirirlər. Ümumilikdə daha çox cinayətin növü, törədilmə şəkli (affekt vəziyyətində olmaq və s.), bu cür əməllərdən uzaqlaşma meyli, günahsız olma ehtimalı kimi səbəblərin nəzərə alınması ilə cəzaçəkmiş insanın cəmiyyətə qazandırılması dəstəklənir. Xüsusi ağır cinayət törədənlərin cəmiyyətə qazandırılması respondentlər arasında müsbət qarşılanmır. Respondentlərin bir hissəsi səbəbindən asılı olmayaraq cəzaçəkmiş insanların reinteqrasiyasını dəstəkləyir. Cəzaçəkmiş insanların cəmiyyətə adaptasiyasına neqativ yanaşanlar isə bunu həmin şəxsin dəyişməyəcəyi ilə əsaslandırırlar.

## Nəticə

Cəzaçəkmiş insanların cəmiyyətə yenidən qazandırılması yalnız cinayətlərin qarşısının alınması deyil, həm də həmin insanların sosiallaşmasında mühüm rol oynayır. Bu səbəbdən ölkələr hüquqi və praktik istiqamətdə bir çox tədbirlər həyata keçirir. Fəaliyyətin daha mütəşəkkil və mövcud vəziyyətə uyğun şəkildə

həyata keçirilməsi, eləcə də effektiv olması üçün tədqiqatların həyata keçirilməsinə daha çox ehtiyac duyulur.

Bu məqsədlə həyata keçirilən tədqiqat nəticələri göstərdi ki, cəzaçəkmiş insanların cəmiyyətə adaptasiya olunmasında mühit amili mühüm rol oynayır. Lakin icma üzvləri cəzaçəkmiş insanların cəmiyyətə adaptasiyasını dəstəkləsələr də özləri və yaxınlarının həmin şəxslərlə əlaqəsini müsbət qarşılamırlar. Bu isə cəzaçəkmiş insanların ayrı-seçkiliyə məruz qalmalarına gətirib çıxaran amildir. Lakin daha gənc və ali təhsilli respondentlərin nisbətən tolerant yanaşma nümayiş etdirmələri bu istiqamətdə pozitiv dəyişikliklərin olduğunu ifadə edir. Ümumilikdə, cəzaçəkmiş insanların cəmiyyətdəki resurs və xidmətlərdən faydalanmaları və normal həyat tərzinə qayıtmaları üçün qanunvericilikdə dəyişiklərin edilməsi ilə yanaşı, cəmiyyət üzvlərinin bu istiqamətdə baxışının dəyişməsinə ehtiyac vardır.

**Açar sözlər:** *cinayət, cəza, icma, reabilitasiya, tədqiqat.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Cullen. FT. Jonson. Rehabilitation and treatment programs. Oxford: Oxford University Press, 2011, 454 p.*

*2. Farrall S. Social capital and offender reintegration: Making probation desistance focused. UK: Willan Publishing, 2004, 320 p.*

*3. Meredith R., Bruce J. Community Participation in Restorative Justice: Rituals, Reintegration. London, 2016, 501 p.*

*4. Reid S.T. The Correctional System. An Introduction. New York: Thomson Learning, 1981, 560 p.*

*5. Data protection and the use of criminal offence data for employment and education purposes // https://www.nacro.org.uk/wp-content/uploads/2018/08/Nacro-briefing-Data-protection-and-the-use-of-criminal-offence-data.pdf*

*6. Designing Rehabilitation and Reintegration Programmes for Violent Extremist Offenders: A Realist Approach // https://www.icct.nl/download/file/ICCT-Veldhuis-Designing-Rehabilitation-Reintegration-Programmes-March-2012.pdf*

*7. Reintegration Among High-Profile Ex-Offenders // https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC6390714/*

*8. The process of offender reintegration: Perceptions of what helps prisoners reenter society // https://www.researchgate.net/publication/258130769_The_process_of_offender_reintegration_Perceptions_of_what_helps_prisoners_reenter_society*

### Роль участия сообщества в социальной адаптации лиц, освобожденных от мест лишения свободы

### РЕЗЮМЕ

Основная цель статьи - выявление трудностей в процессе реабилитации лиц, освобожденных из мест лишения свободы, путем определения влияния факторов окружающей среды. Люди, осужденные за различные правонарушения, иногда подвергаются дискриминации в обществе, поэтому в некоторых случаях они не могут адаптироваться в обществе, а иногда они совершают повторные преступления. А это представляет большую угрозу для человека и общества в целом. Хотя правовые документы предусматривают ряд мер по социальной адаптации лиц, освобожденных из мест лишения свободы, особенно для трудоустройства, но на практике такие случаи редки. Так как, люди часто боятся оказаться в одной среде с бывшими заключенными.

В Азербайджане законодательство также содержит положения о реабилитации и социальной адаптации лиц, освобожденных из мест лишения свободы. Кроме этого закон регулирует участие и трудоустройство таких лиц на курсах профессионального обучения (в том числе путем определения квот рабочих мест). Параллельно в этой сфере реализуются ряд государственных программ и проектов. Однако отсутствие исследований, направленных на выявление факторов, препятствующих социальной адаптации бывших осужденных, делает необходимым исследовать проблему.

В статье изучается влияние социальной среды на социальную адаптацию освобожденных из мест лишения свободы, основные причины негативного отношения людей к осужденным посредством социологических исследований. Методом сравнительного анализа сопоставлены различия в подходах респондентов под влиянием демографических факторов. Исследование

показало, что, хотя люди подчеркивают важность реинтеграции людей, вышедших из тюрьмы, но у них нет позитивного отношения находиться с ними в одной среде. В результате исследования также выяснилось, что молодые люди более толерантны относительно этого вопроса. Это означает, что создана среда, позволяющая осужденным адаптироваться в обществе.

В целом решение проблемы требует тщательного изучения сложившейся ситуации и устранения ее причин. А это возможно сделать за счет реализации комплексных мероприятий.

**Ключевые слова:** *преступление, наказание, сообщество, реабилитация, исследование.*

**Role of community participation on the social adaptation of ex-offenders**

**SUMMARY**

The main purpose of writing this article is to identify the difficulties related to the rehabilitation of people released from prison. In doing so, the article focuses primarily on the impact of environmental factors. People who have been convicted of various offenses are regularly discriminated against in society, making their adaptations to society impossible. Furthermore, ordinary individuals are often afraid to reside or be present in the same environment as ex-convicts. In fact, those struggling with adaptation might start following their bad habits again. A failed adaptation, thus, poses a great threat to the individual and society as a whole. Although legal documents provide a number of measures for the social adaptation of the people released from prison, especially for employment, their implementation is patchy and ineffective in many cases.

The legislation also contains provisions on the rehabilitation and social adaptation of ex-convicts in Azerbaijan. Moreover, the law also regulates the engagement and employment of such persons in vocational training courses (i.e. via job quota). In parallel, a number of state programs and projects are being implemented in this area. However, the lack of research aimed at identifying factors that hinder the social adaptation of ex-convicts makes it necessary to investigate the problem.

The article examines a) the effect of social environment on the social adaptation of people released from prisons and b) the main reasons behind the negative public attitude of towards convicts. Using the inferential analysis, the influence of demographic factors on respondents' answers will be explored. Although majority of the sample confirms the importance of reintegrating people released from prisons, they have concerns about sharing the same environment with them. Furthermore, this study found that young people are more tolerant. This means that a conducive environment must be arranged that would allow ex-convicts to adapt to society.

In conclusion, the solution of the problem requires a thorough study of the current situation and the alleviation of its causes. This could be done through the implementation of complex measures.

**Key words:** *crime, punishment, community, rehabilitation, research.*

УДК 316

# СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ ТЕОРЕТИЧЕСКИХ ВОЗЗРЕНИЙ И КОНЦЕПЦИЙ ЖУРНАЛИСТИКИ НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА И ЗАРУБЕЖНЫХ СТРАН

**ЭЛЬЧИН САРДАРОВ**
*Диссертант,*
*Института Философии и*
*Социологии НАН Азербайджана*

В современном мире журналистика – это одна из самых важных и близких обществу сфер, благодаря которой представители общества получают информацию, просвещаются, развивают общественный диалог и улучшают мир к лучшему. Журналистика в условиях развития новых технологий берет на себя функции распространения массовой информации, представляющей важность с социально-правовой, культурно-просветительской, экологической точки зрения, а также с позиций безопасности человека и устойчивого развития общества.

В процессе пользования обществом журналистской продукцией в виде газетных или электронных статей и аналитических обзоров, теле- и радиопередач, live журналов, авторских блогов и просветительских вебинаров сложились определенные тенденции, когда обе стороны действуют во благо развития индивидумов и в целом общества. Их взаимоотношения, во многом основываются на конкретных теориях и воззрениях в журналистике, которые определяют миссии, задачи, формы и деятельность информационных средств.

В Азербайджане развитие журналистики и теоретической мысли имеет исторические корни и традиции. Отечественная журналистика и сегодня руководствуется основами и принципами, заложенными журналистом-просветителем Гасанбеком Зардаби в издаваемой им газете «Екинчи» («Пахарь»). Его воззрения о том, что журналист должен писать о проблемах беспокоящих людей на понятном простому народу языке, посредством переписки вступать с читателем в дискуссию, информировать читателей о судьбе публикаций, поднятых на страницах газет вопросов, быть объективным, совестливым и неподкупным передавались от поколений к поколениям журналистов, ими руководствовались братья Джалал и Саид Унсизаде в издании газеты «Кяшгюл», журнала «Зека», основоположник первой ежедневной газеты «Шерги-рус» Мухаммед ага Шахтахтинский, издатель газеты «Хаят» («Жизнь») Али бек Гусейнзаде, издатель газеты «Гуммет» Мамед Эмин Расулзаде, редактор газеты «Азербайджан» Узеир Гаджибеков, основоположник сатирической прессы Джалил Мамедкулизаде, журналисты газеты «Ачыг сез» («Открытое слово»).

Существует много концепций в журналистике со своими теоретическими обоснованиями и требованиями, которые по-разному рассматривают конкретный результат журналистской работы – медиа продукт. Но их объединяет то, что эти теории хоть и по-разному, но пытаются научно определить и выработать правила профессиональной и эффективной взаимосвязи между журналистами и обществом. И такие вопросы, как адресность журналистики, кому журналистика должна служить и как, правовая защита журналиста, отстаивающего интересы общества, а также масштабы,

динамика и содержание информационного обмена в современном мире являются актуальными для теоретиков и концептуалистов в области развития журналистики.

В этой связи уместно было бы отметить, что Общенациональный лидер Азербайджана Гейдар Алиев придавал большое значение печати и развитию профессиональной журналистики, оказывал ей всестороннюю поддержку. Так, великий политик в период своего руководства страной отмечал, что в «стране соблюдаются принципы политического плюрализма. Обеспечение свободы слова, мысли и убеждения, создание необходимых условий для всестороннего развития средств массовой информации, их свободная деятельности являются самыми важными задачами, стоящими передо мною, как руководителя Азербайджанского государства. Радио и журналистика влияют на людей, помогают в их совершенствовании, духовному развитию, открывают им мир, объединяют их со всем миром» [1,с.27].

И нынешний Президент Азербайджана Ильхам Алиев, продолжая данный курс, всецело содействует развитию политических институтов, независимой и демократической прессы. «Основная цель политики государственного службы - создание эффективного ответственного и демократического управления, усиление гибкости и прозрачности в деятельности государственных органов, еще более полноценное обеспечение заботой и потребностей граждан [2, с.77-78]. Руководствуясь этим государственные органы выстраивают свои отношения с общественностью, СМИ, посредством которых доводиться до общества оперативная и достоверная информация о реализуемых государственных программах, продвигаются просветительские - гуманистические идеи в общество [Там же, с .77-78]

По мнению одного из теоретиков - журналиста Ширмаммеда Гусейнова, одним из самых знаменательных периодов национальной прессы является период восстановления независимой государственности, представление страны мировому сообществу. В период, когда страна сдавала свой экзамен на государственность одними из тех, которые взяли на свои плечи тяжесть восстановления государственности была национальная пресса и идейные журналисты. В этот период журналистика начала с достоинством выполнять свою функцию четвертой власти [3].

Сегодня национальная и зарубежная журналистика, как теоретически, так и практически, используя человеческий потенциал и технологический прогресс выполняет благородную миссию по информированию и просвещению общества, формированию у людей гражданской позиции, развитию общественного диалога и продвижению в обществе гуманитарно-правовых и демократических инициатив, направленных на улучшение благосостояния людей. Следует отметить, что развитие в демократических условиях коммуникационных технологий, социальных медиа, повышает необходимость в научно-теоретическом осмыслении роли и функций журналистики в контексте с развитием глобальной информационной системы.

Проблемам доступа общества к информации, правам человека и свобод граждан, прав журналистов, развития общественного диалога, прозрачности в обществе и роли СМИ и гражданского общества в ее обеспечении большое место уделяют международные и национальные организации на форумах и семинарах.

Если раньше в странах ближнего зарубежья журналистика исследовалась, как один из инструментов социального управления, политической активности граждан, то позднее стало изучаться влияние СМИ на процедуру подготовки и принятия решений, их реализации на практике.

Исследуя зарубежные теории в сфере журналистики необходимо отметить роль теории социальной ответственности, выдвинутую У.Э. Хокингом. В теории, подготовленной на основе доклада Комиссии, опубликованной в 1947 году под названием «Свободная и ответственная печать. Общий доклад о массовой коммуникации: газеты, радио, кино, журналы и книги» и его выводов, опираясь на кодексы этики журналистов и практику прессы на первый план выдвигается профессиональная этика.

Следует отметить, что в эти «Четыре теории прессы» входят авторитарная концепция, либертарианская теория, теория социальной ответственности печати, советская коммунистическая теория. Во всех теориях решение проблемы ответственности журналистов рассматривается в контексте с социальными и политическими структурами, в рамках которых функционировали медиа структуры. [4,С. 9–10] Русский ученый Я.Н.Засурский в предисловии к русскому изданию книги «Четыре теории прессы» выдвинул пять подходов к критике прессы и к постановке проблемы ответственности. Это - ответственность перед обществом, перед гражданами; ответственность перед государством, которая предполагает разную степень контроля со стороны государства; ответственность перед издателем, перед владельцем, а это право владельца руководить средствами массовой информации в своих экономических, политических или иных интересах; ответственность перед профессией, перед коллегами открывает путь к саморегулированию средств массовой информации журналистами; ответственность перед аудиторией – читателями, зрителями, слушателями. [4,стр.9]

Американский исследователь М.Дефлер предложил «теорию индивидуальных различий» [9], которая исходила из того, что любое сообщение вызывает поток впечатлений и мнений. Отсюда возникала чисто практическая задача: привести этот поток в такую систему, которая была бы способна повысить эффективность воздействия на аудиторию. Именно с этих позиций впоследствии подошел к проблемам информационного воздействия видный американский социопсихолог Гарольд Лассуэлл. Его по праву считают одним из основателей современной теории массовой коммуникации. [9]

Г. Лассуэлл считал особенно важным рассмотрение так называемого «реального», «практического», «массового» сознания. В этом и состоит отличие теории массовой коммуникации от европейской «социологии знания». Как отмечал Р. Мертон, «если европеец анализирует идеологию политических движений, то американец исследует мнения избирателей и тех, кто не принимает участия в голосовании». [5,с. 442]

В книге «Власть информации» французский исследователь прессы Жан-Луи Серван-Шрайбер указывает, что создание технической базы современных СМИ и «крушение авторитарных королевств и империй ввело повсюду в моду – если не в силу – свободу самовыражения. [6,с. 23] Таким образом, назрела, наконец, вся совокупность материальных и политических условий для взрыва в области информации и произошел переворот в образе мыслей и действий людей». [6, с. 23]

Конечно же, сложно, в условиях демократии и рыночной экономики владельцам СМИ выполнять все пять подходов, однако ответственный подход к управлению и выстраивание правильной и эффективной коммуникационной политики печатного или электронного органа в отношении с представителями общества и государства способствует повышению доверия общества к такому важному социальному институту, как СМИ.

В своих работах «Элитарная пресса» и «Беседы о масс медиа» специалист по медиа Дж. Мэррил указывает на важность содержания качественных изданий, как на одну из главных характеристик. Эти издания представляются Мэррилу более ответственными за сегодняшние действия и события, а также будущие их последствия. Они имеют возможность предвидеть и предсказывать благодаря своей заинтересованности и информированности. [ 7,с. 22]

Благодаря развитию теории информации и усовершенствованию ее методов результаты исследований стали применяться в исследованиях общественных процессов. Получение современных знаний об обществе, выявление специфики проявления информации, контроля и обратной связи в общественных системах во многом стало возможным благодаря теоретико-информационному подходу в науке.

Внешнеполитическая направленность СМИ любой страны проявляется в пропагандистской деятельности государства, общественных организаций (включая политические партии),

коммерческих фирм и частных лиц. Зарубежные концепции современной журналистики призваны служить практике в журналистике. Сама практика берет многое у теории, как объединенного идейного и концептуального опыта. Постоянное взаимовлияние теории и практики ведет к повышению влияния масс медиа на читателей, слушателей и зрителей. Изучая различные аспекты развития журналистики, новой медиа необходимо отметить важность профессионального и личностного развития журналистов, обеспечивающих качественную и эффективную работу СМИ.

Привлекательные источники – это те, которые сходны с реципиентом демографически и (или) идеологически. Они также являются приятными и знакомыми. Ключевым фактором того, чтобы источник стал симпатичен аудитории, является психологическое подкрепление. Людям нравятся вознаграждающие их позитивными эмоциями коммуникаторы. Под вознаграждением в данном контексте имеется в виду понижение уровня тревожности, снятие стресса, редукция чувства одиночества и опасности. Другой компонент вознаграждения – позитивный, реализуется за счет обеспечения реципиентов чувством социальной поддержки и одобрения со стороны других людей.

Хотелось бы отметить, что при всей многофункциональности журналистики ей предстоит приложить максимум усилий, чтобы оставаться независимой, объективной и прогрессивной в информировании и просвещении общества, ответственной за продвижение социальных вопросов граждан, осуществление общественного контроля за осуществлением общественных и государственных программ, а также гибкой в использовании передовых технологий по обеспечению оперативности и адресности в доведении гуманистических позывов и развитии общественного диалога во благо мира и развития.

**Ключевые слова:** *журналистика, теория, функции, гражданская журналистика, конвергентная журналистика, осведомленность общественности.*

## СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

*1. Алиев, Г. Дорога независимости. Избранные мысли.Баку: Азербайджанский университет, -1997, - 136 с.*

*2. Алиев, И. Наша цель – развитие: [18-я книга]/ Баку:Азернешр, 2006, 424 с.*

*3. Milli mətbuat haqqında. www.hafta.az/index2.php?m=yazi&id=159474*

*4. Сиберт Ф. Четыре теории прессы/ Ф.Сиберт. Шрамм У., Питерсон. - М. Национальный институт прессы: ВАГРИУС, - 1998. - 223 с.*

*5. Мертон Р. Социальная теория и социальная структура / Р.Мертон. Пер. с англ.Егоровой Е., и др.; М.: АСТ, Хранитель, - 2006. - 873 с.*

*6. Кашлев Ю. Массовая информация и международные отношения/Ю.Кашлев. М.: Беларусский Государственный Университет, -1981.- 256 с.*

*7. Marrill J. /J.Marrill – N.Y.: 1968. The Elite Press.- 336 p.*

**Elçin Sərdarov**

**Azərbaycanın və xarici ölkələrin nümunəsində jurnalistikanın nəzəri baxışlarının və konsepsiyalarının sosial-fəlsəfi təhlili**

**XÜLASƏ**

Məqalədə Azərbaycanın və xarici ölkələrin nümunəsində jurnalistikanın nəzəri baxışların inkişafının tarixi kökləri və ənənələri, yeni konsepsiyaların sosial-fəlsəfi təhlili aparılır. Həmçinin yeni texnologiyaların inkişafı kontekstində jurnalistikanın sosial-hüquqi, mədəni-maarifçi, ekoloji, eyni zamanda insan təhlükəsizliyi və cəmiyyətin davamlı inkişaf nöqteyi-nəzərindən vacib olan kütləvi məlumatların yayılması funksiyaları nəzərdən keçirilir.

Elmi yazıda ictimai həyatın humanistləşməsi problemlərinin sosial-fəlsəfi dərkindən, qloballaşma prosesində insana və ətraf mühitə humanist münasibətdən və siyasi idaəretmə institutların humanistləşməsində sosial jurnalistikasının, vətəndaş jurnalistikasının, konvergent jurnalistikasının funksiyalarından, jurnalistikanın çoxfunksiyallığından, yeni bacarıqlara sahib jurnalistlər yetişdirmək üçün media mühitinin yaxşılaşdırılmasının vacibliyindən, cəmiyyətin məlumatlandırılması və maarifləndirilməsində

müstəqil, obyektiv və mütərəqqi, vətəndaşların sosial məsələlərinin təşviqindən məsul, ictimai və dövlət proqramlarının icrasına ictimai nəzarəti həyata keçirmək üçün səy göstərməli olacaq səmərəliliyi və hədəfi təmin etmək üçün qabaqcıl texnologiyalardan istifadə edərək, humanist impulsların çatdırılmasında və sülh və inkişafın xeyrinə ictimai dialoqun inkişaf etdirilməsi haqqında söhbət edilir.

**Açar sözlər:** *jurnalistika, nəzəriyyə, funksiyalar, vətəndaş jurnalistikası, konvergent jurnalistikası, cəmiyyətin məlumatlandırılması.*

**Elchin Sardarov**

**Socio-philosophical analysis of theoretical views and concepts of journalism on the example of Azerbaijan and foreign countries**

**SUMMARY**

The article examines the historical roots and traditions of the development of theoretical views of journalism on the example of Azerbaijan and foreign countries, the socio-philosophical analysis of new concepts. Also in the context of the development of new technologies, the functions of journalism in the field of social and legal, cultural and educational, environmental, as well as the dissemination of information important for human security and sustainable development of society are considered.

The scientific article focuses on the socio-philosophical understanding of the problems of humanization of public life, the humanistic attitude towards man and the environment in the process of globalization and the functions of social journalism, citizen journalism, convergent journalism, multifunctionality of journalism, training media workers with new skills, independent, objective and progressive in education, responsible for promoting the social problems of citizens, talks about the goals and objectives of journalism on the implementation of effective public control over the implementation of public and state programs, the promotion of humanistic impulses and the development of public dialogue for peace and development using advanced technologies.

**Keywords:** *journalism, theory, functions, citizen journalism, convergent journalism, public awareness*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

ELDAR ƏMİROV: YƏMƏNDƏ VƏTƏNDAŞ MÜHARİBƏSİ: İRAN AMİLİNİN TƏSİRİ... 5

TƏRLAN ORUCOVA: QƏRBİ AVROPADA MULTİKULTURALİZM VƏ İSLAMOFOBİYANIN QARŞILIQLI ƏLAQƏSİ........ 11

ZÜRİYƏ QARAYEVA: TÜRKİYƏDƏ İDARƏÇİLİK SİSTEMİ DƏYİŞİKLİYİNİN XARİCİ SİYASƏTƏ TƏSİRİ........ 17

XƏTAİ SALMANOV: SOSİAL NƏZARƏT........ 20

## TARİX

NİGAR ABBASZADƏ: AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ MİLLİ MƏDƏNİ DƏYƏRLƏRİN QORUNMASI VƏ İNKİŞAFININ ROLU........ 24

SABİR KƏRİMOV: HEYDƏR ƏLİYEV VƏ AZƏRBBAYCAN XƏZƏR DƏNİZ NEFTÇİXARMA SƏNAYE SAHƏSİNİN MODERNLƏŞMƏSİ (XX ƏSRİN 70-80-Cİ İLLƏRİ)........ 30

HİKMƏT ABDULLAYEV: I ŞAH ABBASIN HAKİMİYYƏTİ İLLƏRİNDƏ SƏFƏVİ DÖVLƏTİNİN BÖYÜK MOĞOL İMPERİYASI İLƏ MÜNASİBƏTLƏRİNƏ DAİR........ 36

AYŞƏ NƏRİMANOVA: TURUKKULARIN AŞŞUR EKSPANSİYASINA QARŞI MÜBARİZƏSİ TARİXİNDƏN........ 40

ARZU MƏMMƏDOVA: SACİLƏR SÜLALƏSİ VƏ BANİSİ ƏBUS-SAC DİVDAD İBN YUSİF........ 45

ASİM CƏNNƏTOV: TÜRKİYƏ İCTİMAİ FİKRİNDƏ İRANDA TÜRK KİMLİYİ VƏ İRANLI KİMLİYİ MƏSƏLƏSİ........ 50

NURAY ABBASOVA: QARAQOYUNLU-TEYMURİ MÜNASİBƏTLƏRİ ƏBUBƏKR TEHRANİNİN “KİTABİ-DİYARBƏKRİYYƏ” ƏSƏRİNDƏ........ 56

SEVİNC QULUZADƏ: İRƏVAN XANLIĞININ TARİXİ COĞRAFİYASI........ 62

## İQTİSADİYYAT

ARZU ASLANOVA: KORPORATİV İDARƏETMƏNİN BEYNƏLXALQ TƏCRÜBƏSİ........ 67

AYTAC SƏFİYEVA: AZƏRBAYCANIN BANK SİSTEMİNDƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ............................................ 72

TÖRƏ ƏLİYEVA: "AZƏRBAYCAN RESPUBLIKASINDA MÜASİR İDARƏETMƏ METODLARININ TƏTBİQİ İLƏ DÖVLƏT QULLUQÇULARININ PEŞƏKARLIĞININ İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI"................................................ 78

AYTAC BABAYEVA: ELEKTRON BƏLƏDİYYƏNİN DÜNYA ÖLKƏLƏRİNDƏ TƏTBİQİ........................................................................ 86

SEVİNC ORUCOVA: TÜRKİYƏ VƏ AZƏRBAYCANDA BƏLƏDİYYƏ İDARƏETMƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ............................................ 91

ELGİZ SEYİDOV: VERGİ SİSTEMİNİN MAKRO SƏVİYYƏDƏ SOSİAL-İQTİSADİ PROSESLƏRƏ TƏSİR MEXANİZMİ.................................................. 95

ŞƏHRİYAR ŞAHKƏRƏMLİ: İŞÇİLƏRİN FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ METODİKİ YANAŞMALAR............................................. 101

ÜRFANƏ MƏMMƏDOVA: BÜDCƏLƏŞDİRMƏ PROSESİ............................................... 110

KAMRAN QULİYEV: MÜƏSSİSƏLƏRDƏ TƏŞKİLATİ İDARƏETMƏ.......................... 114

## FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

MÜSLÜM NƏZƏROV: MÜASİR CƏMİYYƏTİN İNTELLEKTUAL İNKİŞAFINDA TƏHSİL FƏLSƏFƏSİNİN ROLU......................................................................... 119

GÜLAĞA İSMAYILOV: HÜSEYN BİN MƏSUD BİN MUHƏMMƏD ƏL-BAĞAVİNİN YARADICILIĞI............................................................... 124

TUTU EYVAZOVA: MƏŞĞULLUQ SOSİAL TƏHLÜKƏSİZLİYİN MÜHÜM AMİLİ KİMİ.............................................................................................. 128

AYŞƏM BALAYEVA: CƏZA ÇƏKMƏKDƏN AZAD OLUNMUŞ ŞƏXSLƏRİN SOSİAL ADAPTASİYASINDA İCMA İŞTİRAKÇILIĞININ ROLU................................ 133

ЭЛЬЧИН САРДАРОВ: СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ ТЕОРЕТИЧЕСКИХ ВОЗЗРЕНИЙ И КОНЦЕПЦИЙ ЖУРНАЛИСТИКИ НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА И ЗАРУБЕЖНЫХ СТРАН.............................................. 140

**Təsisiçi:**
**"Kaspi MY" MMC**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 300**
**Sifariş №64**

**"Elm və təhsil" nəşriyyat-poliqrafiya**
**müəssisəsində çap olunub**

**Founder:**
**“Kaspi PD” MMC**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Iman Huseynov**

**Address of the editorial office:**
**Matbuat ave. 23M. International Press Centre**

**Tel: (+994 12) 537 16 05**
**Fax: (+994 12) 537 16 05**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 300**
**Order №64**

**Published by**
**“Science and Education” publishing house**